
QİYAMLAR
إن الحسين مصباح الهدى وسفينة النجاة
Seyyid Məhəmməd Həsən
Musəvi Kaşani

**Seyyid Məhəmməd Həsən Musəvi Kaşani**

# Aşura faciəsindən sonra baş verən

# QİYAMLAR

| | |
|---|---|
| **Kitabın adı:** | Aşura faciəsindən sonra baş verən qiyamlar |
| **Müəlif:** | Seyyid Məhəmməd Həsən Musəvi Kaşani |
| **Mürtəcim:** | Seyyid Zahir İbişov, Qahir Dadaşlı |
| **Nəşr edən:** | Əndişeyi Hadi |
| **Çap növbəsi:** | Birinci |
| **Çap tarixi:** | 2005 |
| **Tiraj:** | 3000 |
| **İNBN** | 964-95638-5-7 |

بسم الله الرحمن الرحيم

# I HİSSƏ

## İMAM HÜSEYNİN (Ə) VƏSİYYƏTİ

İmam Huseyn (ə) Hicazdan Kufəyə tərəf hərəkət etməzdən əvvəl öz vəsiyyətnaməsini və məktublarını Peyğəmbəri-Əkrəm (s)-in həyat yoldaşı Ümmü Sələmənin yanında əmanət qoydu, qayıtmayacağı təqdirdə onların böyük oğluna çatdırmasına icazə verdi. İmam Zeynalabdin (ə) İmam Hüseyn (ə)-ın sağ qalan yeganə övladı idi. Və İmam Hüseyn (ə) qətlə yetiriləndən sonra Ümmü Sələmə vəsiyyətnaməni ona verdi. Bu işlə də Həzrətin canişini aşkar şəkildə təyin olundu. Bundan əlavə İmam Hüseyn (ə) Aşura gecəsində öz oğlu İmam Səccad (ə)-ın öz canişini kimi tanıtdıraraq imamətin bütün əmanətlərini ona tapşırmışdı. Düşmənlərin İmam Səccad (ə)-ı qətlə yetirmək fikrinə düşməmələri üçün İmam Hüseyn (ə) bacısı Həzrət Zeynəb (s.ə)-ya vəsiyyət etdi ki, İmam Səccad (ə)-ın imamət məsələsi gizli saxlanılsın.[1]

İmam Səccad (ə) İmam Hüseyn (ə)-ın yeganə oğlu idi ki, Aşurə günündə xəstə olduğuna görə döyüşlərdə iştirak edə bilmədi. (Həzrətin o zaman 23 yaşı var idi.)

## İMAM SƏCCADIN (Ə) DÖVRANI

Kərbəla hadisəsi və İmam Hüseyn (ə)-ın şəhadəti o dövrün müsəlmanlarını sarsıtdı. Müsəlmanların bu hadisələrə qarşı göstərdikləri reaksiya Hicazda başqa məntəqələrdən daha gərgin idi.

---

[1] «Kəmalüd-din» səh. 257.

66-75-ci hicri illəri Hicaz, İraq və Şam şəhərləri üçün qəmqüssəli: həm həyacanlı, həm də irticanın hücuma keçdiyi illər idi. Bütün bu on il müddətində bu əyalətlər sabitlik üzü görmədilər.

Qeyd etmək lazımdır ki, Peyğəmbər (s)-in övladının qarğışı bu vilayətlərin əhalisinin yaxasını da tutdu. İmam Hüseyn (ə) onların barəsində belə qarğış etmişdi:

«Pərvərdigara! Göyün yağışını və yer üzünün bərəkətini onlardan götür! Onların birliyini dağıt və heç zaman hökümətləri onlardan razı etmə».[1]

İmam Səccad (ə)-ın yasadığı dovrü ən agır və acınacaqlı dövrlərdən biri hesab etmək olar.

Əmirəl-möminin Əli (ə)-ın dövründə baş verən bütün bəlalar və çəkişmələr o Həzrətin dövründə də eynilə təkrar olmuşdu. O Həzrət Əli (ə)-ın şəhadətindən 3 il öncə doğulmuşdu. O dünyaya göz açan zaman cəddi Əmirəl-mominin (ə) başı Cəməl döyüşünə qarışmış idi. Onlar sonra isə İmam Həsən (ə) çox ağır və həyəcanlı dövründə yaşamışdır.

Xalqın islam mədəniyyətindən uzaq düşməsi İmam Səccad (ə)-ın və başqa imamlarin əsas problemlərindən biri olmuşdu. Belə ki İmam Sadiq (ə) bu barədə buyurmuşdur:

Bəni-Üməyyə insanları iman və əqidə öyrənməkdə azad qoydular lakin şirkin mənasının öyrənilməsi yollarının qarşısını aldılar ki, heç kim şirkin həqiqi mənasını öyrənə bilməsin və xalqı şirkə və küfrə sürüklədikləri zaman heç kim bunun küfr və şirk olmasını bilməsin (və bu barədə bir söz deməsin)».[2]

Camaat islamın zəngin mədəniyyətindən uzaq idilər. Buna görə də yalançı və saxtakar əməvi hakimləri zahirdə özlərini

[1] «Tarixi-Təbəri».
[2] «Miratul-üqul» cild 2, səh. 399.

müsəlman adlandıran xalqdan istənilən qədər öz mənafeləri üçün istifadə edirdilər.

Xalqın nadanlığı üzündən məsum imamların (ə) və xüsusilə İmam Səccad (ə)-ın qarşılaşdığı acınacaqlı vəziyyət hər bir müsəlmanın vicdanına əzab verir, qəlbini yaralıyır.

Minha ibn Əmr deyir: Əli ibn Hüseyn (ə)-ın evinə daxil olub Həzrətə ərz etdim: - Ey Rəsulullahın oğlu! Gecəni necə keçirtdin?

İmam Səccad (ə) dedi:

يُذَبِّحُونَ أَبْنَاءَكُمْ وَيَسْتَحْيُونَ نِسَاءَكُمْ

***«(Fironçular) onların oğlanlarını öldürür və qadınlarını saxlayırlar»*** [1] ayəsini oxuyaraq, Ali Fironun İsrail övladları kimi gecələdim. Allahın Rəsulu (s)-dən sonra bəşəriyyətin ikinci ən böyük şəxsiyyətinin mənbərlərdə lənətləndiyi, habelə imamları istəyənlərin (şiələrin) onlara məhəbbət bəslədiklərinə görə öz huquqlarından məhrum edildikləri bir halda sübhə çıxdım».[2]

İmam Hüseyn (ə)-ın şəhadətindən dərhal sonra İmam Səccad (ə)-ın imamət dövrü başlanır. Biz «İmam Həsən (ə) və İmam Hüseyn (ə)-ın başına nələr qəldi» kitabında İmam Hüseyn (ə)-ın şəhadətidən sonra İmam Səccad (ə)-ın Küfə, Şam və Mədinə şəhərlərində etdiyi çıxış, söylədiyi xütbə və sair fəaliyyətlərini qeyd etmişik.

İmam Səccadı (ə)-ın həyatnda Kərbala hadisəsinin unudulmayan kədərli xatirələri dərin iz qoymuşdur. Çünki Həzrətin özü Kərbalada baş verən bütün ağır cinayətlərin şahidi

---

[1] «Bəqərə» surəsi, ayə 49.
[2] «Məcməul-bəyan» təfsiri cild 3, səh. 424.

olmuşdu. O günləri xatırlayarkən həmişə gözlərindən yaş axmağa başlayırdı. İmam Sadiq (ə) bu bairədə buyurur:

«Həzrət İmam Zeynəlabidin (ə) qanlı Kərbala hadisəsindən sonra 29 il ağladı. O Həzrət üçün yemək gətiriləndən sonra həmişə gözlərindən yaş axmağa başlayırdı».

Nəhayət Həzrətin yaxın dostlarından biri ərz etdi:

- Ey Rəsulallahın oğlu! Mən sizin həlak olacağınızdan qorxuram!

Həzrət cavab verdi: «Mən qəm-qüssə və əziyyətimi öz Allahıma deyirəm. Allah tərəfindən elə şeylər bilirəm ki, sizlər onu bilmirsiniz. Hər zaman Fatimə övladlarının qətl səhnəsi düşərsə qəhər məni boğur».[1]

Həzrət Əli ibn Hüseyn (ə)-a dedilər:

- Sizin qəm qüssənizin sona yetməsi zamanı çatmamışdırmı?

Həzrət əsəbiləşərək buyurdu: «Siz nə deyirsiz?! Yəqub Peyğəmbərin 12 övladı vardı. Allah onlardan birini onun gözündən gizlətdi. Övladı diri olduğu halda o qədər ağladı ki, gözlərinin ağı qarasına qarışdı və qəm-qüssədən belə əyildi. Amma mənim gözlərim önündə atam, qardaşım, əmim və qohum-əqrabamdan əlavə 17 nəfər şəhid oldular. Belə bir halda mənim qəm-qüssəm və kədərim azalarmı.[2]

İmam Səccad gecə-gündüz «Seyyidüş-şəbabi əhli cənnət» (Behişt cavanlarının ağası) üçün ağlayırdı. Həzrətdən gözlərinə dəyməməsi üçün az ağlamasını xahiş edirdilər, İmam isə onların cavabında belə buyururdu:

---

[1] «Mənaqib» (İbn Şəhr Aşub)
[2] «Mənaqib» (İbn Şəhr Aşub)

- Bibilərimin və bacılarımın Aşura gününün axşamı bu xeymədən o xeyməyə qacdıqları yadıma düşəndə necə ağlamayım.

Görəsən Həzrət Səccad (ə)-ın ah-naləsi adi bir insanın böyük bir hədəfi olmadan dərindən kədərlənməsi, ağlaması kimi idimi?! Yoxsa o Həzrət Kərbala hadisəsinin xatirəsini əbədi yaşatmaq və İmam Hüseyn (ə)-ın nə üçün şəhid olduğunu xalqın yadından çıxmamasını istəyirdi?!

## İMAM SƏCCADIN (Ə) YAŞADIĞI DÖVR

İmam Sadıq (ə) buyurur: Məkkə yolunda İbad Bəsri [1] Həzrəti İmam Səccad (ə)-la rastlaşdı və Həzrətə:

- Ey Əli ibn Hüseyn, canını cihad və onun çətinliyindən qurtarmısan, - dedi, - rahat olduğu üçün həccə getməyi səcmisən, halbuki Allah buyurur:

إِنَّ اللَّهَ اشْتَرَىٰ مِنَ الْمُؤْمِنِينَ أَنْفُسَهُمْ وَأَمْوَالَهُمْ بِأَنَّ لَهُمُ الْجَنَّةَ ۚ يُقَاتِلُونَ فِي سَبِيلِ الله

***«Allah möminlərin can və malını cənnət müqabilində almışdır. Onlar Allah yolunda döyüşürlər».*** [2]

İmam Səccad (ə) Əbadə buyurdu: Ayəni axıra qədər oxu!

Həzrət özü ayənin ardını oxudu:

التَّائِبُونَ الْعَابِدُونَ الْحَامِدُونَ السَّائِحُونَ الرَّاكِعُونَ السَّاجِدُونَ الْآمِرُونَ بِالْمَعْرُوفِ وَالنَّاهُونَ عَنِ الْمُنْكَرِ وَالْحَافِظُونَ لِحُدُودِ اللَّهِ ۗ وَبَشِّرِ الْمُؤْمِنِينَ

---

[1] Əbadi Bəsri sünnü alimlərindəndir. O, xalq arasında böyük nüfuza malik idi.

[2] «Tövbə» surəsi, ayə 111.

***«(Onlar) Allaha tövbə, ibadət və şükr-səna edənlər, oruc tutanlar, ruku və səcdə edənlər, yaxşı işləri görməyi əmr edib pis işlərdən çəkindirənlərdir. Belə mömənləri mujdələ».***[1]

Daha sonra Əbadə buyurdu: Bu xüsusiyyətlərə malik olan bir şəxsi görsən mənə xəbər ver, mən də onun bayrağı altında cihad edim.

«Əgər bu cür adamlara rast gəlcək onlarla birlikdə cihad etmək həccəd daha üstün olar».[2]

İmam Səccad (ə) irticanın hökm sürdüyü bir şəraitdə yaşayırdı. O, Şamin hökümət məmurlarının ciddi nəzarəti altında idi. Digər tərəfdən isə Əli (ə)-ın və onun övladlarının adını hörmətlə yad edilməsinə mane olurdular. Onlar bu məsələni olduqca ciddi şəkildə icra edirdilər. Buna görə də camaat bu işə müttəhim olmasın deyə onların gözlərindən uzaqlaşmağa çalışırdılar. İş o yerə çatmışdı ki, İmam Səccad (ə) buyurdu:

- Məkkə və Mədinədə bizi istəyən hətta 20 nəfər belə yoxdur.

## İMAM SƏCCADIN (Ə) YAŞADIĞI DÖVRÜN HAKİMLƏRİ

İmam Səccad (ə)-ın dövrünün xəlifələri aşağıdakılardan ibarətdir:

1 - Yəzid

2 - Müaviyə

3 - Mərvan

4 - Əbdul Məlik ibn Mərvan

5 - Vəlid ibn Əbdul Məlik

---

[1] «Tövbə» surəsi, ayə 112.

[2] «Vəsailuşi», «Mənaqib» (İbn Şəhr Aşub)

Biz onların barəsində müəyyən qədər söz açacağıq və bununlada o Həzrətin necə bir dövranda yaşadığı məlum olacaqdır.

Bunlardan əlavə o Həzrətin dövranında mühüm əhəmiyyətə malik olan bəzi siyasi hadisələr də baş vermişdir ki, onların barəsində bəzi mətləbləri bəyan edəcəyik. Bu hadsələrdən «Təvvabilərin qiyamı», «Muxtarın qiyamı», «Əbdullah ibn Züveyrin qiyamı» və «Əbdürrəhman ibn Əşəsin qiyamı» və s.-ni qeyd edə bilərik. Biz o hadisələri lazımi qədər təhqiq edəcəyik.

Tarixçilərin və mühəddislərin yazdığına görə İmam Səccad (ə) yaşadığı zaman və şərait olduqca həssas olmuşdur. O həzrət İmam Hüseyn (ə)-ın yeganə varisi və ondan sonra imam olduğuna görə bütün dost-düşmənin diqqətini özünə cəlb etmişdi. Kədərli və ürək ağrıdan Aşura hadisəsi Bəni-Üməyyə sülaləsinin əleyhinə kəskin siyasi fəza yaranmışdı. Onlar İmam Səccad (ə)-ın və onun şiələrinin bütün hərəkətlərini ciddi nəzarət altında saxlayırdılar. Cəsuslar və xəfiyyələr o Həzrətin hətta ən kiçik hərəkətlərini belə hökumət orqanlarına xəbər verirdilər: Habelə Həzrət (ə) Abdullah ibn Zibeyrin Hicaza hakim olduğu zamanlarda belə onun cəsuslarının gizli nəzarəti altında yaşayırdı.

İmam Səyyad (ə) Kərbəladan qayıtdıqdan sonra ömrünün axırına qədər Mədinədə yaşadı və mümkün qədər siyasi çəkişmələrdən uzaqlaşdı.

62-ci hicri ilində Mədinə əhalisi Yəzidin əleyhinə qiyam etdilər. İmam Səyyad (ə) siyasi çəkişmələr zamanı öz müstəqil mövqeyini möhkəmlətmək üçün şəhər kənarındakı mülkündə yaşamaqdan ötrü Mədinəni tərk etdi. Məhz bundan sonra Yəzidin ordusu Mədinəni fəth edib ürəkləri istədiyi cinayətləri törətdilər.

Bundan sonra isə Mədinə əhalisi məcburiyyət qarşısında qalıb zillətlə əhd bağlayaraq Yezidin qulları olduqlarını bildirdilər. Lakin İmam Səccad (ə) bu hadisədən uzaq idi.

İmam Səccad (ə) Əməvilərlə Abdullah ibn Zübeyrin arasında çəkişmələr davam etdiyi zamanda belə təqqiyə[1] edir və bu hadisələrə müdaxilə etmirdi. Bunlarla yanaşı ibn Zübeyr Həzrəti nəzarət altında saxlayırdı. İmam Hüseyn (ə)-ın şəhadəti müsəlmanların əksəriyyətinə ağır tamam oldu və o dövrün müsəlmanlarını sarsıtdı.

Camaat səhvə yol verdiklərini və o Həzrətə kömək etmədiklərini başa düşdülər. Həqiqətdə isə Kufə şiələrinin əqidələrinin zəifliyi İmam Hüseyn (ə)-ın şəhid olmasına səbəb olmuşdu.

Qeyd etmək lazımdır ki, o şəhərin yerli əhalisi imamı dəvət edərək son nəfəslərinə kimi kömək etməyə hazır olduqlarını elan etmiş və İmam Hüseyn (ə)-ın göndərdiyi nümayəndə Müslüm ibn Əqilə beyət etmişdilər. Lakin İmam Hüseyn (ə) şəhid olduqdan sonra Əməvi höküməti bütün ölkə və müsəlmanlar üzərindəki zülm və təzyiqləri gücləndirərək camaata daha artıq ruhi əzab verməyə başladı.

## MƏDİNƏ CAMAATININ QİYAMI

Məsudi bu barədə yazır: «Yezidin törətdiyi zülm, cinayət, əxlaqsızlıq və pozğunluq hər yeri bürüdükdən sonra camaat qiyam etdi.

Yezidin törətdiyi cinayətlərə qarşı Mədinədəki mühacir və ənsar daha yox həssasiyyət göstərir və etiraz edirdilər. Xüsusilə Yezidin İmam Hüseyn (ə)-ı qətlə yetirməsi hakimiyyətdə

---

[1] Öz etiqadını, məsləkini başqalarından gizlətmək. (*Tərcüməçi*)

törətdiyi əğlaqsızlıq və pozlunğuq, habelə onun aşkarda şərab içməsi camaat arasında güclü çaxnaşmaya və etiraza səbəb olmusdu».

Qəzəb etiraz və muxalifət dalqası Hicazda güçlənməkdə idi. Camaat Yəzidin Osman ibn Məhəmməd ibn Əbi Sufyan adlı valisini şəhərdən qovub çıxartdılar. Mühacir, ənsar və tabeinin başçılarının rəhbərliyi altında muxtar hökumət yaradılırdı. Bu hərakatın rəhbərlərindən biri Hənzələye Qüsəyül Məlaikənin oğlu Abdullah idi. Vəziyyət aydın olana kimi camaat müvəqqəti olaraq ona beyət etdilər və Mərvan Həkəmin evində toplanmış əməvi tör-töküntülərini Mədinədən qovub çıxartdılar.

## YEZİDİN GÖSTƏRDİYİ REAKSİYA

Bu xəbər Dəməşqə çatan kimi Yezid ən qəddar və qaniçən dostlarından biri olan Müslüm ibn Əqəbini təqribən 5 min nəfərlik böyük bir qoşunla Mədinə camaatının üsyanı yatırtmaq üçün göndərdi.

Qoşun Mədinəyə çatıb «Hurrə» adlı səhrada düşərgə saldılar. Mədinə canaatı Abdulla ibn Hənzələ və Abdulla ibn Mutinin başçılıgı ilə müdafiyəyə qalxdılar. Lakin Yezidin qosunun müqabilində məğlub oldular və qoşun şəhərə daxil oldu.

Yezidin qoşunu Mədinəyə çatdıqdan sonra başqa Bəni-Üməyyəlilər kimi Mədinədən çıxarılmış Əbdül Məlik Mərvanla məsləhətləşib Hürrə məntəqəsində düşərgə saldılar və Mərvanın köməyilə Bəni-Harisə tayfasından bir qrupunu mal-dövlət vəd etməklə aldadıb onların yaşadığı nahiyədən Mədinəyə daxil oldular. Şam qoşununun şəhərə hücumu və

onların şəhər əhalisi ilə döyüşü bir gündən az çəkdi, nəhayət Mədinə Şamlıların əlinə keçdi.

Tarixçilər belə yazırlar:

Onlar silahlı şəkildə, atla və ayaqqabılarını çıxartmadan Peyğəmbərin həráminə daxil olub Həzrətin məscidini bulaşdırdılar. Peyğəmbər (s) səhabələrinin min nəfərdən çoxunu kütləvi şəkildə qətlə yetirdilər. Habelə Bədr döyüşündə iştirak edənlərdən bir nəfər belə olsun sağ qoymadılar. Yezid öz qoşununun sərkərdəsi Müslüm ibn Əqəbəyə: - Mədinəni fəth etdikdən sonra üç gün ərzində Mədinə camaatının canı, malı və namusu sənə, habelə sənin əsgərlərinə halaldır demişdi. Onlar da istədikləri xəyanət və cinayəti törətdilər.

Qeyd olunduğu kimi Yezidin qoşununun Hürrə adlı qumlu bir səhrada düşərgə salıb, oradan Mədinəyə hücum etməsi tarixdə «Hürrə hadisəsi» adı ilə qeyd olunmuşdur.

Bəli, Yəzid elə bir şəxs idi ki, sanki tüğyançılıq və zülmkarlıqda butun natəmiz insanlardan irəli keçmişdi. Yəzid Şamda təşkil olunan məclislərdə Həzrəti Zeynəlabidin (ə)-ın qarşısında özünün küfrlə dolu olan şeirlərini oxuyarkən kafir və dinsiz olduğunu, islam və Qurana əqidəsi olmadığını hamıya anlatdı. Onun islam dinində yalnız hakimiyyət məsələsindən xoşu gəlirdi.

Lakin Yəzid öz cinayətlərinin əksinə olaraq Müslüm ibn Əqəbənin başçılığı ilə qoşunu Mədinəyə müharibəyə göndərən zaman İmam Səyyad (ə)-ın ailəsinə qarşı nalayiq hərəkət etməkdən çəkinməsini tövsiyə etmiş, əks halda fəlakətlə qarşılanacağını xatırlatmışdı.

Müslüm ibn Əqəbə Mədinəyə hücum edib Peyğəmbər (s)-in həramini öz qoşununun ixtiyarında qoydu. [1] Onlar qız-

[1] «Tarixi Təbəri» cild 7, səh. 6.

gəlinlərin namusuna təcavüz etdilər. Bu əməl nəticəsində on minlərlə uşaq dünyaya gəlmişdi.

Müsəlmanların var-dövlətləri qarət edildi, çoxlu günahsız insanın qanı isə Peyğəmbər (s)-in pak qəbrinin kənarında nahaq yerə axıdıldı.[1] Lakin bütün bu cinayətlərlə yanaşı Mədinə əhalisinin yeganə sığınacaq yeri olan İmam Səccad (ə)-ın evinə hücum etmədilər.

Həmçinin Əhli-beyt (ə)-ın kinli düşmənlərindən olan Mərvan ibn Həkəm də bu kərəm evinə pənah gətirdi. Hansı ki, o İmam Həsən (ə)-ın cənazəsinin Peyğəmbər (s)-in qəbrinin kənarında dəfn edilməsinin qarşısını almaq üçün Ayişəni bu işə təhrik etmiş və işi o yerə çatdırmışdıki, Ayişə daxili düşmənçiliyini aşkar edərək demişdi: «Sevmədiyim adamı mənim evimdə dəfn etməyin».[2] O, Yəzidin İmam Hüseyn (ə)-ın qətlə yetirilməsi münasibəti ilə qurduğu şadlıq məclisində iştirak edirdi. Yəzid xeyzəran çubuğu ilə İmam (ə)-ın qanlı dodaqlarına vuraraq onu məzəmmət etmiş və bu iki beyt şeiri oxumuşdu:

Bəh-bəh! Nə soyuq üzün vardır!
Üzün necə də külrəngli və təravətlidir!
Hüseyni öldürməklə ürəyimi sərinləşdirdim.
Əcdadımın[3] intiqamını aldım!

Mərvanın inad və ədavətlə etdiyi həyasızlıqları İmam Səccad (ə)-ın gözləri önündən çəkilməmiş, Peyğəmbər ailəsinin yadından çıxmamışdı. Buna baxmayaraq o, həyasızcasına bu hadisə baş verən zaman öz ailəsini Həzrət Zeynəlabidin (ə)-ın evinə gətirdi. Müslüm ibn Əqəbə Mədinə

---

[1] «Təzkirətül-xəvvas» Sibti ibn Cövzi, səh. 163.
[2] «Mənaqib» (İbn Şəhr Aşub) cild 2, səh. 175.
[3] Bədr müharibəsində Yezidin qohumları Əli (ə) tərəfindən qətlə yetirilmişdi.

camaatından Yezid üçün beyət almağa başladı. Bu beyəti qəbul etmək Yəzidin qulu olmaq demək idi. Hər kəs bu işdən boyun qaçırsaydı dərhal öldürülürdü

İbn Qüteybənin nəql etdiyinə görə bu hadisə ilə əlaqədar ənsar, muasir və onların ovladlarından min yeddi yüz nəfər, sair camaatdan isə on min nəfər öldürülmüşdü. «Hürrə» hadisəsi hicrətin 63-cü ilində zilhəccənin 26-da baş vermişdi.

Müslüm ibn Əqəbə Peyğəmbər (s)-in dövranında Ğətfanda əsir edilmiş və ənsarlı bir qadn onu alıb azad etmişdir. Hürrə hadisəsi zamanı isə Müslüm ibn Əqəbədən həmin hadisəyə görə güzəştə getməsini istədikdə o dedi:

«Nə olsun! Sizlər Osmanı öldürdüz».

Sonralar Əbdul Məlik Mədinə camaatına deyirdi:

«Siz bizi Hürrə hadisəsinə görə istəməyin və biz də sizi Osmanı öldürdüyünüzə görə istəməyək».[1]

---

[1] «Murucuz-zəhəb» (Məsudi) cild 3, səh. 122.

# II HİSSƏ

## İBN ZÜBEYRİN QİYAMI

Hicazda yaşayan İbn Zubeyr (Zübeyrin oğlu) baş verən bütün hadisələri izləyirdi. İmam Hüseyn (ə)-ın şəhid olduğunu eşitdikdən sonra İbn Abbas ona dedi: «Ey Zübeyrin oğlu, and olsun Allaha maneələr aradan götürülüb və yaxşı bir fürsət yaranıbdır».

İbn Zübeyr dərhal Hicazın müstəqilliyini qazanmaq üçün əməvilərin əleyhinə qiyam etdi. Camaatı qiyama qaldırmaq üçün Kərbəla hadisəsindən istifadə etdi. Lakin İmam Hüseyn (ə)-ın hərəkatı ilə İbn Zübeyrin qiyamı arasında yox böyük fərqlər var idi.

İmam Hüseyn (ə)-ın hərəkatda əsas məqsədi özünün ilahi vəzifəsinə əsasən haqqı, ədaləti bərpa etmək, əmr be məruf və nəhy əz münkəri dirçəltmək idi ki, bu vəzifə ilahi imamətlə onun öhtəsinə qoyulmuşdu və o haqq bir imam kimi Kufəlilərin dəvətini qəbul etmişdi.[1]

Lakin İbn Zübeyrin qiyamına səbəb onun daxili istəyi və hakimiyyətə çatmaq ruhiyyəsi idi.

Yezid Mədinə camaatını kütləvi şəkildə qətlə yetirilməsindən və şəhərin darmadağın edilməsindən sonra yenidən Müslüm ibn Əqəbəyə əmr etdi ki, öz qoşunu ilə Məkkəyə gəlib İbn Zübeyrin qiyamını yatırtsın.

Tarix onun törətdiyi bu ağır cinayətlərə və faciələrə görə onu Müslüm deyil, musrif və ya mücrim adlandırmışdır. Allah-

---

[1] «İmam Həsən (ə) və İmam Hüseyn (ə)-ın başına nələr gəldi» kitabına baxın.

Təala ona bu ağır cinayətlərinə görə möhlət vermədi. O, Mədinə və Məkkə arasında yerləşən Qədid adlı bir yerdə ağır xəstəliyə tutularaq cəhənnəmə vasil oldu.

Yəzid qaniçən qoşununun sərkərdəsi öldükdən sonra məhşur cinayətkarlardan Həsin ibn Numəyr adlı bir nəfəri cərkərdə seçmişdi.

O, Kərbəlada İmam Hüseyn (ə)-ın şəhid edilməsində iştirak etmişdi.

Həsin öz qoşunu ilə Məkkəyə hərəkət edərək Məkkə şəhərini mühasirəyə alıb şəhərin bütün döyüş nöqtələrində səngər qazdırdı.

Özünü müsəlmanların hakimi hesab edən Abdullah ibn Zübeyr Həsinin qoşununun qarşısında müqavimət göstərə bilməyəcəyini hiss edib özünü Məscidül-harama (Məkkə evinə) çatdıraraq Kəbəyə sığındı.

Şam qoşunu məscidi mühasirəyə alıb ətrafdakı yüksəkliklərdə özlərinə mövqe tutdular. Kəbənin hər tərəfində daş atmaq üçün mancanaq və ərradələr[1] yerləşdirildi.

Əməvi qoşunları Mədinə şəhərinin qiyamçılarının mövqeyini tez bir zamanda darmadağın etməsinə baxmayaraq Məkkədə mövqeləri darmadağın etmək olduqca çətin idi.

İbn Zübeyr Kəbəyə pənah apardıqdan sonra şəhərin darvazalarını bağlatdırdı. Hürrə müharibəsindən qaçanlar Nəcd Xəvariclərindən bir qrupu, habelə Muxtar Səqəfi İbn Zübeyrə köməyə gəldilər. Həsin ibn Numeyr İbn Zübeyr və onun köməkçilərinin tutulması üçün Məscidül-harama hücum edilməsi barədə əmr verdi.

---

[1] Əsli yunancadan, orta əsrlərdə şəhər və qalaları dağıtmaq üçün ağır daşlar atmaq üçün məxsus maşın.

Mancanaqlar vasitəsilə böyük daşlar Kəbəyə tərəf atıldı, ərradələrdən neftli parçalara bükülmüş daşlar alovlana-alovlana Kəbə evinə yağdırıldı, Kəbə viran oldu və onun ətraf binaları yandırıldı.

Bu hadisə 64-cü hicri ili, rəbiul-əvvəlin üçü şənbə günü baş vermişdir.

## YEZİDİN ÖLÜMÜ

Bu cinayətdən on bir gün sonra Yezid cəhənnəmə vasil oldu. İbn Zübeyr və tərəfdarları mühasirədə ardıcıl müqavimət göstərirdilər. Vəziyyət getdikcə gərginləşirdi. Lakin on bir gün keçdikdən sonra Yəzidin ölüm xəbəri Şam qoşununun parçalanmasına və vəziyyətin tamamilə dəyişməsinə səbəb oldu.

Həsin ibn Nüməyr İbn Zübeyrlə saziş etdi və İbn Zübeyr yenidən hakimiyyəti ələ keçirtdi.

Yəzid üç il yarım hakimiyyətdə ağır cinayət və zülmlər etdikdən sonra 64-cü ildə gözlənilmədən cəhənnəmə vasil oldu. Onun ölümündən əvvəl oğlu Muaviyyənin hakimiyyəti üçün camaatdan beyət alınmışdı.

## İKİNCİ MÜAVİYYƏNİN HAKİMİYYƏTƏ GƏLİB VƏ DƏRHAL İSTEFA VERMƏSİ

Yəzidin ölümündən sonra camaat onun oğlu İkinci Müaviyyənin ətrafına toplaşdılar və onu özlərinə xəlifə seçib siyasət səhnəsinə daxil etdilər. Lakin o atası Yəzidin və babasının (Müaviyyənin) törətdiyi cinayətlərə görə son dərəcə vicdan əzabı çəkirdi və hakimiyyəti ələ almağa razı deyildi. Odur ki, minbərə çıxaraq dedi:

- Ey camaat! Mənim babam Muaviyə xilafətə keçmək üçün, Allahın Rəsuluna yaxın olduğuna görə bu məqama daha layiq Əli ibn Əbitaliblə muxalifətçilik etdi. Onun sizləri hansı işlərə məcbur etdiyini daha yaxşı bilirsiniz. Nəhayət onun əcəli çatdı, indi o qəbirdə əbədi olaraq yuxuya getmiş və etdiyi günahların əsri olmuşdur. Ondan sonra atam hakimiyyətdə layiq olmadığı bir halda hakimiyyəti ələ aldı. Allahın fərmanlarına deyil, öz nəfsinə itaət etdi, lakin ömrü ona vəfa etmədi, arzularına çatmamış dünyadan getdi. İndi o da qəbirdə etdiyi günahların əsridir.

Daha sonra isə ağlamağa başladı və dedi:

- Onun taleyindən xəbər tutmaq bizim üçün çətindir. Peyğəmbərin Əhli-beytini öldürməsinə, Mədinəyə hörmətsizlik etməsinə və Kəbəni viran qoymasına görə onun başına nələr gələcəyini biz bilmirik. İndi isə mən sizin məsuliyyətinizi qəbul etmirəm, özünüz bilin, o siz o da xilafətiniz.[1]

İkinci Müaviyə hakimiyyətdə qırx gündən artıq olmadı. İstefa verdikdən sonra 20 yaşında ikən dünyadan getdi və Dəməşqdə dəfn olundu.

## MƏRVANIN HAKİMİYYƏTƏ GƏLMƏSİ

İkinci Müaviyənin ölümündən sonra Şam camaatının arasında böyük narazılıq yarandı. Bəni-Üməyyə xəlifələrindən sayılan Osmanın əmisi oğlu Mərvan ibn Həkəm yaşlı olduğundan Bəni-Üməyyə sülaləsinin hörmətini qazanmışdı. Belə ki, o Yezidin xilafəti dövründə Mədinənin hakimi idi.

[1] «Murucuz-zəhəb»cild 3, səh. 81, Muxtarın qiyamının mahiyyəti; «Ən-nucumuz-zahirəh» cild 1, səh. 164.

Yezidin ölüm xəbərini eşitdikdə Şama gedərək çox çətinliklə Bəni-Üməyyəni özünə beyət etməyə vadar etdi.

## BƏSRƏ CAMAATININ QİYAMI

Bu vaxta qədər Əməvi hökumətinin qarşısında mühafizəkar mövqe tutan Bəsrə bu dəfə ciddi qərara gəlməyə məcbur oldu. Yezidin ölüm xəbərini eşidən Bəsrə hakimi Abdullah ibn Ziyad bu fursətdən istifadə edərək Əməvilərin adından özünə beyət almağa çalışdı. Lakin onun bu səyi məğlubiyyətlə nəticələnəndə Bəsrədən qaçmağa məcbur oldu.

Bəsrə bu hadisədən sonra, tanınmış Haşimi şəxsiyyətlərindən olan Abdullah ibn Haris İbn Nofələ beyət etdi. Lakin öz işlərində o da müvəffəqiyyət qazana bilmədi: çünki şəhərə çaxnaşma düşmüş və bəhranlı vəziyyət yaranmışdı. Bu bəhranlı vəziyyət qəbilələr arasında çəkişmələrdən və xəvaricin təzyiqinin güclənməsindən irəli gəlirdi. Bəsrə camaatı məcburiyyət qarşısında qalıb İbn Zübeyrə məktub yazaraq ona beyət etdiklərini bildirdilər və xəvaricin təhlükəsini onlardan dəf etmək üçün onlara hakim təyin etməsini xahiş etdilər. İbn Zübeyr əvvəlcə Haris ibn Əbdullah Rəbiəni, daha sonra isə Məsəb ibn Zübeyri Besrəyə göndərdi və o, rəsmi şəkildə hakimiyyətə keçdi.

Yəzidin qəfil ölümü əməvilərin Kufə şəhərində nüfuzunun zəifləməsinə səbəb oldu. Ondan sonra Şamda hərc-mərclik yarandı və hökumət idarəçilik qüdrətini təmamilə itirdi. Hicazda isə Abdullah ibn Zübeyr başqa zamanlardan fərqli olaraq xilafət iddiasında idi. Yezidin ölümündən camaat arasında yaranan əqidə zəifliyindən və ixtişaşdan istifadə edərək dövlət təşkil etməyə və özünü möminlərin əmiri adlandırmağa başladı.

## KUFƏLİLƏRİN VƏZİYYƏTİ

Kufəlilər Yezidin ölməndən sonra İbn Ziyadın canişini Əmr ibn Harisi şəhərdən qovub çıxartdılar, sonra İbn Ziyadın imarətinə hücum edib oranı qarət etdilər. Daha sonra isə zindanların qapılarını sındırıb 4500 nəfər məhbusu azad etdilər.

Heç bir hakimiyyətin olmadığı bu zamanda Kufənin əyan-əşrafları dərhal Abdullah ibn Zübeyrə məktub yazaraq ondan istədilər ki, yaranmış vəziyyətdən istifadə edib Kufəyə nümayəndə təyin etsin.

Abdullah ibn Zübeyr 64-cu ildə Yezidin ölümündən sonra rəsmi olaraq özünü müsəlmanların xəlifəsi elan etmiş və çox qısa bir zamanda Hicaz, İraq, Yəmən və İranı öz hökümətinin nəzarəti altına almışdı. O, özünün ən yaxşı dostlarından olan Abdullah ibn Mutini rəsmi olaraq Kufəyə yeni vali təyin etdi. O, vali təyin olunduğu gündən 5 gün sonra 65-ci il Ramazan ayının 25-də Kufəyə daxil olmuşdu.

## ABDULLAH İBN ZÜBEYRİN ARZUSU

Cavan ikən Abudllah ibn Zübeyrin ən böyük arzularından biri hakimiyyəti ələ keçirmək idi və o, öz arzusuna çatmaq üçün münasib fürsət gözləyirdi. Müaviyyənin ölümundən sonra Yezidin iş üstünə gəlib Seyyidüş-şühada (ə)-ı şəhid etməsi böyük etiraza səbəb oldu. Qiyam dalğaları islam dünyasının hər yerini bürüdü. Abdullah ibn Zübeyr əvvəlcə iddia edirdi ki, xilafətin ona verilməsini istəmir, əksinə xilafətinin «şura» əsasında seçilməsini istəyir. O, xalqı aldatmaq üçün özünü zahid və abid bir şəxs kimi göstərirdi. Belə ki, onun namaz və orucu xalq arasında dillər əzbəri olmuş və avam xalqı özünə

cəlb edə bilmişdi və nə qədər ki, Yezid diri idi özünü İmam Hüseyn (ə)-ın qanını intiqamçısı kimi tanıtdırırdı.

Lakin Yezidin ölümündən sonra bu kimi iddialarından geri çəkildi. Məlum oldu ki, onun bu sözləri sadəcə şüardan başqa bir şey deyilmiş və o, rəyasət və hökumət aşiqi imiş.

Abdullah ibn Yezid Abdullah ibn Öməri öz tərəfinə çəkib ondan beyət almaq üçün çox ciddi cəhdlə çalışdı. Bu məqsədə çatmaq üçün Muxtarın bacısı və Ömərin arvadı olan Səfiyyədən kömək istədi ki, bəlkə, o, ərini beyət etməyə razı sala bildi.

Səfiyyə bu məsələni Abdullah ibn Ömərə deyərkən o bu məsələni qəbul etməyib İbn Zübeyri rəyasətpərəst və dünyapərəst bir adam adlandırdı. Səfiyyə ibn Zübeyrin həddindən artıq namaz qılıb oruc tutduğunu və çoxlu ibadət etdiyini qeyd etdi, lakin Abdullah ibn Ömər onun cavabında dedi:

- Müaviyyə Məkkəyə daxil olanda mindiyi seçmə atları görmüşdünmü?

Səfiyyə dedi:

- Bəli!

İbn Ömər dedi:

- İbn Zübeyr namaz qılıb və oruc tutmaqla elə bunları isdəyir.[1]

Abdullah ibn Zübeyr Bəni-Üməyyənin ən böyük düşməni idi. Lakin onun düşmənçiliyi yalnız dünyaya görə idi. Odur ki, qanlı müharibələr törətmiş, həmin müharibələrin nəticəsində on minlərlə insan öldürülmüşdü. İbn Zübeyrlə Bəni-Üməyyənin ixtilafı var idi. Lakin bu fikri-ayrılıq, qətl, qarət və xalqın mal

---

[1] «Şərhi Nəhcül-bəlağə» İbn Əbil-Hədid cild 1, səh. 326.

və canına hakim kəsilmək üçün idi. Amma din və etiqad məsələlərində bir-birindən heç də fərqlənmirdilər.

Məsələn, Bəni-Üməyyə Həzrət Əli (ə)-ın mənbərdə lənətləyirdilər, İbn Zübeyr də elə edirdi. Bəni-Üməyyə kişi və qadınları şiə olduqlarına görə öldürürdüsə İbn Zübeyr də eynilə həmin əməli edirdi. Abdullah ibn Zübeyr həm Bəni-Üməyyə ilə, həm də Həzrət Əli (ə)-ın övladları ilə düşmən idi. Bir gün ibn Zübeyr mənbərdə Əmirəl-möminin (ə)-ı pisləyir, haqqında nalayiq sözlər söyləyirdi. Bu sözlər Mühəmməd ibn Hənəfiyyənin qulağına çatdı. O, ibn Zübeyrin qarşısına gəlib, onun sözünü kəsəcək:

- Ey Ərəb xalqı! Üzünüz qara olsun! O, Həzrət Əli (ə)-ı pisləyir sizdə oturub baxırsını?! Həzrət Əmir (ə) Allahın düşmənləri əleyhinə ilahinin qüdrətli əli idi. O, Allah tərəfindən olan həqiqi şimşək kimi idi. Həzrət Əli (ə) onları kafir olduqlarına görə öldürür, onlar da o Həzrətə qarşı düşmənçilik, kin-küdurət və ədavət bəsləyirlər - dedi.

Çəməl müharibəsində Abdullah ibn Zübeyr öz söhbətlərində açıq aşkar Əmirəl-möminin Əli (ə)-a qarşı nalayiq sözlər deyirdi.

İbn Zübeyr 40 il Əhli-beyt (ə) və Peyğəmbər (s) qarşı ədavət bəslədiyini etitaf etdi. O, bu ədavətə görə atası Zübeyri Əhli-beyti müdafiə etməkdən əl çəkməyə və onu «Çəməl» müharibəsində Həzrəti Əmir (ə)-a qarşı müharibəyə vadar etdi. Buna görə də Əmirəl-möminin (ə) onun barəsində buyururdu:

«Oğlu Abdullah cavan yaşına çatana qədər Zübeyr həmişə biz Əhli-beytdən idi».[1]

Zübeyrin oğlu dəfələrlə söhbətləri əsnasında Həzrəti Əmirəl-möminin Əli (ə)-ı pisləyirdi. Buna görə İbn Hənəfiyyə

[1] «Şərhi Nəhcül-bəlağə» İbn Əbil-Hədid cild 20, səh. 102.

öz etiraz səsini ucaldırdı. Bəzən onların arasında ciddi mübahisələr olurdu. Buna görə də İbn Zübeyr, İbn Hənəfiyyənin ixrac edilməsi barəsində hökm vermişdi. Amma İbn Abbas onun verdiyi bu hökmə qarşı etiraz etmişdi.[1]

Əbdul-Məlik bu ixtilafdan öz xeyrinə istifadə etmək fikrində olduğundan İbn Hənifıyyəyə məktub yazıb ona Şam şəhərinə gəlməsinin maneəsiz olduğunu bildirdi. İbn Abbas İbn Hənifiyyənin böyük şəxsiyyət olduğunu qeyd edib, ona hörmət göstərməsini Əbdul Məlikdən istədi.

Əbdul Məlik də ona kömək edəcəyini İbn Abbasa bildirdi. Bundan sonra Məhəmməd ibn Hənifiyyə Şama getdi. Yol boyu şamlılardan hər kəs onu görürdüsə hamı bir nəfər kimi onun oruc və namazından söhbət edirdilər. Belə ki, onun zahidliyi və ibadəti dillər əzbəri idi. Əbdul Məlik təhlükə yaranacağını duyub hələ Məhəmməd ibn Hənifiyyə yolda olarkən ona xəbər göndərdi ki, əgər Dəməşqə daxil olmaq istəyirsənsə mənə beyət etməlisən. Lakin Məhəmməd ibn Hənifiyyə onun təklifini qəbul etmədi. Məkkəyə qayıdıb Şebi Əbi Talibdə Kufəli dostlarının yanında məskunlaşdı. Yenidən onunla İbn Zübeyr arasında çəkişmələr başladı və bu çəkişmələr onun Taifə göndərilməsi ilə nəticələndi. Bu zaman İbn Abbas da Məkkədən çıxıb Taifə gəldi və hər ikisi İbn Zübeyrin əleyhinə təbliğat aparmağa başladılar.

İbn Abbas 64-cü ildə orada dünyadan getdi və İbn Hənəfiyyə onun cənazəsinə namaz qıldı.[2]

İbn Abbas da İbn Zübeyrin qatı düşmənlərindən idi. O elə əvvəlcədən İbn Zübeyrlə müxalifət etməyə başlamışdır. Və əsas etibarı ilə ibn Hənəfiyyəni müdafiə edirdi. Dəfələrlə bu və

---

[1] «İbn Əsəm tarixi» cild 6, səh. 252.
[2] «İbn Əsəm tarixi» cild 6, səh. 240.

digər məsələlər üstündə İbn Zübeyrlə ciddi mübahisələr etmişdir. Ən böyük çəkişmə bu idi ki, İbn Zübeyr İbn Abbası xalqın gözündən salmaq üçün onu siyğəyə etiqad bəsləməsini irad tutur və yolla da onu siğəyə barəsində Peyğəmbər (s) sünnətinin əksinə olaraq onu qadağan edən ikinci xəlifəyə (Ömər) tabe olanlarla qarşı-qarşıya qoymaq istəyirdi. Bu zaman İbn Abbas ayağa qalxıb onun ittihamına cavab olaraq dedi: «Peyğəmbər (s)-in halal buyurduğuna görə mənim mütəyə etiqadım vardır. Əgər İbn Zübeyr bu məsələdə şəkdə olsa özünün müvəqqəti izdivacdan dünyaya gəlməsini anasından soruşub öyrənə bilər».

İbn Zübeyr 9 il şərqə, Məkkəyə, Mədinəyə və Hicaza, 8 il isə İraqa hökmdarlıq etmişdir. Camaat əvvəlllər Abdüllah ibn Zübeyrin Bəni-Üməyyədən yaxşı olduğunu düşünürdü, ancaq əməldə onun alçaq xüsusiyyətləri o cümlədən ona kömək edə biləcək adamları öz ətrafından qovması və həmçinin onun paxıllığı məlum olduqdan sonra ətrafındakılarının əksər hissəsinin dağılmasına səbəb olmuşdu.[1]

İbn Əbül-Hədid yazır:

«Abdüllah ibn Zübeyr dünyanın ən paxıl adamlarından sayılırdı. Onun atası da paxıl idi. Belə ki, Ömər onu demişdi: «Xəlifə olsan belə, yenə Bəthada[2] camaatla bir sa[3] və ya bir müdd[4] üstündə çənə vuracaqsan». Həzrət Əmir Abdüllah ibn Zübeyri yol verdiyi israfçılığa görə öz mallarından istifadə etməsini məhdudlaşdırmaq istəyirdi.

---

[1] «Bəlazari» cild 5, səh. 197.

[2] Məkkə vadilərindən və ya Məkkəyə yaxın olan məhələlərindən biri. (*Tərcüməçi*)

[3] Çəki vahidi... 1sa – 3kq.-dır. (*Tərçüməçi*)

[4] Bir müdd təqribən 750 qramdır (bir sir 75 qram on sirr bir müdd yəni 750 qramdır). (*Tərçüməçi*)

Abdüllah çıxış yolu tapmaq üçün Zübeyrə şərik oldu. Həzrət Əli buyurdu: «O, ən yaxşı sığınacağa pənah apardı». Həzrət bundan sonra ona mane olmadı».

## MUXTAR ABDULLAH İBN ZÜBEYRİN YANINDA

Muxtar Məkkəyə daxil olduqdan sonra ibn Zübeyrin görüşünə getdi. İbn Zübeyr onu çox səmimiyyətlə qarşıladı. Lakin əməldə bir-birləri ilə razılaşmadılar. Buna görə də Muxtar ondan ayrılıb öz ata-baba yurdu olan Taif şəhərinə getdi. O, orada bir il qalıb gələcək üçün tədbir tökməyə başladı.

Muxtar bir il siyasi vəziyyətdən kənarda qaldıqdan sonra yenidən Məkkəyə qayıtdı. Onu ibn Zübeyrin görüşünə getməyə məcbur etdilər. Muxtar ibn Zübeyrin görüşünə getdikdə o, Muxtarı qabaqlayıb salam verdi və onu bağrına basdı və onlar bir-birlərinə əl verib görüşdülər. Daha sonra Muxtar söhbətə başlayıb dedi: «Mən sənə bəyət etməyə gəlmişəm lakin bir şərtlə».

İbn Zübeyr dedi:

- Şərtin nədir?

Muxtar dedi:

- Mənim razılığım olmadan heç bir iş görməməlisən, mən sənin bir nömrəli muşavirin və sirdaşın olmalıyam. Hər zaman sənin xilafətin möhkəmlənərsə mənə yüksək vəzifələrdən brini verməlisən.

Lakin ibn Zübeyr hiyləgərcəsinə belə cavab verdi:

- Mən sənin beyətini Allahın kitabı və Peyğəmbər (s)-in sünnəsi əsasında qəbul edirəm.

Muxtar dedi: Bu nə sözdür? Bu ümumi bir sözdür. And olsun Allaha, mən səninlə ancaq və ancaq dediyim şərtlər əsasında beyət edəcəm.

İbn Zübeyr bir söz demədən əlini uzardı və Muxtar ona beyət etdi.

Məscidül-haram muhasirədə olarkən Muxtar hələ də İbn Zübeyrin tərəfində idi.

Amma bir müddətdən sonra ibn Zübeyrin onun fəaliyyət etməsi üçün şərait yaratmayacağını duyub ondan uzaqlaşmağa başladı. O, müntəzəm olaraq Kufənin siyasi vəziyyətini izləyirdi. Şiələrdən biri olan Hani ibn Cəbbə Vədai, kufəlilərin İbn Zübeyrin hökumətindən narazı olduqlarını və İbn Zübeyrin onlara göndərdiyi nümayəndəsini qəbul etmədiklərini ona xəbər verib təkidlə dedi: «Əgər İraq şiələrinin ürəkləri istəyən rəhbərləri olarsa böyük bir qüdrətə malik ola bilərlər».

Muxtar İbn Zübeyrin düzgün adam olmadığını bildikdə ondan ayrılıb Kufəyə getdi.

İbn Zübeyr Əhli-beyt (ə)-a qarşı qəlbən düşmənçilik bəslədiyindən bir gün İbn Abbasa xitab edərək dedi:

- Qırx ildir ki, sizə qarşı olan kin-kudurətimi qəlbimdə gizlətmişəm.

Belə bir halda Muxtar özünə məxsus ruhiyyəsi ilə İbn Zübeyr kimi xəbis bir adamla necə həmkarlıq edə bilərdi?!

## ABDULLAH İBN ZÜBEYRİN ÜSULU

Abdullah ibn Zübeyr hakimiyyətinin ilk illərində camaatı aldatmaq, cəmiyyətdə nüfuzlu və böyük şəxsiyyətləri ələ almaq üçün mənbərə çıxıb Seyyidüş-Şühədanın (ə) məzlumiyyətindən həyəcanla söhbət açır haray-həşir salırdı. Lakin öz hakimiyyətini möhkəmləndirdikdən sonra nəinki bu sözlərdən əl çəkdi, üstəlik Həzrət Peyğəmbər (s)-ə qarşı hörmətsizlik edərək qırx cümə namazının xütbələrində ona salavat

göndərmədi. Camaat onun bu yaramaz hərəkətinə etiraz etdikdə isə belə cavvab verdi:

- Onun pis ruhiyyəli övladları vardır ki, mən Peyğəmbərdən danışarkən onlar sevinir və xoşhal olurlar. Mən isə onların sevinib xoşhal olmasını istəmirəm.[1]

## ƏMƏVİLƏRİN AYRI-SEÇKİLİK ƏSASINDA QURULAN HÖKUMƏTİ

Əməvi hakimlərinin siyasəti mili ayrı-seçkilik əsasında qurulmuşdu. Onlar müsəlmanları iki dəstəyə ayırmışdılar.

1 - Ərəb.

2 - Məvali, yəni qeyri-ərəb. Onların əksəriyyətini iranlılar təşkil edirdilər.

Əlbəttə, bu siyasətin təməlini ikinci xəlifə Ömər qoymuşdu.[2] Və bu siyasəti onun tərəfindən Şama hakim təyin etdirən Müaviyyə bir daha diriltdi. O, özünü müsəlmanların xəlifəsi hesab etdiyi zamandan öz siyasətini qanunlarda milli ayrı-seçkilik əsasında həyata keçirdirdi. O, Kufə, Bəsrə və Fars məntəqələrinə seçdiyi hakim Ziyad ibn Əbihə yazdığı məktubda qanunlarda milli ayrı-seçkilik salınmasını tövsiyə edərək belə qeyd etmişdi:

«İranlılara nəzarət et və onları ərəblərlə eyni səviyyədə tutma. Ərəblər onlardan qız ala billərlər, lakin onların ərəblərdən qız almağa haqqı yoxdur. Ərəblər onlardan irs aparır, amma ərəblərdən onlara irs çatmır. İmkan daxilində onlara az maaş verin və yaramaz işləri, aşağı vəzifəri onlara tapşırın. Ərəb olan yerdə qeri-ərəb namazda imam-camaat

[1] «Məqatilit-talibiyyin» səh. 65.

[2] «Əmirəl-möminin Əli (ə)-ın başına nələr gəldi» kitabına müraciət olunsun.

olmasın. Qeyri-ərəblər camaat namazında durmasın. Sərhəd gözətcisi və qazılıq vəzifəlirini onların öhdəsinə qoyma».

Bəni-Üməyyənin ayrı-seçkilik siyasəti və qeyri-ərəblərə qarşı ədalətsizliyi bütün qeyri-ərəb müsəlmanlarının qəzəbinə səbəb olmuşdu. Qədim mədəniyyətə və böyük bir tərəqqiyə malik olan iranlılar ruh və canları ilə islam qəbul edib islamda ədalət məsələsüinə görə son nəfəslərinə kimi bu məktəbi mudafiə etdilər. Əsas ikinci xəlifənin dövrundə qoyulan ərəblərlə qeyri-ərəblər arasındakı ayrı-seçkilik siyasəti əməvilərin dövründə kəskinləşərək özünü ən yüksək dərəcəsinə çatdı. Qeyd etmək lazımdır ki, onların bu əməlləri iranlıların birləşməsinə Əhli-beyt (ə)-a məhəbbətlərinin artmasına və əməvilərə qarşı etiras dalğalarının şiddətlənməsinə böyük təsir edirdi. Əlbəttə iranlılar özlərinin başqalarından üstün millət hesab etmirdilər, onlar yanlız islami ədaləti istəyirdilər.[1] Bəni-Üməyyənin bu siyasəti iranlıların ondlara qarşı ardı-arası kəsilməz muxalifətçiliklərinə səbəb olmuşdu. Onlar Muxtar və İbrahim Əştərlə birləşib Əbdül-Məlikin əleyhinə mubarizə apardıqaları kimi Əbdürrəhman ibn Əşəslə də birləşib Həccacın əleyhinə qiyam etmişdilər.

Kərbəla hadisəsı 64-çi ilin məhərrəm ayında Yezidin, Əmr ibn Ziyadın rəhbərliyi altında və İbn Sədin sərkərdəliyi ilə, eləcə də Kifə munafiqlərinin başçılığı və Kufənin imansız və sadələvh camaatının iştirakı ilə baş vermişdi.

Yəzid hakimiyyətdə olduğu üç il yarım müddətində böyük cinayətlər törətdi. Həqiqətdə onun bu cinayətləri törətməkdə əsas məqsədi islamdan və Peyğəmbər-Əkrəm (s)-dən intiqam almaq idi. Peyğəmbər (s)-in Əhli-beyti və xüsusilə İmam

---

[1] «Əmirəl-möminin Əl (ə)-ın başına nələr gəldi» kitabına baxa bilərsiniz.

Hüseyn (ə) bu intiqamın başlıca qurbanlarından idi. Bəli, şiələrin Bəni-Üməyyənin əleyhinə qiyam etməsinin başlıca səbəbi Bəni-Ümeyyənin tarixdə misli görünməmiş cinayəti olan Aşura faciəsi olmuşdur.

# III HİSSƏ

## TƏVVABİN QİYAMI

Kufə İmam Hüseyn (ə)-ı şəhadətə yetirməklə böyük günah bataqlığına batmışdı.

Şiələr 65-ci ildə qəflət yuxusundan ayılıb İmam Hüseyn (ə)-a kömək etmədiklərinə görə bir-birlərini danlayır məzəmmət edir və gördükləri bu işdən peşimançılıq çəkirdilər.

Onlar böyük bir səhvə yol verdiklərini artıq başa düşmüşdülər. Çünki onlar İmam Hüseyn (ə)-ı dəvət edib sonra onu düşmənlər qarşısında yalqız qoymuşdular. Onlar qəflətdən ayıldıqdan sonra belə deyirdilər: «Bu bağışlanmaz xəta, böyük günah və üstünüzə götürdüyünüz rüsvayçılıqdır. Biz yalnız can verib və bu yolda ölməklə öz etdiyimiz böyük günahları yuya bilərik». Onlar ölənə qədər düşməndən intiqam almaq ruhiyyəsində idilər ki, bəlkə Allah onların günahından keçə. Qiyam İraqın ağsaqqal şiələrindən beş nəfərinin başçılığı ilə hazırlandı. O beş nəfər aşağıdakılardan ibarətdir:

1- Süleyman ibn Sürəd Xəzai

2-Əbdullah ibn Val Təmimi

3-Rifaə ibn Şəddad Bəcəlliy

4-Əbdullah ibn Səd Əzdi

5-Əbdullah ibn Həcbə Fəzari

Məhz bu zaman Süleyman ibn Sürəd Xəzail[1] öz planlarını həyata keçirmək üçün yekun işləri görməyə başladı. O, Mədinə

---

[1] İbn Əsir yazır: «Süleyman İmam Hüseyn (ə)-a məktub yazıb onu Kufəyə dəvət edənlərdən biri idi. Lakin İmam Hüseyn (ə) Kufəyə tərəf gəldikdən sonra o və başqa bir neçə nəfər ona kömək etməkdən boyun qaçırdı. İmam Hüseyn (ə) şəhid olduqdan sonra isə peşman oldular».

və Bəsrə şiələrinin rəhbərlərinə məktub yazaraq onları İmam Hüseyn (ə)-ın qanının intiqamını almaq üçün qiyama hazırlaşmalarını və gələn ilin (65-ci il) rəbiyüs-sanı ayında Kufə şəhərinin kənarında olan «Nəxliyyə» adlı bir yerdə bir-birləri ilə görüşmələrini istədi. Mədinə şiələrinin rəhbəri Səd ibn Huzeyfə ibn Yəman adlı bir şəxs idi.

Təvvabın bir yerə yığışıb məclis qurdular. Şiələrin rəhbərləri bu yığıncaqda müxtəlif söhbətlər etdilər. Onların söhbətləri Əhli-beyt (ə)-ı tək qoyub və onların haqqında etdikləri zülmün əvəzini necə çıxmaq barəsində idi. Onlar aşağıdakı Quran ayəsinə əsaslanaraq qiyama hazırlaşırdılar.

يَا قَوْمِ إِنَّكُمْ ظَلَمْتُمْ أَنْفُسَكُمْ بِاتِّخَاذِكُمُ الْعِجْلَ فَتُوبُوا إِلَىٰ بَارِئِكُمْ فَاقْتُلُوا أَنْفُسَكُمْ

***«Ey mənim qövmüm! Siz buzova sitayiş etməklə həqiqətən özünüzə zülm etdiniz. Buna görə də yaradanınıza tərəf qayıdaraq tövbə edin, özünüzü öldürün».***[1]

Təvvabın öz etdikləri günahlarını yumaq üçün tövbə edib özlərini ölümə vermək niyyətində idilər. Onlar hərəkata başlayarkən Küfə və Bəsrə şəhərləri Abdullah ibn Zübeyrin nümayəndələrinin əlində idi.

Elə bu vaxtlar Muxtar da qiyama başladı. Onun da İmam Hüseyn (ə)-ın intiqamını almaq və Əhli-beyt (ə)-ın haqlarını geri qaytarma kimi oxşar şüar verməsinə baxmayaraq tutduğu yol təvvabinin tərzi-hərəkətindən fərqli idi.

Muxtar daha çox müvəffəqiyyət əldə etmək üçün təvvabinin özünə birləşdirmək və onların tələsik işə başlamasının qarşısını alıb hələlik öz yerlərində sakit oturmaları üçün çalışırdı. Lakin təvvabin bu işdən boyun qaçırırdılar. Təvvabinlə Muxtarın əsaslı fərqi təvvabinin İmam

[1] «Bəqərə» surəsi, ayə 54.

Zeynəl-abidin (ə)-ın imamətinə inanması idi. Onların keçən dəfədəki kimi İmam Hüseyn (ə)-ı dəvət etmələrini və faciənin baş verməsini bir daha təkrar etməyərək bu dəfə İmam Səccad (ə)-ı döyüş meydanına salmazdan əvəl özlərinin qiyam etmələrini və hökuməti ələ keçirərlərsə yalnız ondan sonra İmam Səccad (ə)-ı meydana gətirəcəklərini düşünürdülər.

Lakin Muxtar zahirdə Muhəmməd Hənəfiyyənin naibi (nümayəndəsi kimi) fəaliyyət göstərirdi. Buna görə də təvvabin Muxtara kömək etməkdən boyun qaçırtdılar.

Kərbəla hadisəsindən sonra 61-ci hicri ilində təvvabin birinci dəfə olaraq gizli yığıncaq hazırlayıb, orada İmam Səccad (ə)-ın rəhbərlik məsələsini müzakirə etmişdi. Muhamməd Hənəfiyyənin adı isə müzakirə olunmamışdı. Lakin Muxtar 64-cü ildə Yəzidin ölümündən sonra Küfəyə daxil olub öz mübarizəsini Muhamməd Hənəfiyyənin adı ilə başladı. Muxtar əvvəl İmam Səccad (ə)-ın yanına gəldi. Lakin o Həzrət bu işdə məsuliyyət qəbul etməkdən imtina edəndən sonra o, Muhəmməd Hənəfiyyənin yanına getmişdi.

İmam Səccad (ə)-ın seçdiyi bu yeni siyasət məsum imamların şiddətli təqiyyə dövranının bağışlanacağını göstərirdi.

Təvvabin İmam Hüseyn (ə)-ın şəhadətindən sonra qazandıqları acı təcrübədən qərara aldılar ki, nə qədər ki, əməvilərin hökuməti tam süquta uğramayıb İmam Səccad (ə)-ın adını öz rəhbərləri kimi elan etməsinlər.

65-ci ilin rəbius-sani ayında təvvabin altında qiyama başladılar. Şiələrin ən əsas hissəsi təvvabinin Süleyman ibn Sürədin rəhbərliyi ilə edəcəyi qiyama inanır və onun ətrafında toplaşırdılar. Muxtar şiələrin bu qrupu ilə görüşüb onlara dedi: «Süleyman ibn Sürəd qoca bir kişidir. İş üçün tədbirli deyil və müharibənin taktikasını bilmir. O sizi döyüşə sövq etmək

istəyir ki, həm siz və həm də özü ölsün. Lakin mən bir iş görmək istyirəm ki, tarixdə atalar misalı olsun. Mən sizin vəliniz və rəhbərinizin mənim öhdəmə qoyduğu tapşırığı yerinə yetirmək istəyirəm.

Mən sizin bütün düşmənlərinizi qılıncdan kecirib ürəklərinizi şad etmək istəyirəm. Odur ki, mənim ətrafıma toplaşıb mənim əmrlərimə itaət edin.[1] Lakin artıq qəti qərara gələn təvvabin Muxtarın sözlərini eşitməyib öz istəklərini həyata keçirmək üçün mübarizələrini davam etdirirdilər».

## TƏVVABİNİN MÜHARİBƏ MEYDANINA HƏRƏKƏTİ

Təvvabin 65-ci ilini rəbiüs-sani ayında Kufənin xurma bağlarından hərəkata başlayıb Abdüllah ibn Zübeyrin qoşununa tərəf hərəkət etdilər.

Siyahıya alınmış 16 min nəfərdən təkcə dörd min nəfər xurma bağlarındakı qərargaha gəlmiş, onlardan da iki min nəfəri döyüş başlamazdan əvvəl, döyüş zamanı və döyüş qurtarandan sonra Kufəyə qayıtmışdılar.

İbn Zübeyrin nümayəndəsi onları öz planlarını həyata keçirmələrinin qarşısını almaq, onları bu işdən soyutmağa çalışdı. O, Suleymana İbn Zübeyrin qoşun hazırlayıb onlar üçün göndərənə kimi səbr etməsini təklif etdi. Lakin onlar İbn Zübeyrlə həmkarlıq etməkdən imtina etdiklər.

Təvvabin İmam Hüseyn (ə)-ın qatillərindən intiqam almaq, şiə imamətini möhkəmləndirmək və ya bu yolda şəhid olmaq əzmində idilər.

---

[1] «Təbəri tarixi» cild 5, səh. 580.

Təvvabin düşmənə tərəf hərəkət etməzdən əvvəl Kufənin xurma bağlarından (Nəxliyyə) Kərbəlaya gedib İmam Hüseyn (ə)-ın və Kərbəla şəhidlərinin pak türbətinin ətrafında toplaşdılar. Onlar o qədər şiddətlə ağlayıb əzadarlıq edirdilər ki, dəfələrlə qəşş edib huşdan gedirdilər. Şəhidlərin ruhlarından imdad diləyir Allahdan bağışlanmalarını istəyirdilər. Daha sonra isə qoşun İraq və Şam sərhədlərinə tərəf yola düşdü.

Təvvabin qoşunu Fəratın bir qolunun yaxınlığında yerləşən Qırqıya kəndinin yaxınlığına çatıb bir az dayandıqdan sonra Eynul-vərdət adlı həssas bir məntəqəyə doğru hərəkət etdilər. İbn Ziyadın başçılığı ilə Şam qüvvələrindən ibarət otuz minlik qoşunun onlara tərəf hərəkət etdiyini onlara xəbər vermişdilər.

## TƏVVABİNİN MƏĞLUBİYYƏTİ

Təvvabin qüvvələri Eynul-vərdət məntəqəsində düşmənlə qarşılaşdılar. Düşmən qüvvəsinin sərkərdəsi İbn Ziyad idi. Hüseyn ibn Nüməyr isə onun qoşun bölmələrindən birinin başçısı idi. Bu iki qoşun qarşı-qarşıya dayandı. Təvvabin dörd min, Şam qoşunu isə otuz min nəfərdən ibarət idi. «Ya ləsaratil-Hüseyn» təvvabinin şüarı idi. Şiddətli müharibə başladı, şəhadət ruhiyyələri olduğundan Təvvabin şir kimi döyüşür və çəkinmədən, qorxmadan düşmənin qəlbinə yürüş edirdilər. Təvvabin «Cənnət, cənnət» deyə fəryad edirdi. Onlardan bir qrupu döyüşə-döyüşə fəryad edib deyirdilər: «Allah bizi bağışla!» Onlar düşmənin qüvvələrinə ağır zərbələr endirirdilər.

Süleyman Həsin ibn Numəyrin başçılıq etdiyi qüvvələrin vasitəsi ilə şəhid edildi və şiələrin başçılarından yerdə qalan o biri beş nəfər isə biri-digərindən sonra Təvvabinə başçı seçildi. Nəhayət onların qüvvələrinin əksəriyyəti öldürüldü qalan bir

hissəsi qaçmağa üz qoydu və başqa bir qrupu isə döyüş Şam qoşununun qələbəsi ilə nəticələndikdən sonra Kufəyə doğru qayıtdılar.

# IV HİSSƏ

# MUXTARIN QİYAMI

66-cı ildə Muxtar İmam Hüseyn (ə)-ın intiqamını almaq üçün qiyam etdi. İraqlılar Yəzidin hökümətindən sonra Abdullah ibn Zübeyrə üz gətirib və onun dəvətini qəbul etmişdilər.

Lakin az bir müddət keçməmiş idi ki, İbn Zübeyrin dəvətinin əsl mahiyyəti İraq camaatına məlum oldu. Onun da mahiyyətçə əməvi hakimlərindən əsla fərqlənmədiyini başa düşdülər. İbn Zübeyr Bəni-Ümeyyədən olan işçiləri İraqdan çıxartdı. Amma İmam Hüseyn (ə)-ın qatilləri və Kərbala faciəsinin əsas səbəbkarları isə onun hökumətinin yüksək vəzifəli şəxsləri idilər. Şimr ibn Zilcövşən, Şəbəs ibn Rəbi, Ömər ibn Səd, Əmr ibn Həccac kimi rusvayçı mənfur şəxsiyyətlər həmçinin Aşura hadisəsini törədən başqa cinayətkarlar yenidən İraqın bütün mövqelərini ələ keçirdilər. Onlar Bəni-Üməyyənin səltənətində tutduqları mövqeyi İbn Zübeyrin zamanında yenidən ələ keçirdilər.

Abdullah ibn Zübeyrin təyin etdiyi nümayəndə Kufədə iqtisadiyyat barəsində dedi: «Mən sizi Ömər və Osmanın sirə və üsulu əsasında idarə edəcəyəm».

Kufə şiələrinin başçılarından biri dedi: «Biz Əli ibn Əbitalib (ə)-dan başqa bir şəxsin sirə və üsuluna tabe olmayacağıq və bizim Ömər və Osmanın sirə və üslubuna ehtiyacımız yoxdur».

Bəli, Abdullah ibn Zübeyrin hökümətinin əsl mahiyyəti xalqa aşkar olduqdan sonra camaat ibn Zübeyrin Kufədəki numayəndəsinin ətrafından daha da uzaqlaşmağa başladılar və

nəhayət bu iş xalqın Muxtarın qiyamına qoşulmasının əsas amilinə çevrildi.

Muxtar Kərbala hadisəsindən qabaq Kufənin tanınmış şiələrindən idi. Elə buna görə də Müslüm İbn Əqil Kufəyə daxil olarkən onun evində qaldı. Həzrət Müslüm qiyam edərkən Muxtar Ləqfa kəndinə getmişdi. O, Kufəyə qayıdarkən həzrət Müslüm artıq qiyam etmişdi. Muxtar nə edəcəyini bilmirdi. Əmir ibn Həzrət onu dəvət edib aman verdi. Muxtar onun yanında sübhə qədər qaldı və sübh açıaln kimi Vəlid ibn Ütbənin oğlu Əmmarə onun Əmr ibn Hərisin evində olduğunu Übeydullaha xəbər verdi. Übeydullah onu darul-imarəyə çağırtdırıb dedi:

- Qiyamçılar ibn Əqilin ətrafına sən topladın?

Muxtar dedi:

- Xeyr, mən Əmrin bayrağı altına sığındım.

Əmr də bu işə şəhadət verdi. Übeydullah dedi:

- Əgər Əmr şəhadət verməsəydi səni öldürəcəkdim.

Daha sonra əmr verib Muxtarı zindana saldırdı. İmam Hüseyn (ə) şəhid olduqdan sonra Muxtar zindandan xilas olmaq üçün bacısı Səfiyyənin əri Abdullah ibn Ömərin yanına adam göndərdi. Abdullah ibn Ömər Yəzidə məktub yazıb vasitəçilik etdi. Yəzid onu azad edilməsi əmrini Kufədə üç gündən artıq qalmaqal şərti ilə ibn Ziyada verdi. Muxtar da Hicaza getdi.

Muxtarın Kufədə kəlməsi Təvvabinin şəhərdən çıxmağa hazırlaşmalarına təsadüf edirdi. Təbin olaraq Süleyman, şəxsiyyət və parlaq keçmişinə görə Muxtardan çox üstün idi. Buna görə də Süleyman olan yerdə Muxtar şiələri özünə cəzb edə bilməzdi. O, Süleymanın etdiyi bu təşəbbüsə inanmırdı və buna görə də dəfələrlə Süleyman barəsində belə demişdi:

«Süleymanın muharibədən və siyasətdən başı çıxmır».

Muxtar uşaq olarkən atası onu Əmirəl-möminin (ə)-ın yanına gətirmişdi. Həzrət onu dizləri üstə oturtdu əlini onun başına çəkib buyurdu: «Ey qoçaq! Ey qoçaq!»

Bir gün Muxtar Məbədül-Cədəli ilə görüşüb ona dedi: «Kitab əhli öz kitablarında oxumuşlar ki, Səqif qəbiləsindən bir nəfər qiyam edib zalımlarla mübarizə edəcək, məzlumlara kömək edəcək və miskin və fəqirlərin harayına çatacaq. Onlar o şəxsin xüsusiyyətlərini bəyan ediblər. Xüsusiyyətlərin ikisindən başqa hamısı məndə vardır. Onlardan biri budur ki, o cavandır, lakin mən yaşım artıq altmışdan ötübdür. Və o birisi isə budur ki, onun görmə qabiliyyəti güclü deyil, mən isə qartaldan da iti görürəm».

Möbəd ona cavab verdi: «Yaş məsələsinə gəldikdə isə bilməlisən ki, o zamanlar altmış və yetmiş yaşlı adamlar cavan hesab edilirdilər. Amma görmə qabiliyyətinə gəldikdə isə nə bilirsən bəlkə sən göz ağrısına mübtəla olacaqsan və görmə qabiliyyətin azalacaqdır?»

Muxtar dedi:

- «İnşallah, belə olar».[1]

Həzrət Müslümün qiyamı yatırıldıqdan sonra ibn Ziyad Muxtarı, Meysəm Təmmarı və Abdüllah ibn Haris İbn Nofəli əsir tutub zindana salırdı. Abdullah iti ülgüc istəyib dedi:

- İbn Ziyadın əlindən sağ qurtarmağıma ümidim yoxdur, odur ki, bədənimi tükdən təmizləmək istəyirəm.

Muxtar ona dedi:

- Yanılırsan, bu təbiətli adam nə məni, nə də səni öldürəcək, sən Bəsrənin hakimi olacaqsan.

Meysəm Təmmar onların ikisinin söhbətini eşidib:

---

[1] «Əxzülsar» ibn Nüma.

- Ey Muxtar! Sən İmam Hüseyn (ə)-ın intiqamını almaq üçün qiyam edəcək o qan içən adamı öldürəcək və ayağını onun alnına qoyacaqsan.

- Bir müddət keçdikdən sonra o iki nəfərin hər ikisinin qabaqcadan verdiyi xəbərlər gerçəkləndi. Abdullah Bəsrənin hakimi oldu və Muxtar İmam Hüseyn (ə)-ın intiqamını almaq üçün qiyam etdi.[1]

Şiələr Muxtarla ona kömək edəcəklərinə dair əhd və peyman bağladılar və dəstə-dəstə ardı-arası kəsilmədən onunla əlaqə saxlayır və onu ləyaqətli hakim hesab edirdilər. Muxtar Kufəyə daxil olduğu ilk gündən etibarən bütün işlərini məxfi şəkildə yerinə yetirirdi. Lakin onun Kərbəlada Kufəlilərin bütün qüvvələrinin baş komandiri və Kərbəla faciəsinin əsl səbəbkarları olan Ömər ibn Səd, Şimr ibn Zilcövşən, Şəbəs ibn Rəbi və Zeyd ibn Haris kimi düşmənləri ibn Zübeyrin Kufədəki nümayəndəsinin yanına gedib ona dedilər:

- Sözsüz sizin üçün Muxtar Süleyman ibn Sürəddən daha təhlükəlidir. Süleyman sizin düşməninizlə (Şam hökümətinə qarşı) müharibə etmək istəyir. Muxtar isə öz şəhəriniz Kufədə yürüş etmək istəyir.

Buna görə də ibn Zübeyrin Kufədəki hökümət işçiləri daxili xainlərin köməyi ilə münasib fürsətdə Muxtarın evinə yürüş edib onu əsir tutdular və zindana saldılar. Təvvabin qiyamı baş verərkən Muxtar İbn Zübeyrin zindanında Kufədə saxlanılırdı. Təvvabin qiyamında sağ qalanlar Kufəyə qayıtdılar.

Muxtar zindanda olarkən öz tərəfdarları ilə gizli əlaqə saxlayır və elə həmin şəraitdə də şiələrin Kufədəki

---

[1] «Şərhi Nəhcül-bəlağə» İbn Əbil-Hədid cild 1, səh. 110.

hərəkətlərinə rəhbərlik edirdi. Nəhayət bu dəfə Muxtar İbn Ömərin İbn Zübeyrə vasitəçiliyi ilə zindandan azad oldu.

Muxtar zindandan azad olduqdan və təvvabin isə məğlub olduqdan sonra məxfi şəkildə camaatı qiyama dəvət edirdi. İş o yerə çatdı ki, Muxtar qiyamı rəsmi və aşkarcasına elan etməzdən əvvəl on yeddi min nəfər onunla məxfi şəkildə əhd-peyman bağlayıb beyət etdilər.

Təbəri yazır: 66-cı ildə Müsənna ibn Moxr ibn Əbdi Bəsrədə camaatı Muxtara beyət etməyə dəvət etdi.

Müsənna Bəsrənin böyüklərindən və ağsaqqallarından idi. O, səmimi bir şiə və Əhli-beyt (ə)-a dərin məhəbbət bəsləyənlərdən idi.

## İMAM SƏCCAD (Ə)-IN İMAM HÜSEYN (Ə)-IN QATİLLƏRİNDƏN İNTİQAM ALINMASINA İCAZƏ VERMƏSİ

Muxtarın Kufədəki qiyamından əvvəl Kufənin bir dəstə ağsaqqalları Mədinəyə yola düşdülər. Onlar Mədinəyə çatdıqdan sonra Muhəmməd Hənəfiyyənin görüşünə gəldilər. Məhəmməd Hənəfiyyə onları mehribanlıqla qarşıladı. Onlar qısa söhbətdən sonra dedilər:

- Muxtar bizim yanımıza gəlib deyir ki, sizin tərəfinizdən iş görməyə məmur olunub. O bizi Allahın kitabına, Peyğəmbər (s)-in sünnətinə və Əhli-beyt (ə)-ın intiqamını almağa dəvət edibdir. Biz də onunla bu əsasda beyət edib ona kömək edəcəyimizə söz vermişik. Əgər siz ona itaət etməyə əmr etsəniz itaət edəcəyik və əgər itaət etməyə icazə verməsəniz ondan uzaqlaşacağıq.

Bu zaman Muhəmməd Hənəfiyyə söhbət etməyə başladı və söhbətləri əsnasında dedi:

- And ola Allaha mən çox istəyirəm ki, Allah bizim intiqamımızı düşmənlərimizdən hər hansı bir bəndəsinin vasitəsi ilə alsın. Bu mənim nəzərimdir. Mən özüm və sizin üçün Allahdan bağışlamaq istəyirəm. Amma bizim intiqamımızın alınmasına gəldikdə isə hamılıqla ayağa qalxın, mənim və sizin imamınız olan Əli ibn Hüseyn (ə)-ın hüzuruna gedək və o cənab bizim vəzifəmizi müəyyən etsin.

Onların hamısı Mühəmməd Hənəfiyyə ilə birgə İmam Səccad (ə)-ın hüzuruna gəldilər. Mühəmməd Hənəfiyyə onların nə üçün gəldiklərini İmam Səccad (ə)-a söyləyib vəzifələrinin nə olduğunu bəyan etməsini xahiş edir. İmam Səccad (ə) Mühəmməd Hənəfiyyəni cavabında belə buyurdu:

«Ey Əmi! Əgər bir qul biz Əhli-beyti himayə edərsə ona kömək etmək camaata vacibdir. Mən bu iş üçün səni özümə nümayəndə seçirəm və sən hər nəyi məsləhət bilsən ona əməl et».[1]

Şiələrin başçı və ağsaqqalları əli dolu və xatirçəm imamın hüzurundan icazə alıb çıxdılar. Onlar öz-özlərinə deyirdilər:

- İmam Zeynəl-Abidin (ə) və Mühəmməd Hənəfiyyə bizi qiyam etməyə izn veriblər.

Bəli, şiələrin başçıları Küfəyə qayıdıb məsələnin nə yerdə olduğunu onlara çatdırdılar. Xalq Mədinədən dəqiq məlumatın çatmasını gözləyirdilər. Bu xəbər çatdıqdan sonra bütün camaat qəti qərara gəldilər ki, qiyam edib İmam Hüseyn (ə)-ın intiqamını düşmənlərdən alsınlar.

[1] «Biharul-ənvar» cild 45, səh. 365.

## MUXTARIN QİYAMI

Qiyamın müqəddim-işləri hazırlanarkən, şiələrin rəhbərlərindən bir neçəsi Muxtarla görüşüb, ona belə təklif etdilər ki, əgər Malik Əştərin oğlu İbrahim kimi mərd bir adam bizimlə birləşərsə, biz, qələbəyə daha çox əmin ola bilərik. Muxtar da onların sözünü qəbul edib İbrahim Əştərlə görüşdü və onu özünə yardım etməyə razı etdi. Nəhayət İbrahim Muxtara beyət etdi.

Bütün işlər məxfi şəkildə yerinə yetilirdi. Nəhayət İbn Zübeyrin nümayəndəsi Muxtarın işlərindən xəbər tutdu. Buna görə də 66-cı il Rəbiyul-əvvəl ayının 12-i, şənbə günü Kufə şəhərində hərbi vəziyyət elan olundu. Qiyam rəsmi şəkildə başlamazdan əvvəl ara-sıra toqquşmalar baş verdi. Elə döyüşün ilk anlarında Kufə nizamlı qüvvələrinin rəisi İbrahim Əştərin əli ilə öldürüldü. Muxtar rəsmi olaraq qiyam əmrini elan edib «Ya mənsulər-ümmət» şuarının verilməsini əmr etdi. Qiyamçılar arasında «Ya ləsaritil Hüseyn» kimi başqa şuarlar da var idi.

O dövrdə xalis şiələrin əksəriyyəti, həmçinin vilayət məsələsinə etiqadı olanlar dünyadan köçmüş, və onların sayı olduqca azalmışdı.

O zaman da xalqın əksəriyyəti, şiələr və məvalilər (iranlılar) ümidsiz və çətin bir şəraitdə yaşayırdılar. Onlar vilayət məktəbini və s. ayırd etməyə qadir deyildilər.

Bu cəhətdən belə nəzərə çarpır ki, onlar yalnız Muxtar ilə kifayətlənirdilər.

Buna görə də camaat asanlıqla Muxtarın Məhəmməd Hənəfiyyə tərəfindən Məhdi və xilaskar adı ilə etdiyi müvəffəqiyyətli qiyamına cəzb olunurdular. Eləcə də aşıb

daşmaqda olan zülm və çətinlik camaatı Muxtara qoşulmağa sövq edirdi.

Muxtarın dostlarının əsas hissəsini İranlılar təşkil edirdi. Tarixçilərin əksəriyyəti bu barədə belə yazmışlar: Başqa tayfalarla müqayisədə Muxtarın qiyamına qoşulanlar içində İraqın İranlı sakinləri sayca üstünlük təşkil edirdilər. İslamdan əvvəl İraq İran hökumətinin Üsul idarəsi altında idi və İraq camaatının əksəriyyəti İranlılardan ibarət idi. İraqın tanınmış şəhərlərindən biri olan Mədain neçə illər İran şahlarının paytaxtı olmuşdur ki, hal hazırda da «Mədain eyvanı» adı altında olan saray məşhurdur.

İslamdan sonra İraqlı sakinlərin əsasını İranlılar təşkil edirdilər. Əmirəl-möminin Əli (ə) İslam hökümətinin mərkəzini Hicazdan İraqa köçürdükdən sonra, İraq camaatının əksəriyyətini təşkil edən fars dilli iranlıların məhəbbəti (bir min) o Həzrətə daha da çoxaldı. Buna görədə o Həzrətin İraqda çoxlu İranlı şiələri var idi.[1]

## MUXTARIN QİYAMININ BAŞLANMASI

Muxtar döyüş paltarını geyinib silahını götürdü. İnsan axını yola düşdü. Silahlanmış igidlər, xüsusən o günlər hamıdan zəif və başqasının əli altında yaşayan qullar (kölələr), məvalilər və şiələr bu gün qurur və izzətlə dəstə-dəstə Muxtara qoşulurdular. Səhərin nuru üfüqdən görünməyə başladı. Döyüşçülər sübh namazını qılmaq üçün hərəkət etdilər. Qiyamın rəhbəri olan Muxtar irəlidə dayanıb sübh namazını

---

[1] Daha çox məlumat üçün «İmam Həsən (ə) və İmam Hüseyn (ə)-ın başına nələr gəldi» kitabına müraciət edilsin.

qılırdı. O namazı görənlərdən biri Həmid ibn Müslim deyir: Sübh namazını Muxtarın imaməti ilə qıldıq.

O birinci rəkətin həmdindən sonra «Vən-Naziat» və ikinci rəkətdə isə «Əbəsə» surəsini gözəl avazla qiraət etdi.

O, daha sonra əlavə etdi: And olsun Allaha mən ondan fəsahətli və xoş ləhcəli birisini görməmişdim. Digər tərəfdən isə İbn Muti (Küfə hakimi) camatı məscidin qabağına toplanmağı çarçıya əmr edib şəhər məmurlarının rəisi Rəşid ibn Əyyasa dedi: Camaata məscidin qabağında toplaşacaqlarını bildir. Rəşid haray salıb qışqırdı:

- Ey camaat! Bilin bu gecə məscidə gəlməyənin qanı hədərdir. Küfənin iki üzlü və munafiq rəisləri öz qəbilə və qohumları ilə dəstə-dəstə qəsrin daxilində, İbn Mutinin dövrəsinə toplaşdılar. İbn Muti Muxtarla mubarizə aparmaq üçün Əhli-beyt (ə)-ın düşmənlərindən kömək istədi və öz sərkərdə və komandirlərinin əksəriyyətini Kərbəla faciəsini törədələrdən seçdi. Onlar da hay-küy və həyəcanla camatı Muxtarla mübarizəyə təhrik edirdilər. Çünki, hakimiyyət Muxtar və şiələrin əlinə keçərsə, iti qılınçlarının ucu onlara tərəf çevirəçəklərini və günlərini qara edəcəklərini bilirdilər.

## MUXTARIN QƏLƏBƏSİ

İki tərəf arasında amansız döyüş baş verdikdən sonra, Muxtarın qoşunu düşməni darma-dağın edib bazara soxuldular. Onlar Küfənin mərkəzində yerləşən böyük məscidə çatdılar. İbn Zübeyrin bədbəxt nümayəndəsi olan İbn Müti, yerdə qalan qoşunu ilə qəsrə sığındılar.

Muxtarın qoşunu ilə yanaşı başqa dəstələr meydanda, məscid və bazar qarşısında toplaşaraq, üç gün qəsrin ətrafını mühasirəyə aldılar.

Bu hadisələrin şahidlərindən biri olan Həsr ibn Saleh deyir:

Kufə hakimi ibn Muti və tərəfdarlarının üç gün Muxtarın silahlı qüvvələri tərəfindən muhasirəyə alınmış Darul-imarədə yalnız un yeyirdilər. Üç gün sonra ibn Muti gecənin zülmətindən istifadə edib, qadın paltarında qəsrin mühafizə qapılarından biri olan Rumyandan, Muxtarın əskərlərinin gözündən yayınaraq canını mühasirədən qurtarıb Əbu Musanın evinə girdi. Buna görədə o gün, səhər tezdən qəsrin qapısını açıb İbrahim Əştərə xitab edərək:

- Ey Əştər oğlu, bizə aman ver. – dedilər. İbrahim onlara dedi: «Sizə aman verdim». Beləliklə İbn Zübeyrin axırıncı müqavimət səngəri Muxtarın əli ilə süqut etdi. Mühasirədə olanlar dəstə-dəstə qəsrdən çıxdılar. Yüz səksən dərəcə dönərək Muxtarla birləşib ona beyət etdilər.

Mühasirədə olanlar qəsrdən çıxdıqdan sonra, Muxtar və sərkərdələri fateh kimi qəsrə daxil oldular. Səhəri gün Muxtar camaat üçün uzun bir xütbə oxudu.

Muxtar şəhərin came məscidində söhbət etdikdən sonra minbərdən aşağı düşüb onun kənarında əyləşdi. Beyət mərasimi rəsmi olaraq elan olundu.

Camaat dəstə-dəstə Muxtarın əlini Peyğəmbər (s) Əhli-beytinin nümayəndəsi kimi sıxdılar.

Musa ibn Amir deyir:

- Qəbilə ağsaqqalları da gəldilər, və Muxtar əlini irəli uzatdı və camaat ona beyət etdilər. O: - Mənimlə Allahın kitabı, Peyğəmbərinin sünnəsi əsasında, Əhli-beyt (ə)-ın intiqamını almaq yolundan azmışlarla mübarizə və zəifləri müdafiə etmək əsasında beyət edirsiniz - deyə, əl verirdi.

Camaat dəstə-dəstə Allahın kitabı, Peyğəmbər (ə)-ın sünnəsi, İmam Hüseyn (ə)-ın qanının intiqamı və zəiflərin müdafiəsi əsasında ona beyət etdilər.

Muxtar Kufənin hakimiyyətini bütünlüklə ələ keçirib rəsmən öz hökümətini elan etdi. O, hər şeydən əvvəl əskərlərini ruhlandıraraq onlara hədiyyə verməyə başladı.

Muxtar Kufəni ələ keçirərkən beytül-malın xəzinəsindən cəmi doqquz milyon dirhəm Muxtarın əlinə keçdi.

Daha sonra Muxtar yeni nümayəndələr seçməyə başladı. O, Ərməniyanın, Azərbaycanın, Mosulun, Mədainin və s. məntəqələrin valilərini təyin etdi.

«Zəxair» kitabında belə yazılmışdır: Muxtar ibn Əbi Ubeydə 66-cı ildə Kufədə İmam Hüseyn (ə)-ın intiqamını almaq üçün qiyam etdi.[1]

## MUXTARLA ÜZBƏÜZ ÜÇ CƏBHƏ

1- Əməvilərin rəhbərliyi və İbn Ziyadın başçılığı ilə Şam cəbhəsi.

2- Əbdullahın qardaşı Məsəbin rəhbərliyi ilə Abdullah ibn Zübeyrin cəbhəsi.

3- İmam Hüseyn (ə)-ın qatilləri Ömər Səd, Şimr, Xuli, Sənan ibn Ənəs və Şəbəs ibn Rəbi kimi cəllad şəxslərin rəhbərliyi ilə Kufədə daxili cəbhə.

[1] «Zəxair» səh. 207.

## MƏRVANIN ŞAMDAKI FƏALİYYƏTİ

Yəzidin ölümündən və onun oğlu hakimiyyətdən uzaqlaşdıqdan sonra Mərvan Həkəm özünü müsəlmanların xəlifəsi elan etdi. Şamın rəis və ağsaqqalları ona beyət etdilər.

O, öz mövqelərini Şamda möhkəmlətdikdən sonra, əməvi hökümətinin muxaliflərini susdurmaq qərarına gəldi. Elə buna görə də özünü müsəlmanların xəlifəsi elan etmiş İbn Zübeyri məhv etmək üçün Hicaza qoşun göndərməyi, həmçinin Muxtar və İbrahim Əştərin rəhbərliyi ilə alovlanan İraq inqilabını darma-dağın etmək üçün qoşun hazırlamağı qərara aldı.

Bu iki qoşundan biri Cübeyş ibn Ləccə Qiyninin sərkərdəliyi ilə Hicaza doğru, o birisi isə Übeydullah ibn Ziyadın başçılığı ilə İraqa tərəf hərəkət etdilər. Mərvan ibn Ziyada İraqı tutub Kufəni ələ keçirdikdən sonra, İraqın hakimi kimi Kufədə möhkəmlənmək əmrini vermişdi. O, həmçinin ona əmr vermiş idi ki, Kufəni işğal edəndən 3 gün müddətində şəhər camaatının canı, malı və namusu ona və qoşununa Mübah və halal sayılsın. Lakin İbn Ziyadla İbn Zübeyrin Cəzirə məntəqəsindəki valisi arasında toqquşmalar baş verdiyindən o, bir il İraqın mərkəzinə hücum etməyə müvəffəq olmadı.

## MƏRVANIN ÖLÜMÜ VƏ ƏBDÜL MƏLİKİN HAKİMİYYƏT BAŞINA GƏLMƏSİ

Mərvan Həkəm qısa müddət hökümət etdikdən sonra dünyadan getdi. Şeytan sifət və hiyləgər siyasətçi Əbdul Məlik xəlifə kimi atasının yerini tutdu. Əbdul Məlikin səltənəti dövründə Bəni-Üməyyə böyük qüdrətə yiyələnərək o günün

bütün məmləkətlərinə hakim oldu. Əbdül Məlik şeytan sifət siyasətçi və tədbirli bir şəxs idi. Elə buna görə də o zaman yüksək əhəmiyyətə malik olan islam məntəqələrinin əksəriyyətini öz hakimiyyəti altına sala bildi. O hökuməti ələ keçirməzdən əvvəl məscid və Qurana məhəbbət bəsləyirdi lakin hakim olacağını hiss etdiyi anda Quran və məscidlə vidalaşdı. Alimlərdən biri Əbdül Məlikdən:

- Eşitmişəm şərab içirsən - deyə soruşdu.

Əbdül Məlik:

- Mən təccüb edirəm ki, sən üzümün qanı olan şərabı içməyimdən narazısan lakin xalqın qanını içməyimdən narazı deyilsən!

Əbdül Məlikin özü belə deyirdi:

- Hakimiyyəti ələ keçirməzdən əvvəl sərçə qanını axıdanda ürəyim yanırdı, indi isə Həccacın bu qədər cinayət edib xalqın qanını nahaq yerə axıtmasına narahat olmuram.

Əbdül Məlikin ən böyük hədəfi iki böyük ölkəni, Hicaz və İraqı ələ keçirmək idi.

O yenidən İbn Ziyada İraqı ələ keçirib, İraq böhranını həll edib özü oranın hakimi olmağına əmr etdi.

İbn Ziyad İraqın Şimalında yerləşən cəzirə məntəqəsində İbn Zübeyrin quvvələrinə qalib gələ bilməyib əlacsız Mosul məntəqəsinə doğru üz tutdu.

O zamanlar Əbdürrəhman ibn Səid Muxtarın tərəfindən Mosul məntəqəsində hökumət başında idi.

İbni Ziyadın ordusunun Mosul məntəqəsinə soxulması xəbəri Muxatara çatanda o, Yəzid ibn Ənəsi 3 min nəfərlik qoşunla Mosul məntəqəsinə göndərdi. Bir sıra toqquşmalardan sonra muharibənin Muxtarın qoşunun qələbəsi ilə qurtarmasına az qalmış Yəzid ibn Ənəs muharibə meydanında xəstələnib

dünyadan getdi. Canişini Vərqa onun cənazəsinə namaz qıldı və onu döyüş meydanının yaxınlıqında torpağa tapşırdı.

Dəfn mərasimindən sonra, yeni komandan əskərlərə üz tutub dedi:

- Sizin nəzəriniz nədir? Bizə verilən doğru məlumatlara görə Übəydullah ibn Ziyad Əməvi xəlifəsi tərəfindən 80 minlik qoşunla hal hazırda biz tərəf hərəkət etməkdədir.

Vərqanın sözləri əsgərlər arasında çaxnaşma yaratdı. Əksəriyyət geri dönmək istəyirdilər. Daha sonra isə hamılıqla Kufəyə geri qayıtmaq qərarına gəldilər.

Muxtarın qoşununun geri çəkilməsi və baş komandanın ölüm xəbəri Kufədə çoxlu şaiələrin yayılmasına səbəb oldu. Bir qrup adamlar qoşunun məğlub olmasını komandanın isə döyüş meydanında həlak olmasını deyirdilər. Muxtar vəziyyəti belə gördükdə, yubanmadan İbrahim Əşdəri yanına çağırtdırıb və ona gecikmədən 7 minlik dinc qoşununa özünü Yəzid ibn Ənəsin qoşunla çatdırmaq əmrini verdi. Burada qeyd etmək lazılmdır ki, Muxtar əvvəllər İmam Huseyn (ə)-ın qatillərinə öz əməllərinin cəzasına çatacaqlar şuarını verdiyi halda, ilk qələbədən sonra öz şuarını unudub başqa məsələlərə məşqul oldu və nəhayət öz vacib əməlini tərk etdi. Yəzid ibn Şəracin deyir ki, Məhəmməd Hənəfiyyəyənin hüzuruna getdim və Muxtardan söhbət düşdü. Məhəmməd Hənəfiyyə dedi: - İmam Hüseyn (ə)-ın qatilləri Muxtarla oturub-durduğu halda o elə hesab edir ki, bizim şiələrdəndir.

## DAXİLDƏKİ MÜXALİFƏTİN FƏALİYYƏTİ

İbrahim Əştər yola düşməklə nizami qüvvələr Kufədən xaric olmuş və Muxtar tənha qalmışdı. Elə buna görədə daxili düşmənlər İmam Hüseyn (ə)-ın qatilləri başda olmaqla

münasib şəraitin yarandığını və Muxtarı aradan götürmək, şiələrin və İman Hüseyn (ə)-ın intiqamını almaq istəyənlərin qələbəsinə son qoymaq mümkün olduğunu başa düşdülər. Kufədə qarışıqlıq salanlar Kərbəla faciəsini törədən ərəb əşrəflərinin başçılığı ilə 66-cı ilin Zil-hiccə ayında öz qoşunlarını hazırlayaraq qiyama başladılar. Bu hadisələr baş verən zaman Muxtarın qoşununun əsas hissəsi İbrahim Əştərin sərkərdəliyi ilə şəhərdən xaric olub Sabat məntəqəsində möhkəmlənmiş və Übəydullah ilə müharibəyə hazırlaşdılar. Qiyamçılar Kufənin 9 həssas məntəqəsində yerləşdilər, onların əsas quvvəsi isə «Səbi» meydanına toplaşmışdı. Muxtar Kufəlilərin sui-qəsdlərindən xəbər tutduqdan sonra kifayət qədər quvvə və İbrahim Əştərin özü olmadan heç bir iş görmək mümkün olmadığını hiss edib, dərhal xidmətçilərindən birinə əmr etdi ki, durmadan özünü İbrahimə çatdırıb onların tez bir zamanda Kufəyə qayıtmaqlarını istəsin. Muxtar dostları ilə birgə düşmənin sıx mühasirəsinə düşmüşdü. Şəhərin vəziyyəti olduqca həssas və xətərli idi. Elə buna görə də Müxtar İbrahimin qoşunla şəhərə qayıtması üçün zəhmət çəkirdi. Kufə Əşrəflərinin başçılığı ilə ayağa qalxan Kufəlilərin qiyam şölələri şəhərin bütün məhəllələrini və mühüm mərkəzlərini bürümüşdü. Bütün yollar, meydanlar və darvazalar bağlanmış və Muxtarın sakin olduğu, şəhərin qəlbində yerləşən qəsr onlar tərəfindən tamamilə mühasirəyə alınmışdı. İş o yerə çatmışdı ki, Muxtar və onun yavərləri yemək və su əldə etmək üçün belə olduqca çətinlik çəkirdilər. Hər an qəsrin süqutu, Muxtar və ətrafındakıların öldürülməsi ehtimalı güclənirdi.

Bəli, Muxtarın qasidi Sabat məntəqəsində özünü İbrahim Əştərə çatdırıb, görüşdü. Vəziyyətin gərgin olduğunu və Muxtarın onun dərhal geri qayıtması əmrini verdiyini ona söylədi. İbrahim elə həmin gecə, yubanmadan qoşuna geri dön

əmri verdi. İbrahimin qoşunu Kufə şəhərinə daxil olub. Kufənin came məscidində, qəsrin yaxınlığında dayandı. Az sonra hər iki tərəfin qoşunu bir-birilə toqquşdular. Nəticədə qiyamçıların çox hissəsi öldürülüb 500 nəfəri isə əsir edildi.

500 nəfər əsirin 248 nəfəri Kərbala faciəsinin fəal iştirakçılarından olduğu müəyyən edildi. Onları əsirlərin arasından seçib çıxartdılar. Muxtar onların hamısının boynunun vurulmasını əmr etdi. Cinayətkarların hamısını bir-bir irəli gətirib boyunlarını vurdular.

## İMAM HUSEYNİN (Ə) QATİLLƏRİNDƏN İNTİQAM

Muxtar bütün şəhəri tabe etdikdən sonra, Aşura hadisəsindən əli olanlardan 250 nəfər qiyamçının edam hökmünü verdi. O carçıya minarənin üstünə çıxıb belə car çəkməsini etdi:

- Ali Muhəmməd (s)-in qanına əli boyanmış şəxslərədən başqa evinə girib və qapısını bağlayan hər kəs amandadır!

Şəhərə çaxnaşma salanların əksəriyyətinin əlləri İmam Huseyn (ə)-ın qanına bulanmışdı. Elə buna görədə onlar başa düşürdülər ki, bu dəfə əvvəlkindən fərqli olaraq onları ciddi təhlükə gözləyir. Kufə daxilində Muxtarın əleyhinə edilən qiyam 66-cı ilin zil-hiccə ayının 24-də çərşənbə günü Muxtarın qələbəsi ilə başa çatdı.

Qiyama başçılıq edənlərin qalanları isə Bəsrəyə qaçıb və Məsəb ibn Zübeyrə pənah apardılar.

Bu zaman Muxtar, İmam Hüseyn (ə)-ın qatillərinin kökünü kəsməyi qərara alıb və söhbətlərində bunu vurğuladı:

- Bizim dinimiz bizə İmam Hüseyn (ə)-ın qatillərinə bu dünyada əmniyyət və asayişlə yaşamalarına imkan

verməyimizə icazə vermir. Əgər belə etməsəm şübhəsiz mən Peyğəmbər (s)-in övladlarına kömək etməmiş, düşmənlərindən intiqam almamış oluram və camaatın mənə verdikləri kəzzab ləqəbi doğru və həqiqətə uyğun olacağdır.

Musa ibn Amir deyir:

- Muxtar İmam Hüseyn (ə) qatillərinin izinə düşmək əmrini verib və dedi:

- And olsun Allaha nə qədər ki, bu caniləri yer üzündən məhv etməmişəm yemək-içmək mənim canıma yatmır.

Bəli, Muxtarın başı İmam Hüseyn (ə)-ın qatillərini tutmağa qarışdı. Onları hamısını - Ömər ibn Səd, Şimr ibn Zilcövşən və Sənan ibn Ənəsdən tutmuş axırıncı nəfərlərinə kimi tutub öz cinayətlərinə layiq cəzalandırdı. Qeyd etmək lazımdır ki, Kərbəla hadisəsində iştirak etdiklərinə görə öldürülənlərin sayı təxminən 3 min nəfərə nəfərə çatdığı tarixlərdə yazılmışdır.

Şimr ibn Zilcövşən Bəsrəyə qaçarkən yolda Muxtarın adamları tərəfindən ələ keçirilib öldürülmüşdü.

Muxtar öncə Ömər ibn Sədə Muxtarın əleyhinə qaldırılan qiyamda iştirak etməmək şərti ilə aman namə vermişdi. Bu çağnaşmada onu da əsir etdilər. O, amannaməni göstərdi. Ona bu şərtin bütün hadisələri və eləcə də evdən çıxıb girməyi əhatə etdiyini dedilər.

Bir gün Muxtar ətrafındakı yavərlərinə dedi:

- Sabah mən iri addımlı, çuxur gözlü, enli qaşlı bir kişini öldürəcəyəm. Onun ölümünə bütün möminlər və müqərrəb mələklər sevinib şad olacaqlar. Muxtarın yanında olanlardan Heysəm ibn Əsvəd onun Ömər Sədi nəzərdə tutduğunu başa düşdü. Evinə qayıdıb oğlunu Ömər Sədin yanına göndərərək bu

məsələni ona xəbər verdi. Ömər dedi: Allah atana rəhmət etsin o əhd-peyman bağladığı halda məni necə öldürə bilər?[1]

Qeyd etmək lazımdır ki, Muxtarın bacısı Ömər Sədin həyat yoldaşı idi və Ömər Sədin ondan Həfs aldı bir övladı da var idi. Ertəsi gün Muxtar Əbu Ümrəni Ömər Sədin dalınca göndərdi. Əbu Ümrə Ömər Sədi yatdığı halda qılınc zərbəsi ilə öldürüb başını Muxtarın yanına gətirdi. Muxtar Ömər Sədin oğlu Həfsdən: - Bu başı tanıyırsan? - deyə soruşdu.

O dedi: - Bəli, onsuz həyatın şirinliyi yoxdur.

Muxtar onun da ölüm hökmünü verib O, İmam Hüseyn (ə)-ın, bu isə Əli Əkbərin yerinə. Lakin and olsun Allaha, Qureyşin üçdən bir hissəsini öldürsəm belə onların bir barmaqlarının əvəzi verilməmişdir» - deyə cavab verdi.

Daha sonra isə Muxtar Ömər ibn Səd və Şimrin başını Məhəmməd Hənəffiyə və İmam Səccad (ə) üçün göndərdi.

## MİNHALIN XATİRƏSİ

Minhan ibn Əmr deyir:

- Kəbə evini ziyarət etdikdən sonra Məkkədən Mədinəyə yollandım. İmam Səccad (ə)-ın hüzuruna çatdım. İmam Səccad (ə) məndən soruşdu: - Minhal! Hərmələ ibn Kahil Əsədidən xəbərin varmı?

Ərz etdim: - Mən Kufədən çıxarkən diri idi.

Bunu dedikdə gördüm ki, İmam Səccad (ə) əllərini göyə qaldırıb belə dua etdi:

---

[1] «Nəfəsül-Məhmum» səh. 313.

**«Pərvərdigara, qılınc yanğısını ona daddır! Pərvərdigara qılınc yanğısını ona daddır! Pərvərdigara cəhənnəm atəşinin yanğısını ona daddır».**[1]

Əbu Muxnəf İmam Bariq (ə)-dan nəql edir: Hərmələ Əli Əsgəri atasının qucağında oxlayarkən İmam Hüseyn (ə) düşmənə nifrin edib dedi:

«Pərvərdigara bunlardan bizim intiqamımızı al».[2]

Minhal deyir:

- Mədinəni ziyarət etdikdən sonra Kufəyə tərəf yollandım. Kufəyə çatarkən gördüm ki, Muxtar Kərbəla qatillərini öldürməklə məşğuldur. Mən onunla qədimdən dost idim. Bir neçə gün evdə qonaqları qarşılamaq üçün oturduqdan sonra Muxtarı görmək üçün ata minin evinə tərəf yollandım. Mən onu evindən kənarda bir dəstə camaatla gördüm. Elə bil ki, onlar iş dalınca gedəcəkdilər. Muxtarın gözü mənə sataşdı:

- Minhal, nəyə görə indiyə kimi bizim görüşümüzə gəlməmisən? Bizə qələbə çaldığımıza və yeni hökümət qurduğumuza görə baş vurub təbrik deməmisən? Bizimlə bu qiyamda həmkarlıq etməmisən? - deyə soruşdu.

- Əmir! Mən həcc səfərinə getmişdim və indi hüzurunuza çatmışam.

Az sonra isə onunla yola düşdük. Vəziyyət barəsində söhbət edirdik ki, Kənsə məhəlləsinə çatdıq. Muxtar ayaq saxladı. Sanki nəyinsə intizarında idi. Gözlərini bir nöqtəyə zilləmişdi. Hərmələnin o məhəllədə gizləndiyini ona xəbər verdilər. Az sonra o, öz adamlarından bir qrupunu Hərmələni axtarmaq üçün göndərib və özü oradaca qaldı. Çox keçməmişdi

---

[1] «Əmali» cild (Şeyx Tusi)
[2] «Tarixi -Təbəri» cild 5, səh. 448.

ki, onun məmurları qaçaraq geri qayıdıb xoşhallıqla fəryad etdilər:

- Ey Əmir, şad xəbər! Gözün aydın olsun, Hərmələ əsir oldu.

Başqa bir qrup isə bir nəfəri sürüyə-sürüyə Muxtarın yanına gətirdilər. Bəli, özü idi, Hərmələ, Əli Əsğərin qatili və Kərbəla hadisəsinin fəal iştirakçısı. Muxtarın gözü onun vahiməli üzünə sataşdı, onu nifrət dolu baxışla süzüb dedi:

- Allaha şükr olsun ki, əlimə düşdün.

O həmin dəqiqə yubanmadan intiqam üçün təyin etdiyi şəxsi yanına çağırdı. Həmişəki kimi hazır olan o şəxs: - Buyurun, Əmir! - dedi.

Muxtar əmr etdi:

- Əvvəl əllərini qılıncla vur.

O, dərhal güclü bir zərbə ilə Hərmələnin murdar əllərini kəsib yerə saldı. Bu, biri ilə kamanı və o birisi ilə isə onu tutub bir dəfə İmam Hüseyn (ə)-ın günahsız tiflinin boğazını, bir dəfə Həzrət Əbuzfəzlin gözünü və başqa bir dəfə isə İmam Hüseyn (ə)-ın qəlbini nişan almış həmin əllər idi. Bəli bu iki napak, nəcis və çirkin əl kəsilməli idi! Daha sonra Muxtar fəryad edərək dedi: «Ayaqlarını da qılıncla vur!»

Əmr icra olundu. Hərmələnin əlsiz və ayaqsız cəsədi çirkin qanına qəltan olmuşdu. Muxtar yenidən qışqırdı: «Od, od!»

Dərhal cəsədin üstünə odun töküb od vurdular. O cinayətkarın natəmiz cəsədi odda yandı.

Minhal deyir:

- Mən Muxtarın yanında dayanıb heyrətlə bu mənzərəyə tamaşa edirdim. Hərmələnin bədəni atəşdə yanarkən ixtiyarsız uca səslə dedim:

- Subhanəllah!

Muxtar dərhal üzünü mənə çevirib dedi:

- Minhal! Allaha dua etdin, səbəbi nə idi?

Dedim:

- Ey Əmir! Dediklərimə yaxşı-yaxşı qulaq ver. Mən bu səfərimdə Məkkədən qayıdıb Əliyyibin Huseyn İmam Səccad (ə)-ın hüzuruna getdim. O, məndən Hərmələni xəbər aldı. Mən cavab verdim ki, hələ diridir. Gördüm İmam Səccad (ə)-ın əllərini göyə qaldırıb iki dəfə belə dua etdi: - «Pərvərdigara qılınc və atəş yanğısını ona daddır!»

Muxtar təəccüblə soruşdu:

- Sən şəxsən özün bunu İmam Səccad (ə)-dan eşitdin?

- Bəli, -dedim. - And olsun Allaha, özündən eşitdim.

Minhal deyir: - Gördüm Muxtar atdan yerə enib iki rukət namaz qıldı və səcdəsini uzatdı. O, qalxıb ata minənə kimi Hərmələnin cəsədi külə çevrilmişdi. Birlikdə evə yola düşdük. Öz məhəlləmizə çatdıq. Evimə yaxınlaşdım. Burada ondan xaiş edib: - Ey Əmir, mərhəmət edib bir neçə dəqiqə istirahət etmək üçün bizim mənzilimizə gəlin, bir şey meyl edin dedim.

Muxtar mənə baxıb dedi:

- Minhal! Sən İmam Səccad dörd duasını mənə dedin. Allah-Təala o Həzrətin duasını mənim əlimlə icabət etdi və belə bir halda sən məni yeməyə dəvət edirsən? Xeyr, bu gün şükür orucu tutmaq vaxtıdır. Allah bu işi mənim nəsibim etdiyinə görə oruc niyyəti etdim.

(Hərmələ İmam Hüseyn (ə)-ın kəsilmiş başını aparan şəxs idi.)[1]

---

[1] «Biharul-ənvar» cild 45, səh. 333.

## MUXTAR ŞAM QOŞUNU İLƏ ÜZ-ÜZƏ

Daxildəki qiyamçıları və Kərbəla canilərini öldürdükdən sonda intiqamın ikinci mərhələsi başlandı. Bu da Şam qoşununu məğlub etməkdən ibarət idi. Şamlılar İbn Ziyadın başçılığı ilə Mosul məntəqəsinin ətrafında yerləşmişdilər. Daxili qiyamçıları və İmam Hüseyn (ə)-ın qatillərini susduran zaman Muxtarın əsas qüvvəsini İbrahimin könüllü qoşunu təşkil edirdi.

Təbəri yazır: 66-cı ilin Zil-həccə ayının 24-də Muxtar İbrahim Əştəri güclü bir qoşunla Şam qoşunu ilə müharibəyə göndərdi.

Muxtarın 30 min nəfərə yaxın olan təpədən-dırnağa qədər silahlanmış qoşunu eşq, həyəcan, nəzm və nizamla döyüş meydanına tərəf hərəkət etdi.

İbn Ziyad - bu qan içən canavar – bununla neçənci dəfə idi ki, çox saylı qoşunla İraqa tərəf hərəkət edirdi. O, sərxoş olub və qururla öz qoşununun qarşısından keçir və onlara tamaşa edirdi. İbn Ziyad Muxtarın qoşununun İbrahim Əştərin sərkərdəliyi ilə hərəkət etdiyindən xəbər tutdu. İbn Ziyadın 83 min nəfər döyüşçüdən ibarət qoşunu bütün döyüş təchizatı ilə Xazir çayının sahilində Muxtarla üzləşdilər.

İki tərəf arasında döyüş başlandı. Elə döyüşün ilk anlarında İbn Ziyadın sağəli Həsin ibn Nüməyr cəhənnəmə vasil oldu və bu da Muxtarın qoşunu üçün birnci qələbə idi.

Muxtarın əsgərləri İbn Ziyadın qoşununun üstünə yeridi. İki tərəfin qoşunu bir-birinə qarışdı. Döyüş qızışırdı. Hər iki tərəfin döyüşçüləri sağ və sol cinaha, qoşunun qəlbinə hücum edərək mübarizə aparırdılar. Nəhayət qürub çağı oldu. Hava getdikcə qaranlıqlaşır, ulduzlar yavaş-yavaş görünməyə

başlayırdı. Lakin Muxtarın döyüşçüləri hələ də hay-küy və həyəcanla döyüşə atılırdılar.

Tarixçilər yazır: Muxtarın sərkərdəsi İbrahim elə qəhrəmancasına döyüşürdü ki, Şamın 80 mindən yuxarı olan böyük bir ordusu 30 mindən az olan kiçik bir qoşunun qarşısında qısa müddətdə məğlub oldu.

## İBRAHİM ƏŞTƏRİN ÜBEYDULLAHA QƏLƏBƏSİ

İbrahimin hədəfi İbn Ziyadın döyüş meydanından salamat çıxıb qaçmasının qarşısını almaq idi. Elə buna görə də o öz qoşununu İbn Ziyadın çadırının və baş qərərgahının üstünə yeritdi. İbrahim diqqətlə İbn Ziyadı izləyirdi. Xazir çayının sahilində mübarizənin qızğın yerində qəfildən o, İbn Ziyadla qarşılaşdı. İbrahim İbn Ziyada elə bir zərbə vurdu ki, ortadan iki yerə bölündü, bədəninin yarısı bir tərəfə və o biri yarısı isə başqa bir tərəfə düşdü.

İbrahim deyirdi: «Onun başına elə bir zərbə vurdum ki, atının qabağında qıvrılıb-açılır və başı kəsilmiş inək kimi bağırırdı. İbn Ziyad Yəzidin yaxınn yavərlərindən və əməvi hökumətinin əsas başçılarından bir idi. Kərbəla faciəsinində bütün cinayətlərə o rəhbərlik etmişdir. Elə buna görə də Yəzid ona qarşı xüsusi hörmət bəsləyirdi. O, İmam Hüseyn (ə)-ın şəhadətindən sonra Yəzidin yanında yüksək vəzifəyə sahib olmuşdur.

Burası da çox təəccüblüdür ki, Muxtarla İbn Ziyadın üzləşməsi və Muxtarın qələbə çaldığı gün 67-ci ilin Aşura gününə təsadüf edirdi. Əlbəttə bu çox təəccüblü və qəribə bir hadisə idi.

İbn Numa Şüəbidən nəql edir ki, İbrahim Əştərin İbn Ziyadı öldürdüyü gün 67-ci ilin Aşura günü ilə üst-üstə düşür. O vaxt İbn Ziyadın 39 yaşı var idi.

Bu təsadüfi bir hadisə olmaya da bilərdi, bəlkə də Allah İbn Ziyadın qoşunu tərəfindən İmam Huseyin (ə)-ın məzlumçasına şəhid edildiyi gündə onun intiqamını almaq istəmişdi.

Daha sonra isə İbrahim 70 nəfərə yaxın zabiti başının kəsilməsini əmrini verdi. (Kərbala şəhidlərinin başları sayında) Və onların adlarında bir vərəqə yazıb başın sahibinin kim olduğunu müəyyən etmək üçün qulaqlarından asdılar. İbn Ziyadın qoşunun məğlub olub 90 faizi həlak edilməsi və özünün öldürülməsi xəbərini Muxtara verəndə o, minbərin üstündə idi. Muxtar bu xəbəri eşidən kimi sevincindən uçmaq istəyirdi. Muxtar və camaat sevindilər. Məclis bayrama çevrildi.

## ÜBEYDULLAHIN BAŞI MUXTARIN HÜZURUNDA

Bəli, İbn Ziyadın və Şam qoşunun başqa canilərinin başlarını Muxtarın yanına gətirərkən Muxtar yemək süfrəsinin başında əyləşmişdi. Gözü o çirkin başlara düşdükdə Allaha həmd-səna edib dedi:

- İmam Hüseyn (ə)-in kəsilmiş başını İbn Ziyadın qarşısına qoyarkən yemək süfrəsinə əyləşmişdi. Və indi də İbn Ziyadın başı mənim qarşıma qoyulur, mən isə yemək süfrəsinin başında oturmuşam. Yemək yeyib qurtardıqdan sonra ayağa durub öz ayağını İbn Ziyadın napak üzünün üstünə qoydu və sonra

qulamına dedi: Bu ayaqqabını apar yu və pak et. Çünki onu kafirin üzünə vurdum.[1]

## ÜBEYDULLAHIN BAŞI İMAM SƏCCADIN (Ə) HÜZURUNDA

Muxtar 70-ə yaxın kəsilmiş başı Kərbəla şəhidlərinin başlarının Darul-imarədə asıldıqları yerdən asılmasını əmr etdi. Daha sonra isə başları Mədinəyə Peyğəmbər (s)-in Əhli-beyti, xüsusilə də İmam Səccad (ə), Myhəmməd Hənəfiyyənin yanına göndərdi.

Muxtarın məmurları İmam Səccad (ə)-ın mənzilinə gələrkən Həzrət yemək süfrəsi ətrafında əyləşmişdi. Həzrət bu xoş xəbəri eşidəndə İbn Ziyadın kəsilmiş başını görəndə çox şadlandı. Şükr səcdəsi edib bu cümlələri bəyan etdi:

«Allaha şükr olsun ki, mənim qanımın intiqamını düşmənimdən aldı. Allah Muxtara xeyirli cəza inayət etsin».

Bu zaman İmam Səccad (ə) üzünü orada olanlara tutub buyurdu:

- Bizi İbn Ziyadın yanına aparanda o yemək süfrəsi başında oturmuş və atamın kəsik başını öz qabağına qoymuşdu. Mən ona belə nifrin etdim: «Pərvərdigara! Mənə, İbn Ziyadın kəsik başını qarşımda görənə qədər ömr ver».

[1] «Biharul-ənvar» cild 45, səh. 335.

## MUXTARIN ABDULLAH İBN ZÜBEYRLƏ ÇƏKİŞMƏSİ

Muxtar İbn Ziyadı məğlub edib qələbə qazandıqdan sonra Abdullah ibn Zübeyr Muxtarın qarşısında real qüvvəyə çevrilərək xəlifəlik iddiası edirdi.

O Məkkəni özü üçün paytaxt seçmiş və Hicaz, İraq və Yəmən kimi geniş bir məntəqəyə hökmranlıq edirdi. Muxtarı təhlükə gözləyirdi. Çünki Abdullah ibn Zübeyr öz qardaşı Məsəbi Bəsrənin hakimi təyin etmişdi. Məsəbin də Muxtara qarşı keçmiş ədavəti var idi. Başqa bir tərəfdən isə Kərbəla hadisəsində iştirak edən Kufə fərariləri və şəxsiyyətli adamların hamısı Məsəbə sığınmışdılar.

Muxtar və Abdullah ibn Zübeyr arasında bir sıra danışıqlardan sonra nəhayət iş mübarizəyə çəkdi. Bu müharibədə Muxtarın qoşunundan üç nəfər Abdullah ibn Zübeyrin əli ilə öldürüldü.

## MƏHƏMMƏD HƏNƏFİYYƏNİN MUXTARA XƏBƏRDARLIĞI

Muxtar bu hadisədən sonra Muhəmməd Hənəfiyyəyə məktub yazıb Mədinəyə göndərdi. O, məktubda öz işləri barədə məlumat yazmış və ondan istəmişdi ki, şəxsən özü bu işə qoşulub Muxtarı himayət etsin.

Muxtar bu yolla öz qoşununu Mədinəyə göndərib Hicazı ələ keçirmək və İbn Zübeyrə qələbə çalmaq istəyirdi.

Lakin Məhəmməd Hənəfiyyənin İman Səccad (ə)-ın tərəfindən Muxtarı dəstəkləmək üçün təyin olunmuş məmuriyyəti yalnız Kərbəla şəhidlərinin intiqamını almaq üçün

idi. Buna görə də onun təklifini qəbul etməyib məktubunun cavabında belə yazdı: «Allaha ibadət et və bil ki, əgər istəsəydim, camaat sürətlə mənim ətrafıma toplaşar və mənim tərəfdarıma çevrilərdi. Lakin mən özümü səhnədən kənara çəkib səbr edib, Allahın hökmünə itaət etdim. O, hökm edənlərin ən yaxşısıdır».

Məhəmməd Hənəfiyyənin Saleh ibn Məsud adlı tərəfdarlarından biri baş çəkmək üçün onun yanına gəldi. Məhəmməd Hənəfiyyə məktubu ona verib şifahi olaraq ona tapşırdı:

- Mənim tərəfimdən Muxtara de ki, Allahdan qorxsun və qan tökməkdən çəkinsin.

Saleh deyir, Məhəmməd Hənəfiyyəyə ərz etdim:

- Məgər bu sifarişi məktuba Muxtar üçün yazmamısınızmı?

Məhəmməd buyurdu:

- Mən bu məktubda Allahdan itaət etməyi ona əmr etmişəm. Bütün xeyir və yaxşılıqlar Allahın itaətində cəm olmuş və pisliklər isə ondan uzaqdır.

Məhəmməd Hənəfiyyənin məktubu Muxtara çatdıqdan sonra o, məktubu camaat üçün oxumayıb və qısa məzmununu öz dostlarına dedi:

- Məni elə bir işə dəvət edibdir ki, iş bütün xeyir-bərəkətin mənbəyi, xəyanət və küfrün qarşısını alandır.

## MUXTARIN TƏNHALIĞI

Bəsrə hakimi Məsəb ibn Zübeyr Kufəni ələ keçirib İraq şiələrini məhv etmək üçün Bəsrə camaatını toplayıb qoşununu müharibəyə hazırladı. Bəsrədəki Kufə fərarilərinin hamısı

bütün hərbi sursat və təchizatları ilə Muxtarın əleyhinə müharibədə iştrak edəcəkdilər.

Başqa bir tərəfdən isə iki tərəf arasında müharibə elan olunduqdan sonra Muxtarın tərəfdarlarından bəziləri ondan uzaqlaşıb öz evlərində oturdular.

Bəli, indi isə Muxtar bir il qanlı mübarizədən sonra Kufə camaat arasında onların ziddiyət ilə üzləşdi. İş o yerə çatdıki, kufəlilər açıqdan-açığa Muxtara kömək etməkdən əl çəkdilər.

## MUXTARIN ORDUSUNUN MƏĞLUBİYYƏTİ

Məsəb ibn Zübeyr Muxtarla müharibə etməyi qarara alıb müharibə üçün hazırlıq işləri görməyə başladı. Muxtar da öz qüvvələrini toplamaqla İbn Şəmitin başçılığı altında böyük bir ordu hazırladı. Məsəb «Məzar» məntəqəsində İbn Şəmitlə qarşılaşdı. Az sonra Məsəbin qoşunu baş komandan İbn Şəmit olan cinahın üstünə yeridi. İbn Şəmit və əksəriyyəti piyada olan qoşunu Məsəbin suvariləri ilə şiddətli müharibəyə girişdilər. Nəhayət ibn Şəmitin qoşununun əksəriyyəti və daha sonra isə özü öldürüldü. Muxtarın sərkərdəsi öldürüldükdən sonra Məsəbin qoşunu daha da cürətləndi.

Təbəri yazır: Muxtarın qoşununun əsasını təşkil edən piyadaların əksəriyyəti öldürüldü və ya əsir edilib sonradan qətlə yetirildilər. Onların çox az bir hissəsi bir qrup süvarilərlə canını qurtarıb özlərini Kufəyə, Muxtarın yanına çatdırdılar. Məsəbin qoşunu Kufəyə tərəf irəliləməyə başladı.

Məsəbin ordusu su və qurudan Kufəyə tərəf gəldiyini Muxtara xəbər verdilər. Muxtar ordusunu hazırlayıb Məsəbin qoşunu ilə mubarizə üçün şəhərdən kənara çıxdı. Kufə ilə Məsəbin qoşununun arasında maneə yaratmaq üçün öz

qoşununu Hərura məntəqəsində yerləşdirdi ki, Məsəbin qoşunun irəliləməsinin qarşısı alınsın.

Nəhayət Məsəbin ordusu Muxtarın ordusu ilə üzləşdi. İki qoşun bütün inkanatla bir-birinin qarşısında sıraya düzülüb bir birinə yaxşılaşdılar. Hücum əmri verildi.

Hər iki tərəf bir-birinin qanına susadılar. Hər iki tərəf çoxlu itki verdi. Məhəmməd Əşəs cəhənnəmə basil oldu. Muharibə gecənin axırına qədər davam etdi. Kufəlilər yavaş-yavaş geri çəkilməyə başladılar. Gecənin yarısı Muxtarın yavərlərindən bir hissəsi başçılarının əksəriyyətinin öldürüldüyünü və vəziyyətin təhlükəli olduğunu duyub Muxtara yaxınlaşıb dedilər:

- Ey Əmir! Bizim qoşun darmadağın edilib, çox hissəsi qaçıbdır. Yaxşı olardı ki, siz də Kufəyə qayıdasınız. Şəhərdə düşmənlə döyüşə bilərik.

Muxtar öz ətrafına baxıb:

- Mən bura şəhərə qayıtmaq niyyəti ilə gəlməmişdim. İndi ki, döyüşçülərimiz gediblər, Allahın adı ilə atlara minib kufəyə tərəf hərəkət edək - deyə atını sürdü.

## MUXTAR MÜHASİRƏDƏ

Beləliklə muxtar tərəfdarları ilə birlikdə hökümət mərkəzi olan Kufəni əldən verməmək ümidi ilə gecə ilə şəhərə qayıtdılar. Məsəbin qoşunu da Kufəyə tərəf hərəkət etdi. Müharibə şəhərin daxilində başlandı.

Muxtar 7 minə yaxın tərəfdarları ilə birlikdə şəhərin mərkəzində, qəsrdə və Məsciddə möhkəmlənib Məsəbin qoşunu ilə müharibə hazırlaşırdılar.

Məsəb şəhəri hər tərəfdən mühasirəyə almış, bütün məhəllələri və qəsrə gedən bütün yolları ələ keçirmişdi.

Mühasirəyə düşmüş Muxtar öz azacıq tərfdarları ilə getdikcə gücsüzləşirdi. Muxtar öz adamlarını bu vəziyyətdə görüb onların başına qışqıraraq belə dedi:

- Vay olsun sizə, nə qədər ki, buradasınız ölümə daha da yaxınlaşırsınız. Gəlin birlikdə düşmənə hücum edək.

Lakin onun əsgərləri mənfi cavab verdilər. Muxtar dedi:

- Mən təslim olmamaq qərarına gəlmişəm. Qəsrdən çıxıb ölənə qədər onlarla döyüşəcəyəm. Mən öldükdən sonra siz daha zəif və zəlil olacaqsınız. Belə isə siz də gəlin birlikdə döyüşək. Lakin Muxtarın sözləri əsər etmədi.

Bunq gerə də Muxtar özü şəxsən döyüşməyi qərara aldı və tənha 19 nəfər onunla döyüşə hazırlaşdı.

## MUXTARIN ÖLÜMÜ

Muxtar öz bir ovuc yavərləri ilə birlikdə qəsrdən çıxıb Məsəbin qoşunu ilə döyüşə başladı. Nəhayət onu mühasirəyə alaraq öldürüb başını bədənindən ayırdılar. Məsəb Muxtarın kəsilmiş başını qardaşı Abdullah ibn Zübeyr üçün Məkkəyə göndərdi.

Təbərinin nəql etdiyinə əsasən Muxtar 67-ci ilin Ramazan ayının 16-da şəhid edilmişdi. Muxtar və tərəfdarları öldürüldükdən sonra Kufədə qorxulu və irticaçı bir mühit yaranmışdı. İmam Huseyn qatillərindən sağ qalanlar Məsəbi himayət edirdilər. Onlar fürsətdən istifadə edərək yenidən Kufəni ələ keçirdilər. Məsəb özü Kufədə qalıb İraqın ətraf şəhərlərinin hakimlərini təyin etdi.

Muxtarın ölüm xəbəri Məkkəyə çatanda İbn Zübeyr bunu İbn Abbasa xəbər verib dedi:

- Yalançının ölüm xəbəri sənə çatmamışdırmı?

İbn Abbas dedi: Yalançı kimdir? - deyə soruşdu.

İbn Zübeyr:

- Muxtardır. Sanki sən onu «Kəzzab» deyə xitab etmək istəmirsən - dedi.

İbn Abbas dedi:

- Muxtar bir kişi idi ki, bizim öldürülənlərimizin və qanımızın intiqamını alıb qəmli sinələrmizə şəfa vermişdir. Onun bu işlərini haqqı ölümünə sevinmək deyil ki, biz sevinək.

## MUXTAR KİM İDİ?

Tarixdə Muxtarın şəxsiyyəti və xüsusiyyətləri barəsində geniş bəhslərə yer vermişdir. Bəziləri onu macəraçı, çoxlu mal-dövlət və vəzifə əldə etmək və Peygəmbər (s)-in Əhli-beytinin adından istifadə edib siyasi qüdrətə çatmaq istəyən bir fərd kimi bəyan etmişlər.

Bəziləri isə onun xüsusiyyət və əməllərini yazarkən doğurdanda onun Peyğəmbər (s)-in Əhli-beytinə məhəbbət bəslədiyini və Əhli-beyt (ə)-ın həqiqi və fədakar ardıcıllarından qeyd etmişlər.

Muxtar Hicazda olarkən tez-tez İmam Səccad (ə)-ın yanına gedirdi. Kufəyə getdikdən sonra da oradan o Həzrətə məktub yazaraq o əhdinə vəfa edəcəyini elan etdi.[1]

Muxtar İmam Hüseyn (ə)-ın qanının intiqamını alarkən Kərbəla faciəsini törədənlərin əksəriyyətinin başlarını vurmuş və bu hadisənin əsas canilərindən olan Übeydullah ibn Ziyadın başını İmam Səccad (ə)-ın hüzuruna göndərmişdi. Nəql olunur ki, İmam Səccad (ə) bu münasibətlə o qədər sevinmişdir ki, Kərbəla hadisəsindən sonra kimsə onu belə sevinən görməmişdi.

---

[1] «Murucuz-zəhəb» səh. 74.

Bütün bunlara baxmayaraq o Həzrət yenə də təqiyyə edirdi. Tarixdə vardır ki, Həzrət, Muxtarı camaatın gözü qarşısında xoşagəlməz sözlərlə pisləmişdi.

Bəli, Muxtar tənha İmam Hüseyn (ə)-ın qatillərindən intiqam aldığına görə təsdiq edilirdi və gördüyü başqa işlərə görə təsdiq edilməmişdi. Elə buna görə də biz görürük ki, sonrakı dövrlərdə Muxtarın əleyhinə buna oxşar işlər gördüyünə, əməvi xəlifələri və İbn Zübeyrlə düşməncilik etdiyinə görə qarışıq bir fəza yaranmışdı. Camaat arasında da Muxtarın ünvanına çoxlu yersiz sözlər deyilirdi. İş o yerə çatmışdı ki, camaat Muxtarı lənətləyir və onu Əhli-beyt (ə)-ın düşməni hesab edirdi. Bu anda İmam Bariq (ə) bu barədə öz şəxsi nəzərini bəyan etməyin vaxtı gəlib çatdığını duymuşdu.

## MUXTAR İMAM BAQİRİN (Ə) NƏZƏRİNDƏ

Sədid imam Bariq (ə)-ın dostlarından biri idi. O deyir: Həzrət İmam Bariq (ə) Muxtarın barəsində buyurdu:

Muxtara nalayiq sözlər deməyin, çünki o bizim şəhidlərimizin qatillərini öldürmüşdür. Bizim intiqamımızı düşmənlərimizdən almış bizim dul qalmış, qadınlarımızı ərə vermiş və bizə, maddi çətinlikdə olarkən maddi kömək etmişdir.[1]

## MUXTAR İMAM SADİQ (Ə)-IN NƏZƏRİNDƏ

Mərhum Məclisi nəql edir ki, ibn İdris mötəbər sənədlərə əsasən Həzrət İmam Sadiq (ə)-dan rəvayət etmişdir: Elə ki, qiyamət günü olacaq Allahın Rəsulu (ə), Əmirəl-möminin (ə)

---

[1] «Ricali Kəşşi» səh. 125; «Biharul-ənvar» cild 45.

İmam Həsən (ə) və İmam Hüseyn (ə) birlikdə siratdan keçərkən birdən bir şəxs cəhənnəmin arasından Həzrət Rəsul (ə)-i üç dəfə nida edəcək, lakin o cənab cavab verməyəcəkdir.

Sonra üç dəfə Həzrəti Əmir (ə)-ı səsləyəcəkdir. O Həzrət də cavab verməyəcəkdir.

Sonra isə üç dəfə fəryad edib deyəcək «ya Həsən, mənim fəryadıma çat!»

O Həzrət də cavab verməyəcəkdir.

Daha sonra üç dəfə nida edəcək ki, «Ya Hüseyn, mənim fəryadıma çat! Mən sənin düşmənlərini öldürmüşəm». Sonra Allahın Rəsulu (ə) İmam Hüseyn (ə)-a deyəcək ki, o sənin üçün dəlil gətirdi. Sən onun fəryadına çat.

Az sonra o Həzrət qartal canlı bir heyvana şığıdığı kimi onu cəhənnəmin şölələri arasından çıxacaqdır.

Ravi ərz etdi: - O şəxs kimdir?

Həzrəti Sadiq (ə) buyurdu:

- O, Muxtardır.

Ravi:

- O bu işləri etdiyi halda nə üçün cəhənnəmdə ona əzab edəcəklər, - deyə soruşdu.

Həzrət Sadiq (ə) buyurdu:

- Əgər onun ürəyini parçalasaydılar onun ürəyində Əbu Bəkrə və Ömərə qarşı məhəbbət olduğu aşkar edilərdi. And olsun Həzrəti Muhəmməd (ə)-i haqq olaraq göndərmiş Allaha, əgər Cəbrayıl və Mikayılın da ürəyində onlara qarşı məhəbbət hissi olsaydı Allah onlarıda atəşin içinə atardı.[1]

---

[1] «Cəlalul-Uyun» (Əllamə Məclisi) səh. 482.

## BİR AZ FİKİRLƏŞƏK

Biz tarixdə görürük ki, Həzrət Əli (ə) müxtəlif şəhərlərə nümayəndələr göndərir, lakin sonradan məlum olurdu ki, onlar öz işlərinin gedişatında səhvlərə yol veribmişlər. İmam (ə) siyasət səhnəsində olduğu zaman nümayəndələrinin işlərini yaxşıca araşdırmış və öz məqsədini tamamilə açıq aydın buyurur və bütün çətinliklər və iradları aradan qaldırırdı. Necə ki, biz Həzrət Əmir (ə)-ın zamanında müqəssirlərin öz cəzalarına çatdıqlarını müşahidə etdik.

Və yaxud İmam Həsən (ə)-ın zamanında o Həzrət öz əmisi oğlu Abdullah ibn Abbası irəlidə gedən qoşunun komandanı təyin etmişdi. Həmin şəxs o Həzrət tərəfindən seçildiyinə görə istədiyi hər işi görə bilərmi? Hansı ki, biz Abdullah ibn Abbası İmam Həsən (ə)-dan ayrılıb uzaqlaşdığını və Muaviyyəyə qoşulduğunu gördük. Bu xəbər İmam Həsən (ə)-a çatarkən o Həzrətin ürəyi qanla doldu və çox kədərləndi. Belə olan halda əgər bir şəxsin İmam (ə)-ın tərəfindən seçilməsi fərz edilərsə belə demək olarmı ki, o şəxs İmam (ə)-ın nümayəndəsi olduğundan hər ürəyi istəyən işi görə bilər?

Əsla belə deyil! Məmur olan şəxs öz şəri və ilahi vəzifəsini yerinə yetirməlidir. İmamlar (ə) bir şəxsi xilaf işlər görməyə təyin etməyiblər. Belə ki, İmamlar (ə)-ın hökumət etdiyi vaxtlarda (misal olaraq Həzrət Əmir (ə) və İmam Həsən (ə)-ın qısa müddətli hakimiyyət dövrü) onların əmrləri öz nümayəndələri tərəfindən bütünlüklə icra edilmədiyi də müşahidə olunur. Və hətta onlar öz işlərini düzgün yerinə yetirmədiklərinə görə İmamlar (ə) tərəfindən məzəmmət də edilmişdilər. Bəs sonrakı dövrlərdə yaranmış təhlükəli siyasi vəziyyətlərdə məsələlərin çoxunu kəşf etmək və oradakı

pərdələri aradan qaldırmaq imkanı olmadığı halda bizim İmamlar (ə)-dan bir şəxsi kamil sürətdə təsdiq və ya təkzib etməsinə neçə təvəqqömüz olmalıdır?! Biz bu mövuları daha geniş ürəklə qarşılamalıyıq. Hər şəxsin yaşadığı zaman, məkan və mövqeiyyətini nəzərə almalı və o şəxsdən öz həddində intizarımız olmalıdır. Məsum İmamlar (ə)-ın bir şəxsi və ya bir hadisəni təkzib etdikləri yerdə biz də təkzib etməli və təsdiq etdikləri yerdə təsdiq etməliyik. Əgər sükut etmişlərsə biz də sükut etməliyik. Şəxsiyyətləri və baş vermiş hadisələri tanıyıb bilmək üçün o dövrün zaman, məkan və mövqeiyyətini dərk etməliyik. Əgər biz bu məsələni aydınlaşdırmaq istəsək əvvəlcə qeyd etməliyik ki, islamın əziz Rəsulu (ə)-dən sonra məsum İmamlar (ə)-ın başına gələn hadisələri yaddan çıxartmaq olmaz. Həzrət Əmir (ə)-ın 25 illik sükutunu, ev dustağı olmasını, İmam Həsən (ə)-ın qısa ömürlük hakimiyyətini, İmam Həsən (ə)-a sülhün təhmil edilməsindən Müaviyyənin ölümünə qədər olan dövrü, İmam Hüseyn (ə)-ın şəhadətə çatdığı zamanı və bütünlüklə bunların hamasını və sair hadisələri heç vaxt yaddan çıxartmamalıyıq. Çünki bu dövrlərdə yaşamış məsumların hər biri öz yaşadığı dövrdə ilahi əmri yerinə yetirməyə hazır olmuşdular. Lakin vəfasız camaatın gördüyü işləri hamı gözəl bilir. Belə olduqda İmam Səccad (ə)-ın dövründə yüz faiz islama və İmamlar (ə)-ın buyuruğuna uyğun olan bir məsələni tapmaq mümkündürmü?

Seyyidiş-şüəda (ə)-ın şəhadətindən sonra islam ümməti başını qaldırmağa xəcalət çəkir, onlardan qiyam və ya sülh istəməkdən utanırdılar.

Məgər məsum İmamlar (ə) camaatın əmrinə qulaq asmalı və onlar istədikləri vaxt qiyam etməli və camaatı xilas etməlidirmi və yaxud onlar istəmədikləri vaxt sakit oturmalıdırmı? İmam Hüseyn (ə)-ın şəhadətindən sonra ki

dövrlərdə camaat və islam ümməti başını itirmişdi. Həqiqəti bilmək istəməklərinə baxmayaraq, artıq həyatın çətinliklərindən və zalımların zülmündən yorulmuş və bir yolla canını qurtarmağa çalışmışdırlar. Lakin nicat tapmağın çətinliklərinə taqətləri yox idi. Bu ümmət Bəni-İsrail ümmətinə çevrilmişdir. Necə ki, onlar Həzrət Musaya dedilər:

فَاذْهَبْ أَنْتَ وَرَبُّكَ فَقَاتِلَا إِنَّا هَاهُنَا قَاعِدُونَ

***«Sən və Allahın müharibəyə gedin, biz burada oturmuşuq».***[1]

Bunlar belə bir şəxsi istəyirdilər ki, yeddinci göydən gəlib və onları imtahansız-filansız ən yüksək rütbəyə çatdırsın. Onların heç vaxt haqqı qəbul etməyə taqətləri olmamışdı və həmişə haqqdan qaçdıqlarını isbat etmişlər.

Elə buna görə də onlar öz başına buraxılmışdılar. Təvvabin qiyam etdi, Muxtar qiyam etdi. Çox yaxşı işlər gördü. Kərbəla qatillərini və fəal iştirakçılarını öldürdü. Onun bu işi çox yaxşı idi. Lakin islam ümmətinin əsas məsələsi və həmişəki dərdi nə idi? İmam Hüseyn (ə)-ın qatilləri yalnız Muxtarın əli ilə öldürülmüş şəxslər idimi? Yoxsa İmam Hüseyn (ə)-ın qatilləri həmişə bütün tarix boyu bütün dövrlərdə yaşamışlar? Xalq hər dövrdə əimmənin qatillərini tapıb onları öldürmək fikrində olmuşlarmı? Və ya heç olmasa onlara (qatillərə) işlərində kömək etməyəydilər?

İmam Səccad (ə)-ın belə bir mövqeiyyət tutmasının səbəbinə gəldikdə isə xalqın həddən artıq ruhi sıxıntıya məruz qalıb nəhayət yalnız kiçik bir hərəkata hazır olması idi. Xalq əsaslı və güclü bir hərəkata hazır deyildi. Məsum İmamlar (ə) inqilabi çıxış edərdisə onların hərəkəti həzrəti Müslümün

[1] «Maidə» surəsi, ayə 24.

hərəkəti kimi olmalı idi. O Həzrət İbn Ziyadı Haninin evində qəfildən öldürmədi. Məsum İmamlar (ə) Quranın, Peyğəmbərin sünnəsinin və öz ilahi elmlərinin əsasında rəftar edirlər ki, bunların içində heç bir kiçik xətaya və inhirafa yol vermək imkanı yoxdur.

Xalq belə bir hərəkata hazır idimi?

Şübhəsiz, tarix bizə cavab verir ki, əsrlər boyu xalqın məsum İmamlar (ə) kimi böyük şəxsiyyətlərin rəhbərliyini qəbul etməyə hazır olması görünməmişdir. Bunu da bizə tarixi hadisələr açıq-aydın göstərir. Buna görə də məsum İmamlar (ə)-ın dövlətlərində baş vermiş məsələ və ya hər hansı bir hadisəni araşdırarkən bunu nəzərə almalıyıq ki, Məsum (ə)-lar kiçik miqyaslı və qısa müddətli hərəkat icad etmək üçün çalışmırdılar. Peyğəmbəri-Əkrəm (s) bütün dünya xalqları üçün peyğəmbərliyə seçilmişdir. İmamlar (ə)-da o Peyğəmbərin vəsiləridir, onlar bütün dünyanı islah edib və dünyaya hakim olmaq üçündürlər. Onlar yer üzündə Allahın canişini olduqlarından xalqın müxtəlif təbəqələri ilə rəftarları o xalqın ağıl və kamalı həddində idi. Onlar hamını qəbul edirlər.

Əgər biz imamların məqamına geniş və kamil baxışla baxmış olsaq onların Muxtarın qiyamına və ya kimi başqa bir qiyam təsdiq edib etməməsi biz marağlandırmaz. Siz Muxtarın nə üçün qiyam etdiyinə nəzər salın. İmam Hüseyn (ə)-ın qatillərini aradan aparmaq üçünmü qiyam etmişdi? İmam Hüseyn (ə)-ın qatilləri kimlər idi? Bütün tarixlərin yazdıqlarına görə bir nəfər də olsun Şamdan İmam Hüseyn (ə)-ın qətlində iştirak üçün gəlməmişdi. O Həzrətin sadə əsgərdən tutmuş qoşun başçılarına kimi qatillərinin hamısı Küfədən idilər. Muxtar haralı idi? Muxtarın özü və bütün tərəfdarları da Küfədə idilər. Həmçinin Übeydullahın ləşgərində yaxından iştirak edənlərdə də həmin o şəxslər idilər. O qatillər

istəyirdilər bu qatilləri öldürsünlər. Cinayətkarlar sərkərdələr Kərbəla səhnəsini aradan sildilər, lakin o komandanları kimlər təyin etmişdi? Əgər kufəlilər onları aradan götürə bilsəydilər Muxtarın qiyamı heç vaxt məğlubiyyətlə nəticələnməzdi.

Bəli, İmam Səccad (ə) də digər imamlar bu məsələlərə və hətta bundan zərif məsələlərə görə belə hadisələrdə yaxından iştirak etmirdilər. Siz özünüz fikirləşin: əgər İmam Səccad (ə) Muxtarın hərəkatında yaxından iştrak edib rəsmi olaraq qiyamın rəhbərliyini öz öhdəsinə götürərdisə, qiyam məğlub edildikdən az sonra İmam Səccad (ə)-ın vəziyyəti necə olacaqdı?

Bu məsələ həmçinin başqa tarixi hərəkatlarda da müzakirə edilir. Təqiyyə taktikası tələb edirdi ki, İmam Səccad (ə) pis xəyala səbəb ola biləcək kiçicik əməllərdən çəkinsin, çünki bu İmam (ə)-ın şəhid olması və şiələrin vəziyyətinin ağırlaşması ilə nəticələnə bilərdi.

# V HİSSƏ

## MƏHƏMMƏD HƏNƏFİYYƏNİN ŞƏXSİYYƏTİ ƏTRAFINDA TƏHLİLLƏR

İmam Səccad (ə)-ın dövranında Əmirəl-möminin (ə)-ın oğlu Muhəmməd Hənəfiyyənin şəxsiyyəti müəmmalı məsələlərdən biridir ki, biz onun barəsində qısa məlumat veririk.

Tarixi araşdırdıqda belə nəzərə çarpır ki, İmam Hüseyn (ə)-ın şəhadətindən sonra ziddiyyətli vəziyyət yaranmış, şiənin vəziyyəti ağırlaşmış, müsəlmanlar parçalanmış, pərakəndəliyə və zorakılığa düçar olmuşdular. Məhz belə bir ictimai vəziyyətdə Məhəmməd Hənəfiyyənin şəxsiyyəti parlamış, müsəlmanlardan bir qrupu ona tabe olmuş və onu özlərinə imam seçmişlər. İmam Səccad (ə) yaranmış bu siyasi və ictimai vəziyyətdə tutmalı olduğu şəxsi mövqeyini Məhəmməd Hənəfiyyə üçün yaratdı. Bəlkə bu məsələ onun özü üçün də anlaşılmaz idi. Xülasə, ictimai-siyasi vəziyyətin aramlığı və İmam Səccad (ə)-ın qərarının məlum olmasından sonra vəziyyət hamı üçün aydın oldu. Məhəmməd Hənəfiyyə də öz mövqeyini aydınlaşdırdı ki, onun İmam Səccad (ə)-dan başqa imamı yoxdur.

## İMAM RZANIN (Ə) MƏHƏMMƏD HƏNƏFİYYƏ BARƏSİNDƏ NƏZƏRİ

İmam Rza (ə) nəql edir ki, Əmirəl-möminin Əliyyibni Əbutalib (ə) buyurdu:

- Məhəmməd kimilər Allaha qarşı itaətsizliyə yol verməzlər.

Ravi soruşdu:

- Məhəmməd kimilər kimlərdir?

İmam Rza (ə) buyurdu:

- Məhəmməd ibn Cəfər, Məhəmməd ibn Əbu Bəkr, Məhəmməd ibn Huzeyfi və Məhəmməd ibn Əmirəl-möminin ibn Hənəfiyyə.[1]

İmam Sadiq (ə) buyurdu:

- Məhəmməd Hənəfiyyə Əli ibn Hüseyn (ə)-ın imam olduğunu iqrar etməyincə ölməmişdir. O, hicri qəməri tarixi ilə 84-cü ildə vəfat etmişdir.[2]

Zürarə İmam Baqir (ə)-dan nəql edir ki, o Həzrət buyurdu:

- İmam Hüseyn (ə) öldürüldükdən sonra Muhəmməd Hənəfiyyə İmam Baqir (ə)-dan onunla xəlvətdə söhbət etməsini xahiş etdi:

O Həzrətin xidmətinə çatdıqda ərz etdi:

- Ey qardaş oğlu, bilirsən ki, Allahın Peyğəmbəri (ə) özündən sonra imaməti Əmirəl-möminin (ə)-ın, sonra İmam Həsən (ə)-ın və daha sonra isə İmam Hüseyn (ə)-ın öhdəsinə qoydu. Sizin atanız – Allahın behişti rizvanı və salamı ona olsun - şəhid edildi və o özündən sonra heç kimi özünə canişin təyin etmədi. Sən bilirsən ki, mən sənin əmin olmaqla yanaşı eyni zamanda atanla bir kökdən olub Əli (ə)-ın oğluyam. Mən bu qoca yaşımda siz cavanlardan imamətə daha münasibəm. Elə buna görə də sən mənimlə imamət və canişinlik üstündə mübarizə aparma.

---

[1] «Şərhi Nəhcül-bəlağə» İbn Əbil-Hədid cild 6, səh. 110.
[2] «Kəmalud-din» (Şeyx Saduq)

İmam Səccad (ə) əmisi Məhəmməd Hənəfiyyənin cavabını mülayimlik və ürək yanğısı ilə verib dedi:

- Ey əmi, sən Allahdan qorxub və haqqın olmadığı bir şeyi istəmə. Mən sənə nəsihət edirəm ki, məbada nadanlardan olasan. Ey əmi, sözsüz ki, atam İraqa yola düşməzdən əvvəl bu məsələ barəsində mənə vəsiyyət etmişdi. Şəhadətə çatmazdan bir neçə dəqiqə qabaq isə o mənimlə yenidən əhdini təzələdi. Mənim yanımda olan bu silah da Allahın Rəsulu (s)-indir. Sən bu işə qarışma. Çünki mən sənin ömrünün azalacağından və halının pisləşməsindən qorxuram. Sözsüz böyük və mehriban Allah imaməti Hüseyn (ə)-ın nəslində qərar vermişdir.

## İMAM SƏCCAD (Ə) VƏ MƏHƏMMƏD HƏNƏFİYYƏ HƏCƏRÜL-ƏSVƏDİN KƏNARINDA

O zaman İmam Səccad (ə) bu məsələni əmisinə tamamilə açıq şəkildə sübut etmək üçün buyurdu:

- Əgər bu mətləbi başa düşmək istəyirsənsə Həcərül-əsvədin yanına gedək, bizim aramızda hakimlik etməsini istəyib və bu məsələləri ondan soruşaq!

İmam Baqir (ə) buyurur:

Onların arasındakı söhbət Məkkədə olmuşdu. Nəhayət onlar Həcərül-əsvədə yetişdilər. İmam Səccad (ə) Məhəmməd Hənəfiyyəyə buyurdu:

- Əvvəl sən Allahın dərgahına dua et, Allahdan Həcərül-əsvədi dilə gətirməsini istə və bu məsələni ondan soruş.

Məhəmməd Allah qarşısında boyun əyib yalvardı, dua edib Həcərül-əsvəddən bu məsələni bəyan etməsini istədi. Lakin Həcərül-əsvəd cavab vermədi. İmam Səccad (ə) buyurdu:

- Ey əmi, əgər sən vəsi və imam olsaydın, o sənin cavabını verərdi.

Məhəmməd dedi:

- Qardaşoğlu, indi ki, belədir, sən dua edib Allahdan istə.

İmam Səccad (ə) dua edib Allahdan istədi, daha sonra buyurdu:

- Ey Həcər səni Peyğəmbərlər, övsiyalar və bütün xalqın əhdlərini səndə qərar vermiş Allaha and verirəm və səndən İmam Hüseyn (ə)-dan sonrakı imamı və vəsini bizə xəbər verməyini istəyirəm?

Həcər elə yerindən laxladı ki, az qala yerindən qopa. Daha sonra böyük və əzəmətli Allahın qüdrəti ilə dilə gəlib və fəsih ərəb dilində danışmağa başladı: «Pərvədigarə, şübhəsiz vəsi və imamət Hüseyn ibn Əli (ə)-dan sonra Allahın Rəsulu (s)-in qızı Fatimənin oğluna Əli ibn Hüseyn ibn Əli ibn Əbi Talibə çatmışdır».

Bundan sonra Muhəmməd Hənəfiyyə öz sözündən dönüb İmam Səccad (ə)-ın davamçılarından oldu.[1]

Əbu Bəsir deyir:

- İmam Baqir (ə)-dan eşitdim ki, buyurdu: «Bir günlər var idi ki, Əbu Xalid Kabuli Məhəmməd Hənəfiyyənin qulluqcusu idi və onun imam olduğuna heç şəkk-şubhəsi yox idi. Bir gün o Məhəmməd Hənəfiyyəyə dedi:

- Sənə qurban olum, mən sizi sevir və hörmət edirəm. Sizi Allahın Rəsulu (s) və Əmirəl-möminin (ə)-ın ehtiramına and verirəm, mənə deyin ki, Allahın itaətini hamıya vacib etdiyi imam sizsinizmi?

Məhəmməd Hənəfiyyə ona cavab verərək dedi:

- Ey Əbu Xalid, mənə çox böyük and verdin. İtaəti vacib olan imam qardaşım oğlu Əlidir. O, mənim, sənin və bütün müsəlmanların imamıdır.

---

[1] «Üsuli-kafi» cild 1, kitabul-höccət.

İmam Baqir (ə) buyurur:

- Bu məsələ Əbu Xalid üçün aydın olduqdan sonra İmam Səccad (ə)-ın huzuruna gəlib və onunla görüşmək üçün icazə istədi. O, imamın hüzuruna daxil olarkən imam üzünü ona tutub:

- Ey Könkər, xoş gəlmisən! Sən hara, bura hara?! Hecə olub bizim yanımıza gəlmisən? - deyə soruşdu.

Əbu Xalid imamdan bu sözləri eşitmək səcdəyə gedib belə şükür etdi: Şükür olsun Allaha, ölməzdən əvvəl mənə öz imamımı tanıtdırdı.

İmam Səccad (ə) soruşdu:

- Əbu Xalid, imamını necə tanıdın?

Əbu Xalid dedi:

- Siz məni öz adımla səslədiniz, halbuki bu adı anamdan başqa heç kimsə bilmirdi. Bundan əlavə mən indiyə kimi imamət məsələsində kor qalaraq bir ömür Məhəmməd Hənəfiyyənin xidmətində idim. Onun mənim imamım olmasında heç bir şəkkim yox idi. O mənə dedi ki, o, (Əli ibn Hüseyn (ə)) mənim, sənin və bütün müsəlmanların imamıdır.

Bu hadisədən sonra Xalid Zeynəlabidin (ə)-ın həqiqi imam olduğuna inanırdı.

Əbu Xalid Kabuli deyir:

Məhəmməd Hənəfiyyəyə dedim ki, sən qardaşın oğluna elə xitab edirsən ki, o səni elə xitab etmir?

Məhəmməd Hənəfiyyə mənə cavab verdi:

- O, imamət məsələsinə görə məni Həcərül-əsvədin yanına mühakimə dəvət etdi. O, daşı nitqə gətirəcəyinə əmin idi. Mən onunla birlikdə Həcərül-əsvədin yanına getdim. Daşın belə söylədiyini eşitdim:

«İmaməti qardaşın olduğunu öhdəsinə qoy! Çünki o bu işə səndən daha layiqdir».

# VI HİSSƏ

## ƏBDUL MƏLİK MƏRVANIN İRAQDA İBN ZÜBEYRİN QOŞUNU İLƏ DÖYÜŞÜ

İbn Zübeyrin İraqdakı qüdrəti Hicazdakı ilə müqayisədə daha zəif idi. Əbdul Məlik İraqa tərəf hərəkət etdi. Muxtarın ölümündən düz beş il sonra 72-ci ildə Əbdul Məlik Mərvan böyük bir ordu ilə İraqı ələ keçirmək üçün Məsəb ibn Zübeyrlə toqquşmalı oldu. Dəclə yaxınlığında iki tərəf arasında qızğın döyüş başlandı. Döyüşün ilk anlarında Məsəbin qoşununun böyük bir hissəsi onu kiçik bir dəstə ilə tək qoyub Əbdul Məlikin ordusuna qoşuldu. Məsəb tənha qaldığı üçün məğlubiyyəti qəbul etməli idi. Nəhayət o, bütünlüklə məğlubiyyətlə uğradı. Məsəb, Muxtarın əmisi oğlu Zaidət ibn Qüdamənin əli ilə öldürüldü. Əbdul Məlik İraqı ələ keçirdi. O zaman Məsəbin 36 yaşı var idi və bu hadisə 72-ci ilin cəmadiyil-əvvəl ayının 15-ində, cümə axşamı baş vermişdi.

Daha sonra isə Əbdul Məlik Mərvan Kufəyə daxil olub şəhər hakiminin qəsrində əyləşdi. Bu zaman iraqlılar Əbdul Məlikə beyət etdi, şərq o gün bütünlüklə Əbdul Məlikin hakimiyyəti altına keçdi. Bu vaxt Məsəbin kəsilmiş başını qəsrə gətirib Mərvanın qarşısına qoydular.

Tarix insan üçün böyük ibrət və nəsihət aynasıdır. Burada olanlar bu səhnəni görən kimi keçmişdə baş vermiş buna oxşar hadisələri xatırladılar. Əbi Müslüm Nəxəi adlı bir ərəb ayağa qalxıb qələbəsindən qürrələnən əməvi xəlifəsi Əbdul Məlik Mərvana xitab edib dedi:

- Mən burada idim və Hüseyn ibn Əlinin kəsilmiş başını İbn Ziyadın qarşısına qoyanda gözlərimlə gördüm. Qısa bir

zamandan sonra İbn Ziyadın kəsilmiş başının bu məkanda Muxtarın qabağına qoyulduğunu gördüm. Çox keçmədi ki, Muxtarın kəsilmiş başının da burada Məsəb ibn Zubeyrin onündə qoyulduğunu gördüm, indi isə Məsəbin kəsilmiş başını sənin qabağında görürəm.

Daha sonra əlavə etdi:

- Allah Əmir Əbdul Məliki bu səhnənin təkrar olunmasından qorusun!

Əbdul Məlik möhkəm qorxuya düşüb qəsrin məxsus yeri olan bu məkandan durub o sarayı və qübbəni söksünlər deyə əmr etdi.[1]

Bəsrə barəsində isə tarixdə belə yazılmışdır:

«Bütün böyük və nüfuzlu şəxslər Əbdül Məliklə məktublaşmışdılar».

Bəsrə də Əbdül Məlikin əlinə keçmişdi. Tənha qalan yer Hicaz idi. Və hələ də Abdüllah ibn Zübeyr orada hökmranlıq edirdi.

Qabaqcadan həcc mərasiminə görə Hicazın həssasiyyətini duyan Əbdül Məlik camaatın həccə getməsini qarşısını almışdı və o ölkəni fəth etmək fikrində idi. Qeyd etmək lazımdır ki, bəziləri İbn Zübeyrin hökümətinin qanunsuz olduğuna əqidə bəsləyirdi. Onlardan misal olaraq Abdüllah Öməri göstərmək olar ki, o Həzrət Əli (ə)-a beyət etməmiş və onun etdiyi müharibələrdə iştirak etməmişdi. Lakin o, İbn Zübeyr öldürüldükdən sonra gecəylə Həccacın yanına getmiş və ona beyət etmişdi. Əbdül Məlik Həccacı Məkkəyə tərəf göndərdi. O, bir müddət Səqif qəbiləsinin mərkəzi olan Taif məntəqəsində qalıb, daha sonra Məkkəyə tərəf yollandı. Bu ikinci dəfə idi ki, Bəni-Üməyyə İbn Zübeyri aradan məhv

[1] «Murucuz-zəhəb» cild 3, səh. 116.

etmək üçün Məkkəyə qoşun yeridirdilər. Birinci dəfə 64-cü ildə Yəzidin ölüm xəbəri çatdığından Şam qoşununun komandanı Həsin ibn Nümeyr geri qayıtmışdı.

Lakin bu dəfə Həccac 12 minlik qoşunla 8 ay Məkkəni mühasirədə saxladı.[1]

Bu müddətdə onlar şəhərin ətrafındakı yüksəkliklərdə qurulmuş mancanaqlarla İbn Zübeyrin tərəfdarlarının və Məscidül-həramın üzərinə od və daş yağdırırdılar. İş o yerə çatmışdı ki, Kəbə evi od tutub yandırdı. Həccac qorxub-çəkinmədən Məscidül-həramın üstünə murdar və natəmiz şeylər tökdürdü. Nəhayət 73-cü Cəmadiyul-əvvəl aynın 10-da Məkkə süqut edib əməvilərin əlinə düşdü.

## İMAM SƏCCADIN (Ə) VASİTƏSİ İLƏ HƏCƏRÜL-ƏSVƏDİN QOYULMASI

Həccac ibn Yusiflə Abdullah ibn Zubeyrin arasında baş verən toqquşmada Kəbə dağıldı. Müharibə bitəndən və Kəbənin tikilişi başa çatandan sonra Həcərül-Əsvədi öz əvvəlki yerinə qoymaq lazım gəldi. Bütün alimlər, qazilər və ya zahidlər ayrı-ayrılıqda Həcərül-Əsvədi yerinə qoymaq üçün gəldilər. Lakin Həcərül-Əsvəd yerində qalmadı. Nəhayət Həzrət İmam Zeynəlabidin (ə)-ı gətirdilər. Həzrət irəli gəldi. Həcərül-Əsvədi onların əlindən alıb yerinə qoydu. Həcər (daş) yerində qalıb hərəkət etmədi. Bu zaman camaatın təkbir səsləri (Allahu Əkbər) göylərə ucaldı.[2]

Bundan sonra Həccac Mədinəyə tərəf hərəkət etdi.

[1] «Vəfayətül-əyan» (İbn Xəlkan) cild 3, səh. 73.
[2] «Biharul-ənvar» cild 11, səh. 26.

## ABDULLAH ÖMƏRİN HƏCCACA BEYƏTİ

Abdullah ibn Ömər Həzrəti Əmir (ə)-a beyət etməmişdi. Lakin o, Həccac ibn Yusif Mədinəyə daxil olan kimi o qorxusundan gecəylə Həccacın yanına gedib beyət əlini ona tərəf uzatdı. Həccacın başı yazı yazmaqla qarışdığından ona:

- Əlim yazı yazmağa məşğuldur və bu mənim ayağımdır. - dedi.

Abdullah ibn Ömər əlini beyət etmək üçün Həccacın ayağına çəkdi və oradan uzaqlaşdı.

Həccac dedi:

- Bu nə qədər axmaq kişidir! Əliyə beyt etmədi, idi isə beyət üçün əlini mənim ayağıma çəkir.

## ABDULLAH ÖMƏRİN İMAM SƏCCAD (Ə)-LA RƏFTARI

Lakin həmin Abdullah Ömər İmam Səccad (ə)-a irad tutur, məsum imamı çıxılmaz vəziyyətdə qoymaq istəyirdi. O qəbul etməyə ləyaqəti olmayan zəif ağla malik olduğu halda İmam Səccad (ə)-ı suallarla sıxışdırmaq istəyirdi. Onunla İmam Səccad (ə) arasında olmuş söhbətə diqqət edin:

Əbu Həmzə Somali nəql edir:

- Abdullah ibn Ömər İmam Zeynəlabidin (ə)-ın hüzuruna gəlib ərz etdi: - Cənab, siz iddia edirsiniz ki, Yunis ibn Məta sizin cəddinizin vilayətini qəbul etmədiyinə görə balığın qanında dustaq edilmişdi.

İmam Səccad (ə) buyurdu:

- Bəli.

Abdullah ibn Ömər dedi:

- Əgər belədirsə bu məsələni mənə sübut edə bilərsinizmi?

İmam Səccad (ə) buyurdu:

- Bəli, (daha sonra Həzrət Əbu Həmzəyə buyurdu) Əbu Həmzə, özünün və Abdullah ibn Ömərin gözünü parça ilə bağla.

Qısa bir müddətdən sonra İmam Səccad (ə):

- Gözlərinizi açın, - deyə işarə etdi. Biz gözlərimizi açarkən özümüzü dalğalanan böyük bir dəryanın kənarında gördük. Abdullah ibn Ömər:

- Cənab, mənim qanım sənin boynundadır. Məbada məni ölümə verəsiniz. - dedi.

İmam Səccad (ə) buyurdu:

- Sakit ol! Sən özün dedin mənə göstər, mənə sübut et.

Sonra İmam Səccad (ə) dəryaya işarə edib buyurdu: Ey balıq!

Bu vaxt gözlənilmədən dağ kimi çox böyük bir balıq başını dəryadan çıxarıb: «Ləbbeyk, ləbbeyk, ey Allahın vəlisi!» - deyə dilləndi.

İmam Səccad (ə) balıqdan soruşdu:

- Sən kimsən?

Balıq dedi:

- Mən Yunis ibn Mətanın balığıyam.

İmam Səccad (ə) buyurdu:

- Bu hadisəni geniş surətdə nəql et.

Balıq dedi:

- Allah-Təala Adəm peyğəmbərdən tutmuş sizin cəddiniz Həzrəti Muhəmməd (s)-ə qədər göndərdiyi bütün Peyğəmbərlərə sizin ailənizin vilayətini qəbul etməyi hökm edirdi. Hər kim qəbul etsəydi asudəçilik və rahatlığa, azacıq tərəddüddə qalıb qəbul etməkdən çəkinənlər isə çətinliyə düçar oldular. Məsələn, Adəm peyğəmbər günaha, Nuh peyğəmbər

qərq olmağa, İbrahim peyğəmbər oda, Yusif peyğəmbər quyuya, Əyyub peyğəmbər bəlaya və Davud peyğəmbər isə xatakarlığa düçar olmuş və nəhayət növbə Yunis peyğəmbərə çatmışdı.

Allah-Təala Yunis Peyğəmbərə xitab edib dedi: Əmirəl-möminin Əli (ə)-a və onun nəslindən olan pak imamlara məhəbbət bəslə. Lakin Yunis: «Görmədiyim və tanımadığım adama necə məhəbbət bəsləyim?» - deyə cavab verdi.

Allah, Yunisi udub və lakin sümüklərini sındırmamağı mənə vəhy etdi. O qırx gün mənim qarnımda idi. Mən dəryaları seyr edirdim, o isə mənim qarnımda qışqırıb fəryad edir, Allahı çağırıb belə deyirdi:

سُبْحَانَكَ إِنِّي كُنْتُ مِنَ الظَّالِمِينَ

***«Ey Allah! Sən bütün eyb və nöqsanlardan paksan, mən səhv etdim.*** (İndi Əli və ondan sonrakı imamların vilayətini qəbul edirəm.)*»*[1]

Yunis sizin vilayətinizi qəbul etdikdən sonra Allah onu dəryanın kənarına atmağı mənə əmr etdi.

Bu vaxt İmam Səccad (ə) buyurdu:

- Ey balıq, öz yerinə dön.

O da qayıtdı.[2]

Beləliklə Əbdül Məlikin hökuməti müsəlmanlar yaşayan bütün məntəqələri əhatə edərək genişləndi.

Əbdül Məlik qan tökməyi xoşlayan bir şəxs idi. O, Həccac kimi bir qrup zülmkar hakimlərlə birgə camaatı qılınc gücünə özünə tabe edir və deyirdi ki, bu xalqın dərdi qılıncdan başqa heç bir dərmanla sağalmaz.

---

[1] «Ənbiya» surəsi, ayə 87.

[2] «Biharul-ənvar» cild 11, səh. 32.

Bəli Əbdül Məlik ilə İbn Zübeyr arasında baş vermiş müharibə Əbdül Məlikin xeyrinə qurtardı və Zübeyr öldürüldü. Əbdül Məlik 75-ci ildə İbn Zübeyr öldürüldükdən sonra Məkkəyə və sonra Mədinəyə yollandı. Orada xutbə oxuyub və dedi:

- Mən zəifləmiş, tez barışan və düşüncəsiz xəlifə Yəzid kimi deyiləm. Mən bu xalqın dərdinə yalnız qılıncla əlac edəcəyəm. İlk mühacirlərin gördüyü işlər sizin yadınızdadır. Lakin siz onlar kimi rəftar etmirsiniz. Bizi günah işlərdən çəkinməyə dəvət edir, özünüzü isə yaddan çıxarırsınız. And ola Allaha, bundan sonra kimsə məni təqvaya dəvət etsə, onun boynunu vurduracağam.

## İMAM SƏCCAD (Ə) ƏBDÜL MƏLİKLƏ ÜZ-ÜZƏ

İmam Bagir (ə) buyurdu:

- Bir gün Əbdül Məlik Həcc üçün Məkkəyə gəlib Kəbə evini təvaf etməyə başladı. Bu zaman İmam Səccad (ə) onun önündə təvaf edirdi. Bütün camaatın gözü Əbdül Məlikə sataşır və nəzərlərini cəlb edirdi. Tənha İmam Səccad (ə) ona heç etina etmirdi. Əbdül Məlik soruşdu:

- Bizim qabağımızda bizə etina etmədən təvaf edən o şəxs kimdir?

- O Əli ibn Hüseyndir - deyə cavab verdi.

Əbdul Məlik təvaf edib qurtardıqdan sonra kənərda əyləşib; - İndi Əli ibn Hüseyin gətirin! - dedi.

O Həzrəti Əbdul Məlikin yanına gətirdilər. Əbdul Məlik:

- Ey Əli ibn Hüseyn, mən ki sənin atanın qatili deyiləm, nə üçün bizim yanımıza gəlmirsən? - deyə soruşdu.

İmam Səccad (ə) buyurdu:

- Atamın qatili atamın dünyasını əlindən aldı. Lakin atam onun axirətini məhv etdi. İndi əgər sən də istəsən belə edə bilərsən. Əbdul Məlik dedi:

- Heç vaxt, lakin mən istəyirəm bizim yanımıza gəlib imkanatımızdan istifadə edəsiniz.

Bu vaxt İmam Zeynəlabidin (ə) əbasını sərib yerə əyləşdi və buyurdu:

- İlahi, Öz övliyalarının məqamını bu şəxsə göstər.

Bu zaman Əbdul Məlik İmam Səccad (ə)-ın qarşısında üzəri göz qamaşdıran ləl-cəvahiratla dolu parçanı gördü.

İmam Səəcad (ə) buyurdu:

- Bu cur məqama malik olan bir şəxsin sizin dunyaya ehtiyacı olarmı?

Daha sonra o Həzrət bu ləl-cəvahirata ehtiyacı olmadığından Allahdan onların götürülməsini istədi.

## HƏCCACIN ZÜHURU

Nəhayət ilahi intiqam bu rəhmsiz və qaniçən şəxsin əlində peyda oldu. O, İraqın qeyrətsiz camaatı ilə onlara layiq tərzdə rəftar etdi və qulaqlarında gözəl səslənən sözlər danışdı:

- Ey Kufə camaatı! Məni gözəl tanıyırsınız! Heç bir şeydən qorxmuram. İşə əl bulayandan sonra siz mənim kim olduğumu biləcəksiniz. Kufəlilər! İndidən yerə zillənmiş gözləri, bükülmüş boyunları görürəm. Meyvələr kimi yetişib budaqlara ağırlıq edən başlar görürəm ki, onların dərilməsinin vaxtı çatmışdır. Əmmamənin üstündən saqqallarının ucuna kimi boyanmış canları görürəm. İki tirəlik salan, ayrılıq yaratmağı adət edən pozğun əxlaqlı camaat! Mən küləyin qarşısında titrəyən söyüd deyiləm. Mən sizin əlinizdə oyuncağa çevrilən bir şəxs deyiləm...

Bu sözlər Kufə və İraq camaatınının vəzifəsini aydınlaşdırırdı.

Həccacın hökumətinin ömrü uzandıqca onun zülmü və küfrü də artırdı. İş o yerə çatmışdı ki, o öz xütbələrinin birində üzünü Peyğəmbərin qəbrini ziyarət edənlərə tutub dedi:

- Ölüm olsun bu xalqa! Hə üçün torpağın, taxtanın dövrəsinə fırlanırlar? Lakin gedib Əmirəl-möminin Əbdul Məlikin qəsrini təvaf etmirlər?!

Hər şəxsin xəlifəsinin onun Rəsulundan üstün olduğunu bilmirlərmi?

Əbdul Məlik İraq və Hicazı ələ keçirmək üçün qan içən Həccacı seçdi.

Qeyd etmək lazımdır ki, Kufə şərqdə yerləşən müqayisədə və həmçının, İraqın şimalı ilə müqayisədə mərkəz hesab edilirdi. Mosul, Həlavan, Mədain kimi məntəqələr, eləcə də Erməniyə, Azərbaycan, Ərran, Huran, Mahin, Rey və İsfahan məmləkətləri İraq səltənətinə tabe idilər. Həccac ibn Yusif bir gün minbərdə ikən dedi:

- Ey camaat sizin üçün sizə xəbər gətirən şəxs möhtərəmdir, yoxsa canişininiz olan şəxs?

Həccacın məqsədi bu idi ki, Əbdul Məlik ibn Mərvan Allahın Rəsulu (s)-dən daha üstündür. Çünki Əbdul Məlik Allahın canişini və xəlifəsidir!

Cəblət ibn Züheyr bu sözləri eşidərkən dedi:

- And ola Allaha, bundan sonra ona iqtida etməyəcəyəm, əgər onun əleyhinə qiyam edən olarsa mən də ona kömək edəcəyəm.

Elə buna görə də o, Əbdurrəhman ibn Əşəslə birlikdə Həccacın əleyhinə qiyam etdi və öldürüldü.

Həccac Əbdul Məlikin yanında hörmət qazanmışdı. Əbdul Məlik onu hökumətə şərik edib İraq, Fars, Kerman, Sistan,

Oman və Yəmən məntəqələrinin hökmranlığını onun ixtiyarında qoydu, həyatda ikən Həccacı nəzarət altında saxladı.

Həccac öz xütbələrinin birində dedi:

- Yer və göy xilafət üstündə qurulmuşdur. Allah yanında xəlifə, onun ən yaxın olan mələklərindən, peyğəmbərlərindən və mürsəllərindən daha üstündür. Çünki Allah Adəm peyğəmbəri öz əli ilə yaradıb, mələkləri ona səcdə etməyə məcbur edib və ona behiştdə yer vermişdir. Daha sonra onu yer üzünə gətirərək. Özünə xəlifə edib və mələkləri isə Rəsul etdi.[1]

O dövrdə bu cür sözlər camaat arasında geniş yayılmışdı. Belə ki, Xalid ibn Abdullah Qəsrəmi Vəlidin hakimiyyəti zamanı Məkkədə xütbə oxuyub belə dedi:

- Camaat! Allahın xəlifəsi böyükdür, yoxsa onun göndərdiyi? Məgər İbrahim Xəlilin Allahdan su istədiyini bilmirsiniz? Allah ona şor su içirtdi. Lakin onun xəlifəsi ondan su istədikdə ona şirin su verdi.

Onun xəlifə dedikdə məqsədi Vəlid ibn Əbdül Məlik idi. O, Məkkə ətrafında quyu qazmış və suyu şirin çıxmışdı.[2]

Bəli, Əbdül Məlikin xilafətinin möhkəmlənməsində əsas rolu oynayan şəxs Həccac etdikdə öz övladlarına dedi:

- Mən sizi günah işlərdən çəkinməyə və Həccaca ehtiram göstərməyə tövsiyyə edirəm. Çünki hökuməti sizin ixtiyarınıza verən, şəhərləri ələ keçirən və düşmənlərinizi zəlil edən Həccacdır!

Həccac Mədinədə Peyğəmbəri-Əkrəm (s)-in qəbrini ziyarət edən camaatın əlindən yanıqlı idi. O, deyirdi:

---

[1] «Əbdul-Tidanın tarixi» cild 1, səh. 205.
[2] «Kamili ibn Əsir» cild 4, səh. 536.

- Gedin Əbdül Məliklə qəsrini və evini təvaf edin. Siz hər şəxsin canişininin onun göndərdiyindən üstün olduğunu bilirsinizmi?[1]

Həccacın Əbdül Məliklə möhkəm dostluğuna dəlilimiz kafi dərəcədədir. Həccacın özü deyirdi:

- Əgər bilsəm ki, Əbdül Məlik Kəbəni xarab etməkdən başqa heç bir şeylə məndən razı olmaz, onu viran edərdim.

Əbdül Məlik bu hörməti başa düşürdü. Elə buna görə də o, 75-ci ildə Həccacı İraqın hakimi təyin edərkən öz katibinə dedi:

- İraq hökumətinin fərmanını Həccac üçün yazıb camaat, silah və mal-dövlətin ixtiyarını ona verdi.[2]

Həccacda olan yırtıcı əhval-ruhiyyə camaat arasında belə bir əfsanənin yayılmasına səbəb olmuşdu ki, güya o, uşaqlıqda heç kimsənin südünü içməmiş və buna görə də ona qan içirmişlər. Həccacın öz dilindən belə nəql olunur:

- Ən böyük ləzzər qan tökməkdir.

Onun bu xüsusiyyəti və İraqda camaatı möhkəm sıxışdırması 120 mindən artıq günahsız insanın qətlinə səbəb olmuşdur. Yarıdan çoxu subay olan 50 mindən artıq kimi və 30 mindən artıq qadın bir-birinə qarışmış halda Həccacın zindanlarından saxlanılırdı.

Həccac 75-ci ildən 95-ci ilə kimi İraq və Şərqin yəni Xorasanın, Sistanın və bütün İraq torpaqlarının mütləq hakimi idi. Onun mübarizəsiz öldürdüklərinin sayı hesablamalara əsasən 120 min nəfər idi. Həccac dünyadan gedəndə onun zindanında 50 min kişi və 30 min qadın saxlanılırdı ki, onlardan 16 mindən çılpaq idilər. Qadın və kimiləri bir

[1] «Əl-bidayətu vən-nihayə» İbn Kəsir, cild 9, səh. 136.
[2] «Əl-imamətu vəs-siyasət» cild 2, səh. 32.

zindanda saxlayırdılar. Həccacın zindanının yayın günəşindən, qışın isə soyuq yağışından qorunmaq üçün tavanı yox idi. Zindanda həbs olanlar şiddətli istiyə dözməyib divarın kölgəsinə çəkildikdə zindanın keşikçiləri daşla onları divardan uzaqlaşdırırdılar.

Həccac zindanda saxlanılan bu zavalı insanlara torpaq və düz qarışdırılmış arpa çörəyi verirdi. Bir nəçə gün keçməmiş hər bir məhbusun rəngi qara zənçilərin rənginə düşürdü.

Bir zindanda bir nəfər həbs olundu. Bir neçə gün sonra anası onun görüşünə gəldi. Anası onu qapqara qaraldığından tanımayıb: «Bu mənim övladım deyil, bu qara zənci oğludur» - dedi. Sonradan onun öz oğlu olduğunu bildikdə fəryad edib elə oradaca canını tapşırdı.

Bir dəfə Həcac «Hud» sürəsini oxuyurdu, 146-cı ayəyə çatanda:

«Əməl» kəlməsinin neçə oxuyacağını bilmədi. Qarovçulardan birinə: - Quranın qiraətini bilən bir nəfər tap gətir - deyə əmr etdi. Qorovulçu qarini hazır etdikdə Həccac öz yerindən durub getmişdi. Qarovulçu onu zindana atdı və onu unutdu. Altı aydan sonra Həccac məhbusları yoxluyarkən bu kişiyə çatdı və soruşdu:

- Nə üçün zindana düşmüsən?
- Nuhun oğlundan ötrü! - deyə cavab verdi.

Həccac hadisənin necə baş verdiyini bilib əmr etdi ki, onu azad etsinlər.

## HƏR GÜN İKİ DƏFƏ DƏLİ-DİVANƏ OLURAM

Günlərin birində Həccac ibn Yusif öz yaxın dostlarından bir neçəsi ilə bağda istirahət edib gəzmək üçün şəhərdən kənara

çıxdı. İstirahətdən sonra o ətrafdakıları buraxıb özü tək-tənha yol getməyə başladı.Yolda bir qoca kişi ilə rastlaşıb soruşdu:

- Qoca, haralısan?

- Bu kənddənəm - deyə cavab verdi.

Soruşdu:

- Sizin kəndin dövlət məmurları necədir?

Qoca kişi cavab verdi:

- Çox pis məmurlardır. Xalqa zülm edir və mal-dövlətlərini özləri üçün halal hesab edirlər.

Həccac dedi:

- Həccacın barəsində nə deyirsən?

Cavab verdi:

- İraq hakimi öz məmurlarından da pisdir. Allah onun və məmurlarının üzünü qara etsin!

Həccac dedi:

- Məni tanıyırsan?

Cavab verdi:

- Xeyr.

- Dedi: Mən Həccacam.

Qoca dedi:

- Sənə qurban olum, məni tanıyırsan?

Həccac cavab verdi:

- Xeyr.

Qoca dedi: Mən filankəsin oğlu Bəni Əcəlin divanəsiyəm. Hər gün iki dəfə dəliliyim tutur.

Həccac onun sözlərinə gülərək yoluna davam etdi.

Bir gün Həccac minbərdə söhbətini uzatdı. Qulaq asanların içindən şücaətli və iradəli bir şəxs uca səslə: - Namaz vaxtı çatıbdır söhbətini qısa et, vaxt sənin ehtiramını saxlayıb dayanmayacaq, Allah da sənin üzrünü qəbul etməyəcəkdir. - dedi.

Camaatın hüzurunda deyilən bu sözlər Həccaca ağır başa gəldi. Əmr etdi ki, o kişini həbs etsinlər.

## SƏİD İBN CÜBEYRİN ŞƏHADƏTİ

Səid ibn Cübeyr mənəviyyatı, saflığı, zöhdü, ibadəti və təfsiri ilə tanınmış bir şəxs idi. Onun adını «yaxşı və pis alimləri bir-birindən ayıran» qoymuşdular. Səid İmam Zeynəlabidin (ə)-nı arxasında namaz qılırdı. Xalid ibn Vəlid Əşri onu tutub Həccacın yanına göndərdi. Həccac onu gördükdə dedi:

- Şəqi ibn Kəsir sənsən?

Səid ibn Cübeyr:

- Anamın mənim adımdan yaxşı xəbəri var - deyə cavab verdi.

Həccac dedi:

- Əbu Bəkr və Ömər barəsində nə fikirdəsən? Onlar cənnətdədirlər, yoxsa cəhənəmdə?

Səid dedi:

- Cənətə yaxud cəhənnəmə daxil olub oranın camaatını görəndə biləcəksən.

Həcac:

- Xəlifələr barəsində nə deyirsən? - deyə soruşdu.

Səid ibn Cübeyr dedi:

- Mən onların müdafiəçi vəkili deyiləm.

Həccac dedi:

- Hansını daha çox istəyirsən?

Səid dedi:

- Allahı daha artıq razı salanı.

Həccac dedi:

- Onların hansı biri Allahı daha artıq razı etmişdir?

Səid dedi:

- Allah məndən də daha yaxşı bilir, çünki Allah batini və aşkarı biləndir.

Həccac dedi:

- Məni təsdiq etmək istəmirsən?

Səid dedi:

- Səni təkzib etmək istəmirəm.

Həccac əmr etdi ki, onu öldürsünlər.

Səid ibn Cübeyr bu ayəni oxudu:

إِنِّي وَجَّهْتُ وَجْهِيَ لِلَّذِي فَطَرَ السَّمَاوَاتِ وَالْأَرْضَ حَنِيفًا ۖ وَمَا أَنَا مِنَ الْمُشْرِكِينَ

***«Mən, həqiqətən, batildən haqqa tapınaraq (dönərək) üzümü göyləri və yeri yaradana çevirdim. Mən (Allaha) şərik qoşanlardan deyiləm!»***[1]

Həccac onun qiblənin əksinə öldürülməsini əmr etdi. Səid:

فَأَيْنَمَا تُوَلُّوا فَثَمَّ وَجْهُ اللَّهِ

***«Hansı tərəfə yönəlsəniz (üz tutsanız) Allah oradadır».***[2]

Səid dedi:

مِنْهَا خَلَقْنَاكُمْ وَفِيهَا نُعِيدُكُمْ وَمِنْهَا نُخْرِجُكُمْ تَارَةً أُخْرَىٰ

***«Sizi (ulu babanız Adəmi) də onda (o torpaqdan) yaratdıq. Sizi (öləndən sonra) ora qaytaracaq və (qiyamət günü) bir daha oradan (dirildib) çıxardacağıq».***[3]

Burada Səid ibn Cübeyrin boynu vuruldu.

İbn Əsir yazır: Sədinin başı yerə üç dəfə «La iləhə illəllah» dedi. Səid ibn Cübeyri öldürdükdən sonra Həccac xəstəliyə düçar olub yorğan döşəyə düşür. O tez-tez qışqırıb huşdan

[1] «Ənam» surəsi, ayə 79.
[2] «Bəqərə» surəsi, ayə 115.
[3] «Taha» surəsi, ayə 55.

gedirdi. Huşa gəldikdə deyirdi. «Axı nə üçün mən Səid ibn Cübeyri öldürdüm?!»

Həccac 40 gün bu vəziyyətdə yaşadıqdan sonra cəhənnəmə vasil oldu.

## QƏNBƏRİN ŞƏHADƏTİ

Bir gün Həccac öz məmurlarına dedi: Bu gün Əlinin əshablarından birini öldürmək istəyirəm. Onlar: Qənbərdə yaxşısını tanımırıq - deyə cavab verdilər. Həccac onu çağıtdırıb dedi:

- Qənbər sənsən?

Dedi: Bəli.

Həccac dedi:

- Əlinin dinini pislə.

Qənbər dedi:

- Mənim üçün daha yaxşı din gətirsən mən Əlinin dinindən əl çəkərəm.

Həccac dedi:

- Mən səni öldürürəm, necə istəyirsən qəbul et.

Qənbər dedi:

- Əmirəl-möminin Əli (ə) mənə buyurmuşdur: «Sənin başını günahın olmadan qoyun kimi kəsəcəklər».

Həccac əmr etdi ki, onun başını kəssinlər.

## HÜRRƏNİN HƏCCACLA RƏFTARI

Bir gün Həlimeyi Sədiyyənin qızı Hürrə, Həccac ibn Yusifin yanına gəldi. Həccac ibn Yusif ona dedi:

- Sən Həlimeyi Sədiyyənin qızı Hürrəsən?

Hürrə onun cavabında dedi:

- Düz tanıdın. Lakin yaxşı tanımaq sənin deyil, mömin şəxslərin üstünlüklərindəndir.

Həccac dedi:

- Allah səni bura gətirdi. Deyirlər sən Əlini Əbu Bəkr, Ömər və Osmandan üstün hesab edirsən.

Hürrə onun cavabında belə dedi:

- Bunu mənim haqqımda deyən yalan deyibdir, çünki mən Əlini Adəm, Nuh, Lut, İbrahim, Süleyman və İsa ibn Məryəmdən də daha üstün və fəzilətli hesab edirəm.

Həccac dedi:

- Vay olsun sənə, Əlini sahabədən üstün bildiyindən əlavə, yeddi nəfər müqəddəm və Ulul-əzm peyğəmbərlərdən də üstün hesab edirsən?! Əgər sən bunun dəlilini söyləməsən boynunu vurduracağam.

Hürrə dedi:

- Mən onu bu peyğəmbərlərdən üstün bilmirəm, Əksinə, Allah Özü Quranda onu üstün bilmişdir. Çünki Quran Adəm barəsində buyurur:

وَعَصَىٰ آدَمُ رَبَّهُ فَغَوَىٰ

***«Adəm Rəbbinin əmrindən boyun qaçırdı və yoldan çıxdı».***[1]

Lakin Quran Əlinin barəsində buyurur:

وَكَانَ سَعْيُكُمْ مَشْكُورًا

***«Zəhmət və səyiniz (Allah yanında) məqbuldur (təqdirəlayiqdir)!»***[2]

Həccac dedi:

---

[1] «Taha» surəsi, ayə 121.
[2] «İnsan» surəsi, ayə 22.

- Bərəkəllah, Hürrə! İndi de görüm hansı dəlil əsasında onu Hüd və Lutdan üstün hesab edirsən?

Hürrə dedi: Allah onu üstün hesab edibdir. Necə ki, Nuh və Lut barəsində buyurur:

ضَرَبَ اللَّهُ مَثَلًا لِلَّذِينَ كَفَرُوا امْرَأَتَ نُوحٍ وَامْرَأَتَ لُوطٍ ۖ كَانَتَا تَحْتَ عَبْدَيْنِ مِنْ عِبَادِنَا صَالِحَيْنِ فَخَانَتَاهُمَا فَلَمْ يُغْنِيَا عَنْهُمَا مِنَ اللَّهِ شَيْئًا وَقِيلَ ادْخُلَا النَّارَ مَعَ الدَّاخِلِينَ

***«Allah kafirlərə Nuhun övrəti ilə Lutun övrətini misal çəkdi. Onlar Bizim qullarımızdan iki saleh bəndənin kəbini altında idilər. Onlar ərlərinə xəyanət etdilər və (Nuhla Lut) onları Allahdan (Allahın əzabından) heç vəchlə qurtara bilmədilər. Onlara: «(Başqa) girənlərlə birlikdə siz ikiniz də Cəhənnəmə girin!» – deyildi».***[1]

Lakin Əli ibn Əbu Talibin məqamı Sidrətul-Müntəhanın[2] altındadır və həyat yoldaşı Peyğəmbərin qızı Fatimə idi ki, Allah onun razılığı ilə və narahatçılığı ilə narahat olurdu:

Həccac dedi:

- Çox yaxşı, amma hansı dəlilə görə Əlinin, ənbiyanın atası İbrahim Xəlildən üstün hesab edirsən?

Hürrə dedi: Allah onu bu ayədə üstün bilibdir – deyə bu ayəni oxudu:

وَإِذْ قَالَ إِبْرَاهِيمُ رَبِّ أَرِنِي كَيْفَ تُحْيِي الْمَوْتَىٰ ۖ قَالَ أَوَلَمْ تُؤْمِنْ ۖ قَالَ بَلَىٰ وَلَٰكِنْ لِيَطْمَئِنَّ قَلْبِي ۖ قَالَ فَخُذْ أَرْبَعَةً مِنَ الطَّيْرِ فَصُرْهُنَّ إِلَيْكَ ثُمَّ اجْعَلْ عَلَىٰ كُلِّ جَبَلٍ مِنْهُنَّ جُزْءًا ثُمَّ ادْعُهُنَّ يَأْتِينَكَ سَعْيًا ۚ وَاعْلَمْ أَنَّ اللَّهَ عَزِيزٌ حَكِيمٌ

***«Xatırla ki, İbrahim: «Ey Rəbbim, ölüləri nə cür diriltdiyini mənə göstər!» – dedikdə (Allah): «Məgər (ölüləri diriltməyimə) inanmırsan?» –buyurmuşdu. (İbrahim: ) «Bəli,***

---

[1] «Təhrim» surəsi, ayə 10.

[2] Cənnətdə bir ağacın adıdır və yaxud yeddinci göydə göyün sağ tərəfində.

***inanıram, lakin ürəyim sakit (xatircəm) olmaq üçün (soruşdum)», - deyə cavab vermişdi. (Bu zaman Allah ona) buyurmuşdu: «Dörd cür (cins) quş götürüb (səhv salmamaq üçün) onlara diqqətlə bax, (onları parçalayaraq bir-birinə qatandan) sonra hər dağın başına onlardan bir parça at, sonra onları çağır, tez yanına gələcəklər. Bil ki, Allah yenilməz qüvvət, hikmət sahibidir!»***[1]

Amma mənim mövlam Əmirəl-möminin elə bir söz buyurubdur ki, islam firqələrindən heç biri o sözlə müxalifətçilik etməyib. Həzrət Əli (ə) buyurdu:

**«Əgər pərdələr götürülərsə mənim yəginim çatmaz (yəni əvvəldə olduğu kimi yüz faizlik yəgində olaram)»**[2]

Bu sözü Əli (ə)-dan əvvəl və sonra kimsə deməyibdir.

Həccac dedi:

- Çox yaxşı, onu Musa Kəlimullahdan necə üstün bilirsən?

Hürrə dedi:

- Allah Musanın barəsində buyurur:

فَأَصْبَحَ فِي الْمَدِينَةِ خَائِفًا يَتَرَقَّبُ

***«Musa qorxaraq səhəri şəhərdə nigaranlıq içində qarşıladı».***[3]

Lakin Əli (ə) qorxub çəkinmədən Peyğəmbər (s)-in yatağında yatmışdı və Allah bu ayəni onun barəsində nazil etdi:

وَمِنَ النَّاسِ مَنْ يَشْرِي نَفْسَهُ ابْتِغَاءَ مَرْضَاتِ اللَّهِ ۗ وَاللَّهُ رَءُوفٌ بِالْعِبَاد

[1] «Bəqərə» surəsi, ayə 260.
[2] «Nəhcül-bəlağə»
[3] «Qəsas» surəsi, ayə 18.

***«İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır!»***[1]

Həccac dedi:

- Afərin! De görüm nəyə görə Əlinin, Davud və Süleymandan fəzilətli hesab edirsən?

Hürrə dedi: Allah bu iki ayə ilə Əlini onların ikisindən də üstün etmişdir:

يَا دَاوُودُ إِنَّا جَعَلْنَاكَ خَلِيفَةً فِي الْأَرْضِ فَاحْكُمْ بَيْنَ النَّاسِ بِالْحَقِّ وَلَا تَتَّبِعِ الْهَوَىٰ فَيُضِلَّكَ عَنْ سَبِيلِ اللَّهِ

***«Ya Davud! Biz səni yer üzündə xəlifə (və ya əvvəlki peyğəmbərlərə xələf) etdik. Buna görə də insanlar arasında ədalətlə hökm et, nəfsdən gələn istəklərə uyma, yoxsa onlar səni Allah yolundan sapdırar».***[2]

Həccac: Davudun hökmü hansı bir məsələ barəsində idi? – deyə soruşdu.

Hürrə dedi:

- Birisinin üzüm bağı, o birisinin isə qoyun sürüsü olan iki nəfərdən bağ sahibi olan iddia edirdi ki, bu kişi qoyunlarını mənim bağıma sürüb və mənim üzümlərimi qırıb dağıdıbdır. Bunlar gedib şikayətlərini Davuda söylədilər. Davud onların

فَفَهَّمْنَاهَا سُلَيْمَانَ

***«Biz məsələnin hökmünü dərhal Süleymana anlatdıq».***[3]

Lakin bizim mövlamız Əli (ə) «dünyadan getməmiş məndən göyün altından və üstündən sual» - edin deyə buyurdu:

---

[1] «Bəqərə» surəsi, ayə 207.
[2] «Sad» surəsi, ayə 26.
[3] «Ənbiya» surəsi, ayə 79.

Əli (ə) Xeybər qalası fəth olan gün Peyğəmbərin hüzuruna gəldi. Peyğəmbər orada hazır olanlara baxıb buyurdu:

«Sizin hamınızdan daha əziz, daha alim və qəzavət fənnini çox gözələ bilən Əlidir».

Həccac dedi:

- Afərin! Bəs hansı dəlil əsasında sən onu Süleymandan fəzilətli hesab edirsən?

Hürrə dedi: Allah bu ayə ilə fəzilətli edibdir:

قَالَ رَبِّ اغْفِرْ لِي وَهَبْ لِي مُلْكًا لَا يَنْبَغِي لِأَحَدٍ مِنْ بَعْدِي

***«Süleyman dua edib dedi: «Ey Rəbbim! Məni bağışla və mənə elə bir mülk (səltənət) ver ki, məndən sonra heç kəs (o cür mülkə) nail ola bilməsin».***[1]

Amma bizim mövlamız Əli (ə) buyurdu:

«Ey dünya, mən üç dəfə sənin təlaqını vermişəm, mənim səndən istəyim, hacətim yoxdur».

Bu zaman bu ayə nazil oldu:

تِلْكَ الدَّارُ الْآخِرَةُ نَجْعَلُهَا لِلَّذِينَ لَا يُرِيدُونَ عُلُوًّا فِي الْأَرْضِ وَلَا فَسَادًا

***«Biz bu axirət yurdunu yer üzündə təkəbbürlük etməyənlərə və fitnə-fəsad törətməyənlərə qismət edərik».***[2]

Həccac dedi:

- Çox gözəl, de görüm nə əsasında Əlini İsadan üstün bilirsən?

Hürrə dedi:

- Allah onu bu ayədə üstün edibdir:

---

[1] «Sad» surəsi, ayə 35.
[2] «Qəsas» surəsi, ayə 83.

وَإِذْ قَالَ اللَّهُ يَا عِيسَى ابْنَ مَرْيَمَ أَأَنْتَ قُلْتَ لِلنَّاسِ اتَّخِذُونِي وَأُمِّيَ إِلَٰهَيْنِ مِنْ دُونِ اللَّهِ ۖ قَالَ سُبْحَانَكَ مَا يَكُونُ لِي أَنْ أَقُولَ مَا لَيْسَ لِي بِحَقٍّ ۚ إِنْ كُنْتُ قُلْتُهُ فَقَدْ عَلِمْتَهُ ۚ تَعْلَمُ مَا فِي نَفْسِي وَلَا أَعْلَمُ مَا فِي نَفْسِكَ ۚ إِنَّكَ أَنْتَ عَلَّامُ الْغُيُوبِ

***«Xatırla ki, o zaman (qiyamət günü) Allah belə buyuracaq: «Ya Məryəm oğlu İsa! Sənmi insanlara: «Allahla yanaşı, məni və anamı da özünüzə tanrı bilin!» – demişdin? «(İsa cavabında) deyəcək: «Sən pak və müqəddəssən! Haqqım çatmayan bir şeyi demək mənə yaraşmaz. Əgər bunu mən demiş olsaydım, Sən onu mütləq bilərdin. Sən mənim ürəyimdə olan hər şeyi bilirsən, mən isə Sənin zatından ola bilmərəm. Şübhəsiz ki, qeybləri bilən ancaq Sənsən!»*** [1]

Həzrət İsa hökuməti qiyamət gününə qədər təxirə saldı, lakin Həzrət Əmir (ə) isə Nəisriyyə [2] öz iddialarını dedikdə Həzrət Əli (ə) onları öldürüb bu işi qiyamət gününə saxlamadı. Bu, Əlinin fəzilətləridir ki, başqalarının fəzilətləri ilə müqayisə etməli deyil.

Həccac dedi:

- Afərin! Suallara yaxşı cavab verdin. Əgər belə cavab verməsəydin səni öldürəcəkdim.

Sonra Həccac Hürrəyə mükafat verib ehtiramla evinə yola saldı. [3]

## İMAM BAQİR (Ə)-IN HƏCCAC HAQQINDAKI NƏZƏRİ

İmam Baqir (ə) Həccacın barəsində belə buyurur:

- Həccac hakimyyəti ələ keçirdikdən sonra şiələri mümkün olan ən acınacaqlı şəkildə kütləvi sürətdə qırdırırdı. O, hər

---

[1] «Maidə» surəsi, ayə 116.
[2] Nəsriyyə imamları «Allahın ruhu» bilənlər.
[3] «Biharul-ənvar» cild 11, səh. 92.

hansı bir töhmət və güman əsasında onları tutub həbs edirdi. Onun dövründə xalq zülmün şiddətindən təki onları Əli (ə) şiəsi kimi tanımasınlar deyə, kafir və zindıq kimi tanımalarına razı idilər.[1]

[1] «Şərhi Nəhcül-bəlağə» İbn Əbil Hədid cild 11, səh. 43.

# VII HİSSƏ

## ƏBDÜRRƏHMAN İBN ƏŞƏSİN QİYAMI

Əbdürrəhman ibn Əşəsi Sistanı fəht etmək üçün iraqlılardan təşkil olmuş böyük bir qoşuna başçı təyin etdilər. Əbdürrəhman və ailəsinin Əhli-beytlə arası çox da yaxşı deyildi. İmam Sadiq (ə)-ın diliylə desək Əşəs Həzrət Əmir (ə)-ın, qızı Cədə İmam Mücbtəba (ə)-ın və oğlu Məhəməd isə İmam Hüseyn (ə)-ın şəhid edilməsində yaxında iştirak etmişdilər.[1]

Bir vaxtlar Əbdürrəhmanın özü Abdullah Zübeyrin hökuməti tərəfindən Mədinədə verliklərin toplanması üçün məmur seçillmişdir. Onun qoşunu 80-cı ildə Sistana doğru hərəkət etdi. Bir neçə zəfərdən sonra əməliyyatı dayadırmaq qərarına gəldi. O bu məsələ barəsində Həccacla məsləhətləşdi. Lakin Həccac onun təklifi ilə razılaşmadı. Və elə həmin məsələ Həccac və Əməvi hökuməti ilə müxalifətçilik etməyə bəhanə oldu.

İraq ordusu fəht etmək əvəzinə içinə çaxnaşma düşmüş bir qoşun sürətində İraqa tərəf yollandı.

Əbdürrəhman camaatı Allahın kitabına, Peyğəmbər (s)-in sünnəsinə, yolundan çıxmış rəhbərləri mənsəbdən kənarlaşdırmağa və dinsizlərə qarşı cihad etməyə dəvət etdi.[2]

Onun ordusu 81-ci ilin Zilhiccə ayında Bəsrəyə soxuldu. Bəsrədə Həccacın zülmündən cana doymuş Quran qari və hafizləri, eləcə də şəhərin qocalarından tutmuş bütün əhalisi

---

[1] «Rozeyi-Kafi», səh. 245.
[2] Təbərinin tarixi.

Əbdul Maliki xilafətdən kənar etdilər. Kufədə də bütün camaat ona qoşuldular.[1]

Bu hərəkatdan qorxuya düşmüş Əbdül Malik sakitçiliyi qorumaq üçün Həccacı işdən kənar etməyə hazır olduğunu onlara təklif etdi. Lakin Əbdürrəhman və tərəfdarları qələbə qazanacaqlarını duyub onun verdiyi vədələri qəbul etməkdən boyun qaçırdılar. Onlar Bəni-Üməyyənin əleyhinə təbliğat aparıb onların etdiyi zülmlər, o cümlədən zəifləri öldürmələrinə və namazı aradan aparmalarına etirazını bildirirdilər.

Əbdürrəhmanın mübarizəsi 83-cü ilə qədər davam etdi. Nəhayət o məğlubiyyətlə üzləşib Sistana qaytdı. Xorasan yolunda tərəfdarlarının çox hissəsi ondan ayrıldı. Onun özü isə Hərata getdi və oradakı padşahların birinə sığındı. 85-ci ildə Həccacla o məntəqənin şahı Rütbil arasında əhdnamə imzaladıqdan sonra Əbdürrəhmanın başı Həccac üçün göndərildi.

Əbdül Malik həyatının axır çağlarında arzu edirdi ki, kaş ömrünün əvvəlindən axırına kimi bir hambal olaydı.

## VƏLİD İBN ƏBDÜL MALİK HÖKUMƏT BAŞINDA

Əbdül Məlik 86-cı ildə həlak oldu. Ondan sonra xəlifəlik oğlu Vəlid ibn Əbdül Malikə çatdı ki, o həmin Həccacla birgə, həmin hökumətin davamçısı idi.

Fəthlər Vəlidin dövrünün əhəmiyyətə malik olan əsas işlərindən biri idi. Bu hücumların əsas və başlıcası Qostəntiniyə [2] (Konstantinopol) və Andolosa (İspaniyaya) edilmiş hücumlardır.

---

[1] Yenə orda.

[2] Dəclə və Tərat cayları arasında ərazilərə deyilir.

Müsəlmanlar elə İslamın yarandığı ilk günlərdən nəsraniyyəti yer üzündən silmək məqsədilə öz kanunlarında (suryani təqvimində ay adıdır) Qonstəntiniyyənin fəth edilməsi proqramını yerləşdirimişdilər.

Müsəlmanlar 32-ci ilin axırlarında birinci dəfə quru yolla Qonstəntiniyyəyə tərəf irəliləyərək Kiçik Asiyadan keçib Bosfor sahilinə çatdılar. Lakin onlara dəymiş ziyanlar nəticəsində Qonstəntiniyyəyə çata bilməyib elə oradan geri qayıtdılar. 44-cü ildə Busr ibn Ərtatın rəhbərliyi altında ərəb döyüş gəmiləri Qonstəntiniyyə höküməti ilə müharibə etdi. 52-ci ildə Yəzid oranı mühasirəyə aldı. Ondan sonra ən azı dörd dəfə Qonstəntiniyyə müsəlmanlar tərəfindən mühasirəyə alındı. Lakin fəth edilmədi. (857-ci ildə bu şəhəri təkcə Osmanlı türkləri fəth etmiş və oranı böyük imperiyanın mərkəzi etmişlər.) Yəzidin dövründə bəzi məntəqələrdə fəthlərin başlamasına baxmayaraq demək olar ki, hicri tarixinin 60-cı illərində İbn Zübeyrin süqutu illəri olan 73-cü ilə qədər fəthlər dayandırılmışdı. İbn Zübeyr aradan götürüldükdən sonra Əbdül Malikin hökümətinin işə başlaması fəyhllərin davamına səbəb oldu.

## FƏTHLƏR - İŞ PROQRAMI

Ümumiyyətlə baş vermiş fəthləri bir neçə məntəqəyə bölmək mümkündür. Onlardan biri şərqdə aparılırdı ki, onun özü də iki hissəyə - Mavəraun-nəhr (Dəclə və Fərat çaylarının arasındakı ovalıq ərazilər) və Sistana bölünürdü. O biri isə ölkəni qərbində idi ki, onun da bir hissəsi Afrikanın şimalında və bir hissəsi isə İraqın və Suriyanın Ərməniyyə adlı adlı şimal məntəqələrində baş vermişdir.

O vaxtlar Xorasan Sasanilərin əlində idi. Lakin şərqə tərəf getdikcə sasanilərin qüdrəti zəifləyir və yerli şahların qüdrəti güclənirdi. O diyarda sakin olanlar «türklər» adı ilə tanınmışdılar.

Müsəlmanların Mavəraun-nəhrə yürüşü Müaviyyənin dövründə başlanmışdı. Yürüş əllinci illərin əvvəllərində İraq hakimi olan Ziyad tərəfindən olmuşdur. Əldə edilmiş bu qələbələri daha da möhkəmlətmək üçün 51-ci ildə Bəsrədə və Kufədə sakin olan 50 min ərəb ailəsi Xorasana yola salındı. O məntəqə Abdullah Zübeyrin hakimiyyəti dövründə Abdullah ibn Xazimin əlində idi. Əbdül Məlik, ibn Zübeyrin əzdikdən sonra ondan öz hakimiyyətini qəbul etməyi və oranın hakimi kimi yerində qalmasını istədi. Lakin Abdullah ibn Xazim bunu qəbul etmədi. Nəhayət Əbdul Məlik bu işi Abdullah ibn Xazimin Mərvdə olan nümayəndələrindən biri Bəkir ibn Vəşşaha təklif etdi. O, Əbdül Məlikn dəvətini qəbul etdi. Onunla Abdüllah ibn Xazim arasında baş verən müharibədə isə İbn Xazim öldürüldü. Bununla da Əbdul Məlik o məntəqəni ələ keçirdi. İbn Xazim öldürdürkdən sonra Xorasan və Sistanın rəhbərliyi Həccacın öhdəsinə qoyuldu. O, Məhləb ibn Əbi Səfrəni Xorasana hakim təyin etdi. Bu hadisə 78-ci ildə baş vermişdir. Mərləb övladları 9 ilə yaxın Xorasanda hökümranlıq edilər. Nəhayət Həccacda Ali-Məhləbə qarşı nifrət yarandığından onları hakimyyətdən uzaqlaşdırıb yerini Qütəybə ibn Müslümə verdi. 86-cı ildə Qütəybə Xorasana daxil oldu. Elə həmin ildə Əbdül Məlik cəhənnəmə vasil oldu. Vəlid onun yerində keçdi. Zəfərlərin çox hissəsi bu dövrdə əldə edildi. Qüteybənin qazandığı zəfərlər 10 ilə yaxın çəkdi. 94-cü ildə müsəlmanlar Oman dənizinin kənarından keçərək Hindistana tərəf irələyib o diyarın bir hissəsini öz əllərinə keçirtdilər.

Qüteybənin qələbələrini mərkəzi şərqdən tutub Çinə qədər uzandı. Bu müharibələr Qütüybənin ömrünün axırında 94 və 95-ci illərdə aparılmışdı. O, Həccacın ölüm xəbərin eşitdikdə kədərlənərək müharibəni dayandırıb Mərvə qayıtdı.

Misrin fəht edilməsi müsəlmanların Afrikada daha sonra isə İspaniyada böyük nüfuza malik olmalarına səbəb olmuşdu. 21-ci ildə Ömərin zamanında Misr alındı Müaviyyənin hakimyyəti zamanında Uqbə ibn Nafe bu məntəqələrdə bir çox zəfərlər əldə edərək 50-ci ildə Qeyrəvan şəhərini saldı.

Bu şəhər ərəblərin məntəqədəki fəhtləri üçün strateji əhəmiyyətə malik olan bir nöqtə idi. Üqbə ibn Nafe 64-cü ildə barbarların əli ilə öldürüldü.

76-cı ildə qələbələr yenidən Afrikada başladı. Həmin ildə Həsən ibn Noman öz qələbələrini Qortacənəhin fəthi ilə başlayıb sonra isə məğribə tərəf irəlilədi.

Həsən ibn Nomanın zəfərlərinin ardınca 86-cı ildə Musa ibn Nəsir Afrikada yeni fəthlərə başladı. Tariq ibn Ziyad Musa ibn Nəsirin tanınmış sərkərdələrindən idi. 93-cü ildə Tariq komandanlığı sayəsində Andalosa (İspaniyaya) ayaq qoydu.

## SÜLEYMANIN HAKİMİYYƏT BAŞINA GƏLMƏSİ

96-cı ildə Vəlid cəhənnəmə vasil olandan sonra Süleymanın iş üstünə gəldiyinə görə Musa ibn Nəsir Dəməşqə qayıtdı və öz əməlləri nəticəsində Əməvi hökümətinin qəzəbinə düçar oldu. Birinci əsrin axırlarına qədər qələbələrin qazanıldığı məntəqələrin biri İraqın şimalından Türkiyənin şimal-şərqinə kimi «Ərməniyyə» adlandırılan indiki Ermənistan ərazisi idi.

Musa ibn Nəsir Məğribin şəhərlərini fəth etdi. Andalos (indiki İspaniya və Portuqaliya) Musanın əli ilə fəth olundu.

Süleyman onu, müharibədə əldə edilmiş gəliri onun xəlifəlik dövrünə saxlamayıb dərhal Vəlidə verdiyinə görə öldürtdü.

Vəlidin hakimiyyət dövrü 86-cı ildən 96-cı ilə qədər olmuşdur. Ondan sonra Süleyman ibn Məlik hakimiyyəti ələ keçirib cəmadiyul-əvvəl ayından 99-cu ilin səfər ayına kimi hökümət etdi. O, Ömər ibn Əbdüləzizi özündən sonra canişinliyə seçdi. Süleymanın gördüyü işlərdə biri də Həccacın dostlarını və qohum-əqrabasını təqib edib, əzab-əziyyət vermək idi. Bu rəftarın səbəbi Süleymanın vəliəhdliyi zamanında Həccacla onun arasında baş vermiş inad və narazılıq olmuşdur.

Həccac 95-ci ilə qədər ömür sürmüş və həmin ildə qətlə yetirilmişdir. Həccac cəhənnəmə vasil olana qədər görüməli işləri görmüşdür. Camaatın ürəyi onun gördüyü işlərdən qan olmuşdur. Süleyman camaatın ona verdiyi ruhi sıxıntını azaltmaq və xalqın məhəbbətini qazanmaq üçün Həccacı pisləyir və onun tərəfdarlarını incidirdi.

# VIII HİSSƏ

## ZÜHƏRİ ZALIMLARIN QULLUĞUNDA

Məhrum Mühəddis Qumi «Səfinə»də, Məhəməd ibn Müslüm Zühəri haqqında yazır:

Daha sonra böyük şəxsiyyətlərin onun barəsində söylədiklərini nəql edir.

İmam Səccad (ə) Zühəriyyə məktub yazib ona möizə etmişdir. Bu məktubun mətni hədis kitablarında gəlmişdir. Məktubdan belə məlum olur ki, o azqın Bəni-Üməyyə hökumətinin zalımlarına qulluq göstərmiş və onlar üçün müqəddəs şəriətdə zidd olan məqsədlərini həyata keçirməkdə vəsilə olmuşdur.

Əbdul Məlik Mərvan da o dövrün zalım hakimlərindən biri idi. Tarixdə onun necə günah içində qərq olaraq qorxub çəkinmədən ən alçaq və çirkin əməllərə əl atması yazılmışdır. Ümmü Dərda bir gün ona dedi: Eşitmişəm etdiyin bütün ibadətlərdən sonra şərab da içirsən. Əbdül Məlik and içib dedi ki, şərabdan əlavə xalqın qanını da içirəm. Bu sitəmkar və zalım ünsürün Allahın dininə qarşı hörmətsizliyi o yerə çatdı ki, o mənbərdə açıq aşkar dedi:

- Hər kəs məni təqvaya dəvət edərsə onun boynunu vuraram.

Belə bir zalım hakimin təsiri Zuhərinin fikirlərinin batil yola çəkilməsinə səbəb oldu. Bəzi vaxtlar o, özünün az-çox dini məlumatlarından tağut hakimiyyətinin xeyrinə sui-istifadə edirdi. Allahın haqq yolunu dərk etmiş imanlı insanlar bundan narahat olub qəzəblənirdilər.

Məhəmməd ibn Müslüm ibn Şəhab Zuhəri tam şəkildə Bəni-Üməyyə sülaləsinin müti quluna çevrilmişdi. Onun əsas işi Hişam ibn Əbdül Məliklə idi. Hişam Zuhərinin ona etdiyi bu xidmətlərin qarşısında onun borclarını ödəmiş və tərbiyə etmək üçün övladlarını onun yanına göndərmişdi. [1] Bundan əvvəl də onun qardaşları və həmçinin Əbdül Malikin özü ona maddi cəhətdən kömək etmişdilər.

Zuhəri əməvilərə elə sədaqətlə xidmət etmişdi ki, əməvilər onu əzizləyib və tərifləyirdilər. İbn Teymiyyə yazır: «Zuhəri 70 il islamı qorudu». (Əlbəttə qeyd etmək lazımdır ki, bu həmin Bəni-Üməyyənin islamı idi.)

## İMAM SƏCCADIN (Ə) ZUHƏRİYƏ MƏKTUBU

İmam Səccad (ə) Zuhəriyə məktub yazıb ona, etdiyi işlərdən əl çəkməyi nəsihət edərək höccəti ona tamam etdi. İmam Səccad (ə) öz məktubunda buyurdu:

- Ey Zuhəri, bu gün elə vəziyyətdəsən ki, səni bu halda görən hər bir şəxs sənin üçün rəhmət tələb etməlidir.

Ey Zuhəri! Allah nemətlərinin yükü sənin çiynində ağırlaşdığını bil və bu da Allahın sənə verdiyi nemətlərin nəticəsidir. Allah sənə sağlam bədən və uzun ömür veribdir. Dəlil və höccətə gəldikdə isə Allah höccətini sənə tamam etmişdir. Çünki sən Quranı bilirsən, fiqh oxumusan. Allah peyğəmbərlərinin sünnəsini sənə başa salıbdır. Bil ki, Allah sənə bəxş etdiyi nemət və höccətlərin qarşısında sənin üçün vəzifə müəyyən edibdir və Allahın sənə verdiyi bu nemətlərdə məqsədi sənin şükrünü imtahan etməkdir...

[1] «Təzkirətul-Huffaz Zəhəbi» cild 1, səh. 102.

Bax gör əgər sabah qiyamət günü Allah qarşısında duranda necə bir insan olacaqsan. O gün Allah səndən «Mənim nemətlərimdən necə istifadə edib, höccətlərim haqqında necə hökm etdin» - deyə soruşacaqdır. Güman etmə ki, Allah sənin üzrünü qəbul edəcək. Heyhat, çox təəssüflər olsun ki, bu cür deyil. Allah Quranda alimləri məsul bilib buyurubdur:

لَتُبَيِّنُنَّهُ لِلنَّاسِ وَلَا تَكْتُمُونَهُ

***«Onu xalqa bəyan edib və gizli saxlamalısınız».***[1]

Ey Zühəri! Bil və agah ol, azaçıq da olsa belə, haqqı gizlədib ört-basdır etmək, eləcə də sənin nəzərincə kiçik olan bu iş ondan ibarətdir ki, sən zalımlara yaxınlaşmaqla onların ürəyini aram etmiş və onları azğınlığa çəkmisən. Qiyamət günü sənin xalq və zalımlarla bir yerdə olmağında qoxuram...

Sən Allahla müharibəyə çıxan bir kəsi istəyirsən. Onlar səni dəvət edib öz zülm və sitəm çarxlarını fırlatmaq üçün səndən ox düzəltmişlər. Səndən özləri keçmək üçün körpü düzəltmişlər.

Onlar səni öz azğınlıqlarına çatmaq üçün nərdivan etmişlər. Onlar sənin vasitənlə caamat arasında Ali-Muhəmməd alimlərinə qarşı şəkk yaradıb cahillərin qəlbini şikar etdilər. Onların bu azğınlıq və fəsadlarını hətta böyük əhəmiyyətə malik olan vəzirlər, hökümətin qüdrətli siyasi xadimləri sənin qədər gizli saxlaya bilmədilər. Həmçinin heç kəs xalqın qəlbini sənin qədər onlara tərəf meyilli etməmişdir. Onlar səndən qazandıqlarının müqabilində sənə çox az muzd verdilər.

Ey Zuhəri! Mən qorxuram ki, sən o şəxslərdən olasan ki, Allah onların barəsində Quranda belə buyurmuşdur:

---

[1] «Ali-İmran» surəsi, ayə 186.

فَخَلَفَ مِنْ بَعْدِهِمْ خَلْفٌ وَرِثُوا الْكِتَابَ يَأْخُذُونَ عَرَضَ هَٰذَا الْأَدْنَىٰ وَيَقُولُونَ سَيُغْفَرُ لَنَا

***«Onlardan sonra yerlərinə kitaba (Tövrata) sahib olan xələflər keçdilər. Onlar fani dünya malını alıb deyirlər: «Biz başlanacağıq».*** [1]

Qoça, ölüm ayağında olan bir alim olduğun halda dünya sənin qəlbində bu qədər yer tutmuşdursa onda elmi olmayan nadan cavanlar nə etsinlər?

Kimə imanlı? Kimə şikayət etməli? Biz şikayətimizi və ürək dərdlərimizi Allahın dərgahına aparırıq.

Ey Zühəri!... Sənə nə olubdur ki, qəflət yuxusundan oyanmır və etdiyin səhvlərə görə töhbə etmirsən? Allaha de ki, ey Allah, mən bütün ömrüm boyu bir dəfə də olsun sənin dinini yaşatmaq və batili məhv etmək üçün qiyam etməmişəm... Və mən qorxuram, sən o şəxslərdən olasan ki, Allah Quranda onlar haqqında buyurubdur:

فَخَلَفَ مِنْ بَعْدِهِمْ خَلْفٌ أَضَاعُوا الصَّلَاةَ وَاتَّبَعُوا الشَّهَوَاتِ ۖ فَسَوْفَ يَلْقَوْنَ غَيًّا

***«Onlardan sonra namazı tərk edib şəhvətə uyan bir nəsil gəldi. Onlar (Cəhənnəmdəki) Ğəyy dərəsinə düşəcəklər».*** [2]

Ey Zühəri! Allah Quranı əmanət kimi sənə tapmışdı, sən isə onu korlayıb məhv etdin.

---

[1] «Əraf» surəsi, ayə 169.

[2] «Məryəm» surəsi, ayə 59. (Ğəyy - cəhənnəm dərəsindən birinin adıdır).

## SARAY ALİMLƏRİNİN VƏZİFƏLƏRİ

Bəni-Üməyyinin xidmətində olan məhşur hafiz və alimlərdən Şüəbənin adını çəkmək olar. O, Əbdürrəhmanın qiyamında iştirak etmişdi. Lakin bundan sonra özünü Həccacın ixiyarında qoymaq şərti ilə bağışlandı və ömrünün qalan hissəsini onun və Əbdül Məlikin kənarında başa vurdu. Abdullah ibn Ömər Həccacın həyatda olan illərində az-çox himayə olunurdu. Məxsusən Əbdul Məlik ona itaət etməyi yazılı sürətdə Həccaca tapşırmışdır.[1]

Bu kimi şəxslərin əlindən yalançı hadisələr quraşdırmaqdan başqa bir xidmət gəlmirdi. Bu hədislərin faydası yalnız əməvi düşmənlərinin pislənməsi və bu sülalənin ətrafında toplaşanların kəramətlərinin nəql etməsi idi. Hər bir şəraitdə Bəni-Üməyyə xəlifələrinə itaət etməyin vacib olduğunu bəyan edən rəvayət hədislər mövcud idi. Onlardan çoxu xəlifələrin yanında şəhadət verirdilər ki, onlar Allah yanında xəlifə olduqlarına görə mühakimə olunmayacaqlar.

Qırx nəfər bu şeyxlərdən Əbdul Məlikin yanında şəhadət verdilər ki, xəlifələr üçün hesab-kitab yoxdur. Onlara istədikləri hər bir işi görmək icazə verilmişdi.[2]

Bu cür alimlərin əsas vəzifələrindən biri də iranlılara qarşı ərəblərin mövqeiyyətini möhkəmlətmək və ərəblərin əcəmlərdən üstün olmasına aid hədislər uydurmaq idi.

Həmçinin Əhli-beyt (ə)-ın əleyhinə hədislər uydurmaq, məsum İmamlar (ə)-ın hədislərini isə təkzib etmək, eləcə də onları yalançı hədis düzəldənlər kimi tanıtdırmaq Əməvilərin saray alimlərinin əsas vəzifələrindən idi.

---

[1] «Camey bəyanil-elm» İbn Əbdül Birr cild 1, səh. 205.
[2] «Tarixi Xüləfa» Süyuti səh. 246.

Məhəmməd ibn Şeynəh deyir:

- Mən Mədinə məscidində idim. Gördüm ki, Zuhəri Ürvət ibn Zübeyrlə Həzrəti Əli (ə)-ın dalınca danışır və onu pisləyirdilər. Bu xəbər Həzrəti Əli ibn Hüseyn (ə)-a çatdı. O Həzrət Məscidə gəlib onlara yaxınlaşdı, buyurdu:

Ey Ürvə! Atam (yəni Allahın Rəsulu) və atan bir məsələ barəsində hökm etmək üçün Allahın dərgahına getdilər. Allah mənim xeyrinə və sənin atanın zərərinə hökm etdi.

Və amma sən, Ey Zühəri! Əgər səninlə Məkkədə olsaydıq, atanınn dəmirçilik kürəsini sənə göstərərdim.[1]

İmran ibn Əbi Kəsir deyir:

- Şama getmişdim. Orada Qəbiyət ibn Duəybi gördüm ki, iraqlılardan olan bir nəfəri özü ilə birgə Əbdül Malik Mərvanın yanına aparıb onun üçün Peyğəmbəri-Əkrəm (s)-dən belə bir hədis nəql etdi: «Xəlifəni and içdirmək olmaz». Əbdül Malik bu sözdən sevinib ənam və dinar verdi.

Mədinəyə qayıtdıqdan sonra Səid ibn Müsəyyibi Rəsulullahın məscidində görüb bu əhvalatı ona danışdım. Səid əllərini bir-birinə vurub dedi:

- Allah Qəbizəni öldürsün! O necə öz dinini fani dünyaya satır? And olsun Allaha, evdar qadınlar belə Əmr ibn Salimin Allahın Rəsulu (s)-ə dediklərini unutmayıbdır. O, Allahın Rəsulu (s)-ə dedi:

- Pərvərdigara, mən Muhəmmədi and verirəm.

Allahın Peyğəbərini aid vermək olar, lakin xəlfələrini and vermək olmaz?

İsmət və paklıq nümunəsi olan Əhli-beytlə düşmən olan alim və fəqihlər az deyildilər. Hətta Həzrəti Əmir (ə)-ın zamanında belə bu cür düşmən adamlar az deyildilər. Çoxlu

---

[1] «Əl-ğarat» ibn Hilal Səqəfi.

fəqihlər var idi ki, Həzrət Əmir (ə)-la düşmən idilər. Onlar o Həzrətdən uzaqlaşıb və onun itaətindən xaric oldular.

Əbu Bordəh Əbu Musa Əşərinin oğlu idi. Ata-oğul hər ikisi bir bezin qırağı idilər. Əbu Musa Əşəri Həzrəti Əmir (ə)-ın hakimyyəti dövründə etiraz edərək Əli (ə)-ın hökümət işlərində nöqsan axtarmaqla məşğul idi. Oğlu da özü kimi idi. Ziyad, Hücr ibn Ədini ələ keçirən zaman Əbu Bordəh dedi: - Mən şəhadət verirəmki, Hücr ibn Ədi Əli ibn Əbu Talib kimi kafir idi.

Həmçinin Əbu Bordəh Əmmar ibn Yasirin qatili Əladiyəh Cohənidən: - Sən Əmmarı öldürmüsən? - deyə soruşmuşdu.

Cohəni: - Bəli deyə cavab vermişdi.

Əbu Bordəh onun əlini öpüb - Cəhənəm odu heç vaxt bu əlləri yandırmasın - demişdi.[1]

Ömər ibn Sabit öz zəmanəsinin axirətini qiymətsiz dünyaya satan alimlərindən biri idi. Ömər ibn Sabit Müaviyənin dövründə atlanıb Şamın ətrafına gedirdi. Hər hansı kəndə və yaxud şəhərə çatdıqda camaatı toplayıb deyirdi. Ey camaat, Əli ibn Əbu Talib münafiq bir adamdır. Əqəbə gecəsi o, Allahın Rəsuluna zərər vurmaq istəyirdi! Onu lənətləyin!

Beləliklə bu şəhərdən o şəhərə gedirdi.[2]

Məkkə Abdullah ibn Zübüyrin əlində olarkən Şam əhlinin həcc mərasimi ilə bağlı qarşılaşdıqları problem müzakirə olundu. Yəqubi yazır:

- Əbdül Malik Şam əhlinin həccə getməsinin qarşısını aldı. Çünkü İbn Zübeyr onları müsəlmanların xəlifəsi kimi özünə beyət etməyə vadar edirdi. Camaat Əbdül Malikə etiraz etdikdə o camaata dedi: İbn Şəhab sizin üçün Peyğəmbərinizdən

[1] «Əl-ğarat» ibn Hilal Səqəfi.
[2] Yenə orda.

rəvayət nəql edir, Beytül-Müqəddəs məscidi Məscidül-Həram kimidir və Beytül-Müqəddəs məscidi Məscidül-Həramı əvəz edə bilər.

Sonra Əbdül Malik dedi:

- İndi isə baxın, rəvayətə görə bu, Peyğəmbər meracda olarkən qədəmlərini üstünə qoyduğu daşdır. Bu Kəbəni əvəz edə bilər.

Əbdül Malik onun üzərində günbəz tikdirib üstünə bəzəkli ipək pərdələr asdı. Camaata Kəbəni təvaf etdikləri kimi oranı da təvaf etməyə məcbur etdi. Bu mərasim Bəni-Üməyyənin dövranında da icra olunurdu.

# IX HİSSƏ

## BƏNİ-ÜMƏYYƏNİN ƏYYAŞLIĞI VƏ ZİNƏT PƏRƏSTLİYİ

Zinət və dəb düşkünlüyü Bəni-Üməyyə hökmdarlarının hamısının dövründə geniş yayılmışdı. Vəlid ibn Yəzid o qədər daş-qaş və qiymətli boyunbağı toplamışdı ki, hər gün bir növünü boynundan asırdı. Onun cəvahirat almağa o qədər həvəsi var idi ki, heç bir qiymətdən qorxub çəkinmirdi. İş o yerə çatmışdı ki, onun cavahirat alması nəticəsində o günün bazarlarında cəvahiratın qiyməti misli görünməmiş bir şəkildə qalxmışdı.

Bəni-Üməyyə xəlifələri rəngarəng və şəkilli ipək parçaları bəyənirdilər. Bu növ parclara hamıdan çox Hişam ibn Əbdül Malik həvəs göstərirdi. Buna görə də paltarlarının sayı-hesabı yox idi. Deyilənlərə görə onun evindəki şəxsi sandıqda 12 min ipək parçadan şəkilli paltarı və 10 min ipəkdən toxunmuş alt paltarı var idi. O, həcc səfərinə gedərkən 700 dəvə onun evinin sandıq və bağlamalarını aparmaq üçün ayrılmışdı.[1]

O dövrün xəlifələri və yüksək rütbəli adamlarının son dərəcədə israfçılıqları onların mətbəxlərinin əfsanəvi vəziyyəti və xörəklərinin misli görünməmiş rəngarəngliyi özünü göstərirdi. O zaman dəllal və məmurlar uzaq nöqtələrdən böyük məxaric və ağır zəhmətlə cürbəcür və növbənöv çeşidli meyvələr, ov əti və göyərtilər hazırlayıb postla xilafət mərkəzlərinə göndərirdilər.

---

[1] «Tarixi-təməddün» Corci Zeydan səh. 973.

Bəni-Üməyyə xəlifələri öz süfrələrində müxtəlif qiymətli yeməklərdən istifadə edirdilər. İş o həddə çatmışdı ki, xəlifələrin yeməkxanası dövlətin iradə etmə təşkilatları kimi böyük bir təşkilata çevrilmişdi. Xəlifələrin yeməkxanası müxtəlif şöbələrdən təşkil olunaraq hər şöbə üçün də ayrıca rəis və məmur işə götürülmüşdü.

Çox yemək o dövrün xəlifələri arasında yayılmışdı. Çünki yemək işlərinə və onların ləzzətli olmasına bu qədər diqqət edilərsə, sübhəsiz yaxşı iştahaya da səbəb olar. Çox yeməkdə hamıdan daha çox məhşur olan şəxslər: Müaviyə ibn Əbu Süfyan, Abdullah ibn Ziyad, Həccac ibn Yusif, Süleyman ibn Əbdul Məlik kimi şəxslər idilər ki, yediklərinin həddi-hüdudu yox idi.

## YƏZİD İBN ƏBDÜL MƏLİKİN HÖKÜMƏTİ

Yəzid ibn Əbdül Məlikin 105-ci ildə vəfat etdi. Onu hərzə xəlifə adlandırırdılar. Yəzid, Ömər ibn Əbdüləzizdən sonra xilafəti əlinə aldı. O, öz adaşı Yəzid ibn Müaviyə kimi ömrün əyyaşlıqla, zülm və rifahla keçirirdi.

Yəzid onun ana babası idi. O əyləncənin və avazla oxumağın aşiqi idi. Onun hərəm qadınlarından Sələmə və Həbabə adlı iki kənizə daha çox hüsn-rəqbəti var idi və bütün vaxtını onlarla keçirirdi. Bir gün Həbabə bu şeiri onun üçün oxudu:

«Sinə və boğaz sümükləri arasında eşq-məhəbbət atəşi elə şölələnibdir ki, heç bir şeylə aram olub sönməyir».

Yəzid bu şeiri eşitdikdə heyəcandan fəryad edərək uçmaq xəyalına düşdü. Həbabə dedi:

- Uçma, ey möminlərin əmiri, bizim sənə ehtiyacımız var.

Yəzid dedi:

- Yox-yox! Allaha aid olsun elə indicə uçacağam.

Həbabə dedi:

- Məmləkəti kimə tapşırırsan?

Yəzid Həbbabənin əlini öpüb: «İslam xalqını və məmləkətini sənə tapşırıram» - dedi.

Bir gün Yəzid Həbabə ilə Ordon çayının kənarına gəzintiyə çıxmışdı. Onlar eyş-işrət süfrəsində oturub şərab içib məst oldular. Yəzid sərxoş olduğundan bir dənə üzüm giləsini Həbabəyə tərəf atdı. Üzüm giləsi Həbabənin boğazında qalıb onu boğdu. Yəzid üç gün onun cənazəsini qucaqlayıb ağladı. Nəhəyət üç gündən sonra Yəzidi güclə onun iylənmiş cəsədindən ayırıb cənazəni torpağa tapşırdılar. Yəzid çox qəmgin halda öz sarayına qayıtdı. Gecə kənizlərdən birinin Həbabənin ölümü münasibətilə bu şeiri oxuduğunu eşitdi:

«Əzizimin yerini boş gördüyüm bir halda qəmdən necə can verməyim».

Yəzid bu beyti eşitdikdə ixtiyarını əldən verərək şiddətlə ağlayıb haldan getdi. O, zarafat nəticəsində can vermiş məşuqəsinin yolunda özü də canını tapşırdı.

Yəzid məşuqəsinin ölümündən sonra yalnız 7 gün divanə kimi yaşadı. Qardaşı Müsləməh onu bir həftə məşuqəsindən ayrı düşdüyünə görə dəli-divanə olduğunu bilməsinlər deyə camaatdan gizlədirdi.[1]

## ÖMƏR İBN ƏBDÜLƏZİZ NECƏ BİR İNSAN İDİ?

Abdullah ibn Əta Təmimi deyir:

- Mən məsciddə İmam Zeynəlabidin (ə)-ın hüzurunda idim. Bu vaxt Ömər ibn Əbdüləziz bizim qabağımızdan keçdi.

---

[1] «Tarixi-təməddüni İslami» cild 4, səh. 747.

Onun geydiyi ayaqqabının bağı gümüşdən olub zahiri görünüşü də olduqca gözəl idi. Ömər o zamanlarda gənc yaşlarına qədəm qoymuşdu. Həzrəti Zeynalabidin (ə) onu başdan ayağa süzüb buyurdu: Abdullah Əta! Bu inadkar israfkarı görürsən? O, ölməzdən əvvəl hakimiyyətə gələcək.

- Bu fasiq? - deyə soruşdum.

Həzrət buyurdu:

- Bəli, lakin uzun ömür sürməyəcəkdir. O dünyadan gedəndə göy mələkləri onu lənətləyəcəklər. Lakin yer əhli isə ona rəhmət diləyəcəklər.[1]

## VƏLİD İBN YƏZİD VƏ ONUN CİNAYƏTLƏRİ

Vəlid ibn Yəzidin bütün əməllərində küfr və dinsizliyi görmək mümkün idi. Rəvayət olunubdur ki, onun əmri ilə Zeydin cəsədini dörd ildən sonra dar ağacından endirib yandırmışlar.

Bir gün Vəlid ibn Yəzid müqəddəs Quran ilə fala baxırdı. Bu ayə gəldi:

وَخَابَ كُلُّ جَبَّارٍ عَنِيدٍ

***«İtaət etməyən və haqqı qəbul etməyən naumid oldu».***[2]

Quranı oxla nişan alıb tikə-tikə olana kimi onu oxladı və ona xitab edərək:

Hər bir itaət etməyib haqqı qəbul etməyəni qorxudursan? İtaət etməyən və haqqı qəbul etməyən o şəxs mənəm. Məhşər günü Allahla görüşdükdə Allaha de ki, Vəlid məni tikə-tikə etdi.

---

[1] «Biharul-ənvar» cild 11, səh. 234.
[2] «İbrahim» surəsi, ayə 15.

Başqa bir gün Vəlid şərab içərkən bir damla şərab Quranın üstünə töküldü. O, bu beytləri oxudu:

«Məni hesab-kitabla qorxudursan.

Lakin mən bilmirəm sən dediyin bu hesab düzdür, ya yox.

Belə isə Allaha de ki, mənim təamımın qarşısını alsın.

Və Allaha de ki, Mənin şərabımın qarşısını alsın.

Haşimi (yəni Həzrəti Mühəmməd) vəhy və kitab olmadığı bir halda xalqa kələk gələrək aldatdı».[1]

Vəlid şərab hovuzunda çimir və deyirdi:

- Mən piyalə ilə şərab içməkdən doymuram. Mənim üçün şərab hovuzu düzəldin!

Onun bədnam işlərindən biri kimi bu əhvalatı qeyd etmək olar: Bir gecə kənizlərindən biri ilə birgə keçələmişdi. Çox şərab içməyinin təsirindən sübh, camaat namazı vaxtında öz əmmaməsini kənizin başına qoyaraq əbasını onun çiyninə salıb üzünü örtdü, öz yerinə mehraba gedib camaat namazı qılmasını ona əmr etdi. Kəniz məst və cunub halda əmrə itaət edərək məscidə getdi və o bədbəxt camaat üçün namaz qıldı. Hava qaranlıq olduğundan kimsə bu işi başa düşmədi, lakin Vəlid öldürüldükdən sonra bu sirrin üstü açıldı.

«Əl-Xəmis» tarixində vardır ki, onun bu ümmətə olan münasibəti Fironun öz qövmünə olan münasibətindən də sərt idi. «Əmali»də Seyyid Mürtəza yazır:

- Vəlidin dinsizliyi məşhur və inadcıllığı mütəzahir idi. Dinə qarşı etinasızlıq etməklə heç kimdən çəkinib qorxmurdu. O Beytüllahul-Həramın üzərində günbəz tikdirib orada oturaraq şərab içib camaatın təvafını ələ salmaq istəyirdi.

---

[1] «Təbsirətul-əvam».

O, günbəzin sütunlarının yerlərinin ölçüsünü götürmək üçün məcusi bir bənnanı Kəbənin üstünə çıxartmışdı, lakin gecə olmamış Vəlidin ölüm xəbəri çatdı.

Vəlid 126-cı ilin cəmadiyul-axır ayında öz əməllərinin cəzasına çataraq öldü. Bu zalımların bəzilərinin İmam Baqir (ə) və İmam Sadiq (ə)-ın dövründə yaşadıqlarına baxmayaraq o dövrdə hakim kəsilən siyasi fəzanı öyrənmək üçün çarəsizlik üzündən bunları bəyan etdik.

## BƏNİ-ÜMƏYYƏ SARAYLARI GÖZƏL KÖLƏLƏRİN TOPLAŞDIĞI YER OLMUŞDUR

Pozğun və xain xəlifələrin və valilərin ən böyük sui-istifadələrindən biri müsəlmanların beytül-malından istifadə edərək çoxlu kəniz və qul almaq idi ki, çox vaxt onları öz şəhvət və heyvani məqsədləri üzündən toplayırdılar. İslamın yarandığı illərdə varlıların və feodalların əsas sərmayələrini qullar təşkil edirdi. Bu yolla qul satanlar böyük məbləğdə qazanc əldə edərək qüdrət sahibi olurdular.

İslamın öz ilk günlərində tərəfdarları sayca az və zəif idilər. Əgər islam birdən-birə qul alverini haram edərdisə, varlılar öz mənfəətlərini müdafiə etmək üçün əks-təsir göstərib bütün qüdrət və imkanatları ilə yeni doğulmuş islamı boğmaq üçün çalışardılar.

Buna görə də islam qullarını azad etmək üçün xüsusi taktikadan istifadə edilmişdir. Bu, müxtəlif kitablarda qeyd edilmişdir. Bu, müxtəlif kitablarda qeyd edilmişdir. Deməliyik ki, islam əslində qul köləlik məsələsi ilə müxalifdir. Lakin onun haram olunması kimi qanunun icrasında sərtlik etməmişdir.

Həmişə qiymətli kəniz və qullar sel kimi xəlifələrin sarayına axmışdır. Demək olar ki, böyük qul toplusunu qul bazarında yox, əksinə xəlifə və aristokratların sarayında axtarmaq lazım gəlirdi.

Əyyaş və zalım xəlifələr öz eyş-işrət məclislərini yüksək səviyyədə və nəfslərinin istədikləri kimi keçirmək üçün ay üzlü və gözəl bədənli kənizləri hər qiymətə olursa olsun satın alırdılar. Qul satan tacirlər fürsəti qənimət sayıb bu yolla külli məbləğdə mənfəət əldə edirdilər.

Süleyman ibn Əbdul Məlikin qardaşı Səid Zulfa adlı gözəl bir kənizi bir milyon dirhəmə aldı.

Əməvi xəlifələrindən biri olan Yəzid ibn Əbdül Məlik Səlamə adlı xanəndə kəniz üçün iyirmi min dinar məbləğində pul vermişdi.

İlk dəfə olaraq öz hərəmsərasında xacə (axtalanmış qullar) saxlayan xəlifə Yezid ibn Müaviyə olmuşdur. Fəth adlı xacə onun hərəmsərasında xüsusi xidmətçilərindən idi.

## SARAY FƏQİHLƏRİNİN MƏRKƏZİ

Bəni-Üməyyənin zalım hökmdarları gözəl həyat sürüb və müsəlmanların beytülmalını istədikləri kimi çapıb-taladıqları bir zamanda xalqın çox hissəsi fəqir və iqtisadi sıxıntıda yaşayırdı.

Xalq ürəyi ölmüş, aciz bir kütləyə çevrilərək ədalətsizliklərə və hökmdarların zülmlərinə qarşı heç bir əks-təsir göstərmirdir. Camaat bir əl aləti kimi zalımların mənfəəti uğrunda çalışırdı. Onların Quran və Əhli-beyt (ə)-ın mütərəqqi barəsində heç bir anlayışları yox idi.

Əlbəttə qeyd etmək lazımdır ki, onların fikirlərin xarab etmək üçün müxtəlif alimlərdən istifadə edilmişdi. Onların

başında özlərini satmış, xain alimlər dururdu ki, onlar xalqın idrak və hərəkətini zəiflədib söndürmüşdülər.

Xəlifələr özləri üçün müqəddəs «Peyğəmbər canişini» adı altında yalançı mənəvi mənsəb yaratmış və bununla xalqa kələk gəlir, Peyğəmbər canişini və rəhbərlik adı altında islam ziddinə olan qayda-qanunları həyata keçirir, müxtəlif cinayətlər törədirdilər. Sarayın fəqih və alimləri isə onların bütün cinayətlərinin üstünə şəriət və qanun imzasını vururdular. Heyrətdə qalmış millət elə güman edirdi ki, görülən bütün işlər şəriət nöqteyi-nəzərindən tam düzgün olub onların xeyrinədir.

# X HİSSƏ

## İMAM SƏCCADIN (Ə) İNHİRAFLARLA[1] MÜBARİZƏSİ

Düşmənlər şayiə yayıb məsum İmamlar (ə)-ın öz vəzifələrini yerinə yetirərək islam və Quranı toxunulmaz saxlamaqlarından çəkindirmək istədikləri bir vəziyyətdə xalqı uçuruma doğru sürükləyib islamın əsas və meyarlarından uzaqlaşdıraraq öz şəxsi mənafeylərini güdürdülər. Amma inhiraf şiddətlənən və xalqın uçuruma düşüb məhv olma qorxusu yaranan hər zamanda İmamlar (ə) xalqa xəbərdarlıq edirdi. O dövrdə yaranmış bu böhranlı vəziyyətdə Quran qanunlarının İmam Səccad (ə)-ın vasitəsilə icra edilməsi imkanı yox idi. Bununla belə İmam Səccad (ə) çalışırdı ki, öz sifarişlərini şiələrə çatdırmaqla müsəlmanları öz vəzifələri ilə tanış etsin. Məsələn o Həzrət sifarişlərinin birində xalqı ayıq olmağa dəvət edib buyurmuşdur:

- Bu dünyada qəflət yuxusunda olub öz aqibətinizi münkər və pis işlər görməklə məhv etməyin.

Daha sonra Həzrət müsəlmanlara daha çox təsir göstərmək və onları ayıltmaq üçün ölümün ümumi bir məsələ olduğunu və eləcə də ölümdən sonra bu dünya ilə əlaqədar olan məsələri bəyan edib, qəbir evinin birinci gecəsində olunacaq suallar barəsində belə buyurmuşdur:

«Bil, qəbirdə səndən olunacaq ilk sual ibadət və bəndəliyini etdiyin Rəbbdəndir. Sonra sənin üçün göndərilmiş peyğəmbər barəsində sual olunacaq ki, onun sözlərinə əməl

[1] Doğru yoldan çıxma.

etmisənmi? Dinin və həyat tərzin onun əsasında olmuşdumu? Oxuduğun kitabdan, vilayətini qəbul etdiyin imam və rəhbərdən, keçirdiyin ömürdən, haradan qazanıb və harada sərf etdiyindən, bir sözlə bunların hamısında sual olunacaqdır.[1]

İmam Səccad (ə) çox böyük əhəmiyyətə malik olan bu sifarişi xüsusi bir ifadə ilə bütün müsəlmanlara göndərdi ki, yuxarıda qeyd edilən məsələlər barəsində az da olsa fikirləşib, mütaliə edib kimin rəhbərliyini qəbul etdiklərini anlasınlar.

İmam Səccad (ə) bu sifarişin başqa bir hissəsində buyurub:

- Ey camaat, Allahınızın çəkindirdiyi günah işlərdən pəhriz edin və həmçinin, Allah-Təalanın zalımlarla etdiyin rəftardan. Qorxun ki, zalım qövmə nazil etdiyini sizə də nazil etsin.

Daha sonra Həzrət əzab ayələrini bəyan edib buyurmuşdur:

- Siz bu ayələrin müşriklər barəsində olduğunu güman etməyin. Əsla belə deyildir! Bilin ki, müşriklər üçün nə tərəzi, nə də nameyi-ə mal[2] var. Sonsuz onlar hesab-kitabsız dəstə-dəstə cəhənəmə daxil olacaqlar.

Bilin ki, meyarın qoyulması və nameyi-əmalın açılması sonsuz müsəlmanlar üçündür.

Sonra isə Həzrət camata zöhd edib dünyanın kələklərinə uymamağı, pis işlərə əl atmayıb zalım və sitəmlarlara həmkarlıq etməməyi əmr etdi. İmam Səccad (ə) dünyaya arxalanmağı zalımlara arxalanmaqla bərabər hesab edib buyurur:

- Dünyaya arxalanmayın.[3] Çünki Allah Həzrət Muhəmməd (s)-ə buyurub: «Zülmkar şəxslərə arxalanmayın ki, od

---

[1] «Töhəful-uqul» səh. 254.

[2] Hər bir şəxsin bu dünyada gördüyü işlərin yazıldığı və qeydə alındığı əməli dəftəri.

[3] «Hud» surəsi, ayə115.

tutacaqsınız». Əgər zülmkarlarla həmkarlıq edib və onları özünüzə arxa etsəniz, sizin həyatınız cəhənnəm oduna çevriləcəkdir. Çoxlu və müxtəlif maneələrlə üzləşəcəksiniz ki, ondan sonra daha heç vaxt şad və xoşbəxt həyat görməyəcəksiniz».

O Həzrət özü başqa kəlamlarında möminləri ayıldıb xəbərdarlıq etmişdir ki, zülmkarların hökümətinə aldanmayıb öz ilahi vəzifələrini yerinə yetirməkdə möhkəm olsun. Eləcə də buyurdu:

- Allah bizi və sizi sitəmkar zülmkarların hiylələrindən, həsəd edənlərin təcavüzündən və qarətçi hökümətin zorakılığından uzaq etsin. Ey möminlər, məbadə tağut və dünya dalınca qaçan ardıcılları sizi haqq yoldan çıxartsınlar. Onlar dünyaya aldanıblar və çürümüş sərvət kimidirlər ki, gövşənilmişdirlər və tezliklə məhv olacaqlar. Siz Allahın sizin barənizdə əmr etdiklərinə itəat edib və nəhy etdiyi şeylərdən pəhriz etməli və dünyada olanlara etimad etməməlisiniz.

Həzrətin dövrü müxtəlif siyasi hadisələr, qiyamlar və hərəkatlarla dolu idi. (Biz bu kitabda ona işarə etmişik.) İmam Səccad (ə) bu mövzuya işarə edərək buyurur:

Bu qarmaqarışıqlıqlar, inqilablar və s. zalımların etibarsızlığını sübut etmək üçün aşkar bir dəlildir. Doğrusu dünya yaddan çıxmış, alçaq, qədir-qiyməti olmayan şəxslərə yüksək şöhrət qazandırır, şərafətli insanları isə yerə vurur və bir dəstə camaatı cəhənnəmə çəkir. Buna görə də həmin məsələ bəsirətli və alim şəxslərə ibrət və təfəkkür üçün imkan yaradır. Doğrusu Allahın qoruyub hifz etdiyi bir ovuc insandan başqa, sizin hər gün və hər gecə üzləşdiyiniz çoxlu fitnələr, yeni-yeni bidətlər, haqqın ziddinə olan cərəyanlar, zamanın namərdlikləri, qüdrətlilərin qorxusu və Şeytanın vəsvəsələri

ürəkləri xeyr işlərdən yayındırıb və haqq (xüsusilə zəmanənin imamı) tanımağa mane olur.

Allahın hifz edib qoruduğu və düzgün yol gedib zöhr və təqva ilə bu mövzuda kömək axtarıb həmişə təfəkkür edən, baş verən hadisələrdən ibrət alan, dünyanın beş günlük gözəlliyindən və ləzzətindən çəkinib özünü qoruyan, əbədi axirət və nemətlərinə yaxınlaşıb zalım qövm ilə birlikdə yaşayışa nifrət edən şəxslərdən başqa heç kəs günlərin alt-üst olub fitnə-fəsadların baş verməsini yaxşı-yaxşı dərk edə bilməzlər.

Belə olan halda o, dünyaya aydın, bəsirətli və iti baxışlarla baxar, yəni yaranmış fitnələri, azğınlığa düçar edən bidətləri və zalım hakimləri, zülm və ədalətsizlikləri yaxşı dərk edər.

Siz keçmiş dövrlərdən və o dövrlərdə baş verən fitnə-fəsadlardan ibrət alıb özünüzü yeni yaranmış fitnə-fəsadlara düçar etməyin, bidət və fəsadlar törədən şəxslərdən uzaqlaşıb itaəti vacib olan şəxslərə itaət edin. Allaha olan elm və iman ona edilən itaətlə birgə olmalıdır. Allahı tanıdan hər bir şəxs Ondan qorxar. Onun qorxusu, o şəxsi itaət etməyə vadar edər...

Siz Allahın və itaətini vacib etdiyi şəxslərin itaətini hər şeydən üstün hesab edir. Sizə təklif olunan işləri, zalımların fərmanlarına itaət etməyi və dünyaya aldanmağı, əmr sahibinizin itaət və əmrindən üstün bilməyin. Siz Allahın bəndəsi olmağınızı və bizim də sizinlə birgə olmağımızı anlayın. Allah-Təala öz peyğəmbərlərini və peyğəmbərlərinin canişinlərini insanlar arasına göndərməklə onlara olan höccətini tamamlamışdır. Allah qarşısında təqvalı olmağa adət edin və öz imamınıza itaət edin.

İtaət etməyənlərlə dostluq edib və zalımlara kömək etməkdən çəkinin. Onların ətrafından uzaqlaşıb törətdikləri fitnə-fəsadlardan həzər edin. Allahın dostları ilə müxalifət edib,

Onun dinindən çıxıb başq bir dini qəbul edən və Allahın vəlisinin fərman və əmrlərinin qarşısında özbaşınalıq edən hər bir kəsin cəhənəmin əzəmətli və qızmar oduna düşüb orada əbədi olaraq yanacağını bilin.[1]

İmam Səccad (ə)-ın insanların iş və fəaliyyətlərinin müqabilində tutduğu digər bir mövqeyi etdikləri günah və üsyanları onlar hiss etdirmək idi. İmam (ə) onların etdikləri günahları onlara başa salmaq üçün çox çalışdı və Küfə əhlindən olan bir dəstəyə belə buyurdu:

- Ey camaat, sizi and verirəm Allaha! Bunu bilirsinizmi ki, atama məktublar yazdınız və onu aldatdınız? Çanla-başla onunla peyman bağlayıb beyət etdiniz, lakin onu öldürdünüz? Əlləriniz qırılsın! Allahın Rəsulu: «Mənim ailəmi qətlə yetirdiniz, hörmətimi saxlamadınız, siz mənim ümmətimdən deyilsiz» - deyəcəyi zaman hansı gözlə ona baxacaqsınız?

## İMAM SƏCCADIN (Ə) DİNİ DƏRS HÖVZƏSİ[2]

İmam Səccad (ə) böyük islami mədrəsəni təsis etmişdir. O Həzərtin mədrəsəsi evi və məscid idi. Tələbələr orada onun ətrafında toplaşırdılar.

İlk günlər yalnız bir neçə nəfər İmam Səccad (ə)-ın xidmətinə gəlir və feyzə çatırdılar: Səid ibn Cübeyr, Səid ibn Müseyyib, Məhəmməd ibn Cübeyr ibn Mötəm, Yəhya ibn Ümmut-Təvil, Əbu Xalid Kaboli.

Şeyx Tusi İmam Səccad (ə)-ın ətrafında toplaşan əshabın sayının 173 nəfər olduğunu qeyd etmişdir.[3] O deyir:

---

[1] «Tühəful-üqul» səh. 258.
[2] Dini elmlər akademiyası
[3] «Rical» Tusi səh. 81.

- O Həzrətin kənarında olmuş dostlarından Cabir ibn Abdullah Ənsari, Amir ibn Vailə, Səid ibn Cübəyr, Məhəmməd ibn Cübeyr ibn Mütəm, Əbu Xalid Kabuli Qasim ibn Ovf, İsmayıl ibn Abdullah, Məhəmməd Hənəfiyyənin övladları İbrahim və Həsən, Həbib ibn Əbi Sabit, Əbu Yəhya Əsədi, Əbu Hazim Ərəc, Sələmət ibn Dinar Mədəni, Əbu Həmzə Somali, Furat ibn Əhnəf, Cabir ibn Məhəmməd, Əyyub ibn Həsən, Əli ibn Rafe, Əbu Məhəməd Qurəşi, Zəhhak ibn Mərahim Xorasani, Kabus ibn Keysan, Həmid ibn Musa, Əban ibn Təğlib, Əbülfəzl Sərir ibn Həkim, Qeys ibn Rəmanə, Abdullah Bəqri, şair Fərəzdəq və s... kimi böyük şəxsiyyətlərin adını çəkmək olar.

Bunlar İmam Səccad (ə)-ın bir qrup şagirdləri idi.

İmam Səccad (ə) «Səhifeyi-Səccadiyyə»si və ya «Ali-Muhamməd (ə)-ın Zəburu» öz məxsus bəyanı ilə başqa bir «Nəhcül-bəlaqə»dir, dövrümüzdə cəmiyyət buna əvvəlki zamanlara nisbətən daha çox ehtiyac duyur. İmam Səccad (ə)-ın öz Allahından istədiyi duaların bir hissəsində xalqın məişətdə düşdüyü çətinlikləri və bu çətinliklərdən çıxış yolarını dua şəklində açıqlamamışdır. Buna görə də müsəlmanlar bu kitabdan daha çox bəhrələnməlidirlər.

Həmçinin İmam Səccad (ə)-dan müxtəlif kitablar, risalə və məktublar da qalmışdır.[1] «Hüquq risaləsi» kitabını bunların içində nümunə olaraq qeyd etmək olar. İmam Səccad (ə) bu risalədə insan həyatı ilə bağlı olan bütün hüquqlara işarə etmişdir. Bu hüquqlar içinə Allahın insanlar üzərində olan hüququnu və həmçinin dil, qulaq, göz, al-ayaq kimi üzvlərin, namaz, oruc, həcc kimi əməllərin, insanın əli altında olan

---

[1] «Mən la yəhzuruhul-fəqih», «Xisal» və «Töhəfül-uqul» (Şeyx Səduq) kitablarına müraciət edə bilərsiniz.

şəxslərin, ailə, ata-ana, övlad, qardaş, qonşunu, səfər yoldaşı, kiçik, böyüklərin hüququnu nümunə olaraq göstərmək olar.

İmam Səccad (ə) bilirdi ki, ziyalı insanlar tərəfindən dəstəklənməsinə yalnız qüdrət ələ keçirməklə mübarizə etmək, cəmiyyətdə çevriliş yaratmaq üçün kifayət etməz. Xalq o Həzrətin hədəfini və hökümət barəsində olan nəzərlərini dərk etməlidirlər. Onu himayə etmək üçün güclü küləklər qarşısında möhkəm və qüdrətlə dayanmalıdırlar.

O Həzərət bu cür insanlardan məhrum idi və onu dəstəkləmək üçün bəsirətli, gözüaçıq, ixlaslı insanlar olmadığından şikayətlənirdi.

İmam Səccad (ə) bu gerçəkliyi gözəl və dəqiq araşdıraraq bizim üçün bəyan edib belə dua edir:

«Pərvvərdigara, ruzikarın çətinlikləri ilə qarşılaşdıqda öz gücsüzlüyümə ağlamadım. Mən, mənimlə müharibə etmək qəsdində onlarla döyüşmək üçün köməkçi tələb edərkən aciz qaldığımı görüb düşmənlərimin qarşısında tənha qaldığımı müşahidə etdim».

## FƏRƏZDƏQİN İMAM SƏCCADI (Ə) TANITDIRMASI

Hişam ibn Əbdul Məlik Vəlidin xilafəti dövründə Allahın evinin ziyarətinə getmişdi. O təvaf edib Həcərül-əsbədi öpmək istədi, lakin camaatın izdihamında buna nail ola bilmədi.

Az sonra onun üçün mənbər qoydular və o mənbərdə əyləşdi. Bu arada İmam Səccad (ə) Allah evinə varid oldu. Əbası və bir ridası var idi. Həmçinin camaat arasında hamıdan daha xoş sifətli, xoş ətirli və təvəzölar idi. Alnındakı səcdə yerindən çox səcdə etdiyi məlum idi. O, təvafı yerinə yetirib Həcərül-əsvədə çatdıqda çatdıqda camaat hörmət və ehtiram

əlamətli olaraq yol açıb İmam Səccad (ə)-a yol verdilər. Camaatın İmam (ə)-a olan rəftarını görən Hişam onların hərəkətindən bərk əsəbləşdi. Bu zaman şamlılardan biri: - Ey Hişam! İnsanların belə hörmət və etiramın qazanan bu şəxs kimdir? - deyə soruşdu. Hişam ətrafında şamlıların əksəriyyət təşkil etdiyinin görüb o Həzrətə rəqbət yaranmaması üçün: - Mən onu tanımıram - dedi.

Orada onların içində olan şair Fərəzdəq dedi:

- Amma mən onu tanıyıram.

Şamlı: - Ey Əba Firas, o kimdir? - deyə soruşdu.

Fərəzdəq bir neçə beyt şeirlə o Həzrəti belə təqdim etdi:

«Bu elə şəxsidir ki, Bətha (Məkkə-Mədinə) onun ayaq izlərini tanıyırdı.

Onu Beytullah, Hərəm, Hill tanıyır,

Bu, Allah bəndələrinin ən üstününün övladıdır.

Bu, pəhrizkar, nəzif, pak və qövmün ağasıdır.

Qüreyş ona baxanda söz ustaları deyər: Kəramət bunun kəramətliyində də böyüklüyündə xülasələnir.

Həya və heybət üzündən ona baxan gözlər qapanar.

Yalnız cöhərisində təbəsüm göründüyü zaman ona bir söz deyərlər.

O, elə bir dəstədəndir ki, onlara dostluq dinin, düşmənçilik isə küfrün əlamətidir.

Onlara yaxın olmaq nicat yolu və qurtuluş məkanıdır.

Əgər pərhizkar və təqva əhlini saysalar, bu dəstə onların qabaqçıllarıdır.

Ya əgər deyilsə ki, yer əhllinin ən üstünü kimdir? - deyərlər bunlardır.

Hişam əsəbləşdi və Fərəzdəqin Məkkə ilə Mədinə arasındakı Usfan adlı yerdə həbs edilməsini əmr etdi. Bu xəbər İmam Səccad (ə)-a çatdıqda o Həzrət Fərəzdəqə on iki min

dirhəm göndərdi və bundan artıq göndərə bilmədiyi üçün üzr istədi.[1] Fərəzdəq o pulların qəbul etmədi və imama ərz etdi:

- Mən o sözləri pul üçün deməmişdim. Əksinə, Allaha və onun Rəsuluna görə sizi mədh etdim.

İmam Səccad (ə) ikinci dəfə olaraq həmin pulları Fərəzdəqə göndərib buyurdu:

- Ey Fərəzdəq, bunları məndən qəbul et.

O da qəbul etdi.

Bəzi tarixlərdə qeyd olunur ki, Fərəzdəqin həbs müddəti uzun çəkdi. Hişam onu qətl ilə hədələyirdi.

Fərəzdəq İmam Səccad (ə)-dan onun üçün Allaha dua etməsini istədi. İmam Səccad (ə) Allaha Fərəzdəqin zindandan azad edilməsi üçün etdi və Fərəzdəq zindandan azad olundu.

Bir müddət keçdikdən sonra Fərəzdəq Həzrət İmam Səccad (ə)-ın hüzruna gəldi. İmam onun vəziyyətini soruşdu. Fərəzdəq dedi:

- Hişam mənim bütün hüquqlarımı əlimdən alıbdır. İmam:
- Sənin dolanışıq xərcin nə qədər idi? - deyə soruşdu.

Fərəzdəq dolanışıq xərcinin miqdarını ona dedi.

İmam Səccad (ə) qırx illik dolanışıq xərcini ona hədiyyə etdi və dedi:

- Əgər bundan artıq yaşayacağını bilsəydim daha artıq verərdim.

(Tarixdə Fərəzqədin 40 ildən sonra dünyadan getdiyi qeyd olunmuşdur.)

---

[1] «Mənaqibi Əliyyibni Əbi Talib» səh, 393

## İMAM SƏCCADIN (Ə) İBADƏTİ

Bir gün İmam Baqir (ə) İmam Səccad (ə)-n hüzuruna gəldi. İmam Səccad ibadətlə məşğul idi.

İmam Baqir (ə) o Həzrətin ibadət və bəndəçiliyin təsirindən elə bir hala düşdüyünü gördü ki, heç bir ibadətkar bu məqama çatmamışıdır. Belə ki, onun üzü yuxusuzluqdan saralmış, gözləri çox ağlamaqdan şişmiş, burnu və alnı çox səcdə etdiyi üçün qabar bağlamış, ayaqları namazda ayaq üstə çox durmaqdan əyilmişdi.

İmam Baqir (ə) sonra bu barədə buyurur:

- Möhtərəm atamda bu halı müşahidə etdikdə ixtiyarsız gözlərimin yaşını saxlaya bilmədim. Bir az fikirləşdikdən sonra mənə baxdı və buyurdu:

- Həzrət Əli (ə)-ın ibadətləri yazılmış səhifələrdən bir hissəni gətir.

Mən səhifələri onun hüzuruna təqdim etdim. O, bir miqdar onlardan oxuduqdan sonra öz ibadətlərini bunların qarşısında çox kiçik görüb qəmgin oldu və səhifələri yerə qoyub buyurdu:
- Hansı şəxs ibadətdə Həzrət Əli (ə)-a çata bilər![1]

## İMAM SƏCCADIN (Ə) NƏZƏRİNDƏ SÜKUTUN ƏHƏMİYYƏTİ

Danışmaq və susmağın hansının bir-birindən üstün olması haqqında Həzrəti Səccad (ə)-dan sual etdildikdə Həzərt onların cavabında buyurdu:

---

[1] «İrşad» (Şeyx Müfid) səh. 496.

- Bunların hər ikisində bəla vardır, əgər bəladan uzaq olsalar, danışmaq sükut etməkdən üstündür.

Kəlamın üstünlüyünün səbəbi haqqında soruşduqda Həzrət buyurdu:

- Ona görə ki, Allah-Təala peyğəmbərlər və övliyalardan heç birini sükut etmək üçün göndərməmişdir. Əksinə peyğəmbərlər danışmaq və öz gözəl bəyanları ilə insanları düzgün yola dəvət etmək üçün göndərilmişlər. Beləliklə hər bir şəxs sükutla cənnəti qazanmır, sükut ilahi vilayətin qazanılmasına səbəb olmur. Heç bir şəxs sükut etməklə cəhənnəm əzabından xilas olmur. İlahi rəhmət və vilayətə nail olamaq və onun əzabından amanda qalmaq kəlamın təsirlərindəndir. Mən heç vaxt ay ilə günəşi bərabər hesab etmirəm. Siz özünüz sükutun fəzilətlərini kəlamla vəsf edir və heç zaman kəlamın fəzilətlərini sükutla vəsf etmirsiniz.[1]

## İMAM SƏCCADIN (Ə) SİFARİŞLƏRİ

Bir gün Həzrət Səccad (ə) bir dilənçinin ağladığını görüb buyurdu:

- Əgər dünya biu kişinin ovçunda olsa idi və əlindən düşsəydi ağlamamalı idi.[2]

Həzrət yenə buyurur:

- Təqiyyə üzündən olmadığı bir halətdə həç kəs əmr be məruf və nəhy əz mükəri tərk etsə, Allah kitabını ayaqlayan bir şəxs kimidir.

Soruşdular:

- Onun təqiyyəsi neçədir?

---

[1] «Səfinətul-bihar» səh. 493.
[2] «Kəşful-ğimmə» cild 2, səh. 106.

İmam buyurdu:

- Onun təqiyyəsi belədir ki, zülmkarın həddini aşmasından və ona zülm etməsindən qorxa.[1]

İmam Səccad (ə) oğlu İmam Baqir (ə)-a belə vəsiyyət etmişdi: Beş şəxslə dostluq etmə onunla danışma və səfərə çıxma:

1 - Fasiqlə (günahkar şəxs ilə), çünki o səni bir tikəyə və ya ondan da ucuz qiymətə satar.

2 - Paxıl ilə, çünki sənin onda olan mala çox ehtiyacın olsa belə o sənə verməz.

3 - Yalançı ilə, çünki o, sənə uzağı yaxın, yaxını isə uzaq göstərər.

4 - Axmaq ilə, çünki o, sənə fayda vermək istəsə də ondan sənə yalnız zərər yetirər.

5 - Qohum-əqrəba ilə əlaqələrini kəsən adamlar, çünki o şəxslərə Allah kitabında üç yerdə lənət edilmişdir.[2]

Süfyan ibn Üyəynə Zuhəridən rəvayət edir ki, yağışlı və soyuq bir gündə İmam Səccad (ə)-ı gördüm, çiynində odun və un yol gedirdi. Soruşdum:

- Ey Allah Rəsulunun oğlu, bu nədir?

İmam (ə) buyurdu:

- Qarşıda bir səfərim var. Onun ehtiyatını indidən hazırlamışam ki, əmin bir yerə qoyam.

Zuhəri dedi:

- Mənim qulamım onları sənin üçün gətirsin?

İmam buyurdu:

- Yox!

Zuhəri dedi:

---

[1] «Təbəqat» (İbn Səd) cild 5, səh. 258.
[2] «Kəşful-ğimmə» cild 2, səh. 81.

- Özüm onu götürümmü?

İmam Səccad (ə) buyurdu:

- Yox! Səfərdə mənim karıma gələn şeyləri özüm niyə götürməyim!

Zuhəri deyir: Bir neçə gündən sonra ondan soruşdur:

- Qarşında duran səfər nə oldu?

Həzrət buyurdu:

- Sənin düşündüyün kimi deyil. O səfər ölüm səfəridir və mən özümü o səfərə hazırlayıram. Ölümə hazırlaşmaq haramdan uzaq olmaq, bəxşiş etmək və yaxşı işlər görməkdir.[1]

Mədinədə çoxlu kasıb ailələr var idi ki, onların gündəlik yeməkləri və ərzaqları vaxtı-vaxtında çatırdı. Lakin bunların haradan və kim tərəfindən gəldiyini bilmirdilər. İmam Səccad (ə) Allah dərgahına qovuşan zaman o köməklər kəsildi. O Həzrət gecələr azuqələri öz çiyninə qoyub kasıbların evlərinə yollanır və buyurardı: «Gizlində verilən sədəqə Alllahın qəzəb atəşini söndürər».

Kasıblar üçün apardığı azuqələr onun çiyinlərində təsir qoymuşdu. Dünyadan ketdikdən sonra o Həzrətə qüsul verən zaman onun nişanələrini imanın çiyinlərində müşahidə etdilər. Hər hansı yoxsul onun yanına gəldikdə ayağa qalxar və onun istədiyini verib buyurardı:

- Sədəqə onu istəyinin əlinə yetişməzdən əvvəl Allah dərgahına yetişər.

Əbu Həmzə Somali İmam Səccad (ə)-ın xidmətinə yetişib bahalıqdan şikayət edərək çoxlu şeylərin bahalandığını dedi: İmam buyururdu:

- Mənim bu sözlərlə işim yoxdur, ruzi verən Allahdır, istər baha olsun, istərsə də ucuz.

---

[1] «İləluş-şaraye» səh. 231.

Həmişə oruc tutarkən bir qoyun kəsərdi. Axşam üstü qazanın yanına gedib: - Bu qabı filan evə və bu qabı isə filan evə aparın - deyərdi. Sonra özü xurma və çörəklə iftar edərdi.

## İMAM SƏCCADIN (Ə) ƏXLAQI

Bir gün İmam Səccad (ə) bir dəstə adamın yanında keçirdi. Ona pis sözlər deməyə başladılar. Həzrət onlara buyurdu:

- Əgər düz deyirsinizsə, Allah mənim günahımdan keçsin və əgər yalan deyirsinizsə, Allah sizin günahızından keçsin.

Bir gün bir kişi İmam Səccad (ə)-ı küçədə gördü və ona nalayiq sözlər deməyə başladı. İmamın xidmətçiləri də ona həmlə etməyə başladılar.

İmam Səccad (ə) buyurdu:

- Onu buraxın.

Sonra o kişiyə buyurdu:

- Mənim barəmdə sənə gizli qalan şeylər, sənin bildiyindən daha çoxdur. Bəlkə istəyin vardır?

O kişi utandı. İmam çiyinində olan xalçanı ona verib buyurdu:

- Min dirhəm ona verin.

O kişi öz tutduğu işdən peşman oldu və dedi:

- Şəhadət verirəm ki, sən Peyğəmbərin oğlusan.[1]

O zaman Şamda yaşayan Təlhə oğlu İbrahim əsirlərin Şama daxil olduğu vaxt karvanı görməyə getdi. Bu vaxt İmam Səccad (ə) gördü və ona dedi:

- Əli ibn Hüseyn! İndi kim qalibdir?

---

[1] «Kəşful-ğəmmə» cild 2, səh. 81.

Bu sözlər Həzrəti Əli (ə) ilə Təlhə Zübeyr arasında olan Cəməl müharibəsinə işarə idi. İbrahimin atası Təlhə bu döyüşdə öldürülmüşdü. İmam Səccad (ə) cavab verdi:

- Əgər kimin qalib olduğunu bilmək istəyirsənsə namaz vaxtı azan və iqamə de.[1]

Həmin vaxt Şamda bir kişi imamın qarşısında dayanıb dedi:

- Allaha şükr olsun ki, sizi öldürüb məhv etdi və insanları sizin şərrinizdən asudə etdi, əmirəl-möminin Yezidi sizə qalib etdi.

İmam Səccad (ə) şamlı kişi ürəyindəkilərinin hamısını deyib qurtarana qədər sakit qaldı, sonra ondan soruşdu:

- Ey şamlı kişi, sən Quran oxumusanmı?

Şamlı kişi: - Bəli - deyə cavab verdi.

İmam Səccad (ə) buyurdu:

- Bu ayəni oxumusanmı:

قُلْ لَا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَىٰ

***«De: «Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (Əhli-beytə sevgidən) başqa bir şey istəmirəm».***[2]

Şamlı kişi dedi:

- Bəli!

İmam Səccad (ə) buyurdu:

- Bəs bu ayəni necə:

وَآتِ ذَا الْقُرْبَىٰ حَقَّهُ

---

[1] «Əmali» (Şeyx Tusi) cild 2, səh. 290.

[2] «Şura» surəsi ayə 23.

***«Ey Peyğəmbər ən yaxın qohum əqrabanın haqqını ver».***[1]

Şamlı kişi dedi: Bəli oxumuşam.

İmam Səccad (ə) buyurdu: Bəs bu ayəni necə oxumusanmı:

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

***«Həqiqətən Allah-Təala yalnız siz Əhli-beytdən pislik və çirkinlikləri uzaqlaşdırıb və sizi pak və pakizə etmək istəyib».***[2]

- Ey şeyx, bu ayə bizim haqqımızda nazil olmuşdur. Bizik Peyğəmbərə yaxın olanlar. Bizik pisliklərdən uzaq olan Əhli-beyt.

O kişi bu əsirlər haqqında deyilənlərin doğru olmadığını anladı. Onlar xarici deyil əksinə Peyğəmbərin övladlarıdır. O kişi dediklərindən peşman olub: - Ey Allah, mən bunlara qarşı qəlbimdə olan kin və düşmənlikdən tövbə edirəm. Mən Muhəmməd və Ali-Muhəmmədin düşmənlərindən buzaram - dedi.[3]

Şam vilayəti müsəlmanların hakimiyyəti altında düşdüyü vaxtdan orada Xalid ibn Vəlid və Müaviyə ibn Əbu Süfyan hakimlik etdiyi üçün buranın insanları nə Peyğəmbərin söhbətlərini eşitmiş, nə də Quran və islam qanunlardan bəhrələnməmişdilər. Nəticədə Şamın əhalisi Müaviyyə ibn Əbu Süfyanın əməllərini Peyğəmbər sünnəti kimi qəbul edirdilər. Çünki yüz illər boyu Roma imperatorluğunun diktator rejimi onlara hakim olduğu üçün Bəni-Üməyyə sülaləsinin

[1] «İsra» surəsi ayə 26.
[2] «Əhzab» surəsi, ayə 33.
[3] «Məqtəli xarəzmi» cild 2, səh. 61.

hakimiyyətini əvvəlki hakimyyətlərdən ədalətli olduğunu düşünürdülər.[1]

Yəqubi yazır: İmam Baqir (ə)-dan niyə atanın övladı çox deyil - deyə soruşanda Həzrət buyururdu:

- Təəccüb edirəm ki, mən neçə doğuldum. Çünki atam hər gecə-gündüz min rükət namaz qılırdı.

Həzrətin qullucusu deyir:

- Hə gecələr onun üçün yer hazırladım, nə də gündüzlər onun üçün süfrə açdım.

Bir gün Cabir Həzrət Səccad (ə)-ın hüzuruna gəlib ərz etdi:

- Ey Allahın Rəsulunun oğlu, bilmirsən ki, Allah cənəti sizin və sizin dostlarınız üçün, cəhənnəmi isə sizin düşmənləriniz üçün yaratmışdır. Bu nə çətinlikdir ki, özünə verirsən və özünü belə əzablara atırsan. İmam Səccad (ə) buyurdu: Ey Allah Rəsulunun dostu məgər bilmirsən ki, Allah Peyğəbərinin bütün günahlarını bağışladığı halda öz ibadətlərini əldən vermədi? Allaha çox ibadət etdiyindən ayaqları şişmişdi. Ona, Allah sənin əvvəlki və sonrakı günahlarını bağışladığı halda niyə belə ibadət edirsən? - deyə sual verəndə, buyurdu:

- Allahın şakir bəndəsi olmayımmı?

Cabir bu sözlərdə İmam Səccad (ə)-ı çətin və üzücü ibadətlərdən ayıra bilməyəcəyini görüb dedi:

- Ey Peyğəmbərin oğlu, özünü həlak etmə! Sən elə bir ailədənsən ki, insanlar onların vasitəsilə ilə özlərini bəladan uzaqlaşdırır və Allahdan rəhmət diləyirlər.

İmam Səccad (ə) buyurdu:

---

[1] Şam əhalisinin ruhiyyəsinin necə olduğunu daha yaxşı bilmək üçün «Əmirəl-möminin Əli (ə)-ın başına nələr gəldi» kitabına baxa bilərsiniz.

- Mən öz atalarımın yolu ilə gedirəm.[1]

## İMAM SƏCCAD (Ə) ŞƏHADƏTİ

İmam Zeynəlabidin (ə) 95-ci hicri ilində Vəlidin əmri ilə qardaşı Hişam tərəfindən zəhərləndirildi. O Həzrəti «Bəqi» qəbirstanlığında dəfn etdilər. O Həzrət atasının şəhadətindən sonra otuz beş il ömür sürüb şiələrə imamlıq etdi. İmam Sadiq (ə) buyurdu:

- İmam Səccadın ömrü 57 il olmuşdur. Onun ölümü isə 95-ci hicri ilinə təsadüf edir. O, İmam Hüseyn (ə)-dan sonra 35 il yaşadı.

İmam Səccad (ə) ömrünün son anlarında bütün övladlarını yığıb onların arasından Məhəmməd ibn Əli (ə)-ı özünə canişin təyin etdi. Onu Baqir adlandırdı və qalan övladlarına isə ona itaət etməyi əmr etdi.

[1] «Əmali» (Şeyx Tusi) cild 2, səh. 250.

## İMAM BAQİRİN (Ə) BAŞINA NƏLƏR GƏLDİ

## XI HİSSƏ

## İMAM BAQİR (Ə) ELMİ BƏYAN EDİR

Qütb Ravəndi nəql edir ki, İmam Səccad (ə)-dan, özündən sonra kimin imam olacağı soruşulduqda Həzrət belə buyurmuşdur: «Məndən sonra imam, Məhəmməd Baqir (ə)-dır. O, elmin qapılarını gözəl bayanı ilə açacaqdır».

Qəməri Tarixi ilə hicrətin 95-ci ilində - İmam Səccad (ə)-ın şəhadətindən sonra İmam Məhəməd Baqir (ə) - «imamət» mənsəbinə çatmış və 114-cü ilə qədər bu mənsəb davam etmişdir. Beləliklə o Həzrətin imamət dövranı 19 il çəkmişdir.

İmam Baqir (ə) «Həsəni» bir[1] qadından dünyaya gəlmişdir. Çünki anası Ümmü Əbdullah, İmam Həsənin qızı idi. O, öz dövründə ən düz danışan, gözəl əxlaqa malik və rəftarından çox mülayim qadınlardan sayılırdı.

Bir gün İmam Sadiq (ə) İmam Baqir (ə)-ın anasının adını çəkib buyurdu: «O qadın o qədər düz danışan və ləyaqətli bir şəxsiyyət idi ki, İmam Həsən (ə)-ın övladlarının içində onun tayı-bərabəri yox idi».

## İMAM BAQİRİN (Ə) MƏKTƏBİ

İmam Baqir (ə) tarixin ən həssas dövrlərindən birində ömür sürmüşdür.

[1] İmam Həsənin övladalarını Həsəni adlandırırlar (mütərcimdə).

O, Həzrət İmam Səccad (ə)-ın o zaman yaratdığı kiçik təşkilatı öz rəhbərliyi altına alaraq, onun genişlənməsi və böyüməsi üçün çalışmış, belə ki, ən böyük dini-elmi məktəblərdən birini təsis etmişdir.

İmam Baqir (ə)-ın şagirdlərinin sayı İmam Sadiq (ə)-ın şagirdlərin sayına çatmasa da, öz dövründə Həzrətin layiqli şagirdləri pərakəndə şəkildə Hicaz və İraqın mərkəz nöqtələrində yayılmışdılar. İmam Baqir (ə)-ın şagirdləri şiə məktəbinin inkişafı üçün lazım ideologiyanı düzgün qurulmuş programlar əsasında nizamlı bir şəkildə irəli aparırdılar. İmam Baqir (ə)-ın dövrü digər imamlara nisbətən ən həssas dövrlərdən sayılır. Əgər o dövrün ictimai vəziyyətinə nəzər salsaq görərik ki, xalq didərgin düşmüş insanlar kimi elm və həqiqət arxasınca o tərəf bu tərəfə vurnuxur, eyni halda çaşqın, pərişan və iztirabdadırlar, dinə və Qurana aid olan məsələlər üçün kimə müracirət edəcəklərini bilmirdilər. Kəşşi bu barədə çox mühüm bir nöqtəyə işarə edib deyir: «İmam Baqir (ə)-ın imamətindən əvvəl şiələr, haram və halal barəsində başqalarından öyrəndikləri sadə hökmlərdən başqa heç nə bilmirdilər. Elə ki, İmam Baqir (ə)-ın zamanı çatdı, o imamət kürsüsünə əyləşib elmin qapılarını onların üzünə açdı və onun yollarını bəyan etdi. Bundan sonra şiələr, əvvəllər elm öyrəndikləri adamlara təlim verməyə başladılar».[1]

İmam Baqir (ə)-ın islamın dirçəlişində çox böyük zəhmətləri vardır. Peyğəmbəri-Əkrəmin vəfatından sonra Əbu Bəkr, Ömər, Osmanın xilafəti dövründə onlar, Peyğəmbərdən nəql olan hədisləri yandırmaq, camaatı Əhli-beytdən uzaqlaşdırmaq və Quranın hökmlərinin ziddinə olan işlərə əl atdılar. Sonra Mövla Əmirəl-möminin Əli (ə), İmam Həsən (ə),

---

[1] «Ricali-kəşşi» səh. 289.

daha sonra İmam Hüseyn (ə) və İmam Səccad (ə) üçün böyük çətnliklər törədildi və hətta hər birinin şəhadəti ilə nəticələndi. Bütün bu dövrlərdə zalımlar və zülmkarlar hökuməti əllərində saxlayır, Allahın elminin mənbəyi olan Əhli-beyt (ə) isə siyasi səhnədən və xalqın dini və elmi rəhbərliyindən kənarda idilər. Bu hadisələr yavaş-yavaş böyük bir faciəyə çevrilirdi. Şiə və müsəlmanlar çoxluq təşkil etdiyi bir halda onların islam və Quranın hökmlərindən xəbəri yox idi. Xilafətin rəsmi fəqih və alimləri isə din və Quran hökmlərində istədikləri tərzdə fətva verir, camaatı azdırır və həlakətə sürükləyirdilər. Zəruri olan elmi hərəkatı canlandırmağa sərf etdi. Belə ki, dünyada misli görünməyən öz dövrünün alim, bilici və fazil adamı kimi tanındı. Alim, şagird, fəzl və bilik sahibləri onun haqqında eşidir və hər tərəfdən axışıb onun ətraf. Belə bir zamanda İmam Baqir (ə) ömrünü şiə məktəbinin inkişafı üçün cəm olurdular.

İmam Baqir (ə) öz əsrində bütün elmlərdə islam dünyasının yeganə mərcəyi idi. Belə ki, o dövrdə yaşayan alimlər imamın elminin qarşısında baş əyirdilər. Onun dərs hövzəsi, tərbiyə edib yetişdirdiyi bütün alim və bilicilərin mərkəzinə çevrilmişdi. Cabir Cöfi deyir: «Əbu Cəfər[1] mənə yetmiş min hədis rəvayət etmişdir». Məhəmməd ibn Müslim deyir: «Nəzərimə çətin gələn bütün məsələləri Əbu Cəfər (ə)-dan soruşdum. Beləliklə mən ondan otuz min hədis haqqında sual etdim».[2] Hübabə Əl Valibiyyənin rəvayətində deyilir ki, gördüm bir kişi «bab» və «həcərin»[3] arasında, hündür bir yerdə durmuş və camaat da onun başına toplaşmışdı. Qarşıya gələn çətin məsələlər haqqında onun nəzərini soruşur və cavab

[1] İmam Baqirin künyəsidir (mürtərcim).
[2] «Miratül-cinan».
[3] Bab və Həcər, Kəbənin qapısı və onda olan qara daşdır.

istəyirlər. Təxminən minə yaxın sualın cavabını verənə qədər onu buraxmadılar. Kənardan bu adamın kim olduğunu soruşdular? Dedilər ki, o, İmam Məhəmməd Baqir ibn Əli ibn Əbu Talib (ə)-dır.

Həcc mövümündə İran, İraq və başqa şəhərlərdən gələn milərlə müsəlman onunla görüşür və ondan islam maarifinə aid suallar edirdilər. Bu, İmamın məhəbbəti camaatın ürəklərində yer saldığına bir dəlildir.

## İMAM BAQİRİN (Ə) MÜASİRİ OLAN XƏLİFƏLƏR

Bəni-Üməyyənin İmam Baqir (ə)-la bir dövrə təsadüf edən zalım xəlifələri bunlardan ibarətdir.

1. Vəlid ibn Əbdül Məlik
2. Süleyman ibn Əbdül Məlik
3. Ömər ibn Əbdüləziz
4. Yezid ibn Əbdül Məlik
5. Hişam ibn Əbdül Məlik

## VƏLİD MƏDİNƏDƏ

İmam Baqir (ə)-ın imaməti dövründə düşən birinci zalım xəlifə Vəlid ibn Əbdül Məlik 86-cı ilin Şəvval ayında hökuməti ələ almış və 96-cı ilin Cəmadis-sani ayının ortalarında cəhənəmə vasil olmuşdur.

Bir dəfə o, əmr vermişdi ki, Mədinə məscidini yenidən tikib böyütsünlər. Buna görə də məscidin açılışı üçün paytaxt seçdiyi Dəməşqdən Mədiəyə tərəf hərəkət etdi. Vəlid, özünəməxsus dəb-dəbli bir şəkildə səfərə çıxmışdı. Ondan irəlidə sarayın bir neçə xidmətçi dəstələri gedirdilər ki, «onun» rahatlığı pozulmasın. O zaman da Ömər ibn Əbdüləziz

Mədinənin hakimi idi. Hətta o, Vəlidi qarşılamaq üçün əlli fərsənkə qədər pişvazına çıxmışdı. Vəlid Mədinəyə daxil olduqdan sonra xəbər yayıldı ki, iki gündə sonra ümumi görüş olacaq, camaat və şəhərin böyük adamları gərək Vəlidi görməyə getsinlər. Mədinə hakimi olan Ömər ibn Əbdüləziz İmam Məhəmməd Baqir (ə)-dan xahiş etdikdən sonra Vəlid ilə görüşə razılıq verdi.

Bir gün sonra İmam Baqir (ə) Vəlidin görüşünə getdi. Həzrət varid olduqda Vəlid ayağa qalxıb İmam Baqir (ə)-a özü qarşısında yer verdi. Yəni İmama verdiyi yer öz yeri ilə bərabər səviyyədə idi. Həmin gün, İmam Baqir (ə) ilə Vəlid arasında bri-birinin əhvalını soruşmaq və adi, məmuli danışıqdan başqa bir söhbət getməti. Vəlid söz açmaq xatirinə, Mədinənin əkin məhsullarının vəziyyətindən soruşdu. Həmin il Mədinədə yağış vaxtlı-vaxtında yağmışdı. Və imam da olduğu kimi cavab verdi. Vəlid İmam Baqir (ə)-ın əmlakından soruşdu və onun necə mülkü olduğunu bilmək istədi. İmam bir əkin sahəsinin olduğunu, ondan götürülən məhsulun yalnız ailəsinin dolanışığına kifayət etdiyini və məhsuldan satmaq üçün bir şeyin qalmamasını bildirdi. Vəlid dedi: «İstəsəniz Mədinə və ondan başqa hər bir yerdə sizə geniş mülk verərəm». Lakin İmam (ə) qəbul etmədi və sonra bir-biriləri ilə xudahafizləşdilər.

Vəlid ibn Əbdül Malikin Mədinəyə səfəri daha çox bu şəhərin məscidini görmək üçün idi. O gün Vəlid, kənarındakı adamlar və Ömər ibn Əbdüləziz ilə birlikdə məscidə tərəf yola düşdülər. İmam Baqir (ə) cümə günündən başqa qalan günləri həmişəki kimi məsciddə dərs deyirdi və İmam Sadiq (ə) da atasının hüzurunda idi.

Vəlid məscidə girdi və onun genişliyindən razı qaldığını bildirdi. Sonra məscidin üstüörtülü hissəsinə, İmam Baqir (ə)-

ın dərs dediyi yerə daxil oldu. İmam həmin gün coğrafiyadan dərs keçirdi. Vəlidin bu elmdən xəbəri olmadığı üçün diqqətlə İmam (ə)-ın sözlərinə qulaq asdı və heyrətini gizlədə bilməyib soruşdu:

- Tədris etdiyin elm hansı elmdir?

İmam dedi:

- Coğrafiya və nücum elmidir.

- Bu elmdə nəyin barəsində danışılır?

İmam Baqir (ə) buyurdu:

- Yerin və göyün ulduzlarının vəziyyəti haqqında danışılır.

## ƏMƏVİ HAKİMLƏRİNİ HƏCCƏ OLAN MƏNFİ MÜNASİBƏTİ

Süleyman ibn Əbdül Məlik, qardaşından sonra hökuməti ələ almış və 99-cu ilin səfər ayında cəhənəmə vasil olmuşdur.

O, hökümət etdiyi vaxt özünü mülayim göstərib İraq zindanlarının qapısını açdırdı və günahsız məhbusları azad etdi.

Həccacın hökuməti zamanı, camaat onun böyük zülm və cinayətlərdən narazı idilər və ürəklərində ona qarşı kin saxlayırdılar.

Bu məsələdən xəbər tutan hiyləgər Əməvi hakimləri müxtəlif cildlərə düşərək, özlərini camaatla bir sırada qələmə verir və bununla Həcacın işlərindəm narazı olduğunu bildirirlər.

Cümə günlərinin birində Məkkə hakimi Xalid ibn Əbdullah qəsri cümə namazında Həccacı çox təriflədi. Bir neçə gündən sonra Süleyman ibn Əbdül Məlikin məktubu ona çatdı. Bu məktubda Həccacı təhqir etmişdi.

Xalid növbəti cümə günü minbərə çıxdı və dedi:

İblis mələklərin sırasında idi. Elə itaət göstərirdi ki, mələklər onu özlərindən üstün hesab edirdilər. Lakin onun natəmiz qəlbindən Allahın xəbəri var idi. Buna görə də İblisi rüsvay etmək üçün Adəmə səcdə etməsini əmr etdi. Bu fərmanla İblisin, mələklərə örtülü qalan batini aşkar oldu.

Elə Həccac da nə qədər ki, Əmirəl-mömininə itaət göstərirdi, biz onu fəzilətli insan kimi tanıyırdıq. Amma Allah, Əmirəl-möminin onun iyrənc qəlbindən xəbərdar etdi və onun vasitəsi ilə Həccacı rüsvay etdi. Ey camaat! Həccaca lənət edin, Allah ona lənət etsin![1]

## SUDU OLMASA, QAN SAĞIN!

Süleyman ibn Əbdül Məlik tərəfindən Misirdə hakim olan Üsamə ibn Zeyd yığılmış vergiləri şəxsdən Dəməşqə gətirib, Süleymana təqdim etdi və dedi:

- Ey əmirəl-möminin, mən bir yerdən gəlmişəm ki, oranın camaatı dilənçi kökünə düşübdür. Əgər icazə versəniz vergilərdə onlara güzəşt edərik və onları nisbətən azaldarıq. Heç olamasa öz yaşayışlarını bir az düzəltsinlər və şəhərlərini abad etsinlər. Belə olarsa, sonrakı illərdə onlardan daha çox vergi yığa bilərik.

Süleyman dedi:

- Allah səni öldürsün! Döşlərin süd olana qədər sağ, süd qurtarandan sonra qan sağ.

[1] «İqdül Tərid» cild 5, səh. 267.

## ÖMƏR İBN ƏBDÜLƏZİZİN HÖKÜMƏTİ ZAMANI

Süləymandan sonra, 99-cü ildə, xilafət Ömər ibn Əbdüləzizin əlinə keçdi. O, üç il xəlifəlik etdikdən sonra 101-ci ilin rəcəb ayında vəfat etmiş və dövlət Yezid ibn Əbdul Məlikin əlinə keçmişdir.

Bəni-Üməyyənin iyrənc əməllərindən zar gəlmiş camaat Ömər ibn Əbdüləzizin hökümət başına keçməsini, üzlərinə rəhmət qapılarının açıldığı kimi təsəvvür etdilər.

Ömər ibn Əbdüləziz hökümət başına keçəndə ölkə ətrafında dəstə-dəstə adamlar onun hüzuruna, təbrik etməyə gəlirdilər. O cümlədən Hicazdan gələn bir dəstədə, həddi-buluğa çatmayan bir oğlan da var idi. O, Ömər ibn Əbdüləzizin məclisində ayağa qalxdı və söz istədi.

Ömər dedi:

- Yaxşı səndən çox olanlar söz danışmağa daha layiqdirlər.

Oğlan dedi:

- Ey müsəlmanların xəlifəsi, əgər ləyaqət yaşda olsaydı bu məclisdə xəlifə olmaq üçün daha layiqli adamlar var.

Ömər ibn Əbdüləziz təəccüblənib bu uşağın sözünü təsdiq etdi və ona danışmaq üçün icazə verdi.

Oğlan dedi:

- Uzaq bir ölkədən gəlmişik. Bizim gəlməyimizin səbəbi nə tamahdır nə də qorxu və...

Ömər ibn Əbdüləziz dedi:

- Oğlan, mənə möizə et.

Oğlan dedi:

- Ey əmir, bəzilərinə Allah möhlət verdiyinə görə, bəziləri isə camaatın tərifi nəticəsində yolunu azırlar. Çalış, bu iki sinfin heç birindən olmayasan.

Nofəl ibn Əbu Fərat deyir: Ömər ibn Əbdüləzizin yanında idim. Bir nəfər Yezidin adını əmirəl-möminin ləqəbi ilə dedikdə Ömər ona dedi: Onu əmirəl-möminin ləqəbi ilə adlandırırsan?! Və əmr verdi ki, o kişiyə iyirmi şallaq vursunlar.[1]

## YEZİD İBN ƏBDÜL MALİK

Ömər ibn Əbdüləzizdən sonra Yezid ibn Əbdül Məlik höküməti ələ keçirdi. O, hökmranlıq etdiyi vaxt günlərini əyyaşlıq və kef məclislərində keçirirdi. Yezid ibn Əbdül Malikin dövründə musiqi məclisləri dəbə düşdü. O musiqiyə o qədər həvəs göstərdi ki, Dəməşqə hətta uzaq şəhərlərdən xanəndələr dəvət edirdi. O, öz vaxtını eyş-işrət, musiqi məclislərində keçirtməyi ilə tarixdə məşhurdur.[2]

Yezid ibn Əbdül Məlik bir gün Əbu Ləhəbi təriflədikdə ona dedilər ki, Əbu Ləhəb kafir idi və Peyğəmbəri incidirdi. O dedi: «Bilmirəm, lakin onun yaxşı avazından xoşum gəldiyindən tərifləmişəm».

---

[1] «Nəfsəul məhmum» Şeyx Abbas Qumi.

[2] Həmin mənbə, səh. 109.

# XII HİSSƏ

## HİŞAMIN HAKİMİYYƏT DÖVRÜ

Hişam, qardaşı Yezid ibn Əbdül Məlikin ölümündən sonra hakimiyyət başına gəldi. O, Şam yaxınlığındakı «Rəsafə» adlanan bir yerdə özünə saray tikdirmiş və ətrafında gözəl bağ-bağça saldırıb oradan şəxsi yaylaq kimi istifadə etmişdi.

Rəsafə Fərat sahilində olan yaylaq şəhəri və Hişamın istirahət üçün seçdiyi paytaxtı idi. Hişam həmin şəhərdə dünyadan getmiş və orada da dəfn olunmuşdur.

O Əbdül Malikin oğlu, Üməyyə sülaləsinin onuncu xəlifəsi idi. Hişam 105-ci ildə xəlifə olmuş, onun hakimiyyəti 20 il çəkmiş və 125-ci il Rəbiul-əvvəl ayının 9-da çərşəmbə günü cəhənnəmə vasil olmuşdur.

Böyük tarixci Yəqubi, Hişam haqqında yazır:

«Hişam Bəni-Üməyyənin içində ən böyük siyasi xadimlərdən biri idi. Əxlaqca paxıl, həris, tündxasiyyət, daşürəkli, rəhimsiz və kobud adam olmuşdur».

Məsudi yazır: «Hişam Bəni-Üməyyənin məhşur siyasətçilərindən idi. O Bəni-Üməyyənin ən siyasətci üç nəfərindən biri sayılmışdı. Onlar Müaviyə, Əbdül Malik və Hişamdan ibarətdirlər».[1]

İyirmi illik hakimiyyət və zülmdən sonra zülmkar Əməvi xəlifəsi olan Hişamın ölümü camaatı o qədər şad etdi ki, bu xəbəri eşidəndə rəqs edib, ayaqlarını yerə vururdular.

Hişamın ölümündən sonra, Şam əhli onun qardaşı oğlu və eyni zamanda Hişamın öz oğlunun rəqibi olan Vəlidin

---

[1] «Mürucuz-zəhəb» cild 3, səh. 123.

istiqbalına tələsdilər. Camaat, Vəlidin onları Hişam hökümətinin zülmlərindən qurtaracağına ümid bəsləyirdilər. Amma əfsullah olsun ki, onlar çox səhv fikirdə idilər.

## HİŞAMIN İMAM BAQİRƏ (Ə) OLAN SUALI

Zöhri yazır: «Bir gün Hişam ibn Əbdul Məlik həcc qəsdi ilə Hicaza tərəf yola düşdü. Həcc mərasimdən sonra Məscidul-harama daxil oldu. Bu halda yaındakı qulluqçullarından biri olan Salim dedi:

Bu, Məhəməd ibn Əlidir. Hişam dedi: yəni bu, İraq camaatının əldən-ayaqdan getdiyi və sevdiyi həmin adamdır?

Salim dedi: Bəli.

Hişam dedi: Onun yanına get və de ki, Hişam soruşur sabah qiyamət günü camaat, hesabları çəkilənə qədər nə yeyib-içəcəklər?

İmam Baqir (ə) buyurdu: Allah insanları pak və təmiz, içində çoxlu çaylar xan bir torpaqda cəmləyəcək və onları hesabları çəkilənə qədər, bunlardan yeyib-içəcəklər.

Hişam cavabında: Allah Əkbər! Get ona de ki, həmin gün bu qədər çətinlik və narahatçılıq keçirən camaat, yemək-içmək fikrində də olacaqlarmı?

İmam Baqir (ə) dedi: Cəhənəm əhli atəş içində əzabda olduqları bir halda, yenə də cənnət əhlinə deyəcəklər:

- Ey cənət əhli içdiyiniz sudan və Allahın sizə verdiyi ruzilərdən bizə də bir az verin. Daha Hişam bir söz tapa bilməyib susdu.

## İMAM BAQİR (Ə) ŞAMA ÇAĞIRILIR

İmam Sadiq (ə) buyurur: Bir dəfə Hişam ibn Əbdül Məlik həcc ziyarəti üçün Məkkəyə gəlmişdi. Həmin il atam İmam Baqir (ə)-la mən də Məkkədə idik. Məclislərin birində mən, belə bir bəyanət verdim:

- Böyük olan Allaha həmd edirəm ki, Həzrət Məhəmmədi nübuvvət (peyğəmbərlik) məqamına məhbus və biz Əhli-beyti isə onun vasitəsilə imamət mənsəbinə layiq görmüşdür. Biz insanların içində Allah tərəfindən seçilmiş, onun məxsus canişinləriyik. Bizim yolumuz gedən, səadətə çatar və bizimlə müxalifət edənlər bədbəxt və əzaba duçar olarlar.

Hişamın qardaşı Müslimə, bu sözləri tez ona çatdırıdı. Lakin onlar Şama, biz də Mədinəyə gedənə qədər, Hişam heç nə demədi. Sonra Şamdan Mədinəyə qasid göndərib Mədinə hakiminə əmr etdi ki, mən və atamı Şama göndərsin. Mədinə hakimi də bizi Şama göndərdi. Biz Şama daxil olduqdan sonra Hişam üç gün bizi öz qəbuluna buraxmadı. Nəhayət, dördüncü gün bizi qəbul etdi.

Biz onun qəsrinə daxil olub oturduğu yerə çatdıq. Hişam öz taxdında oturmuşdu. Ordu başçıları və saray əyanları başdan-ayağa silahlanmış halda onun yan-yörəsində düzülmüşdülər. Bir az qabaqda hədəf qoymuşdular və Bəni-Üməyyəni mənsəb sahibləri onu oxla nişan alırdılar. Atam İmam Baqir (ə) qabaqda, mən də onun arxasıyca daxil oldum. Hişam dedi:

- Ey Əba Məhəmməd! Buyur, öz qohumlarınla birgə ox at.

İmam Baqir (ə) dedi:

- Qoçalmışam, daha mənim ox atmaq vaxtımdan keçib. Məni üzürlü hesab et.

Hişam dedi:

- Bizə öz peyğəmbər və dinini göndərib qiymət verən Allaha and olsun, bu mümkün deyil, hökmən ox atmalısan.

Sonra o Bəni-Üməyyənin böyüklərindən birinə işarə edib: «Kamanını Məhəmməd Baqirə ver» - dedi. İmam Baqir (ə) kamanı ondan alıb içinə bir çox qoydu. Hədəfin ortasını nişan alıb elə atdı ki, ox hədəfin düz ortasına sancıldı. Sonra ikinci ox atdı. Bu ox, birincini ikiyə bölüb, onun dəmir ucluğuna batdı. İmam Baqir (ə) bir-birinin dalınca doqquz dəfə ox atdı. Bu oxların hamısı özündən əvvəlki oxu ikiyə bölüb hədəfə sancılırdı. Bu vaxt Hişam, həyacanlandığından özünü saxlaya bilməyib dedi:

- Yaxşı ox atırsan! Sən ərəb və əcəmi içində mahir ox atansan! Neçə deyirdin ki, qocalmışam?

(İmam sözünü belə davam edir:) Bu vaxt Hişam başını aşağı salıb, fikrə getdi. Atam İmam Baqirə mən də onun qarşısında durmuşduq.

Bir müddət dayanandan sonra atamın qəzəbləndiyini gördüm. O həmişə qəzəblənəndə göyə baxardı. Əsəbi baxışlarının əsəri üzündən bilinirdi. Bu vaxt Hişam bunu başa düşüb: «Yanıma gəl, Məhəmməd!» - deyə çağırdı. Atam taxtın üstünə çıxdı. Mən də onun arxası ilə getdim. Atam Hişamın yanına çatdıqda Hişam öz yerindən qalxıb, onu qucaqladı və sağ tərəfindən oturdu. Hişam üzünü İmam Baqir (ə)-a çevirib dedi:

- Ey Məhəmməd! Nə qədər ki, Qüreyşin arasında sizin kimiləri var, ərəb və əcəmə ağalıq edəcəklər, əhsən! Belə ox atmağı harda öyrənmisən? Bunu öyrənməyə nə qədər vaxt sərf etmisən?

İmam Baqir (ə) dedi:

- Ey Hişam bilirsən ki, Mədinə əhli çox vaxt ox atmaqla məşğul olurlar. Mən də uşaqlıqda ox atırdım, amma sonra tərk etdim. İndi Əmirəl-mömininin istədiyinə görə mən də o günləri yada saldım. Hişam dedi:

- Özümü tanıtdığım gündən bəri belə ox atan görməmişdim. Güman etmirəm yer üzündə, bu cür ox atan olsun. Sizin oğlunuz Cəfər də bu cür ox ata bilir?

İmam Baqir (ə) dedi:

- Bu ayədə deyilən bütün kamal sifətlər və səciyyələr irci olaraq bizə əcdadımızdan keçmişdir:

الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دينَكُمْ وَ أَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتى وَ رَضيتُ لَكُمُ الْإِسْلامَ دينا

***«Bu gün dininizi kamala yetirdim, nemətimi sizlərə tamam etdim və sizin üçün din olaraq İslamı bəyənib seçdim».***[1]

Biz dünyanı irs aparmışıq və dünya heç vaxt xariqülədə işlərə qadir olan ilahi rəhbərsiz qalmayıb, qalmayacaqdır. Dediyim bu qüdrət, biz Əhli-beytdən başqa heç kəsə verilməyibdir.

Həzrət Sadiq (ə) buyurur: Bu vaxt Hişam sağ gözünü qıydı və üzünün rəngi qızardı. Bu onun qəzəblənməsinə əlamət idi. Hişam başını aşağı saldı və bir müddətdən sonra qaldırıb dedi:

- Biz hər ikimiz Əbdül Manafın övladları deyilikmi? Əslimiz bir deyilmi?

İmam Baqir (ə) dedi:

- Bəli, bir əsildənik, lakin Allah heç kəsə qeyb xəzinəsindən bizə verdiyini əta etməyibdir.

Hişam dedi:

---

[1] «Maidə» surəsi, ayə 3.

- Allah Əbdül Manafın nəslindən olan Məhəmməd (s)-i bütün insanlar, ağ, qara və qırmızı dərililər üçün göndərməyibdirmi? Axı heç kəsə verilməyən bir məqamı siz necə irsən almısınız? Peyğəmbər bütün insanlar üçün göndərilmişdi. Allah Quranın bu ayəsində buyurur:

وَلِلَّهِ مِيرَاثُ السَّمَاوَاتِ وَالْأَرْضِ

***«Göylərin və yerin mirası yalnız Allahındır».***[1]

Bu elm sizə necə çata bilər ki, Peyğəmbərdən sonra başqa bir peyğəmbər gəlməyəcək və siz də peyğəmbər deyilsiniz?

İmam Baqir (ə) buyurdu:

- O böyük Allah peyğəmbərinə bu ayədə buyurur:

لَا تُحَرِّكْ بِهِ لِسَانَكَ لِتَعْجَلَ بِهِ

***«(Ya Peyğəmbər) Cəbrail sənə Quran oxuduğu zaman onu tələm-tələsik əzbərləmək üçün dilini tərpətmə».***[2]

Peyğəmbər Allahın əmri ilə başqaları üçün bu sirrləri açmamalı və yalnız biz Əhli-beytə çatdırmalıymış. Buna görə Peyğəmbər (s) təkcə Əli (ə)-la sirrini bölüşdürürdü və bu barədə Allah-Təala bu ayəni nazl etmişdir:

لِنَجْعَلَهَا لَكُمْ تَذْكِرَةً وَتَعِيَهَا أُذُنٌ وَاعِيَةٌ

***«Ona görə ki, bunu (möminlərə nicat verib kafirləri məhv etməyimizi) sizə bir ibrət dərsi edək və dərk edən qulaqlar bunu eşidib yadda saxlasınlar».***[3]

Peyğəmbər öz əshabına buyurdu: «Allahdan istədim ki, həmin «qulaq» yalnız Əlidə olsun». Rəhbərliyi vaxtı Əli ibn Əbu Talib (ə) bu sözü Küfədə demişdir: «Peyğəmbər mənə

---

[1] «Hədid» surəsi, ayə 10.
[2] «Qiyamət» surəsi, ayə 16.
[3] «Haqqə» surəsi, ayə 12.

elmdən min qapı açdı və bu qapıların hər birindən də min qapı açılır».

Siz öz sevdiyiniz adamlara üstünlük verdiyiniz kimi, Peyğəmbər də bu sirli xəzinəni açmaqda Əli (ə)-a üstünlük verirdi. Allah onu Peyğəmbərliyə seçdiyi kimi, Peyğəmbər (s) də Əli (ə)-ı özünə qardaş seçmişdir. Buna görə də bu ilahi qüdrət irsən bizə çatmışdır, hətta başqa qohumlarımız da bunu şərik deyillər.

Hişam dedi:

- Əli iddia edirdi ki, «qeyb»-dən xəbəri vardır, lakin Allah heç kəsi qeybdən xəbərdar etməmişdir. O, nə üçün belə bir iddia edirdi? İmam Baqir (ə) buyurdu:

- Allah Peyğəmbərə (s) içərisində keçmiş, gələcək və qiyamətin bütün sirrləri olan bir kitab göndərmişdir və bu ayə ona şahiddir:

وَنَزَّلْنَا عَلَيْكَ الْكِتَابَ تِبْيَانًا لِكُلِّ شَيْءٍ وَهُدًى وَرَحْمَةً وَبُشْرَىٰ لِلْمُسْلِمِينَ

***«Biz Quranı sənə hər şeyi (dini hökmləri, halal-haramı, günahı və savabı) izah etmək üçün, müsəlmanlara da bir hidayət, mərhəmət və müjdə olaraq nazil etdik!»***[1]

Allahın əmrilə Peyğəmbər bütün sirlərini Əli ilə öz arasında saxlamalı, ondan sonra Quranı cəmləməli, dəfni üçün lazım olan qüsl, kəfən kimi işləri o görməliymiş. Peyğəmbər (s) buyurdu: «Ailəmə və əshabıma, mənim övrətimə baxmaq haramdır, təkcə qardaşım Əlindən başqa. O, məndədir və mən də ondanam. Mənim xeyrim ondan, onun xeyri məndədir və ziyanımız da birdir. O mənim borclarımı qaytaracaq və öhdəmdə qalan işlərimi yerinə yetirəcəkdir». Başqa bir hədisdə Peyğəmbər öz əshabına belə buyurmuşdur: «Mən Quranın

[1] «Nəhl» surəsi, ayə 89.

nazil olmasında vuruşduğum kimi, Əli ibni Əbu Talib də onun şərhi və təfsiri üçün vurşacaq. Heç kəs Əli kimi Quranın bütün batini və təfsirinə malik deyil. Elə buna görə Peyğəmbər (s) «Sizin ən yaxşı hakiminiz Əlidir» demişdir. Ömər ibn Xəttab deyir «Əgər Əli olmasaydı, həlak olardım». Təəcüblüdür ki, Ömər bunu qəbul edir, başqaları isə inkar edirlər.

Bu zaman Hişam başını aşağı saldı və sonra başını qaldırıb dedi:

- Hər nə hacətiniz varsa buyurun.

Həzrət buyurdu:

- Bura gəlməyimlə ailə və uşaqlarımı qorxuya salmışam.

Hişam dedi:

- Allah, sən qayıtmağınla bu qorxunu onlardan götürər. Elə bu gün hərəkət edin.

## İMAM BAQİR VƏ MƏSİHİ ALİM

İmam Sadiq (ə) ardını belə hekayət edir:

«Bu zaman atam, Hişamı qucaqladı və mən də bu işi təkrar edib, Hişamın sarayından çıxdıq».

Sarayın önündə yerləşən meydanın axırlarında bir iddə adam yerdə oturmuşdu. Atam onların kim olduğunu soruşduqda, gözətçilər dedilər ki, bunlar məsihi keşiş və rahibləridirlər. Gördüyün o şəxs, onların alimidir və ildə bir dəfə burda əyləşib onların suallarına cavab verir.

İmam Sadiq (ə) deyir: Bu zaman atam öz başını parça ilə bağladı və mən də bu işi etdikdən sonra onların arasına gedib bir küncdə əyləşdik. Bu hadisəni Hişama xəbər verdilər. O da bu hadisənin necə qurtaracağını bilmək üçün bir neçə nəfər göndərdi və sonra müsəlmanlardan da bir neçə nəfəri gəlib bizim ətrafımızı tutdular.

Məsihi alim irəli gəldi. O qaşlarını gözlərinin üstünə tökülməmək üçün parça ilə bağlamışdı.

Bütün rahib və keşişlər öz yerlərindən qalxıb onu salamladılar və onu məclisin yuxarı başında oturtdular. Camaat dövrəsinə toplaşdı. Mən də atam İmam Baqir (ə) ilə onların arasında idik. Məsihi alimi ətrafına göz gəzdirdi və üzünü İmam Baqir (ə)-a tutub dedi:

- Bizdənsən yoxsa, İslam Peyğəmbərin ümmətindən? İmam Baqir (ə) dedi: İslam Peyğəmbərinin ümmətindən. Məsihi alimi dedi:

- Onların alimlərindənsən ya nadanlarından?

İmam Baqir (ə) buyurdu:

- Nadanlardan deyiləm.

Bu vaxt məsihi alimin üzündən iztirab və narahatçılıq əlamətləri görünürdü. Sonra dedi:

- Səndən bir neçə sual soruşacam.

İmam Baqir (ə) dedi:

- Hər nə istəsəniz soruşa bilərsiniz.

Məsihi alim dedi:

- Siz iddia edirsiniz ki, behişt əhli yemək yeyir, su içir, lakin onun artığını xaric etmirlər. Bu iddiaya nə dəliliniz var ki, biz də qəbul edək?

İmam Baqir buyurdu:

- Bunun dəlili ana bətnində olan uşaqdır ki, təğziyə olunur, lakin qalığı yoxdur.

Bu zaman Məsihi alimi çox həyəcanlanladı və dedi:

- Sən demədin ki, mən onların amilərdən deyiləm?

İmam Baqir buyurdu:

- Mən nadan olmadığımı söylədim. Hişamın adamları bütün sözləri eşidirdilər.

Məsihi alimi dedi:

- Başqa sualım var.

İmam Baqir (ə) dedi:

- Soruş.

Məsihi alimi soruşdu:

- Siz iddia edirsiniz ki, cənət meyvələri həmişə təravətli və təzədir və cənnət əhli üçün də hazırdır. Bu mətləb üçün qəbul etməli nə dəliliniz vardır?

İmam Baqir (ə) dedi:

- Bunun dəlili insanların ayaqları altında həmişə təravətli və təzə qalan torpaqdır.

Məsihi alimi dedi:

- Məgər sən demədin ki, mən alim deyiləm?

İmam Baqir (ə) dedi:

- Mən nadanlardan olmadığımı dedi.

Məsihi alim dedi:

- Başqa sualım var.

İmam Baqir (ə) dedi:

- Soruş.

Məsihi alimi soruşdu:

- Gecə və gündüzün hansı saatı nə gecə və nə də gündüzdən hesablanır?

İmam Baqir (ə) dedi:

- O saat, üfüq işıqlanandan günəş çıxana qədərki vaxtdır. Həmin vaxt xəstə yüngülləşər, yatan yuxudan ayılar, bihuş huşa gələr.

Bu vaxt məsihi alimi fəryad çəkib dedi:

- Başqa bir sualım da var. Allaha and olsun, bunun cavabını verə bilməyəcəksən.

İmam Baqir (ə) buyurdu:

- Nə sualın varsa soruş, lakin yersiz and içdiyin üçün «kəffarə» verməlisən.

Məsihi alimi soruşdu:

- O hansı iki nəfərdir ki, bir gündə dünyaya gəlib, bir gündə dünyadan gediblər: birinin əlli, o birinin yüz əlli yaşı olub?

İmam Baqir (ə) buyurdu:

- Onlar Üzeyr və Üzeyrə idilər k, bir gündə dünyaya gəlmişdilər. Bir dəfə iyirmi beş yaşlı Üzeyr öz ulağı ilə Əntakiyyədə bir kənddən yolu düşür. O kənd viran qalmışdı. Üzeyr öz-özünə dedi: «Mən, Allahın bu ölüləri necə dirildəcəyinə təəccüb edirəm».

Halbuki, Üzeyr hidayət tapmışdı. Bu sözləri deyəndən sonra Allahın ona qəzəbi tutub ruhunu canından aldı və bədəni ölü kimi yerin üzündə qaldı. Yüz il Üzeyr ölü halətində qaldıqdan sonra, Allah onu, ulağını və azuqəsi ilə birlikdə əvvəlki halına qaytardı. O, öz evinə qayıtdı. Qardaşı Üzeyrə onu tanımadı. Üzeyr qardaşından onu qonaq kimi qəbul etməsini xahiş etdi. Üzeyrə onu qəbul edib, içəri buraxdı. Üzeyrənin oğulları və nəvələridə gəldilər. Onların yaşları ötmüşdü, Üzeyr isə iyirmi beş yaşlı bir cavan idi. Üzeyr öz qardaşından və qardaşı uşaqlarından xatirələr nəql etdi. Onlar, Üzeyrin danışdıqlarını təsdiq edib dedilər:

- Ey cavan, sən bu uzun illərin xatirələrini hardan bilirsən?

Yüz iyirmi yaşlı Üzeyrə dedi:

- Mən özüm və qardaşımın cavanlığını xatırlayan sənin kimi agah adam görməmişəm. Sən asimandan gəlmisən ya yer əhlindənsən?

Üzeyr dedi:

- Mən sənin qardaşın Üzeyrəm. Dediyim sözlərə görə Allahın mənə qəzəbi tutdu, peyğəmbər olduğum halda, məni öldürüb, yüz ildən sonra diriltdi ki, qoy hamı yəqin etsin və bilsin ki, Allah hər bir işə qadirdir. Bu isə sizdən ayrıldığım

vaxt mindyim ulaq və yemək-içməkdir. Allah onları da əvvəlki halına qaytarmışdır.

Qardaşı və onun övladları onu tanıdılar və bu hadisə ilə qiyamət və yenidən dirilmək məsələsi onlara çox gözəl aydın oldu. Onlar daha sonra iyirmi beş il yaşayıb, hər ikisi bir gündə dünyadan getdilər.

Bu yerdə məsihi alimi yerindən qalxıb getdi və məsihilər də onun ehtiramına ayağa qalxdılar. Yolda öz tərəfdarlarına dedi: Məndən savadlı bir adamı gətirib öz aranızda oturtmusunuz ki, mənim abrımı töksün və rüsvay etsin. Müsəlmanlar da elə bilsinlər ki, aralarında elmlərimizi bizdən yaxşı bilən adamlar vardır. Allaha and olsun, sizinlə heç bir şey danışmayacağam və suallarınıza cavab vermək üçün gəlməyəcəm.

Hamı dağılışdı. Camaat gedəndən sonra atamla sakin olduğumuz evə getdik. Bu vaxt Hişamın adamlarından bir nəfər hədiyyə ilə gəldi və dedi:

- Hişam əmr etdi k, burda qalmayıb elə günü bu gün Mədinəyə yola düşəsiniz. Çünki camaat, sizin məsihi alimi ilə etdiyiniz mübahisəyə heyran olublar.

Bu sözdən sonra atam İmam Baqir (ə) da Mədinəyə tərəf hərəkət etdi.

## İMAM BAQİR (Ə) ŞAMDA

Əbu Bəkr Həfri deyir: Bir dəfə İmam Baqir (ə)-ı Şama (indiki Dəməşq), Hişam ibn Əbdül Məlikin yanına apardılar. Hişam əvvəlcədən öz saray əyanlarına demişdi ki, mən İmam Baqir (ə)-ı danlayıb qurtarandan sonra, siz onu məzəmmət edərsiniz.

İmam Baqir (ə) daxil olandan sonra əli ilə hamıya işarə edib buyurdu: Salam olsun sizlərə! Bu sözdən sonra Həzrət əyləşdi. İmamın onu bir xəlifə kimi salamlamadığına və icazəsiz oturduğuna görə əsəbləşən Hişam, dedi:[1]

- Ey Məhəməd ibn Əli, nə olub yenə bir-birinizin ardınca baş qaldırıb ixtilaf yaradırsınız və caamatı öz rəhbərliyinizi qəbul etməyə dəvət edirsiniz. Elm və savadınızın olmadığını bir halda, özünüzü imammı hesab edirsiniz? Hişam bu kimi sözlərdən deyib qurtardıqdan sonra saraydakılar da bir-bir imamı məzəmmət etməyə başladılar. Bir müddətdən sonra İmam Baqir (ə) yerindən qalxdı və buyurdu:

- Nə demək istəyirsiniz və bu işlərlə hədəfiniz nədir? Bütün ərəb millətinin hidayəti bizim nəslimizin vasitəsilə olmuşdur və bizim vasitəmizlə başa çatacaqdır. Əgər sizin ötəri qüdrətiniz varsa, bizim üçün müddətli səltənətimiz vardır. Bizim hökümətimizdən sora başqa bir hökümət olmayacaqdır. Çünki aqibət bizimlədir və Allah-Təala buyurur:

وَالْعَاقِبَةُ لِلْمُتَّقِينَ

***«Xeyir Aqibət (dünyada zəfər, axirətdə yüksək məqamlar) müttəqilərindir!»*** [2]

## İMAM BAQİR (Ə) CABİR CÖFİYƏ XƏBƏRDARLIĞI

Nöman ibn Şübeyr belə nəql edir: mən Cabir ibn Yezid Cöfi ilə Hicaz səfərinə yol yoldaşı idim. Kufəyə qayıtmazdan qabaq Cabir, Mədinədə İmam Baqir (ə) ilə görüşdü və imamla

[1] «Biharül-ənvar» cild 31, səh. 175.
[2] «Əraf» surəsi, ayə 128.

xüdahafizləşdikdən sonra Kufəyə yola düşdük. Əxircəyə yetişdik və zöhr namazını qıldıqdan sonra hündür qamətli və buğdayı bir nəfər bizə yaxınlaşıb əlində olan məktubu Cabirə verdi. Cabir məktubu öpdü və gözlərinin üstünə qoydu. Məktub İmam Baqir (ə)-ın tərəfindən idi. Onun mürəkkəbi hələ qurumamışdı. Cabir o kişidən soruşdu:

- Ağamdan haçan ayrılmısan?

Dedi:

- Elə indi ayrılmışam. Cabir soruşdu: Namazdan əvvəl ya sonra?

Cavab verdi:

- Namazdan sonra.

Cabir məktubu açdı və oxumağa başladı. Amma o, məktubu oxuduqca rəngi dəyişilirdi. Elə ki, məktubu oxuyub qurtardı, tez cibinə qoydu. O zamandan sonra Cabirin üzü gülmədi. Kufəyə çatdıq. Mən, bir gün sonra ehtiram əlaməti olaraq Cabiri görməyə getdim. Evlərinə çatdıqda onun bir neçə sümüyü boynundan asıb, uşaq kimi çubuğa minib, qışqıra-qışqıra: «Mənsur ibn Cümhur elə əmirdir ki, heç kəs ona ağalıq edə bilməz...» və bu kimi sözləri təkrar etdiyini gördüm.

Cabirin üzünə baxdım. O da mənə tərəf baxdı və heç nə demədi. Mən ağlamağa başladım. Bir müddətdən sonra uşaqlar, sonra isə camaat bizim dövrəmizə toplaşdılar. Cabir hərəkət edib Kufə meydanına daxil oldu. Uşaqlar da onun arxasınca meydana qaçdılar. Camaat Cabirin dəli olmasından danışırdılar. Allaha and olsun, bir neçə gün keçmədi ki, Kufə hakiminə Hişam ibn Əbdül Malikdən məktub gəldi. Məktubda yazılmışdı: «Kufədə Cabir ibn Cöfi adlı bir nəfər var, tez boynunu vurdur və başını mənə göndər!»

Hakim öz ətrafındakılardan soruşdu: Cabir kimdir? Dedilər: Alim və fazil bir adamdır, hədis söyləyəndir. Həccə də

getmişdi. Əfsus ki, bu günlərdə dəli olmuşdur, meydanda uşaqlarla taxta çubuğa minir və oyun oynayır. Hakim dedi: Allaha şükr olsun, bu iş məni onu qanını tökməkdən qurtardı.

Bir müddətdən sonra Mənsur ibn Cümhur Kufəyə daxil oldu və Cabirin dedikləri baş verdi. Mənsur ibn Cümhur, Yezid ibn Vəlidin tərəfindən Kufə hakimi oldu və Yusif ibn Ömər bu vəzifədən kənar edildi. Bu hadisə 126-cı ildə, İmam Baqir (ə)-ın vəfatından on iki il sonra baş verdi.

## ƏBDÜL MƏLİKLƏ BİR ŞƏXSİN MÜBAHİSƏSİ

Bir nəfər Əbdül Malik ibn Mərvana dedi:

- Səninlə söhbət etmək istəyirəm, bu şərtlə ki, mənə amanda olacağıma söz verəsən.

- Əbdul Məlik dedi:

- Amandasan.

- O dedi:

- De görüm, səni bu vəzifəyə Peyğəmbər (s) təyin edib?

Əbdül Məlik dedi: Yox.

Soruşdu: Sənə beyət edənlər, buna vəfa etməlidirlər?

Əbdül Məlik dedi: Yox.

Soruşdu: Səni şura təyin edib?

Əbdül Məlik dedi: Yox.

O şəxs dedi: Elə isə zorla onlara hakimlik və camaatın malına və canına sahiblik edirsən.

Əbdül Məlik dedi: Bəli, bu cürdür.

O dedi: Bəs niyə özünü Əmirəl-möminin adlandırırsan, axı səni nə Allah, nə Peyğəbər və nə müsəlmanlar əmir təyin etməmişlər?

Əbdül Məlik dedi: Bu məmləkətdən qaç canını qurtar, yoxsa boynunu vurduracağam.[1]

## ƏBDÜL MƏLİKİN ÇIXIŞINA ETİRAZLAR

Əbu Həmzə Somali rəvayət edir ki, Əbdül Məlikin ibn Mərvan Məkkədə, məclislərin birində nitq söyləyib camaata nəsihət verirdi. Elə bu vaxt məclisdəkilərdən biri ayağa qalxıb dedi:

- Bəsdir! Daha nəsihət kifayətdir! Ey Əbdül Məlik! Siz camaatı təqvaya dəvət edir, lakin özünüz əməl etmirsiniz. Başqalarını çəkindirirsiniz, lakin özünüz heç nədən çəkinmirsiniz. Sizin sözünüzə tabe olaq ya özünüzə?!

Əgər sizin yolunuzla getməyimizi söyləyirsənsə, zalımların yolu ilə getmək nə deməkdir?

Hansını dəlilə görə biz, Allah malını öz sərvəti və onun bəndələrini özünə qul edən ziyankar və fasiq adamların yolu ilə getməliyik?

Əgər sizin əmrinizə itaət, nəsihətlərinizi qəbul etməyimizi söyləyirsinizsə, əvvəl özü nəsihət götürməyən adamın başqalarına nəsihət verməsini necə başa düşək?...

Hökuməti buraxın, onun zəncirlərindən əl çəkin, yolları açıq qoyun ki, dünyanın hər tərəfənində avara qoyduğunuz və biyabanlarda didərgin düşmüş adamlar yaxın gəlsinlər.

Allaha and olsun, nə qədər ki, zülm ilə hakimiyyət edirsiniz, heç vaxt səni malımıza və canımıza hakim etməmişik, etməyəcəyik.

Bununla belə bilin ki, biz, sizin hökumətinizin sona və zülm və çətinliklərimizin başa çatmasını gözləyirik. Sizin hər

---

[1] «Biharül-ənvar» cild 11, səh. 242.

biriniz bu kürsüdə bir müddət otura bilərsiniz və sonra hökmən ruzigar sizi öz əlləri ilə götürüb atacaqdır.

Bu vaxt Əbdül Məlikin silahlı məmurlarından biri onu tutub apardı və daha onun başına gələnlərdə heç kimin xəbəri olmadı.

## SƏD İBN ƏBDÜL MƏLİKİN İMAM BAQİR (Ə) İLƏ GÖRÜŞÜ

Əbu Həmzə Somali rəvayət edir ki, bir gün Səd ibn Əbdül Malik İmam Baqir (ə)-ın hüzuruna gəlmişdi. Səd, Əbdüləziz ibn Mərvanın övladlarından idi. Səd, başına müsibət gəlmiş qadınlar kimi göz yaşı tökürdü.

İmam Baqir (ə) buyurdu: Niyə ağlayırsan?

Səd dedi: Niyə ağlamayım, bir halda ki, mən Quranda lənətlənmiş sülalədən (Bəni-Üməyyə) sayılıram.

İmam Baqir (ə) dedi: Ey Səd, sən onlardan deyilsən, sən onlardan deyilsən. Sən Bəni-Üməyyə nəslindən olsan da Peyğəmbər övladlarından sayılırsan. Məgər sən İbrahimi dilindən olan bu ayəni eşitməmisənmi?

فَمَنْ تَبِعَنِي فَإِنَّهُ مِنِّي

***«İndi kim mənim ardımca gəlsə, o, şübhəsiz ki, məndəndir».***[1]

İmam Baqir (ə) Sədi, Sədül-Xeyir adlandırmışdır.

---

[1] «İbrahim» surəsi, ayə 36.

## İMAM BAQİRİN (Ə) MƏHƏMMƏD İBN ƏBDULLAHIN GƏLƏCƏYİ HAQQINDA DEDİKLƏRİ

Məhəmməd ibn Hənəfiyyənin qulamı Əsləm, deyir: Məscidul-haramda[1], İmam Baqir (ə)-ın hüzurunda idim. O Həzrətin kənarında «Zəmzəm»-ə[2] söykənmişdim. Gördüm ki, Məhəmməd ibn Abdullah «Məhz» (Onun ləqəbidir) təvaf edir.

İmam Baqir (ə) dedi: Bu cavanı tanıyırsanmı?

Dedim: Bəli, o Məhəmməd ibn Abdullah ibn Həsəndir.

İmam Baqir (ə) buyurdu: O, tezliklə qiyam edəcək və çox pis tərzdə öldürüləcəkdir.

Sonra Həzrət dedi: Bu hədisi heç kəsə söyləmə ki, sənə əmanət olaraq dedim.

Əsləm deyir: Amma mən əmanəti saxlaya bilmədim və Məruf ibn Xərbuda nəql etdim sonra dilindən söz aldım ki, heç kəsə deməsin.

Biz dörd nəfər Məkkə əhli, sübhdən axşama qədər o Həzrətin yanında olduq.

Məruf dedi: Ağa, Əsləmin mənə nəql etdiyi hədisi sizin özünüzdən eşitmək istərdim. İmam Baqir (ə) üzünü Əsləmə çevirdi və dedi:

- Əsləm, niyə danışmırsan?

Əsəm dedi:

- Ağa, sizin məndən aldığınız əhdi-peymanı, mən də ondan almışam.

---

[1] Kəbə evi Məscidül-haramda yerləşir.

[2] Kəbə evinin kanarında bir bulaqdır. Rəvayətə görə Həzrət İbrahimin oğlu İsmail Peyğəbərin dövründən qalmışdır.

Bu zaman İmam Baqir (ə) buyurdu: Əgər, bütün yer üzündə olan insanlar bizim şiəmiz olsalar, onların dörddə üç hissəsi şəkdə, qalan bir hissəsi də axmaq olacaqlar.[1]

[1] «Biharul-Ənvar» cild 11, səh. 147.

# XIII HİSSƏ

## ƏBDULLAH İBN HƏSƏNİN İDDİASI

Cabir ibn Yezid Cöfi deyir: Bir gün Abdullah ibn Həsənin oturduğu yerdən keçirdim. O deyirdi ki, Məhəmməd ibn Əlinin (İmam Baqir (ə)) məndən fəzilətli olmağı nədədir? Və...

Bir neçə gündən sonra İmam Baqir (ə)-ın yanına getdim və Abdüllahın dediklərini söylədim. Həzrət gülümsədi və dedi: Cabir, əyləş. Bu qapıdan birinci keçəcək adam Abdüllah ibn Həsən olacaqdır. Mən gözlərimi çəkmədən qapıya tərəf baxırdım ki, görüm kim əvvəl daxil olacaq. Bununla belə İmam Baqir (ə)-ın doğru dediyini bilirdim. Qəflətən Abdullahın təkəbbürlü bir qiyafədə daxil olduğunu gördüm.

İmam Baqir (ə) buyurdu: Abdullah, sən deyirdin ki, Məhəmməd ibn Əlini məndən fəzilətli edən, nədir? Halbuki, Həzrəti Məhəmməd (s) və Əli, həm onun (atası İmam Səccad) cəddidir, həm də mənim.

Sonra İmam Baqir (ə) dedi:

- Ey Cabir, kiçik bir quyu düzəlt, içini onunla doldurub, yandır.

Cabir deyir: Quyunu hazırladım və od qaladım. Elə ki, ocaq qızmışdı İmam Baqir (ə) Abdullaha baxdı və dedi: Əgər belə bir məqama malik olduğuna inanırsansa, buyur daxil ol, səni yandırmaz.

Burada Abdüllah mat-məəttəl qaldı və nə deyəcəyini bilmədi. İmam Baqir gülümsədi və dedi: Cabir,

فَبُهِتَ الَّذِي كَفَرَ ۗ وَاللَّهُ لَا يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ

***«Kafir donub qalmışdı. Həqiqətən, Allah (özünə) zülm edənləri düz yola yönəltməz!»***[1]

## ƏBU BƏSİRİN XAHİŞİ

Əbu Bəsir, İmam Baqir (ə)-a dedi: Ağa, mən sizin xidmətçiniz və şiələrinizdənəm, kor və bacarıqsızam. İstəyirəm ki, mənə cənnəti zəmanət verəsiniz. İmam Baqir (ə) buyurdu: İmamların əlamətini sənə göstərməyimi istəyirsənmi? Dedi: İkisini də bir yerə, cəm etməyinin nə manesi var? (Həm cənnəti zəmanət ver, həm də İmamların əlamətini göstər.)

İmam Baqir (ə) gözllərimin üstünə əl çəkdi. Gözlərimə əl çəkən kimi bütün imamları öz gözümlə əyləşdiyimiz evdə gördüm. Sonra İmam Baqir (ə) dedi:

- Gözlərini aç bax, daha nə görürsən?

Əbu Bəkr dedi:

- Allaha and olsun, donuz, it və meymundan başqa bir şey görmürəm. Görəsən bu dəyişilmiş bədbəxtlər kimlərdir?

İmam buyurdu:

- Gördüyün camaat, bizim muxaliflərimizdir. Pərdə qaldırılarsa, şiələr öz müxaliflərini bundan başqa bir şəkildə görməyəcəklər.

Bu zaman İmam Baqir (ə) buyurdu: İndi əgər, istəyirsənsə sizi bu halda saxlayım, lakin cənnəti sənə zəmanət verməyimi istəyirsənsə, ondan sizi əvvəlki halınıza qaytarmalıyam.

Əbu Bəsir dedi: Ağa, mənim bu iyrənc sifətlərə tamaşa etməyə ehtiyacım yoxdur. Məni öz əvvəlki halıma qaytar. Mən cənnəti heç bir şeylə əvəz etmərəm.

---

[1] «Bəqərə» surəsi, ayə 258.

Bu vaxt İmam Baqir (ə) onun gözlərinə əl çəkdi və əvvəlki kimi kor oldu.

## ƏBU BƏSR NƏ GÖRÜR

Həcc mövsümü günləri idi. Əbu Bəsr İmam Baqir (ə)-a dedi:

- Hacılar gör nə qədər çoxdur və onların uca fəryadı gör necə hər yeri götürmüşdür!

İmam Baqir (ə) buyurdu:

- Fəryad səsləri çoxdur, lakin hacı azdır.

Bu zaman İmam Baqir (ə) Əbu Bəsrə: Mənim sözümün doğrulduğunu öz gözlərinlə görmək istəyirsənmi? - deyib əlini Əbu Bəsirin gözlərinin üstünə qoyub dua oxudu. Bu zaman Əbu Bəsir görməyə başladı. İmam Baqir (ə) dedi: İndi Hacılara bax.

Əbu Bəsirə deyir ki, bu vaxt camaatın çoxunu meymun və donuz şəklində gördüm. Möminlər isə onların içində qaranlıq gecədəki parlaq ulduz kimi görünürdü. Əbu Bəsirə dedi: Düz buyurursunuz, hacı azdır. Sonra İmam Baqir (ə) dua oxudu və Əbu Bəsirin gözləri yenidən kor oldu. O, imamdan bu halda qalmağını xahiş etdi. İmam Baqir (ə) dedi: Biz heç vaxt səni çətinliyə salmaq qəsdimiz yoxdur və Allah da sənə zülm etməmiş, sənə məsləhət bilidiyi şeyi rəva görmüşdür. Qorxuram camaat bizə aşiq olarlar və Allahın bizə olan fəzilini unudub, onun müqabilidə bizə pərəstiş edənlər. Halbuki, biz onun bəndələriyik, ibadətindən boyun qaçırmırıq, onun fərmanlarına əməl etməkdən yorulmuruq və ona təslimik.[1]

---

[1] «Biharul-Ənvar» cild 11, səh. 182.

## ÖMƏRİN OĞLU VƏ İMAM BAQİR (Ə)

Bir kişi Ömərin oğlundan bir sual soruşdu və Ömərin oğlu ona cavab verə bilməyib: Get o cavandan soruş - deyə İmam Baqir (ə)-a tərəf işarə etdi. O, hər nə cavab versə qayıt gəl, mənə də söylə. O şəxs, İmam Baqir (ə)-ın yanına gəlib, öz sualını soruşdu və cavabını aldı. Sonra Ömərin oğlunun yanına gəlib, cavabı ona söylədikdə Ömərin oğlu dedi: Elmin mənbəyi bunlardadır. [1]

## SİRLİ KƏLAMLAR CABİR CÖFİYƏ AĞIRLIQ EDİR

İmam Baqir (ə) Cabir Cöfiyə yetmiş min hədis öyrətdikdən sonra ona dedi: Ey Cabir, məbadə bunları başqa birinə açasan.

Cabir dedi: Ağa, canım sənə fəda olsun bu qədər sirri mənə öyrətməklə üzərimə ağır yük qoydun və indi də deyirsiniz ki, heç kəsə söyləməyim. Bəzi vaxtlar qəlbim elə cuşa gəlir ki, dəlilərə xas hallar mənə üz verir.

İmam Baqir (ə) dedi: Hər vaxt bu hala düşsən qəbirsanlığa get və orada quyu qazıb başını onun içərisinə sal və de: Məhəmməd ibn Əli filan-filan dedi.[2]

[1] «Biharul-Ənvar» cild 11, səh. 204.
[2] «Biharul-Ənvar» cild 11, səh. 246.

## BƏSRƏ ALİMİ QÜTADƏNİN İMAM BAQİR (Ə) İLƏ GÖRÜŞÜ

Əbu Həmzə Somali deyir: Bir dəfə Peyğəmbəri-Əkrəmin məscidində oturmuşdum, birdən bir kişi irəli gəldi və mənə salam verib dedi: Siz kimsiniz?

Mən dedim: Kufə əhliyəm, sizə nə lazımdır?

O kişi dedi: Sən Həzrət Baqir Məhəmməd ibn Əlini tanıyırsanmı?

Dedim: Bəli, onunla nə işin var?

O dedi: Qırx dənə məsələ hazırlamışam ki, ondan soruşum. Hansı düz olsa qəbul edəcəyəm və hansı düz deyilsə kənara qoyacam.

Dedim: Sənin haqqla batil arasındakı fərqi ayırmaq üçün nə qədər elmin var?

O kişi dedi: Bəli, lazımi qədər vardır.

Dedim: Haqq və batili ayıra bildiyin halda İmam Baqir (ə)-a nə ehtiyacın var?

Bu vaxt o, əsəbləşdi və dedi: Siz Küfə əhli çox hövsələsiz adamlarsınız.

Bu zaman İmam Baqir (ə), Xorasan əhalisindən olan bir neçə nəfər və öz əshabı ilə məscidə daxil oldu. Əshab İmamı dövrəyə alıb ondan öz suallarını soruşurdular. İmam Baqir (ə) gəlib öz yerində əyləşdi.

O kişi, İmama tərəf getdi və mən də həzrətin yanına gedib onun kənarında əyləşdik.

Camaat bir-bir öz suallarına cavab alıb gedirdilər. Sonra İmam Baqir (ə) o kişiyə nəzər salıb soruşdu:

- Sən kimsən?

O kişi dedi:

- Mən Qütabə ibn Diamə Bəsriyəm.

İmam Baqir (ə) buyurdu:

- Sən Bəsrə əhlinin fəqihisən (dini alimi), elə deyilmi?

Qütadə dedi:

- Bəli.

Həzrət Baqir (ə) buyurdu:

- Vay sənin halına məgər bilmirsən ki, Allah öz xas bəndələrində bir qismini İmam qərar vermişdir? Onlar yerin möhkəm dağları və Allahın fərmanının maddələridirlər. Onlar elm və hikmət sahibidirlər ki, Allah onları insanların yaranışından əvvəl bu məqama seçmişdir və o zaman onlar ərşin ətrafında kölkəyə bənzər sürətdə mövcut idilər.

Burada Qütadə bir an sükut etdi və dedi: Ağa, Allaha and olsun, mən böyük alimlərə üz-üə əyləşmişəm və İbn Abbasla görüşmüşəm, lakin heç kəskin yanında sizin qarşınızdakı kimi bu qədər ürəyim əsməmişdi.

İmam Baqir (ə) buyurdu: Sən heç harada olduğunu və kiminlə üzbəüz əyləşdiyi bilirsənmi? Sən elə bir nəslin nümayəndəsinin müqabilindəsən ki, Allah onlara öz adnı zikr etməyi icazə vermişdir, onlar gecə-gündüz onu yad edənlər və heç bir zaman dünya ticarəti onları Allahı yad etməkdən, namaz və zəkatdan qafil etməz.

فِي بُيُوتٍ أَذِنَ اللَّهُ أَنْ تُرْفَعَ وَيُذْكَرَ فِيهَا اسْمُهُ يُسَبِّحُ لَهُ فِيهَا بِالْغُدُوِّ وَالْآصَالِ

***«Allahın tikilib ucaldılmasına və Öz adının zikr edilməsinə izin verdiyi o evlərdədir (o məscidlərdədir) ki, orada səhər-axşam Onu təqdis edib şəninə təriflər deyərlər».***[1]

İndi sən, həmin yerdəsən və biz həmin nəsilik.

---

[1] «Nur» surəsi, ayə 36.

Qütadə dedi: Canım sizə fəda olsun, həqiqətən düz deyirsiniz. Doğurdanda bu ayədə Allahın buyurduğu evlər, daş və gildən tikilmiş evlər deyildir.[1]

## BƏSRƏ FƏQİHİ İMAM BAQİRİN (Ə) KƏNARINDA

Zeyd Şəham deyir: Bir dəfə Qütadə ibn Diamə İmam Baqir (ə)-ın hüzuruna gəlmişdi. İmam Baqir (ə) dedi:

- Qütadə sən Bəsrənin fəqihisən?

Qütadə dedi:

- Camaat belə deyir.

İmam Baqir (ə) buyurdu:

- Eşitmişəm Quran təfsir edirsən?

Qütadə ərz etdi: Bəli

İmam (ə) buyurdu:

- Sən elmin əsasında təfsir edirsən, yoxsa kor-korənə bilməyərəkdən?

Qütadə dedi:

- Elmin əsasında.

İmam buyurdu:

- Əgər elm üzrə olsa deməli qiymətli adamsan. İndi səndən bir sual soruşacağam.

Qütadə dedi:

- Sualınızı deyin.

İmam Baqir (ə) buyurdu:

- De görüm «Səba» surəsinin 18-ci ayəsində Allahın məqsədi nədir?

Qütadə dedi:

[1] «Biharul-Ənvar» cild 11.

- Burada məqsəd o kəsdir ki, öz halal malı və miniyi ilə Allahın evinin ziyarətini qəsd edərsə öz ailəsinin yanına qayıdanacan tam amanda olacağı nəzərdə tutulur.

İmam (ə) buyurdu:

- Səni Allaha and verirəm, düzünü de. Hərdən elə olmur ki, şəxs öz halal malı və miniyi ilə Allahın evinə tərəf hərəkət etsin və yol üstündə oğrular onun var-yoxunu əlindən alıb özünü də ölüncə döyməsinlər. Heç belə hallar baş verməyibdirmi?

Qütadə dedi: Niyə, bəzi vaxtlar baş verir.

Həzrət buyurdu: Əgər Quranı öz biliyinlə təfsir etsən, özünün və başqalarının həlakına səbəb olarsan. Ey Qütadə! Bu ayə o kəsə aiddir ki, evindən öz halal malı, səfər azuqəsi və miniklə Allahın evini qəsd etməli, lakin bir şərtlə, bizim haqqımızı tanımalı və ürəkdən bizi sevməlidir. Allah bu ayədə Həzrət İbrahimin dilindən buna işarə etmişdir:

فَاجْعَلْ أَفْئِدَةً مِنَ النَّاسِ تَهْوِي إِلَيْهِم

***«İlahi, Elə et ki, insanların bir qisminin qəlbləri onlara (Kəbənin ziyarətinə, əhli-əyalıma mərhəmət göstərməyə) meyl etsin».***[1]

Ayədəki yönəltmək və sevmək Allahın evinə tərəf yönəltmək və onu sevmək deyildir. Əgər Allahın evi nəzərdə tutulsaydı, o vaxt «təhvi iləyhim» yox, «təhvi iləyhi» deyilməlidir onu sevsinlər, nəinkionları sevsinlər. Allaha and olsun? İbrahimin duasında biz nəzərdə tutulmuşuq. Heç kəs ürəkdən bizi sevsə onun həcci qəbul olar və başqa bir sürətdə qəbul olmayacaqdır. Əgər belə olasa, yəni Əhli-beytə

---

[1] «İbrahim» surəsi, ayə 37.

məhəbbəti olsa, o zaman qiyamət günü cəhənnəm əzabından amanda olacaqdır.

Qütadə dedi: Allaha and olsun, daha bu cür təfsir edəcəyəm.[1]

## TAVUS YƏMANİNİN İMAM BAQİRƏ (Ə) OLAN SUALLARI

Əbu Bəsir deyir: Bir gün İmam Baqir (ə) Məscidül-haramda əyləşmişdi. Həzrətin bir dəstə müridi onun ətrafına toplaşmışdılar. Bu zaman Tavus Yəmani bir iddə tərafdarı ilə birlikdə Məscidə daxil oldu və İmam Baqir (ə)-ın kənarında əyləşdi.

Tavus Yəmani İmam Baqir (ə)-a ərz etdi: Sizə sual vermək üçün mənə izin verirsinizmi?

İmam Baqir (ə) buyurdu: Bəli, hər nə istəyirsən soruş.

Tavus Yəmani ərz etdi: İnsanların üçdə biri hansı bir vaxt ölmüşlər?

Həzrət Baqir (ə) buyurdu:

- Səhv edirsən. Əslində camaatın dördə birinin nə vaxt öldüyünü demək istəyirsən. O, həmin gündür ki, Qabil Habili öldürmüşdür. O zaman insanlar dörd nəfərdən ibadət idi. Adəm, Həvva, Qabil, Habil. Nəticədə onların dörddə biri həlak oldu.

Təvus Yəmani dedi:

- Düz dediniz, mən səhv etdim.

Tavus Yəməni soruşdu:

- Bu iki nəfərdən hansı (Habil, Qabil) bəşər övladının atasıdır?

---

[1] «Biraharul-ənvar» cild 11, səh. 202.

Həzrət Baqir (ə) buyurdu:

- Bu günkü insanın nəsli, bunların heç birindən deyildir. İnsanlar Adəmin başqa bir oğlu, Şeysin nəslindəndir.

Tavus Yəməni soruşdu:

- Adəmi nə üçün «Adəm» adlandırılımışdır?

Həzrət Baqir (ə) buyurdu:

- Çünki Adəmin xilqəti yerin «ədim»-indən, yəni, onun aşağı qatından götürülmüşdür.

Tavus Yəməni ərz etdi:

- Nə üçün Həvvanı «Həvva» adlandırmışrdılar?

İmam Baqir (ə) dedi:

- Çünki Həvva, canlı bir şəxsin (Adəm) böyür qismətindən yaradılmışdı.

Tavus Yəməni soruşdu:

- Şeytanı nə üçün İblis adlandırmışdılar?

İmam Baqir (ə) buyurdu:

- Çünki Allahın rəhmətindən naümid olmuşdur.

Tavus Yəməni soruşdu:

- Nə üçün cini «cin» adlandırmışlar?

Həzrət Baqir (ə) buyurdu:

- Çünki onlar gözə görsənmirlər.

Tavus Yəməni soruşdu:

- Dünyada ilk dəfə yalan danışan kim olmuşdur və o yalan nədən ibarət idi?

Həzrət Baqir (ə) buyurdu:

- Şeytan idi və bu sözləri demişdir: «Mən Adəmdən üstünəm. Çünki mən oddan, o isə torpaqdandır».

Tavus Yəməni soruşdu:

- Hansı dəstədir ki, düz şəhadət verdikləri halda yalan deyirlər?

Həzrət Baqir (ə) buyurdu:

- Onlar münafiqlər idilər. «Biz şəhadət veririk ki, sən Allahın peyğəmbərisən» - dedikləri zaman, Allah bu ayəni nazil etdi:

إِذَا جَاءَكَ الْمُنَافِقُونَ قَالُوا نَشْهَدُ إِنَّكَ لَرَسُولُ اللَّهِ ۗ وَاللَّهُ يَعْلَمُ إِنَّكَ لَرَسُولُهُ وَاللَّهُ يَشْهَدُ إِنَّ الْمُنَافِقِينَ لَكَاذِبُونَ

***«Münafiqlər (riyakarlar) sənin yanına gəldikləri zaman: «Biz sənin, doğrudan da, Allahın Peyğəmbəri olduğuna şəhadət veririk! – deyirlər. Allah sənin Onun həqiqi Peyğəmbəri olduğunu bilir. Allah həm də münafiqlərin xalis yalançı olduqlarına şəhadət verir».*** [1]

Tavus Yəməni soruşdu:

- O hansı quşdur ki, yalnız bir dəfə uçdu və daha ucmayacaq. Və Allah onun əhvaltını Quranda gətirmişdi?

İmam Baqir (ə) buyurdu: O? Turi-sina dağıdır ki, Allah onu havaya qaldırdıqdan sonra Bəni-İsrailin üzərinə kölgə saldı. Bu, onlara Allah tərəfindən göstərilən böyük əzab idi. Quranın bu ayəsində həmin hadisəyə işarə olunur:

وَإِذْ نَتَقْنَا الْجَبَلَ فَوْقَهُمْ كَأَنَّهُ ظُلَّةٌ وَظَنُّوا أَنَّهُ وَاقِعٌ بِهِمْ خُذُوا مَا آتَيْنَاكُمْ بِقُوَّةٍ وَاذْكُرُوا مَا فِيهِ لَعَلَّكُمْ تَتَّقُونَ

***«Bir zaman dağı (Tur dağını) yerindən qoparıb onların (İsrail oğullarının) başı üstünə kölgəlik (tavan) kimi qaldırmışdıq və onlar da elə güman etmişdilər ki, dağ üstlərinə düşəcək. Onlara: «Sizə verdiyimizdən (Tövratdan) möhkəm yapışın, orada olanları yada salın ki, bəlkə, pis əməllərdən çəkinəsiniz!» – demişdik».*** [2]

---

[1] «Münafiqun» surəsi, ayə 1.
[2] «Əraf» surəsi, ayə 171.

Tavus Yəməni soruşdu: Allahın göndərdiyi hansı elci cin, bəşər və məlaikənin cinsindən deyildir və Allah Quranda onun göndərilməsi cərəyanını nəql etmişdir?

İmam Baqir (ə) buyurdu: O elçi, qarğa idi ki, Qabil öz qardaşını öldürüb onun cəsədini necə gizlədəcəyini bilmədiyi zaman göndərmişdir:

فَبَعَثَ اللَّهُ غُرَابًا يَبْحَثُ فِي الْأَرْضِ لِيُرِيَهُ كَيْفَ يُوارِي سَوْءَةَ أَخِيهِ

***«Sonra Allah qardaşının cəsədini necə basdırmağı ona göstərmək üçün yer eşən bir qarğa göndərdi».***[1]

Tavus Yəməni soruşdu:

- O həmnövlərini qorxudan və xəbərdarlıq edən, belə ki, nə bəşər, nə cin və nə də məlaikədən olub, Quranda dastanı gələn şəxs kimdir?

İmam Baqir (ə) buyurdu:

- O, qarışqa idi və bu sözləri demişdir:

يَا أَيُّهَا النَّمْلُ ادْخُلُوا مَسَاكِنَكُمْ لَا يَحْطِمَنَّكُمْ سُلَيْمَانُ وَجُنُودُهُ وَهُمْ لَا يَشْعُرُونَ

***«Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və ordusu özləri də bilmədən sizi (ayaqları altında) basıb əzməsinlər!»***[2]

Tavus Yəməni soruşdu:

- O hansı, kəsdir ki, onun haqqında yalan uydurmuşlar, halbuki, nə bəşər nə cin və nə də məlaikə idi və Quranda da bu bəyan edilmişdir.

İmam Baqir (ə) buyurdu:

- O, həmin canavardır ki, Yusifin qardaşları dedilər: «Yusifi parçalamışdır».

---

[1] «Maidə» surəsi, ayə 31.
[2] «Nəml» surəsi, ayə 18.

Tavus Yəməni soruşdu:

- O hansı bir şeydir ki, halalı az və haramı çoxdur?

İmam Baqir (ə) dedi:

- O çaydan məqsəd Talutun keçdiyi çay idi. Allah-Təala buyurur:

فَمَنْ شَرِبَ مِنْهُ فَلَيْسَ مِنِّي وَمَنْ لَمْ يَطْعَمْهُ فَإِنَّهُ مِنِّي

***«Kim ondan dadmasa, dadsa da, bir ovucdan artıq içməsə, o məndəndir».***[1]

Tavus Yəməni soruşdu:

- Hansı namazdır ki, dəstənamazsız qılınır və o hansı orucdur ki, yemək-içmək onu batil etmir?

İmam Baqir (ə) buyurdu:

- Dəstənamazsız namaz, Peyğəmbərə salavat göndərməkdir. Amma oruc isə bu ayədədir:

فَإِمَّا تَرَيِنَّ مِنَ الْبَشَرِ أَحَدًا فَقُولِي إِنِّي نَذَرْتُ لِلرَّحْمَٰنِ صَوْمًا فَلَنْ أُكَلِّمَ الْيَوْمَ إِنْسِيًّا

***«Əgər (səndən bu uşaq barəsində soruşan) bir adam görəcək olsan, belə de: «Mən Rəhman yolunda oruc (sükut orucu) tutmağı nəzir eləmişəm, ona görə də bu gün heç kəslə danışmayacağam».***[2]

Tavus Yəməni soruşdu:

- Deyin görüm, o nədir ki, həm çoxalır həm də azalır, o nədir ki, yalnız çoxalır amma azalmır və o nədir ki, azalır amma çoxalmır?

İmam Baqir (ə) buyurdu:

- Çoxalıb, azalan ay, çoxalıb azalmayan dəniz və azalıb çoxalmayan isə insan ömrüdür.

---

[1] «Bəqərə» surəsi, ayə 249.
[2] «Məryəm» surəsi, ayə 26.

## ƏBU HƏNƏFİNİN İMAM BAQİRƏ (Ə) QARŞI MÜNASİBƏTİ

Bir gün İmam Baqir (ə) məsciddə əyləşmişdi. Əbu Hənifə məscidə daxil oldu və Həzrətin yanına gəlib dedi: İcazə verirsinizmi sizin yanınızda əyləşim?

İmam Baqir (ə) dedi: Sən tanınmış adamsan, ürəyim istəmir yanımda oturasan.

Əbu Hənifə İmamın sözlərinə əhəmiyyət verməyib onun yanına əyləşdi və İmam Baqir (ə)-a dedi: Bağışlayın, siz imamsınız?

İmam Baqir (ə) dedi: Xeyr.

Əbu Hənifə dedi: Kufədə bir dəstə adam sizi imam kimi tanıyırlar.

İmam Baqir (ə) dedi: Deyirsən nə edim?

Əbu Hənifə dedi: Siz onlara bir məktub yazın və nəzərlərinə çatdırın ki, imam deyilsiniz!

İmam Baqir (ə) buyurdu: Onlar qulaq asmayacaqlar. Dəlil budur ki, mənim yanımda hazır olanlar hələ sözümə qulaq asmırlar, o ki, qaldı Küfə camaatına, onlar buradan çox uzaqdadırlar. Mən elə indi sənə dedim ki, mənim yanımda əyləşmə, amma sən əyləşdin. Başqaları da bu cürdürlər. Mən yazsam da itaət etməyəcəklər.

Bu yerdə Əbu Hənifə bir söz deyə bilmədi.[1]

## İMAM BAQİRİN (Ə) ƏSHABI

İmam Baqir (ə)-ın əshabı bunlardan ibarət olmuşdur:

[1] «Biraharul-ənvar» cild 11, səh. 255.

Cabir ibn Yezid Cöfi, Həmran ibn Əyən, Zürarə, Amir ibn Abdüllah ibn Cüzaə, Hicr ibn Zaidə, Abdüllah ibn Şərik Amiri, Füzeyl ibn Yəsar Bəsri, Səlam ibn Müstənir, Yezid ibn Müaviyə İcli və Həkim ibn Əbu Nəim.

Bəli, İmam Baqir (ə) Əməvi hökumətinin zəifliyindən istifadə edib islami bilikləri yaymaq üçün fürsəti qənimət bildi və İmam Sadiq (ə) üçün şərait yaratdı.

## İMAM BAQİRİN (Ə) ŞƏHADƏTİ

İmam Baqir (ə) Hişam ibn Əbdül Məlikin əlilə hicrətin 144-cü ilində şəhadətə yetirildi. O Həzrət, öz vəfat gecəsində İmam Sadiq (ə)-a belə buyurdu: «Mən bu gecə dünya ilə vidalaşacağam. Elə bu dəqiqə atamı gördüm ki, mənim üçün ləziz bir şərbət gətirmişdi. Mən onu içdim. O, əbədi bevi və Allah-Təala ilə görüşü mənə bəşərət verdi.

O həzrətin şəhadətindən sonra pak və mütəhhər bədənini Bəqi qəbrisanlığında İmam Həsən (ə) və İmam Səccad (ə)-ın məzarları kənarında dəfn etdilər.

# XIV HİSSƏ

## KAŞAN CAMAATININ İMAM BAQİRDƏN (Ə) XAHİŞİ

Kaşandan və Findən olan bir qrup şiələrə və Əhli-beyti sevənlər bir yerə yığışıb dedilər ki, İmam Baqir (ə)-dan uzaq olduqlarına görə, Həzrətdən lazımi istifadə edə bilmirlər. Yaxşı olar ki, İmam Baqir (ə)-a məktub yazıb, ondan övladlarından birini bizim dini təlim-tərbiyəmiz və camaatın rəhbərliyini öz öhdəsinə götürmək üçün bura göndərməsini istəyək. Onlar Amir ibn Nasirə məktub verib, onu çoxlu hədiyyə və töfhələrlə Mədinəyə yollandılar. Amir, İmam Baqir (ə)-ın hüzuruna çatıb məktubu ona verdi. İmam Baqir (ə) məktubu açıb oxuyandan sonra dedi:

Ey Amir, dostlarımız yazdıqları məktubda xahiş edirlər ki, onların rəhbərliyi və hidayəti üçün bir nəfər göndərim. Lakin onların bu böyük məsələyə hazır olmağı və onun öhdəsindən yaxşı gələckləri çətin nəzərə çarpır.

Bir neçə gündən sonra İmam Baqir (ə) öz cəddi Peyğəmbəri yuxusunda gördü ki, ona belə deyir:

- Övladım! Kaşan camaatı səndən onların hidayət və rəhbərliyini öhdəsinə alacaq bir nümayəndə istəmiş və sənin yanına qasid göndərmişlər. Onların xahişini qəbul etməli və mənfi cavab verməməlisən. Belə ki, qiyamət günü daha sənə: «Niyə bizim üçün rəhbər göndərmədin? Əgər göndərsəydin biz sizə itaət edərdik» - deməsinlər. Belə isə oğlum Əlini onların yanına göndər.

İmam Baqir (ə) yuxudan oyandı və yuxusunu övladlarına danışdı və buyurdu ki, Əlinin yol azuqəsini hazırlasınlar. Bu

zaman İmam Sadiq (ə) qardaşının yolyükünün hazırlanmasına əmr verdi. Hər şey hazır olandan sonra Əli öz atası ilə xüdafizləşib Mədinədən Kaşana tərəf yola düşdü.

## SULTAN ƏLİNİN KAŞANA DAXİL OLMASI

Səbirsizliklə gözü yolda olan Kaşan camaatı İmam Baqir (ə)-ın övladlarının gəlişini eşitdikdə sevincdən fəryad çəkərək atlı min nəfərə yaxın adam: böyük, kiçik, qadın və kişidən ibarət dəstəylə onun pişvazına getdilər. İmam övladı Kaşana daxil olduqdan sonra camaatın hidayətilə məşğul olmağa başladı. Camaat onun elmindən kamil sürətdə feyz alırdılar. Kaşanın «came» məscidinin məhəlləsi onun yaşadığı məntəqə və iş yeri idi.

Ağa Sultan Əlinin nüfuzu altında olan məntəqələr Qum şəhərinə kimi uzanırdı. Cümə günləri cümə namazı qılınır və saysız-hesabsız insan axını bu namazda iştirak edirdi. O zamanlar Qum və Kaşan, Qəzvin əyalətinə tabe və Qəzvinin də hakimi Əzrəq Əbrəh idi.

Üç ildən sonra «Qızıl başmaq» ləqəbi ilə tanınmış Haris, Qum və Kaşanın hakimi oldu. O, Sultan Əlinin başına toplaşmış adamların, onun hökümətini zəiflədəcəyindən və bu xəbərin Əzrəqin qulağına çatdıqdan sonra onu hökümətindən kənar edəcəyindən qorxuya düşüb Əzrəqə məktubdan belə yazdı: «Əli ibn Məhəmməd Baqir bu məntəqəyə gəldikdən sonra üç il ərzində böyük miqdarda camaat onun başına toplaşmışdır. Bizim onunla döyüşməyə və ona müqavimət göstərməyə gücümüz yoxdur. Nə əmr versəniz itaət etməyə hazıram».

## DÜŞMƏN DÖYÜŞ TƏDARÜKÜNDƏ

Məktub hakimin əlinə çatdıqdan sonra, onun məzmunu bütün vücudunu qəzəblə doldurdu və Harisi hədələyərək belə bir məktub yazdı:

«Üç ildir ki, Sulltan Əli bu məntəqəyə gəlmiş və cammatı öz tərəfdarına çevirmişdir. Amma sən, indi bizə xəbər verirsən?»

O, «Mən, Qum və Kaşanın qonşuluğundakı əmirliklərdən sənin üçün kömək göndərir və Əli ibn Məhəmmədin başını mənim üçün göndərməlisən!» - deyə əmr verdi.

Bütün işlər məxfi görüldü və düşmən qüvvələri tam şəkildə döyüşmə hazırlaşdılar. Bütün yolları bağladılar ki, heç kim köməyə gələ bilməsin.

Sultan Əlinin tərəfdarları bunu eşidən kimi, onlar da döyüşə hazırlaşdılar. Üzün çəkişmələrdən sonra Sultan Əlinin tərəfdarı qələbənin axır həddinə qədər irəlilədilər. Lakin təəccüflər olsun ki, ətraf kəndlər bu zalım hakimlərin köməyinə tələsdilər. Onlar Sultan Əlinin qoşunu ilə döyüşə girdilər və onun çoxlu tərəfdarını şəhadətə yetirdilər. Bu döyüşdə Sultan Əli onların çoxunu cəhənnəmə vasil etdi.

## SULTAN ƏLİNİN ŞƏHADƏTİ

Düşmən qoşununun günü-gündən çoxalması, Sultan Əlinin qoşununun zəifliyi və oxdan aldığı yaraların təsiri (nəql edirlər ki, onun bədəninə səksənə yaxın ox dəymişdi) nəticəsində şəhadətə çatdı. O məlun (Haris) isə onun başını mübarək bədənindən ayırdı.

# XV HİSSƏ

## ZEYDİN QİYAMI BARƏSİNDƏ QISA TƏHLİL

Zeyd barəsində nəql olunmuş rəvayətlər iki qismə bölünür. Bir qismi Zeydin qiyamından əvvəl İmam Baqir və İmam Sadiq (ə) tərəfindən bəyan edilmiş, bir qismi isə qiyamdan sonra İmamlar (ə) tərəfindən söylənilmişdir.

Burada mühüm bir nöqtəsinin açıqlanması lazım gəlir. O da budur ki, zalım Əməvi hakim qüvvələri öz hakiyyətlərinin başlanğıcından Əhli-beyt (ə) və risalət nəslinə qarşı acıq təbliğat aparırdılar. Minbərlərdə və cümə namazının xütbələrinə Əmirəl-möminin (ə) və Həzrət Zəhranın övladlarına töhmət vurur və onların haqqında nalayiq sözlər deyirdilər.

Müaviyə İraq və Şam camaatına fərman vermişdir ki, Həzrət Əli (ə)-ı söysünlər, onun imamətini inkar və bunları minbələrdə aşakar yerinə yetirsinlər.

İş o yerə çatmışdı ki, əməvilərin bir hissəsi Müaviyəyə dedilər:

- Ey Müaviyə, daha sən arzuna çatmısan. Əgər bu lənətlərin qabağını alsan, sənin üçün daha yaxşı olar.

Müaviyə dedi:

- Allaha and olsun ki, yox. Bu məsələ o qədər uzanmalıdır ki, uşaqlar bu əqidə ilə böyüməli, böyüklər bu fikir ilə qocalmalı və Əlinin fəziləti beyinlərindən silinməlidir.[1]

Zeydin qiyamından Əməvi hakim qüvvələri Əhli-beyt (ə)-ın əlehinə apardığı təbliğat və həmlələr daha da gücləndirildi

[1] «Şərhi Nəhcül-bəlağə» İbn Əbil Hədid.

və Zeydin qiyamına qarşı cəmiyyət arasında nifrət dolu fəza yaratdılar. Bu vəziyyətdə məsum imamlar nə etməlidirlər? Əməvilərlə birgə Zeydin əlehinəmi söz deməliydilər, yaxud Əməvilərin təbliğat qüvvələri həmrəng olmalıydılar? Bu özü, Əhli-beyt (ə)-ın məzlumiyyətini göstərən cəhətlərdən biridir.

Qiyamdan əvvəl, İmam Baqir (ə) və İmam Sadiq (ə) Əhli-beyt (ə)-ın imamət və vilayət ağacının barının yetişmədiyini Zeydin qulağına çatdırmışdır. Lakin Zeyd, bu vəziyyətə tab gətirməyib deyirdi: «Məhv olsam belə, Hişamın əleyhinə qiyam edəcəyəm».[1] Belə ki, onun qiyamından əvvəl İmam Baqir (ə) və İmam Sadiq (ə) bu işin nəticə verməyəcəyini, məğlubiyyət və ölümünü onun qulağına çatdırmışdılar. Rəvayətdən istifadə olunur ki, o vəziyyətdə qələbə mümkün olan bir iş deyildi. Elə buna görə imamlarımız buyurmuşlar: «Əgər qələbə çalsaydı, əhdinə vəfa edəcəkdi». Yəni rəvayətdə gələn «əgər» kəliməsindən başa düşülür ki, imamlarımız onun qələbə çalmayacağını görürlərmiş. Lakin «əhdinə vəfa edəcəkdi» ibarətindən isə onun niyyətinin xeyirli olması məlum olur.

Məkan, zaman və ümumiyyətlə qiyamın qələbəsi üçün lazım olan heç bir şərait Zeyd üçün hazır deyildi. Məsum imamlar (ə) tərəfindən Zeyd barəsində bizə gəlib çatan rəvayətlər, batini cəhətdən Zeydin qiyamını açıqlayır. Qiyamdan əvvəl söylənən rəvayətlər onun nəticəsiz məğlub olub, öldürləcəyindən xəbər verir. Qiyamdan sonrakı rəvayətlər isə Zeydin batini niyyətini bəyan edir.

Bu müəmmalı məsələ yalnız dəqiq təhlillə həll ola bilər.

Belə ki, İmamlar (ə) qiyam üçün lazımi şəraitin olmadığını və qiyam olarsa hökmən məğlubiyyətə uğrayacağını bilib, heç

---

[1] «Əyanüş-şiə» cild 33, səh. 98.

kəsi Zeydə qoşulmağa rəğbətləndirməmişlər. Amma oların Zeydin xeyirli və pak niyyətindən xəbərdar olub, onun şəhadətindən sonra verdikləri müsbət bəyanatlarını qiyamın apardılması boyu yaddan çıxarılmamalıyıq.

Diqqət yetirilməsi lazım olan məsələlərdən biri də budur ki, məsumlar yalnız on dörd nəfərdir və başqaları hətta İmamların qardaşları da məsum deyildirlər. Amma Zeydin məsələsinə gəldikdə, o da bu qanundan istisna deyildir. Düzdür ki, o, imam övladı, imam qardaşı, alim və bilikli bir fərd olmuşdur. Lakin nə İmam olmuş və nə imamın xüsusiyyətləri onda varmış. Onun kimi şəxslərin səhv etməsi heç də qeyri-adi bir iş deyildir.

O, qiyam edib Əməvi hökümətinin qarşısında durmağı lazım bilirdi və bununla da İmam Baqir və İmam Sadiq (ə)-ın əmri ilə səbr edib yaymağa təqati yox idi. Hər halda arzu edirdi ki, necə olursa-olsun ya Əməvi höküməti aradan getməli ya da bu yolda ölməlidir. Rəvayətlərdən məlum olur ki, o, bütün bu məsələləri qəbul etmişdi.

## MÜHİTƏ HAKİM OLAN VƏZİYYƏT

O zaman mühitə hakim olan vəziyyət belə idi ki, zahirən Əhli-beytə (ə) nəslindən biri qiyam etsəydi camaatın ona arxa olacağı təsəvvür olunurdu. Lakin həqiqət belə idi ki, şiələr, xüsusilə də Küfə camaatı Əhli-beytə (ə)-a yardım və kömək göstərməyə hazır olduqlarını izhar edir, bəzən Əhli-beytin hüzuruna, yaxud Əhli-beytdən olan böyük adamlar və seyidlər ilə görüşdükləri zaman qiyama hazır olduqlarını bildirir, lakin işə gəldikdə isə boyun qaçırırdılar. Keçmişdə bu məsələ Həzrət Əli, sonra İmam Həsən, daha sonra İmam Hüseyn (ə)-ın başına

gəlmişdir. Təcrübə göstərirdi ki, şiələrin məsum imamların hökümətini qəbul etməyə lazımi hazırlıqları olmamışdır.

Bəli, İmam Baqir və İmam Sadiq (ə)-ın vaxtında da bu məsələ təkrar olur və o Həzrətlərdən hökümətin əleyhinə inqilab və qiyam etməyəni istəyirlər. Lakin məsum İmamlar (ə) bu işin batinidən və camaatın halından xəbərdar olduqları, hərtərəfli böyük bir inqilab üçün lazımi səbəblərin hazır olmadıqlarını görüb bu işi qəbul etməkdən imtina edirdilər.

Camaat bu vəziyyətdə Zeydin sorağına gedib onu qiyama dəvət etdilər. Bir tərəfdən Zeydin qiyam rühiyyəsi, o biri tərəfdən də ətrafında yaranmış ictimai vəziyyət onu qiyam etməyə məcbur etdi. Bu arada imamların rolu çox həssas olmuşdur. İmam Baqir, yaxud İmam Sadiq (ə) bilirdilər ki, şərait olmadığına görə Zeydin qiyamı məğlubiyyətə uğrayacaqdır. Onlar yaxın səhabələrinə Zeydin qiyamına qoşulmamağı əmr edir, xüsusi yığıncaqlarda Zeydə qiyam etməməsini tapşırır və öldürüləcəyi, camaatın isə öz əhdinə vəfa etməyəcəklərini vurğulayırdılar.

Yuxarıda qeyd etdiyimiz kimi, camaat İmam Sadiq (ə)-dan o Həzrətin qiyam etməsini istəyirdilər. Fərz edək ki, əgər Zeydin yerinə İmam Sadiq (ə) qiyam etsəydi nə olardı və nə kimi hdisələr baş verə bilərdi?

Zeydin qiyamından belə başa düşülür ki, imamların fikri səhih və haqq idi. Lakin Zeyd kimi qeyri-məsumun hər halda səhvə yol verməsi gözlənilirdi.

Nəzərə almalıyıq ki, Zeydin batini pak və xeyirli niyyəti var idi. Bu mətləbi rəvayətlərdə də görmək olar.

İmamlar Zeydin qiyamı baş verdikdən sonra onun nəticəsinə, batini nöqteyi-nəzərdən yanaşmışlar. Belə ki, Zeydin qiyamından sonra məsum imamlar (ə) tərəfindən verilmiş nəzərlər bunu açıq-aydın göstərir. Adətən çox az

diqqət yetirilmiş mühüm məsələlərdən biri, Zeydin qiyamının necəliyidir ki, hadisənin mətninə diqqət yetirsək onun qiyamının yetişmədiyi aydın olur.

Zeydin qiyamı proqlamlaşdırılmamışdı və camaat tərəfindən yersiz hesab olunurdu. İmamlar bu işdən xəbərdar idilər və elə buna görə də Zeydə xəbərdarlıq edirdilər. İndi isə bu rəvayətə diqqət edin.

İmam Sadiq (ə)-ın qulamı Mötəm deyir:

- Mənzilin qapısı döyüldü. Qapını aşdıqdan sonra Zeyd ibn Əli içəri daxil oldu. Həzrət ətrafında olanlara dedi: «Başqa otağa gedin qapını bağlayın». Zeyd daxil oldu və Həzrət Sadiq (ə) onunla qucaqlaşdı. Bir müddət öz qiyamı haqqında Həzrətlə danışdıqdan sonra Zeydin səsi yavaş-yavaş ucaldı. Zeyd deyirdi:

- Bu sözləri boşla, Allaha and olsun, əgər mənə beyət əlini uzatmasan, səninlə sərt rəftar edəcəyəm! Nə üçün cihad etmirsən, niyə evdə oturmusan və özünlə camaat arasında maneə və hicab yaradırsan? Halbuki, şərqdən və qərbdən beytül-malı sənin yanına gətirirlər.

Həzrət Sadiq (ə) buyurdu: Əmi, Allah sənə rəhm eləsin və səni bağışlasın.

Lakin Zeyd qəzəblə: Sənə sübhə kimi vaxt verirəm - dedi və durub getdi. Orada olanlar Zeyd haqqında danışmağa başladılar. Həzrət dedi:

- Sakit olun, onun barəsində xeyirdən başqa bir şey danışmayın. Allah ona rəhm etsin.

Səhərə yaxın mənzilin qapısı səsləndi. Qulam deyir ki, qapını açdıqda Zeyd içəri uca səslə ağlaya-ağlaya daxil oldu və deyirdi: Ay Cəfər, mənə rəhm elə, Allahın rəhməti sənə olsun! Məndən razı ol, Allah səndən razı olsun! Məni bağışla, Allah səni bağışlasın!

İmam Sadiq (ə) dedi: Allah sənə rəhm etsin, səndən razı olsun və səni bağışlasın, nə olub belə ağlayırsan? Zeyd dedi: Yuxuda Peyğəmbəri-Əkrəmin (s) yanıma gəldiyini gördüm. Həsən sağ, Hüseyn sol tərəfində, Fatimə arxasında, və Əli də önündə idi. Əlinin əlində qılınc vardı və elə bil, bir parça od idi.

Dedi:

- Ey Zeyd, Peyğəmbərin oğlu Cəfərə qarşı etdiyin işlə onu narahat etmisən. Vallah, əgər Cəfər səni bağışlamasa və buna razı olmasa qılıncı sənin sinənin ortasına qoyacam. O vaxt qorxu və iztirab içində yuxudan oyandım və gəldim ki, məni bağışlayasan.

Həzrət buyurdu:

- Allah sənə rəh etsin, vəsiyyətin varsa de. Sən qətlə yetiriləcəksən, bədənin dara çəkiləcək və sonra da yandırılacaqlar.

Bu vaxt Zeyd öz vəsiyyətlərini etdi və mənildən çıxdı.

## ZEYDİN ANADAN OLMASI BARƏDƏ

Zeydin doğulmağı xəbəri İmam Səccada (ə) çatanda Qurani-şərifi açıb ona baxdı. Birinci sətir belə idi:

إِنَّ اللَّهَ اشْتَرَىٰ مِنَ الْمُؤْمِنِينَ أَنْفُسَهُمْ وَأَمْوَالَهُمْ بِأَنَّ لَهُمُ الْجَنَّةَ ۚ يُقَاتِلُونَ فِي سَبِيلِ اللَّهِ فَيَقْتُلُونَ وَيُقْتَلُونَ ۖ وَعْدًا عَلَيْهِ حَقًّا فِي التَّوْرَاةِ وَالْإِنْجِيلِ وَالْقُرْآنِ

***«Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş Cənnət müqabilində satın almışdır».***[1]

---

[1] «Tövbə» surəsi, ayə 111.

Həzrət yenidən Quranı açdı və ayə belə idi:

وَلَا تَحْسَبَنَّ الَّذِينَ قُتِلُوا فِي سَبِيلِ اللَّهِ أَمْوَاتًا ۚ بَلْ أَحْيَاءٌ عِنْدَ رَبِّهِمْ يُرْزَقُونَ

***«Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi (cənnət ruzisi) əta olunur».***[1]

Üçüncü dəfə bu ayə gəldi:

فَضَّلَ اللَّهُ الْمُجَاهِدِينَ عَلَى الْقَاعِدِينَ أَجْرًا عَظِيمًا

***«Allah mücahidlərə (evlərində) oturanlardan daha böyük mükafatlarla imtiyaz vermişdir».***[2]

Bu vaxt İmam Səccad (ə) buyurdu:

- Allaha and olsun ki, bu mövluda görə mənə baş sağlığı və təsəlli verirlər və o mütləq şəhid olacaq.[3]

## ZEYDİN YAŞADIĞI YER

Zeyd Mədinədə Həzrət Əlinin (ə) evində yaşayırdı. Allahın fərmanı ilə Əmirəl-möminin qapısından başqa, məscidin bütün qapıları bağlandıqdan sonra Əmirəl-mömininin övladları, o evdə qalırdılar. Evin qapısı Əbdül Məlik ibn Mərvanın zamanına qədər məscidə sarı açıq idi. O, bu qapını bağlamaq istədiyi zaman Zeyd ibn Əli bu evin sakini idi. Ona evdən çıxmağını təklif etdilər. Zeyd bunu qəbul etmədikdə, onu zorla evdən çıxartdılar. Bundan sonra Bəni-Haşim və Mədinə camaatı bu zorakalığa qarşı fəryad səslərini göyə ucaltdılar. Zeyd ibn Əli bu zülmə görə Həzrət Rəsulun (s) qəbrinə pənah apardı və «etikaf» saxladı. Onlar evi dağıtdılar. Bununla belə

[1] «Ali-İmran» surəsi, ayə 169.
[2] «Nisa» surəsi, ayə 95.
[3] «Biraharul-ənvar» cild 11, səh. 39.

Zeyd, Peyğəmbərin mütəhhər barigahın tərk etmədi və Mədinədən çıxmadı. Bu minvalla Əbdül Məlikin dövranı keçdi və növbə Hişam ibn Əbdül Məlikə çatdı. Hişam da köhnə üsulu davam etdirir, Peyğəbərin (s) şərif nəslinə əziyyət və zərər vurmağı dəstəkləyirdi.[1]

## ZEYDİN ÖZ ƏMİSİ OĞLU İLƏ MÜXALİFƏTİ

Zeyd, həmişə Cəfər ibn Həsən və bir də Abdullah ilə yola getmirdi. Bu, Hişam ibn Əbdül Məlikin, Xalid ibn Əbdül Məlik ibn Haris ibn Həkimi Mədinəyə vali təyin edənə kimi davam etdi.

Bir dəfə Zeyd, Abdullah ilə üzləşdiyi vaxt Abdullah ona qarşı nəzakətsizlik edib dedi:

- Ey hind kənizinin oğlu.

Zeyd gülərək:

- Bəs belə - sonra onun anası barədə bir neçə şey söylədi.

Lakin Mədaini onun sözlərini belə yazır: Abdullah Zeydə belə dedikdə Zeyd ona dedi:

- Bəli Allaha and olsun ki, anam öz əri dünyadan gedəndən sonra səbr etdi və öz evindən kənara ayaq qoymadı (yenidən evlənmədi). Lakin başqaları isə səbr etmədi (Aldullahın anasını nəzərdə tutur və o, Zeydin bibisi idi). Bundan sonra Zeyd dediyinə peşman oldu. Bibisindən xəcalət çəkdiyinə görə bir müddət onun yanına getmədi. O vaxta qədər ki, bibisi xəbər göndərib dedi:

- Ey qardaş oğlu, mən bilirəm ki, sən anana qarşı necəsənsə, Abdullah da anasına qarşı o cürdür.

1 «Cənnətün-nəim» səh.87.

Bu hadisədən sonra Xalid ibn Əbdül Məlik hər ikisinə xəbər göndərib dedi:

- Sabah ikiniz də yanıma gəlin. Əgər işinizi həll etməsəm, Əbdül Məlikin oğlu deyiləm!

Həmin gecə Mədinədə qaynayan qazana bənzəyirdi. Hərə bir söz danışırdı. Biri deyirdi:

- Zeyd belə deyir.

Digəri:

- Abdullah bu cür dedi.

Sübh, xalid gəlib məsciddə əyləşdi və camaat da ora yığıldılar. Bir dəstə aranı qızışdırmaq üçün xoşhal, başqa bir dəstə isə qəmgin idilər. Xalid hər ikisini qarşıya çağırdı və istəyirdi ki, bunlar bir-birinə rişxənd etsinlər.

Abdullah nəsə demək istədikdə Zeyd dedi:

- Ey Əbu Məhəmməd, tələsmə. Əgər Xalidin yanında sənin əleyhinə bir söz desəm, bütün qullarım azad olsun. Sonra üzünü Xalidə çevirib dedi:

- Ey Xalid, Rəsulullahın (s) övladlarını elə bir iş üçün toplamısan ki, bunu nə Əbu Bəkr nə də Ömər etmişdir. Sonra Zeydlə Xalidin arasında söz düşdü və hər ikisi məsciddən çıxdılar.

## ZEYD ŞAMDA

Sonra Zeyd Şama doğru hərəkət etdi. O Hişamla görüşmək istəyirdi. Amma Hişam ibn Əbdül Məlik ona görüş üçün icazə vermirdi. Zeyd məktub göndərir və Hişam da hər dəfə məktubun aşağısında belə yazırdı:

«Öz əmrinə müraciət et».

Zeyd isə: Allaha and olsun, heç vaxt Xalidə müraciət etmərəm – deyirdi.

Abdullah ibn Cəfər deyir ki, bir dəfə Zeyd ibn Əli, Hişamla görüşüb, ona çoxlu borc və ehtiyacı olduğunu bildirdi. Hişam isə onun istədiyini verməyib üzünü çevirdi və onu bərk acıladı.

Zeyd Hişamdan ayrılandan sonra bu sözləri deyirdi:

«Hər kim dünya həyatına məhəbbət bəslədisə, zəlil oldu».[1]

## HİŞAMIN ETDİYİ HÖRMƏTSİZLİK

Bir dəfə Zeyd Şama olan səfərlərinin birində Hişamla görüşür. İbn Əbdül Hədid bu barədə yazır: Söhbət əsasında Hişam Zeydə dedi:

Sənin bəqərə qardaşın nə eləyir?

Zeyd çox bərk qəzəblənib dedi:

- Allahın Rəsulu (s) onu Baqir adlandırmışdır, amma sən isə ona «bəqərə» (inək) deyirsən. Deməli aranızda ixtilaf çox şiddətlidir. Necə ki, dünyada onunla müxalifsən, axirətdə də onunla müxalif olacaqsan. O, cənnətə daxil olacaq və sən cəhənnəmə gedəcəksən.

Hişam öz nökərlərinə:

- Bu axmağın əlindən tutub çölə atın! - deyə əmr etdi.

Hişamın nökərləri Zeydi tutub çölə atdılar.[2]

Hər vaxt Zeyd, Hişamla hər hansı bir məclisdə üz-üzə gəlsəydi onunla çox sərt danışar və qürurunu sındırardı. Heç kəsin «Gözün üstə qaşın var» - deməyə cürət etmədiyi xəlifəyə, Zeyd çox rahat onun bütün səhvlərini ətrafdakılarının qarşısında sayardı.

Hətta bir gün Zeyd, Hişamla görüşdükdə ona:

---

[1] «Təqəbat» (ibn Səd) cild 9, səh. 239.

[2] «Şərhi Nəhcül-bəlağə» (İbn Əbil Hədid) cild 1, səh. 179.

- Salam olsun sənə ey çəpgöz! - deyə müraciət etmişdir. Hişam çəpgöz olmuşdur.

## ZEYDİN SƏFƏRLƏRİ

Zeydin Hişamla müxtəlif müzakirələri tarixdə bəyan olmuş və onun çoxsaylı səfərlərilə bağlıdır.

Əbu Zöhrə deyir ki, Zeyd, Həzrəti Fatimeyi-Zəhranın (s.ə) övladlarının içərisində səfərlərinin çoxluğu ilə tanınmışdır.

Tarixdə gəlmişdir ki, Zeyd dəfələrlə Şama səfər və Küfəyə get-gəl etmişdir. Bu get-gəllərin nəticəsində idi ki, o cənabın şəxsiyyəti Küfəlilərin arasında tanınmışdır.

## HİŞAMIN ZEYDƏ QARŞI PLANI

Zeyd Şama etdiyi səfərlərinin birində Hişamla görüşmək istəyirdi. Hişamın ona qarşı hazırladığı planı tarixdə belə gəlmişdir:

Hişam Rusafədə Zeyd ilə görünməzdən qabaq şamlıları dəvət etmişdi ki, məclisdəki bütün yerləri doldursun və Zeyd üçün boş yer qoymasınlar.

Zeyd varid oldu və oturmaq üçün boş yer olmadığı üçün məclisin aşağısında əyləşməyə məcbur oldu.

Hişam dedi:

- Ey Zeyd, mənə xəbər çatmışdır ki, sən xilafətdən dəm vurur və onun arzusundasan. Bir halda ki, kənizdən doğulmusan və buna layiq deyilsən.

Zeyd dedi:

- Ey Əmirəl-möminin! Dediyiniz heç də dəlil ola bilməz və bunun cavabı vardır.

Hişam:

- Söylə.

Zeyd dedi:

- Allah yanında onun məbus etdiyi peyğəmbərdən üstün və yüksək mərtəbəli bir kəs yoxdur. İsmayıl, peyğəmbər idi və peyğəmbərlərin ən üstünü Həzrət Məhəməd (s) isə onun övladlarındandır. İsmayıl kənizdən doğulmuşdu və qardaşı isə sənin kimi kəniz olmayan azad bir qadından. Allah onu qardaşından üstün bildi və ən yaxşı insanları ondan vücuda gətirdi. Cəddi, Rəsulullah (s) olan bir kəs üçün anasının kim olması elə mühim bir eyib ola bilməz.

Hişam ona dedi:

- Çıx burdan.

Zeyd:

- Çıxmıram, amma sənə xoş gəlməyən yerlərdən başqa, məni ayrı yerdə görməyəcəksən.

## ZEYDİN KEÇİRDİYİ İZTİRABLAR

Bu get-gəllər Zeyd kimi böyük bir insana çətin və bundan daha ağır, Hişamla görüşlərindəki ona qarşı olan rəftarı idi.

İbn Əsir yazır: Zeyd Hişamın məclisindən sonra Kufəyə tərəf hərəkət etdi. Məhəmməd ibn Ömər ona dedi:

- Zeyd səni Allaha and verirəm, öz əhlinin yanına qayıt və Kufəyə daxil olma. Kufəlilər sənə vəfa etməyəcəklər.

Zeyd qəbul etməyib dedi:

- Hişam bizi, heç bir günahımız olmadan əsir kimi Hicazdan Şama, sonra Cəzirəyə, daha sonra İraqa aparır və bizimlə oyun oynayır.

## ZEYD KÜFƏYƏ DAXİL OLUR

Bəli, Zeydin Küfəyə daxil olmasından xəbərdar olan camaat və şiələr Zeyd ibn Əlinin yanına get-gəl etməyə başladılar və onu qiyama dəvət edib dedilər:

- Biz ümidvarıq ki, sən qalib olacaqsan və bununla Bəni-Üməyyənin hakimiyyətinə son qoyulacadır.

Zeydin Küfədə olmağından xəbər tutan Yusif ibn Ömər onun yanına adam göndərib Küfədən çıxmağını istədi.

İkinci dəfə Yusif Zeydin dalınca adam yolladı ki, onun gedib-getməməyini xəbər versinlər. Xəbər gəldi ki, o hələ də Kufədə qalmaqdadır və getməmişdir. Yusif yenidən adam göndərib Zeydi getmək üçün həvəsləndirdi. Amma Zeyd bəhanə gətirib dedi ki, bir neçə şey almalıdır və xəbər göndərdi ki, səfər boxçasını bağlamaqdadır.

Yusifin israrını görən Zeyd Kufədən çıxdı və Qadisiyyəyə çatdı.

## ZEYDİN KUFƏDƏN ÇIXIŞI

Şiələr Zeydin Kufədən çıxdığından xəbərdar olduqda onun arxasınca yola düşdülər və özlərini ona çatdırıb dedilər:

- Bizim yanımızdan hara gedirsən? Bir halda ki, yüz min nəfər Kufə camaatı səninlədir və sabah sənin kənarında qılınc çalacaqlar. Sənə qarşı olan Şam əhli balaca bir dəstədən ibarətdir. Əgər bizim «Məzhəc», «Həmdan», «Təmim» və ya «Bəkr» qəbilələrimizdən biri onlarla döyüşə göndərilsə, Allahın izni ilə sən onlara qalib gələrsən. Səni Allaha and veririk qayıt! O qədər israr etdilər ki, nəhayət onu Kufəyə qaytardılar.

## KUFƏLİLƏRİN ZEYDƏ BEYƏTİ

Bəli, Kufədə şiələr və başqaları Zeydin yanına gedib ona beyət edirdilər. Beləliklə, təkcə Kufədə beyət edənlərin sayı on beş minə çatdı. Bu ədəd Mədain, Bəsrə, Basit, Musil, Xorasan, Rey və Qurqanda beyət edənlərə daxil deyildi. Zeyd on ay Kufədə qaldı. Bu müddətdə ətraf nahiyələrə və şəhərlərə qasid yollayır və beyət alırdı.[1] Nəhayət ona qırx min nəfər adam beyət etdi.

## DAVUD İBN ƏLİNİN ZEYDƏ NƏSİHƏTİ

Camaat Zeydə beyət etdikləri zaman Davud ibn Əli Zeydə dedi:

- Ey əmioğlu, bunlar sənə kələk gələcəklər. Onlar səndən daha çox üstün olan bir adama kömək etməkdən boyun qaçırmadılarmı? (Babası Əli ibn Əbu Talib (ə)) Və nəticədə öldürüldü. Ondan sonra Həsən (ə)-a beyət edilər. Sonra ona hücum edib əbasını əynindən çəkib çıxartdılar, çadırını qarət etdilər və özünü də yaraladılar. Məgər baban Hüseyni onlar dəvət etməmişdilərmi? Məgər onlar o cür təkidlə and içməmişdilərmi? Sonra yardın etməkdən boyun qaçırıb onu tək qoydular. Onlar bununla razışlamayıb hətta onu öldürdülər. Ey Zeyd, bu camaata inama.

Camaata dedi:

---

[1] «Məqatili-Talibiyyin» səh 54.

- Ey Zeyd, bu kişi sənin qələbə çalmağını istəmir və elə düşünür ki, onun özü və xanədanı[1] bu işə daha layiqdirlər.[2]

## SƏLƏMƏNİN ZEYDƏ NƏSİHƏTİ

Həmçinin Sələmə ibn Kuhəyl Zeydin yanına gəlib onun Allahın Rəsuluna (s) olan qohumluğu və onun haqqı barədə söhbət etdi. Bu vaxt Zeyd də ona bəzi mətləbləri söylədi.

Sonra Sələmə dedi:

- Ey Zeyd, mən aman istəyirəm.

Zeyd dedi:

- Sübhanəllah! Sənin kimi bir şəxs məndən aman istəyir?

Sələmə, onun əshabının bu sözü eşitməsini istəyirdi.

Zeyd dedi:

- Amandasan.

Sələmə dedi:

- Səni Allaha and verirəm, neçə nəfər səninlə beyət etmişdir?

Zeyd dedi:

- Qırx min nəfər.

Sələmə dedi:

-Bəs neçə nəfər babanla beyət etmişdi?

Zeyd dedi:

- Səksən min nəfər

Sələmə dedi:

- Bəs neçə nəfər onunla axıra kimi qaldılar?

Zeyd dedi:

- Üç yüz nəfər.

---

[1] Davudun qardaşı Məhəmməd ibn Əli, Xorasana və İraqa adam göndərib onlardan beyət alırdı.

[2] «Tarixi Təbəri» cild 8, səh. 264.

Sələmə dedi:

- Səni Allaha and verirəm, de görüm sən yaxşısan ya baban?

Zeyd dedi:

- Babam.

Sələmə dedi:

- Səninlə qiyam edəcək bu zəmanənin camaatı yaxşıdırlar ya babanla o vaxt qiyam etmiş camaat?

Zeyd dedi:

- Babamla qiyam etmiş o zamanın camaatı.

Sələmə dedi:

- Sən istəyirsən ki, bunlar babana hiylə etmiş olduğu halda sənə vəfa etsinlər?

Zeyd dedi:

- Onlar mənə beyət etmişlər və beyət həm mənim həm də onların boynunda vacib bir hökmdür.

Sələmə dedi:

- Mənə bu şəhərdən çıxmağa icazə verirsənmi?

Zeyd dedi:

- Nə olub ki?

Sələmə dedi:

- Qorxuram sənin bu işində bir hadisə üz versin və mən özümü saxlaya bilməyim?

Zeyd dedi:

- Sənə icazə verdim.

Bundan sonra Sələmə Yəməyə tərəf hərəkət etdi.

## ƏBU HƏNİFƏ ZEYDİN DAYAĞI

Tarixdə Zeydə beyət edən çox sayda böyük adamların və alimlərin adları nəzərə çarpır ki, buna Əbu Hənifəni misal vurmaq olar.

Əbu Hənifə Zeyd ibn Əlinin şagirdlərindən idi. O iki ildən çox Küfədə Zeydin dərsində iştirak etmişdir. Qiyam zamanı Zeyd, Əbu Hənifəyə xəbər yolladı ki, onunla birləşsin və qiyamına kömək etsin.

Fəzl ibn Zübeyr, Zeydin məktubunu Əbu Hənifəyə çatdırdı.

Əbu Hənifə:

- De görüm, alim və fəqihlərdən hansı Zeydə beyət etmiş və ona qoşulmuşdur? - deyə soruşdu.

Fəzl dedi:

- Sələmə ibn Kümeyl, Yezid ibn Əbu Ziyad, Harun ibn Səd, Haşim ibn Büreyd, Əbu Haşim Rummani, Həccac ibn Dinar və başqa alim və fəqihlər Zeydə qoşulmuşdur.

Burada Əbu Hənifə, Zeydi əzəmətlə yad edib, onun qiyamı haqqında dedi:

- Mən Küfə camaatına etimad etmirəm, babasını tənha qoyduqları kimi onunla da belə edəcəklər. Belə olmasaydı, mən onun qiyamına kömək edərdim və ona öz canımla dayaq olardım. Bilirəm ki, onun dəvəti və hərəkatı haqqdır.

Sonra Fəzlə dedi:

- Mənim tərəfimdən Zeydə de ki, mən sizə maddi cəhətdən kömək edcəyəm və düşmənlərinlə bu cihadda öz imkanatımla kömək edəcəyəm. Məndə bir miqdar mal var ki, bu hərəkat yolunda sənə tapşıracağam və siz bununla istədiyiniz qədər silah və at ala bilər və öz ordunuzun qüdrətini artıra biləsiniz.

Bu zaman Əbu Hənifə, Fəzlə otuz min dirhəm verdi ki, onu Zeydə çatdırsın.

Bəli, Əbu Hənifə Zeydə qarşı yaxşı fikirdə idi. Belə ki, Zəməxşəri «Kəşşaf» adlı təsfir kitabında «Bəqərə» surəsinin 134-cü ayəsinin təsfirində yazır:

«Əbu Hənifə məxfi olaraq fətva verirdi ki, camaat, Zeyd ibn Əliyə yardım etməyi vacib bilməli «beytul-mal»-ı onun yanına aparmalıdırlar».

Hal-hazırdı sünnülərin yarısı Əbu Hənəfinin məzhəbindədirlər. Lakin Əbu Hənifə isə Zeyddən elm almış, ona ehtiram etmiş və onu ürəkdən sevmişdir. Qiyam vaxtı ona kömək etmiş və yolunda olanları tərifləmişdir. Hətta o, Zeydin hərəkatı barəsində belə demişdir:

«Onun hərəkatı Allahın Rəsulunun (s) Bədr günündəki hərəkatına bənzəyir».

## ZEYDİN KUFƏDƏ EVLƏNMƏSİ

Zeyd Kufəyə daxil olandan sonra Abdullah ibn Əbu Əl-Ənbəş Əzdinin qızını aldı. Bu nikah belə oldu:

Səltin qızı olan Ümmü Əmr ki, şiə və gözəl bir qadın idi, Zeydin Kufədə olduğunu eşidib salamlaşmaq üçün onun yanına getdi.

O, gözəl, nisbətən cüssəli, kök və yaşlı bir qadın idi. Lakin qocalıq əlamətləri onda görünmürdü. Zeydin yanına gəlib salam verəndə Zeyd onun cavan olduğunu zənn etdi. O, çox fəsahətli danışır və gözəl, cazibəli görünürdü. Zeyd onun nəsil və tayfasının kimlərdən oluğunu soruşdu və o da hansı tayfadan olduğunu söylədi.

Zeyd dedi:

- Allah sənə rəhmət etsin, mənimlə evlənməyə razısanmı?

- Allah sənə rəhmət etsin, əgər evlənmək istəsəydim, mütləq razı olardım.

- Sənə mane olan nədir?

- Yaşım çoxdur.

- Belə deyil, mən razıyam. Sənin qocalmağına hələ çox var.

- Allah sənə rəhmət etsin, mən öz taleyimi və ruzikarın başıma gətirdiyini daha yaxşı bilirəm. Əgər evlənmək istəsəydim, heç kəsi səndən üstün bilməzdim. Amma bir qızım vardır ki, atası öz əmim oğlumdur və məndən gözəldir. Əgər istəsən onu sənə verərəm.

- Əgər sənin kimi olsa, onda razıyam.

- Yaradanı və rəsamı, onun mənim kimi olmağını istəməmişdir. Onu daha ağ, xoş üzlü, bədənli, qoçaq və yaraşıqlı yaratmışdır.

Zeyd gülərək dedi:

- Sənə fəsahət və gözəl bəyan verilmişdir. Bəs onun danışığı necədir?

- Bu barədə bir şey bilmirəm. Çünki mən, Hicazda və qızım isə Kufədə böyümüşdür. Bilmirəm, ola bilsin qızım Kufə ləhcəsində danışsın.

Zeyd dedi:

- Eybi yoxdur mən bu cəhətdən narahat deyiləm.

Sonra vədələşib qızının yanına getdilər. Zeyd onu bəyənib evləndi və onunla ömür sürməyə başladı. Ondan bir qızı oldu və lakin çox yaşamayıb sonra dünyadan getdi. Zeyd onu çox sevirdi.[1]

---

[1] «Tarixi Təbəri» cild 8, səh. 267.

## ZEYDİN XARİCİ GÖRKƏMİ

Zeyd iri bədənli, güclü və qamətli bir şəxs idi. Əbul-Fərəc İsfahani «Məqatilut-talibin»-də onun iri əndamı barəsində yazmışdır. O, Nəsr ibn Qabusun vasitəsilə Hişamdan onun cüssəli bədənin dəfinindən sonra qəbrindən çıxarılmasını belə nəql edir: «Allaha and olsun, onu gətirəndə gördüm ki, kəndirlə dəvənin belinə bağlayıblar. Herat malı olan sarı köynək əynində var idi. Onu sarayın qapısında yerə qoyanda elə bil dağ parçası yerə düşdü».[1]

Zeyd bədəninə görə fövqəladə bir qüvvəyə malik idi.

O, hündür boylu, yaraşıqlı, rəngi ağ, xoş simalı, iri gözlü, çatmaqaş, sıx saqqalı, geniş sinəli, enlikürək, nazik bel, alını geniş, dik burunlu, saç-saqqalının tükləri qara və yanaqlarında azacıq ağarmış tüklər gözə çarpırdı.

## ZEYD VƏ QURAN

Zeydi Munisi-Quran kimi tanıyırdılar və özü bu barədə belə deyir: «On üç il Quran əlimdən düşmədi, onu oxuyur və fikirləşirdim. Bu müddətdə hər hansı bir vaxt ruzi istəməkdə rüsxət mənasını verən bir ayə belə tapmadım və bu ayədə («Qəsəs» surəsi, ayə 73) ibadət və fiqhdən başqa bir şey görmədim».[2]

---

[1] «Məqatilut-talibiyyin» səh. 57.
[2] «Xutəti-Məqrizi» cild 4, səh. 307.

## ƏHVƏLİN ZEYDLƏ DANIŞIQLARI

Əban Əhvəldən[1] nəql edir ki, bir dəfə Zeyd ibn Əli ibn Hüseyn (ə) gizli yaşadığıı vaxt mənim yanıma bir nəfəri göndərib onunla görüşməyimi istədi. Mən onun yanına getdim.

Zeyd mənə dedi:

- Ey Əbu Cəfər, nə deyirsən, əgər bizlərdən biri gecə sənin yanına gəlsə onunla qiyam edərsən?

Əhvəl deyir:

- Ona dedim ki, əgər atan və ya qardaşın (İmam Baqir) olsa onunla qiyam edərəm.

Zeyd dedi:

- Mən qiyam edib bu qövmlə cihad etmək fikrindəyəm və sən də gəl mənə qoşul.

Əhvəl deyir ki, ona dedim:

- Səninlə qiyam edə bilmərəm, qurbanın olum, israr etmə.

Zeyd:

- Canını mənə qıymırsan?

Əhvəl:

- Hər insanın bir canı var. Əgər Allahın yer üzündə höccəti (imam) varsa sənə qoşulmayan nicat tapacaq və səninlə qiyam edən isə həlak olacaqdır. Və əgər Allahın yer üzündə höccəti olmazsa sənə qoşulan və qoşulmayanın ikisinin də hökmü birdir.

Zeyd dedi:

- Ey Əbu Cəfər, atamla bir süfrə arxasında əyləşərdim, ətin böyük tikəsini ağzıma qoyardı və məni çox sevdiyinə görə isti

---

[1] O, Məhəmməd ibn Əli ibn Nöman Əbu Cəfər Kufidir. Onun Möminut-taq, Sahibut-taq və Əhval ləqəbləri olmuşdur.

loğmaları mənim üçün soyudardı. Sən sözündən belə çıxır ki, mənim atəşə düşməyimə atam razıymış. Belə ki, sənə bunu xəbər vermiş və mənə deməmişdir?

Ona dedim:

- Qurbanın olum, belə deməmişdir və lakin əgər sən qiyam etsən atəşə düşəcəyindən qorxduğunu demişdir. Mənə dedi ki, ona qoşulmasan nicat tapacaqsan, əgər qoşulsan o vaxt atəşə düşməyimdən xəbər verdi.

Sonra dedim:

- Qurbanın olum, siz üstünsünüz yoxsa peyğəmbər?

Dedi:

- Peyğəmbərlər.

Ona dedim Yaqub öz oğlu Yusifə belə demişdir:

قَالَ يَا بُنَيَّ لَا تَقْصُصْ رُؤْيَاكَ عَلَىٰ إِخْوَتِكَ فَيَكِيدُوا لَكَ كَيْدًا ۖ إِنَّ الشَّيْطَانَ لِلْإِنْسَانِ عَدُوٌّ مُبِينٌ

***«(Atası Yəqub) dedi: «Can oğul! Yuxunu qardaşlarına danışma, yoxsa sənə bir hiylə qurarlar. Çünki Şeytan insanların açıq-aşkar düşmənidir».***[1]

Yusif də qardaşları hiylə etməsinlər deyə bunu onlardan gizli saxladı. Eynilə atan da sənin aqibətindən qorxurdu deyə səndən gizlədirmiş.

Zeyd Əhvələ dedi:

- Allaha and olsun! İndi ki belə oldu, yadında saxla: Sənin sahibin (İmam Sadiq) Mədinədə olanda öldürüləcəyimi və Künasədə dara çəkiləcəyimi mənə xəbər vermişdi. Şübhəsiz onda, mənim qətlim və dara çəkiləcəyim haqda yazılı məlumat vardır.

[1] «Yusif» surəsi, ayə 5.

Əhvəl deyir ki, həccə gedib İmam Sadiq (ə)-a Zeydin dediklərini və mənim ona verdiyim cavabları danışdım.

Sonra İmam mənə dedi:

- Görək önündən və arxasından, sağından və solundan, başından və ayaqlarından elə tutub saxlayaydın ki, getməyi üçün bir yol qalmayaydı.[1]

## ZEYDİN HƏDƏFİ

Onun hədəfi əmr be məruf və nəhy əz münkər olmuşdur. Zeyd qiyam etmək istədiyi və başının üstündə bayraq dalğalanmağa başladığı vaxt dedi:

Həmd olsun dinimi kamil edən Allaha! Allaha and olsun, Rəsulullahdan (s) utanırdım ki, sabah Kövsər hovuzunun kənarında onunla qarşılaşdıqda ummətini içində əmr be məruf və münkər etməmiş olum.[2]

Əmr be məruf və nəhy əz münkər fərizəsi (vacib), onun ümdə ilk hədəflərini sırasında idi. Həyatı boyu Zeyd, bu fərizəsinin icrasında heç vaxt özünə qorxunu yaxın buraxmamışdır. Hətta ən çətin və qorxulu şəraitdə belə zalım və rəhimsiz əməvi xəlifəsini əmr be məruf etməkdən çəkinməmişdir.

Bir dəfə Hişamın hüzurunda olarkən söz arası ona dedi:

- Ey Hişam, Allahdan qorx.

Hişam dedi:

- Sənin kimi şəxsmi məni Allahdan pəhriz etməyə çağırır?

Zeyd dedi:

---

[1] «Üsuli-Kafi» cild 1, səh. 147.
[2] «Ümdətut-talib» səh. 246.

- Bəli, elə bir şəxs yoxdur ki, bu hökmü yerinə yetirməkdən və ya ona tabe olmaqdan istisna edilmiş olsun.

Əlbəttə, Hişam kimi zülmkar bir sultanı əmr be məruf etmək hər bir xətərlə yanaşıdır. Lakin Zeyd heç vaxt qorxu nə olduğunu bilməmiş və əmr  be məruf və nəhy əz münkər onun fəaliyyət və hərəkatının sərlövhədsi olmuşdur.

Kufədə qiyama hazırlığın ilk mərhələləri zamanı Əbu Həmzə Somali Zeydlə görüşmüş və bu görüş haqda belə deyir:

- Mən Zeydin Kufədə Müaviyə ibn İshaqın evində gördüm. Ona salam verib, dedim ki, qurbanın olum, səni bu şəhərə çəkib gətirən nədir?

O mənə: Əmr be məruf və nəhy əz münkər[1] - deyə cavab verdi.

## CABİRİN ZEYDLƏ SÖHBƏTİ

Cabirin Cöfi deyir:

- İmam Baqir (ə) mənə dedi ki, şübhəsiz qardaşım Zeyd ibn Əli qiyam edəcək və öldürüləcəkdir. Lakin o haqq yoldadır. Ona kömək etməkdən boyun qaçıranlara var olsun! Ona qarşı döyüşənlərə vay olsun! Və onunla döyüşüb onu öldürənə vay olsun!

Cabir deyir ki, mən Zeyd ibn Əli ilə qiyamdan əvvəl görüşüb ona dedim:

- Mən qardaşından eşitdim ki, sənin haqqında belə deyirdi.

Zeyd mənə dedi:

- Ey Cabir, bir halda ki, müqqədəs Quranın hökmləri tapdalanır və cəmiyyətdə batil, təcavüz və zülm hökm sürürsə sakit otura bilmərəm. Mən özüm bunun şahidiyəm ki, Hişamın

[1] «Birharul-ənvar».

yanında biri Allahın Rəsuluna nalayiq sözlər deyir və lakin əhəmiyyət verilmir. Mən ona dedim:

- Vay olsun sənə, ey kafir! Əgər əlimə düşsən mütləq canını alacağam.

Bu zaman Hişam mənə dedi:

- Ey Zeyd, bizim adamımızla işin olmasın.

Allaha and olsun, əgər özüm və oğlum Yəhyadan başqa heç kəs belə olmasa, Hişama qarşı qiyam edib həlak olana qədər onunla vuruşacağam.[1]

## ZEYDİN İMAM BAQİR (Ə) İLƏ GÖRÜŞÜ

Bir dəfə Zeyd ibn Əli İmam Baqirin yanına gəldi. O, özü ilə çoxlu sayda məktub gətirmişdi. Bu məktublarda Kufəyə dəvət edir, onun ətrafında cəm olacağından xəbər verir və Bəni-Üməyyəyə qarşı qiyam etməsini istəyirdilər. İmam Baqir (ə) buyurdu:

- Bu məktubları birinci onlar sənə yazmışlar, yoxsa sənin onlara yazıb dəvət etdiyin və qiyam etmək istədiyin məktubların cavabıdır?

Zeyd dedi:

- Birinci onlar mənə yazmışlar. Onlar bizim haqqımızı, Allahın Rəsuluna (s) mənsub olduğumuzu, Allahın kitabında bizə itaət və məhəbbət bəsləməyin vacib olduğunu və bizim bəla və çətinliklər içərisində olduğumuzu bilib dərk etdikdən sonra bunu etmişlər.

İmam Baqir (ə) buyurdu:

- İtaət etmək, bəli, Allah tərəfindən vacib edilmişdir. Bu, həm bizdən əvvəlki ümmətlər və həm də hazırki ümmət üçün

[1] «Əyanuş-şiə» cild 33, səh. 89.

qədimdən təyin olunmuş bir xəttdir. Lakin bizlərdən birinə itaət edilməli və və məhəbbət və dostluq isə bizim (Peyğəmbər nəsli) hamımıza olunmalıdır.

Belə isə, bu hökmə yəqinləri olmayanların əməli sənə rahatlıq gətirməsin və onlar heç vaxt səni Allahdan ehtiyatsız etməyəcəklər. Tələsmə, şübhəsiz Allah da tələsən bəndələrin köməyinə tələsməz. Allahdan qabağa düşmə ki, bu bəla səni biçarə və məhv edə bilər.

Ravi yazır:

Bu zaman Zeyd əsəbləşib dedi:

- Bizim nəsildən evində oturub özü ilə camaat arasında pərdə çəkən, cihaddan üz çevirən şəxs imam deyildir. İmam o kəsdir ki, özünü xətərə atsın, Allah yolunda bütün qüvvəsilə cihad etsin, rəiyyətini və özünü müdafiə etsin.

Sonra İmam Baqir (ə) buyurdu:

- Hər bir şey üçün zaman və hər zaman üçün də qabağa və təxirə düşməyən müddət təyin olunmuşdur. Əgər sənin Allah tərəfindən dəlil və sübutun varsa və bu işində yəqinə yetişib möhkəm bir dəlilə arxalanırsansa xatirində olanlardan muğayat ol. Və belə deyilsə, şəkk və şübhədə olduğun bir işi etməyə çalışma və bəhrəsi və müddəti tamam olmamış bir mülkün dağılmasını qəsd etmə.[1]

## ZEYDİN ÖZ DOSTLARI İLƏ RƏFTARI

Bəkkar ibn Əbu Bəkr Həzrəmi deyir:

Əbu Bəkr və Əqləmə, Zeyd ibn Əlinin yanına görüşə gəlmişdilər. Əlqəmə yaşda atamdan böyük idi. Biri Zeydin sağında, digəri isə solunda əyləşdilər. Onlara xəbər çatmışdı ki,

[1] «Üsuli-kafi» cild 1, səh. 356.

Zeyd deyir: «Bizdən, özü ilə camaat ilə camaat arasında pərdə çəkən şəxs imam deyildir. Lakin İmam, qılıncını qınından çıxaran şəxsdir».

Əbu Bəkr cürətli olduğuna görə çəkinməyib dedi:

- Ey Zeyd, de görüm mənə Əli ibn Əbu Talib (ə) əlinə qılınc almayıb evində oturan zaman imam idi ya qiyam etməyib, qılınc çəkməyənə qədər imam deyildi?

Zeyd onun sözlərinə sakitcə qulaq asır və sualına cavab vermirdi. Əbu Bəkr üç dəfə bu sözü təkrar etdi. Lakin o, azacıq da olsa bir cavab vermədi. Əbu Bəkr ona dedi:

- Əgər Əli ibn Əbu Talib qılınc götürməmişdən qabaq imam idisə, deməli ondan sonra da pərdə arxasına çəkilən bir şəxs, imam ola bilər. Əgər Əli, pərdə arxasında olan zaman imam deyildisə, bəs səni buraya gətirib çıxaran nədir?[1]

Bu zaman Zeyd Əlqəmədən xahiş etdi ki, onu söhbətindən ayırsın və sakitləşdirsin.[2]

## ZEYDİN FİKİRLƏRİ

Camaatın Zeydlə beyətindən sonra Yusif ibn Ömər bu işdən xəbərdar olub Zeydin tərəfdarlarına qarşı təzyiqi çoxaltdı və məxfi olaraq Zeydin fəaliyyətlərini araşdırmağa başladı. Zeydin yaxın adamları bundan xəbər tutanda, onların başçılarından bir dəstəsi Zeydin yanına gedib dedilər:

- Allah sənə rəhmət etsin, Əbu Bəkr və Ömərin haqqında nə deyə bilərsən?

Zeyd dedi:

---

[1] Yəni, əgər sən də indiyə kimi qiyam etməmisənsə iman deyilsən.

[2] «İxtiyari-mərifətür-rical» səh. 416.

- Allah onlara rəhmət etsin və oları bağışlasın, öz nəslimizin arasında heç kəsin onları düşmən saydıqlarını və onların barəsində xeyirdən başqa bir söz dediklərini eşitməmişəm.

Onlar dedilər:

- Belə isə nəyə görə bu nəsli (Əhli-beyt) qanını almaq məqsədilə qiyam edirsən? Halbuki, onlar sizin hökümətinizə toxunmayıblar və onu sizin əlinizdən almayıblar.

Zeyd dedi:

- Dediyiniz dəqiq cavabı budur ki, Rəsulullahın (s) qurduğu hökümətə hamıdan çox biz layiqik. Lakin onlar isə bizə qarşı zor işlədib bizi ondan kənar etdilər. Bu isə, bizim onlara kafir kimi baxmağımıza dəlalət etməz. Onlar bir müddət hökm sürmüş, camaatla ədalətlə rəftar etmiş və kitab və sünnəyə əməl etmişlər.

Onlar dedilər:

- Ey Zeyd, əgər onlar sənə zülm etməyiblərsə, deməm bunlar da sənə zülm etməmişlər. Bəs nəyə görə bizi sənə qarşı zülm etməyən bir qövmlə dəvət edirsən?

Zeyd dedi:

- Bunlar onlar kimi deyillər, bunlar həm sizə həm və həm də özlərinə və mənə həm də özlərinə zülm etmişlər. Biz sizi Allahın kitabı və Peyğəmbərin (s) sünnəsini diriltməyə və özbaşınalığın qarşısını almağa dəvət edirik. Əgər bunu bizdən qəbul etsəniz səadət tapacaq və əgər geriyə çəkilsəniz mənim sizinlə işim olmayacaqdır. Belə olduqda camaat ondan ayrıldı və ona etdikləri beyəti sındıraraq öz aralarında belə bir söz yaydılar:

Daha imam yoxdur, o ölmüşdür (o vaxt İmam Məhəmməd Baqir (ə) vəfat etmiş, oğlu Cəfər ibn Məhəmməd isə sağ idi). Sonra onlar dedilər ki, bu gündən sonra Cəfər öz atasının

yerinə keçməli və bizim imamımız olacaqdır. Çünki atasından sonr bu işə yalnız o layiqdir. Daha Zeyd ibn Əlinin yolu ilə getməyəcəyik. Çünki o, İmam deyildir.

Zeyd Kufədə ona beyət etmiş tərəfarları ilə qiyama başlayanda onlardan birini Əbu Bəkir və Ömərə tənə vurduğunu eşitdi. Zeyd onun bu hərəkətini pisləyib bu işlərə icazə vermədi. Bundan sonra ona beyət edənlər ətrafından dağılışdılar.

Bu vaxt Zeyd onlara dedi: Deməli siz məndən ayrıldınız![1]

Zeydiyyə (məzhəb) alimləri Zeydin bu işini belə açıqlayırlar:

«Əgər biz Zeydin tərafdarlarını kimlərdən təşkil olduğuna diqqət yetirsək görərik ki, onun ətrafında islamın bütün firqələrindən, əhli sünnət, xarici, mürciə, mörtəzilə və şiələr cəm olmuşdular. Burada belə bir qənatə gəlirik ki, bu sözləri orada olan bir şiədən eşidib müxtəlif qruplarda olan bu vəhdəti qorumaq və o böyük və müqədəs hədəfə çatmadan ötrü belə sözlərə icazə verməmişdir».

---

[1] «Məqamatul-İslamiyyin» cild 1, səh.137.

# XVI HİSSƏ

# ZEYDİN QİYAMI

Zeydin Küfədə sükunət salması 120-ci hicri ilinə təsadüf edir. Onun qiyamı və şəhadəti 122-ci ildə olduğuna görə, 121-ci ili onun qiyamla bağlı fəaliyyət ili kimi hesab etmək olar.

Bəli, Küfə camaatının arasında gedən gərginlik artdıqca Bəni-Üməyyənin cəsusları bu cərəyanları Şama xəbər verirdilər. Küfənin vəziyyətindən hamıdan çox qorxuya düşən Hişam, Zeyd Şamdan Küfəyə gedəndən sonra rahat ola bilmirdi. O, Küfə vilayət hakimi üçün hiyrəyə göndərdiyi çox saylı məktublarında dəfələrlə onu vəziyyətin çətinliyindən xəbərdar etmişdi.

Zeyd öz əhsabına çərşənbə  axşamı, 122-ci il səfər ayının 1-də qiyam edəcəyinə vəd vermişdi.

Bu vaxt Küfə hakimi Yusif ibn Ömərə çatdı. O, Həkəm ibn Səltə dedi ki, Zeydin camaatla vədəsi çərşənbə axşamı, gecə vaxtıdır. Belə ki, sən həmin gün gündüz çağı hər nə yolla olur-olsun bütün Küfə camaatını namaz üçün məscidə yığmalısan. Onların hamısını məsciddə saxlayıb qapısını bağlamalı, on min atlı onun ətrafında qoruq çəkməli və hər kim məsciddən çıxmaq istəsə boyunu vurulmalıdırlar. Bu vəziyyət üç gün davam etməlidir. Belə ki, Zeyd qiyam edəndə vədəyə əsasən ona kömək edən olmayacaq və o zaman biz onu tək tutarıq və öldürərik.

Həkəm ibn Səlt həmin işi gördü. O, qəbilə başçılarının yanına silahlı əsgər və adamlar göndərib onları məscidə yığdı. Sonra carçı onlara uca səslə dedi:

Hər kim, istər ərəb, istər iranlı fərqi yoxdur əgər evində tutularsa öldürüləcəkdir. Hamı böyük məscidə toplaşmalıdır!

Beləliklə camaat çərşənbə axşamı gündüz məscidə gəldilər. Bundan sonra məscidin qapılarını bağladılar və onun ətrafına silahlı əsgərləri keşikçi qoydular ki, məsciddən çıxmaq istəyənləri qılıncdan keçirsinlər. Bu tərəfdən isə axşam oldu və qiyam vədəsinin vaxtı çatdı. Zeyd ətrafına nəzər salıb gördü ki, iyirmi piyada oxatandan başqa heç kəs yığılmamışdır. Onun yaxın adamlarından təkcə Nəsr ibn Xüzeymə gəlmişdi. Onlar Zeydə dedilər:

- Ya Əmirəl-möminin, qiyam et, əgər qiyam etsən camaat sənin səsini eşidib çölə çıxar və qiyama qoşularaq sənə kömək edərlər.

Bu zaman Zeyd atına mindi və Nəsr ibn Xüzeymə və onun başqa yavərləri əllərində məşəl yandırıb şəhərə daxil oldular. Tərəfdarları Zeydin önündə hərəkət edərək fəryad edib deyirdilər: «Qələbə Zeydlədir!»

Onlar bütün məhəllələrə baş vurur, bütün küçələrdən ötür və bu minvalla gecəni səhər etdilər. Sübh vaxtı ətrafında cəmi iki yüz nəfər adam toplaşmışdı. Bu zaman Zeyd, Nəsrə dedi:

- Mənə beyət edən bu camaat hardadır?

Nəsr dedi:

- Bütün camaatı böyük məsciddə həbs ediblər.

Zeyd dedi:

- Camaat, məsciddə həbs olduqlarını özlərinə necə üzr saya bilərlər axı? Əgər mən qiyam etmişəmsə onlar məsciddən çıxmalıdırlar, hətta hamısı öldürülsə belə. Çünki onlar mənə beyət etmişlər və şərti də bu idi ki, can bahasına tamamlanarsa belə bu beyət pozula bilməz.

## ZEYD TƏK-TƏNHALIQDA

Zeyd bu qiyamda çox böyük çətinliklə üzləşdi. Bir müddətdən sonra onunla hökumət qoşunları arasında toqquşma oldu. Bu döyüşdə Zeydin tərfdarlarından bir hissəsin öldürüldü. Zeyd ibn Əli camaatın kömək etmədiyini görüb fürsət tapıb Nəsr ibn Xüzeymənin yanına gəldi və dedi:

- Qorxmursan ki, bizimlə də Hüseyn (ə) ilə etdikləri kimi davransınlar?

Nəsr dedi:

- Bunu bil ki, mən, Allaha and olsun, sənin yanında ölənə qədər döyüşəcəm.

Sonra Zeyd dedi:

- Camaat böyük məsciddə mühasirədədirlər. Bizi onları yanına apar.

Zeyd döyüşçülərini məscidin yanına apardı.

Zeydin tərəfdarları bayraqlarını məscidin qapıları üstündən içəri salıb deyirdilər:

- Ey məscid camaatı, çölə çıxın!

Nəsr ibn Xüzeymə uca səslə dedi: Ey Küfəlilər! Zillətdən izzətə çıxsın! Din və dünya tərəfə gəlin! Əgər məsciddə qalsanız, nə dininiz nə də dünyanız olacaqdır.

Bu zaman Zeyd məsciddə mühasirə olunmuş camaata belə xitab etdi:

- Allaha and olsun, mən qiyama və bu böyük vəzifəyə Quranı düşünüb, onun vacib, müstəhəbb və əxlaqi hökmlərində özümü hər tərəfli möhkəmlətdikdən sonra əl atmışam. Quranın «təvil»ini «tənzil» kimi bilməmişəm, «nasix-mənsux», «möhkəm-mütəşabih», «xass və amm» və dində ona ehtiyac olub ondan boyun qaçırmağın qeyri-mümkün olduğu şeyləri

başa düşmüşəm. Mənim qiyamın Allahdan olan sübut və dəlil üzrədir və bununla silahlanmışam.

Həmin vaxt hökümət əsgərləri məscidin yuxarısından Zeyd və onun döyüşçülərinə daş atmağa başladılar.

Döyüş zamanı Şam əhlindən olan Nail ibn Fərvə adlı şəxs İraq hakimi Yusif ibn Ömərə dedi:

- Allaha and olsun, haçan gözüm Nəsr ibn Xüzeyməyə sataşsa ya mən onu öldürəcəyəm ya da o məni.

Yusif dedi:

- Al bu qılıncı.

Ona elə bir qılınc verdi ki, nəyə dəysəydi iki bölərdi.

Bir müddətdən sonra toqquşmalarının birində Nail ibn Fərvənin gözü Nəsr ibn Xüzeyməyə sataşdı. Ona həmlə edib elə bir qılınc vurdu ki, ayağını budundan kəsib atdı. Nəsr də ona bir zərbə endirib qətlə yetirdi. Qısa bir müddətdən sonra Nəsr də vəfat etdi.

## ZEYDİN OXLANMASI

Küfənin bütün küçələrində döyüş davam edirdi. Zeydin qiyamı çərşənbə axşamı başlamışdı. Döyüş çərşənbə və cümə axşamı davam etdi. Elə ki, axşam oldu mühüm toquşma baş verdi. Üstünlük Zeydin tərəfində idi. Düşmən Zeydin qarşısında davam gətirə bilmirdi. Onlar Yusif ibn Ömərdən kömək istədilər və dedilər ki, oxatanları yanımıza göndər.

Yusif, Süleyman ibn Keysan Kəlbini bir dəstə oxatanla onların yanına göndərdi. Onlar Zeyd və onun tərəfdarlarına ox atmağa başladılar. Qəflətən düşmən tərəfdən atılan ox, Zeydin alının sol tərəfinə dəydi və beyninə qədər işlədi. Zeyd və qoşunu geri çəkildilər. Düşmən tərəf elə bildiki, onlar gecə düşündüyünə görə döyüş meydanını tərk etdilər.

Zeydin yavərləridən biri deyir ki, biz Zeydi Hərran ibn Kərimənin evinə gətirdik. Söz düşdü ki, həmin oxu Rəşid atmışdır və ox Zeydin iki gözünün arasına dəymişdir.

Ravi yazır:

«Zeydin başının kənarında Məhəmməd ibn Müslüm Xəyyat əyləşdi. Yəhya ibn Zeyd içəri girdi və özünü atasının üzərinə atdı:

- Atacan sənə bəşarət və müjdə olsun ki, Rəsulullah (s), Əli, Fatimə, Həsənvə Hüseynin yanına gedəcəksən.

Zeyd dedi:

- Bəli, oğlum».[1]

## ZEYDİN ŞƏHADƏTİ

Zeydin yavərlərindən biri neçəsi həkim gətirmək üçün getdilər. Həkim gəldikdən sonra Zeydə dedi:

- Əgər bu oxu başından çıxarsam öləcəksən.

Zeyd:

- Ölüm mənim üçün indiki halımdan daha asandır - deyə cavab verdi.

Həkim kəlbətini götürüb oxu çıxartdı və Zeyd fəryad çəkib can verdi.[2]

Zeydin vəfatından sonra əshabı tədbir töküb dedilər: Onu elə bir yerdə basdırmaq lazımdır ki, Əməvilər onu tapıb qəbirdən çıxartmasınlar.

Hər kəs bir söz deyirdi. Onlardan biri: «Zirehini əyninə geyindirək və suya ataq». Başqası: «Başını kəsib ölənlərin arasına ataq».

---

[1] «Ümdətüt-Talib» səh. 247.
[2] «Tarixi-Təbəri» cild 8, səh. 276.

Zeydin oğlu Yəhya dedi:

- Yox, Allaha and olsun, qoymaram itlər atamın ətini yesinlər.

Sələmə ibn Sabit deyir: Mən təklif etdim ki, onu gil çıxarılan quyuya aparaq və orada dəfn edək.

Bu təklifi qəbul etdilər. Biz gedib o zaman içində çoxlu su olan iki quyunun arasını qazdıq və hazır olandan sonra onu dəfn edib üstünü su ilə doldurduq. Bizimlə Sindli adında bir qul var idi. Sindli qulamın dəfndə iştirak etməsinin səbəbi, Yəhyanın Zeydi onun çiynində qoyub aparması idi. O beş nəfər məxsus adamları ilə Zeydi həmin yerdə dəfn etdi.

## ZEYDİN CƏNAZƏSİNİN TAPILMASI

Bir gün sonra Yusif ibn Ömər döyüşçülərinə bütün evləri axtarmağı əmr etdi. Qadınları evin həyətinə çıxarıb bütün otlaqları axtarır və yaralıları həbs edirdilər. Cümə günü Sindli qulam onlara Zeydin dəfn olunduğu yeri göstərdi. Məmurlar Zeydin bədənini qəbirdən çıxartdılar və ulağa yükləyib Kufəyə gətirdilər. Başını qamış çubuğunun başına keçirib Hüşama göndərdilər. Bədənini isə Bəni-Əsəd künasəsində [1] dara çəkdilər və Vəlid hökümət başına gələnə qədər darda qaldı.

Deyirlər ki, Vəlid Zeydin cəsədini dörd ildən sonra dar ağacından aşağı saldırıb yandırtdı.

Hişam Zeydin qiyama görə Məkkə və Mədinə camaatının bir il beytül-maldan olan hüquqlarını kəsdi. Qiyam vaxtı Yusif ibn Ömər elan etmişdi ki, hər kəs bir baş gətirsə beş yüz dirhəm hədiyyə alacaqdır. Məhəmməd ibn İbad Nəsr ibn Xüzeymənin başını gətirdiyinə görə Yusif ibn Ömər ona min

[1] Künasə - Kufənin ən mühüm ticarət mərkəzindən biri idi.

dirhəm verilməsini əmr etdi. Əhval, Müaviyə ibn İshaqın başını gətidiyinə görə isə ona yeddi yüz dirhəm verilmişdir.

## YƏHYA İBN ZEYDİN QİYAMI

Zeydin şəhadətindən sonra Bəni-Əsəddən olan bir şəxs Yəhyanın yanına gəlib dedi:

- Atanız öldürüldü. Xorasan camaatı sizin şiələrinizdir. İndi sizin ora getməyiniz məsləhətdir.

Yəhya:

- Ora necə gedə bilərəm? - deyə soruşdu.

O şəxs dedi:

- İndi səni axtarırlar və sən hələlik gizlənməlisən.

Elə ki, axtarış qurtardı Yəhya öz yaxın dostları ilə Xorasana tərəf hərəkət etdi. Bir müddətdən sonra Reyə daxil oldu və bir az da orada qaldı.

Tarixə əsasən Zeydin qiyamından sonra Xorasan şiələri ayağa qalxıb fəaliyyət göstərməyə başladılar və Xorasanın bütün vəziyyətdə çox saylı insan kütlələri, onun ətrafına toplaşır, beyət edir və onunla qiyam edib düşmənlərinə qarşı vuruşacaqlarına və ona itaət edəcəklərinə söz verdilər. Bu xəbər İmam Sadiq (ə)-a çatdı. İmam (ə) Yəhyaya məktub yazıb onu bu qiyamdan çəkinirdi və belə buyurdu:

- Əgər qiyam etsən sən də atan kimi öldürüləcəksən.

«Sahifeyi-Səccadiyə»nin kamil nüsxənin mənbələrinin birində belə nəql olunur ki, Mütəvəkkil ibn Harun deyirmiş:

Yəhya ibn Zeyd İraqdan Xorasana hərəkət edəndə onunla görüşüb salam verdim. Yəhya məndən:

- Haradan gəlirsən? - deyə soruşdu.

Dedim:

- Həccdən gəlirəm.

Sonra Yəhya məndən öz ailəsi və İmam Sadiq (ə) haqda soruşdu. Mən İmam Sadiq (ə)-ın onun atasına görə hüzn və matəm tutduğunu dedim.

Yəhya dedi:

- Əmim Məhəmməd ibn Əli (ə) atama demişdi ki, qiyam etməsin, əgər qiyam etsə aqibəti necə olacaqdır.

O mənə dedi:

- Əmim oğlu Cəfər ibn Məhəmmədlə görüşdün?

Dedim:

- Bəli.

Dedi:

- Mənim barədə bir söz dedi?

Dedim:

- Bəli

Soruşdu:

- Nə dedi?

Dedim:

- Qurbanın olum, sənin barəndə eşitdiklərimi demək istəmirəm.

Dedi:

- Məni ölümümlə qorxudursan? Nə eşitmisənsə de.

Dedim:

- İmam Sadiq (ə) buyurdu ki, sən də atan kimi öldürüləcək və dardan asılacaqsan.

Bu zaman Yəhyanın rəngi dəyişdi və Quranın bu ayəsini zümzünə etdi:

يَمْحُو اللَّهُ مَا يَشَاءُ وَيُثْبِتُ ۖ وَعِنْدَهُ أُمُّ الْكِتَابِ

***«Allah (həmin kitabdan) istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar. Kitabın əsli (lövhi-məhfuz) Onun yanındadır».***[1]

Nəhayət, Yəhya Vəlidin hökuməti zamanı qiyam etdi və 125-ci ilin axırlarında Cuzcananda Xorasan hakimi Nəsr Səyyarın məmurları ilə döyüşdə alnından dəyən oxla şəhid oldu və Sürət ibn Məhəmməd Kindi onun başını bədənindən ayırdı. Onun cəsədi Cuzcananda dara çəkildi və başı isə Vəlid üçün göndərdi. Yəhya şəhid olan vaxt yaşı on səkkizdən çox deyildi.

Yəhaynın cəsədi Əbu Müslim Xorasani, Xorasanı alana qədər dar ağacında qaldı. O, Xorasanı alandan sonra dedi ki, Yəhyanın cəsədi dardan düşürtsünlər və ona namaz qılsınlar. Yəhyanın cəsədi elə orada da dəfn edildi və Xorasan camaatı yeddi gün onun üçün növhə deyib, matəm tutdular. Onlar həmin il Xorasanda dünyaya gələn hər bir körpəyə Zeyd ya Yəhya adını qoydular. [2]

«Risalətüs-saniyə» kitabında Tehran barəsində belə yazılmışdır:

«Orada «Surin» adlı bir çay vardır. Gördüm ki, oranın camaatı onu bədbəxtlik və nəhs sayıb ona yaxın getmirlər. Səbəbini soruşdum. O şəhərin qocalarından biri:

- Yəhya ibn Zeydi öldürdükdən sonra həmin qılıncı bu çayda yumuşlar[3] - deyə cavab verdi».

Surin çayının nişanələrindən məlum olur ki, bu çay indiki zəmanəmizdə mərkəzi Tehranın cənub şərqinin altı kilometrliyində yerləşən «Əli» çeşməsidir.

Zeydin şəhadətindən sonra Zeydilər qədim Rey və indiki Tehranın ərazisinə gəlmiş və bu zonalarda sakin olmuşlar. Bu

---

[1] «Rəd» surəsi, ayə 39.
[2] «Rey-bastan» cild , səh. 136.
[3] «Ərraisalətüs-saiyə» səh. 32.

fiqrənin Rey şəhərində tanınmış mədrəsələri varmış. Bu barədə «Nəqz» kitabında belə gəlmişdir: «Zeydilərin Rey şəhərində tanınmış mədrəsələri və bu məzhəbin çoxlu fəqihləri vardır... Reydə Seyidlərdən bu məzhəbə qulluq edən böyük şəxsiyyətlər və mənsəb sahibləri çoxdular».[1]

[1] «Qəsran» cild 2, səh. 753.

# XVII HİSSƏ

# QİYAM HAQDA GƏLƏN HƏDİSLƏR

«Rövzətül-kafi» və «Vəsal»də İmam Səccad (ə)-dan Əhli-beyt (Peyğəmbərin nəsli) qiyamdan çəkindirmək üçün belə bir hədis nəqil olunmuşdur: İmam Səccad (ə) buyurdu: Allaha and olsun, bizim nəsildən Həzrət Qaim (ə)-dan əvvəl üsyan edən şəxsin qiyamı təzə qanad açmış quş balasına bənzər ki, yuvasınsan atıldıqdan sonra uşaqlar onu tutub əllərində oynadarlar (yəni onun qiyamı müsbət bir nəticə vernəyəcək)».[1]

Zeyd ibn Əli qiyam etmək qərarına gələndə İmam Baqir (ə) ona dedi:

- Edəcəyini bu işə görə Allahdan qorx ki, sabah Künasədə dara çəkiləcəksən...[2] (Bu sözdən sonra İmam (ə), eyniylə yuxarıda nəql etdiyimiz hədisi ona söyləmişdir).

Hüseyn ibn Raşid deyir:

- İmam Sadiq (ə)-ın yanında idim. Mən Zeyd ibn Əlini yad edib onun eyb və nöqsanlarından söz açdım.

Həzrət Sadiq (ə) dedi:

- Belə demə. Allah əmim Zeydə rəhmət eləsin, bir dəfə atamın yanına gəlib belə dedi: «Mən bu tuğyankar hökümətə qarşı qiyam etmək istəyirəm».

Atam İmam Məhəmməd Baqir (ə) buyurdu: Bu işdən əl götür. Mən qorxuram ki, Sabah qətlə yetirib Küfənin mərkəzində dara çəkiləsən. Ey Zeyd, eşitməmisən ki,

[1] «Rövzətul-kafi» cild 2, səh. 122; «Bəsailüş-şiə» cild 11, səh. 36.
[2] «Mənaqibi-şərh Aşub» cild 2, səh. 279.

Fatimənin övladlarından hər kim, Süfyanın hərəkatından əvvəl hər hansı sultana qarşı qiyam edərsə mütləq öldürüləcəkdir?[1]

Sonra İmam Sadiq (ə) mənə dedi:

- Ey Hüseyn, həqiqətən Həzrət Fatimə (ə) özünü bütün günahlarındn hifz etdiyi kimi Allah-Təala da cəhənmə atəşini onun övladlarına haram etmişdir.[2]

Yezid ibn Xələf deyir ki, İmam Sadiqin hüzurunda idim, birdən (Mədinədə olan zaman) Zeydin barəsində söhbət açıldı İmam Sadiq (ə) buyurdu: «Elə bil onun İraqa hərəkət etdiyini, iki gün yubandıqdan sonra üçüncü gün qətlə yetirildiyini və sonra isə başının şəhərlərdə gəzdirildiyini görürəm».[3]

Göstərilən dəlillərə əsasən İmam Baqir (ə) və İmam Sadiq (ə) çarəsiz qalıb Zeydin qiyamına qarşı elə bir metodu seçmişdilər ki, zülmkar Əməvi hakimləri onların bu işə olan əsil münasibətini dərk edib şübhələnməsinlər.

Deməli belə nəzərə gəlir ki, Bu cür hədislər qəziyyənin bu cəhətini nəzərə alıb söylənilmişdir.

İbn Həzrə deyir: İmam Baqir (ə) can verən zaman övladı İmam Sadiq (ə)-ı yanına çağırdı ki, təyin olunmuş imamət məqamını ona tapşırsın. Bu zaman Zeyd ibn Əli (ə) İmam Baqir (ə) dedi:

- Əgər Həsən və Hüseyn haqqında məsləhət görülən hökmü mənim barəmdə də əməl etsən, belə fikir edirəm ki, pis iş etməmiş olarsan.

İmam Baqir (ə) ona dedi:

---

[1] «Biharul-ənvar» cild 11, səh. 38.
[2] «Kəşfül-ğümmə» cild 2, səh. 356.
[3] «Əyanüş-şiə» cild 33, səh. 102.

- Ey Zeyd, nə əmanət nəsləhətlədir nə də təyin olunmuş məqam adət-ənənə ilə ölçür. Bunlar Allah tərəfindən yaradılışdan qabaq müqəddər olunmuş mənsəblərdir.[1]

Zeyd ibn Əli bir dəfə İmam Baqir (ə)-ın kənarından ötərkən İmam (ə) öz əshabına belə dedi:

- Mənim bu qardaşımı görürsüz Allaha and olsun, elə bir şeyi iddia edir ki, onun əhli deyildir və camaatı özünə tərəf dəvət edir.[2]

Məsudi «İsbatül-vəsiyyə»-də İmam Baqir (ə)-ın İmam Sadiq (ə) etdiyi vəsiyyətinin kənarında əlavə edərək bu mətləbi yazmışdır:

«Zeyd, məndən sonra tezliklə camaatı öz tərəfinə dəvət etməyə başlayacaqdır. Onunla işin olmasın ki, ömrü çox qısadır».[3]

İbn Səbbah deyir ki, İmam Sadiqin yanına getmişdim.

Mənə dedi ki, təzə nə xəbər var?

Dedim:

- Əmin Zeyddən xoş xəbər. O, qiyam etmişdir. Deyir ki, hədisdə gələn həmin kənizin övladı özüdür. O, bu ümmətin Qaimidir. Ən nəcib və pak kənizin övladı odur.

İmam buyurdu:

- Yalan deyir, onun dediyi kimi deyildir. Əgər o, bu ümmətin Qaimindən əvvəl qiyam edərsə, öldürüləcəkdir. Ən nəcib və pak kənizin övladı isə o deyildir.[4]

Süleyman ibn Xalid deyir ki, İmam Sadiq (ə) mənə belə dedi:

---

[1] «Üyuni-əxbarir-Riza» bab 6.
[2] «Əyanüş-şiə» cild 33, səh. 65.
[3] «İsbatül-vəsiyyə» səh. 121.
[4] «Əl-ğeybə» səh. 121.

- Allah əmim Zeydə rəhmət etsin, ömrünün bu axır günlərini Allahın kitabı ilə gedə bilmədi. Sonra dedi:

- Ey Süleyman ibn Xalid, o vaxt düşmənlərinə qarşı nə fikirdə idiniz?

Dedim:

- Onlar kafir idilər.

İmam (ə) buyurdu:

- Allah-Təala Quranda buyurub:

إِذَا أَثْخَنْتُمُوهُمْ فَشُدُّوا الْوَثَاقَ فَإِمَّا مَنًّا بَعْدُ وَإِمَّا فِدَاءً

***«Nəhayət, onları məğlub (əzib şil-küt) etdikdə, (qaçmasınlar deyə, əl-ayaqlarını) kəndirlə möhkəm bağlayın. Sonra da müharibə bitdikdə onları ya (boyunlarına minnət qoyub) məccani, ya da fidyə müqabilində azad edin!»***[1]

Bu ayədə Allah-Təalla minnəti (əvəzsiz buraxmaq) həlakət və qələbədən sonra zikr etmişdir. Halbuki, siz onları əsir edib həlakətə yetirməmiş minnət qoyub azad etdiniz. Sizin bu hökmə bu hökmə düzgün əməl etməməyinizin nəticəsində onlar yerindən baş qaldırıb sizinlə vuruşdular.[2]

## İMAM RZANIN (Ə) ZEYD HAQQINDA DEDİKLƏRİ

Zeyd ibni Musa, Məmunun (xəlifə) zamanında Bəsrədə qiyam edib Bəni-Abbasın Bəsrədəki evlərini yandırdı. Onu tutub Məmunun yanına apardılar. Məmun İmam Rza (ə)-ın xatirnə onu bağışladı və imama dedi:

---

[1] «Muhəmməd» surəsi, ayə 4.
[2] «Əxbari-mənifətir-riçal», səh.360.

- Ey Əbül-Həsən, qardaşının Zeydin qiyam etməsi sənə çox da təəccüblü gəlməsin. Ondan qabaq Zeyd ibn Əli də qiyam etmişdi və sonra öldürüldü. Əgər sənin məqam və mənzilətin mənim üçün əziz olmasa idi onu öldürərdim. Çünki, qardaşının etdiklər, az iş deyildir.

İmam Rza (ə) buyurdu:

- Qardaşımın Zeydi, Zeyd ibn Əli ilə müqayisə etmə. Çünki Zeyd ibn Əli, Ali-Məhəmmədin alimlərdən idi. O, Allaha görə qəzəblənib Allahın düşmənlərin ilə cihada qalxdı və haqq yola şəhid oldu.

Məmun dedi:

- Ey Əbdül-Həsən, dəlilsiz imamət iddiasını edənləri məzəmmət edən hədislər barəsində nə deyə bilərsiziniz?

Həzrətə İmam Rza (ə) buyurdu:

- Həqiqətdə Zeyd ibn Əli belə bir iddiada olmamışdır. O, bu fikirlərdən çox ehtiyat edirdi. Deyirdi: Mən sizi Ali-Məhəmmədin istək və rizasına dəvət edirəm. Amma belə hədislər elə bir kəsin haqqındadır ki, iddia edir ki, Allah onu imamətə mənsub etmişdir. Sonra belələri camaatı öz tərəfinə davət edir və onları elmsiz zəlalətə salar. Lakin Allaha and olsun, Zeyd o kəslərdəndir ki, Allahın bu kəlamı onları nəzərdə tutur:

وَجَاهِدُوا فِي اللَّهِ حَقَّ جِهَادِهِ

***«(Ey möminlər!) Allah yolunda layiqincə cihad edin».***[1]

Həqiqətən atam Musa ibn Cəfər (ə) mənə atası Cəfər ibn Məhəmməd (ə)-dan belə nəql edir: Allah rəhmət etsin əmim Zeydə, həqiqətən o, camaatı Ali-Muhəmmədin rizasına dəvət edirdi. Əgər qələbə çalsaydı, dəvət etdiyi əhdə vəfa edəcəkdi. O, qiyamı haqqında mənimlə məsləhətləşəndə dedim ki, əmi,

1 «Həcc» surəsi, ayə 78.

əgər Künasədə öldürülüb dara çəkilməyə razısansa öz işində ol. Elə ki, Zeyd getdi atam Cəfər ibn Məhəmməd buyurdu: Vay olsun onun dəvətini eşidib, ona qoşulmayan adama![1]

## İMAM SADİQİN (Ə) ZEYD BARƏSİNDƏ NƏZƏRİ

Əmir ibn Xalid, Abdullah ibn Səbayədən belə nəql edir:

«Biz yeddi nəfər Mədinəyə daxil olduqdan sonra İmam Sadiq (ə)-ın hüzuruna getdik. İmam Sadiq (ə) bizə buyurdu:

- Sizin əmim Zeyddən xəbəriniz varmı?

Dedik:

- Ya qiyam edib ya da tezliklə qiyam edəcəkdir.

Həzrət dedi:

- Əgər sizə xəbər çatsa məni də xəbərdar edin.

Bundan sonra bir neçə gün Mədinədə qaldıq. Bu ərəfələrdə Bəssam Seyrəfinin elçisi məktub gətirdi. O yazmışdı:

«Zeyd ibn Əli çərşənbə günü səfər ayının biri qiyama başladı. Döyüş çərşənbə və cümə axşamı da davam etdi və cümə günü isə qətlə yetirildi. Onunla birgə filan kəslər də həlak oldular».

Biz İmam Sadiq (ə)-ın yanına gedib məktubu ona təqdim etdik. Həzrət Sadiq (ə) məktubu oxuyub ağladı və sonra buyurdu:

- Biz Allahdanlıq və ona tərəf də qayıdacağıq! Əmimin münasibətinə görə əcri Allahdan istəyirəm. O, doğrudan da bizə yaxşı əmi olmuşdur. Həqiqətən əmim, elə bir kişi idi ki, bizim dünya və axirətimizə yararlı olmuşdur. Vallah, mənim

[1] «Üyuni-əxbarir-Riza» cild 1, bab 25.

əmim Allahın Rəsulu (s), Əli, Həsən və Hüseyn (ə) ilə şəhadət rütbəsinə çatan şəhidlər kimidir».[1]

İmam Sadiq (ə) Başqa bir hədisdə buyurur:

«Deməyin Zeyd qiyam (nəyəsə xatir) etdi. Zeyd alim və çox sadiq adam idi. Sizi özünə tərəf yox, Ali-Məhəmmməd (ə)-ın rızasına dəvət etmişdir. Əgər o qələbə çalsaydı dəvət etdiyi əhdə vəfa edəcəkdi. Həqiqətən o, qüdrətli bir iqtidarı devirmək üçün qiyam etdi».[2]

Bəli Zeydin şəhadət xəbəri İmam Sadiq (ə)-a çatanda çox narahat oldu və ona dərin hüzn üz verdi və öz malından Zeydlə birgə qiyamda zərər çəkənlərin ailələrinə min dinar verdi.[3]

## ZEYDİN ƏQİDƏSİ

Zeyd deyir ki, atam Əli ibn Hüseyn (ə)-ın yanında idim. Bu vaxt Cabir ibn Abdullah Ənsari daxil oldu. Onların söhbəti əsnasında qardaşım Məhəmməd otaqların birindən çıxıb irəli gəldi. Cabir gözlərini dikib, diqqətlə ona nəzər saldı. Sonra ona tərəf çevrilib ayağa qalxdı və dedi:

- Ay uşaq yaxın gəl!

Qardaşım yanına getdi.

Dedi:

- Qayıt dala!

O da qayıtdı. Cabir dedi: Qiyafəsi eynilə Rəsulullahın qiyafəsidir. Ay uşaq, adın nədir? - deyə soruşdu.

Qardaşım dedi:

- Məhəmməd.

Dedi:

---

[1] «Üyuni-əxbarir-Riza» cild 1, bab 25.
[2] «Rövzeyi-kafi» cild 2, səh. 116.
[3] «İrşad» (Şeyx Müfid)

- Kimin oğlusan?

Qardaşım:

- Əli ibn Hüseynin.

Dedi:

- Bəs Baqir sənsən! Sonra ona yaxınlaşdı və başından və ələrindən öpüb dedi:

- Ey Məhəmməd, Allahın Rəsulunun sənə salamı var.

Qardaşım:

- Ən üstün salamlar Allahın Rəsuluna və sənə olsun ey Cabir ki, onun salamını mənə çatdırmısan. Sonra Cabir öz yerində əyləşdi və atamla söhbətə başladı. O deyir ki, Allahın Rəsulu (s) bir gün mənə belə dedi: Ey Cabir, haçan övladımı görsən məndən ona salam söylə. Onun adı mənim adımla eynidir və mənə hamıdan çox oxşayır. Onun elmi mənim elmim, hökmü isə mənim hökmümdür. Onun (Baqirin) övladlarınından yeddisi Allahın əmanətdarları və məsum imamlardır. Onların yeddincisi Mehdidir ki, dünya zülm və sitəmlə dolduqdan sonra yer üzünü haqq-ədalətlə dolduracaqdır.

Sonra Rəsuli-Əkrəm (s) «Ənbiya» sürəsinin 73-cü ayəsini oxudu:

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا وَأَوْحَيْنَا إِلَيْهِمْ فِعْلَ الْخَيْرَاتِ وَإِقَامَ الصَّلَاةِ وَإِيتَاءَ الزَّكَاةِ ۖ وَكَانُوا لَنَا عَابِدِينَ

***«Biz onları əmrimizlə insanların doğru yola gətirən imamlar rəhbərlər etdik. Biz onlara xeyirli işlər görməyi, namaz qılmağı və oruc tutmağı vəhy etdik. Onlar yalnız bizə ibadət edirdilər».***[1]

1 «Kifayətul-əsər» səh. 327.

## MƏCLİSİNİN ZEYD HAQQINDAKI QEYDLƏRİ

Məhrum Məclisi yazır: Zeyd İmam Hüseyn (ə)-ın qanını almaq, əmr be məruf və nəhy əz münkər etmək üçün qiyam etmişdir. O, camaatı Ali-Məhəmmədin rizasına dəvət edirdi və əgər qələbə çalsaydı imaməti öz sahibinə - Əhli-beytin əfləzi və æləminə (İmam Sadiq) qaytaracaqdı. Bizim əshabımızın əksəriyyət bu əqidədədirlər və deyirlər ki, o məxfi sürətdə imamdan qiyam izni almamışdı. Bu mətləbi İmam Sadiq (ə)-ın ağlaması və o Həzrətin Zeydə olan tərəhhüm və duası təsdiq edir.

## ŞEYX MUFİD VƏ ZEYD

Şeyx Müfid Zeydin haqqında belə yazır:

«Zeyd ibn Əli İmam Baqir (ə)-dan sonra qardaşlarına nisbət seçilir, abid, pəhrizkar, fəqih, səxavətli və şücatəli bir adam idi. Qılınc çəkin əmr be məruf və nəhy əz münkəri həyata keçirmək və imam Hüseyn (ə)-ın intiqamını almaq istəyirdi. Şiələrin çoxunun onun imam olduğuna etiqadı vardı. Səbəbi də bu idi ki, o qılıncla qiyam edib, camaatı Ali-Məhəmmədin rizasına dəvət edirdi. Camaat belə güman edirdi ki, bu dəvətlə o, özünü nəzərdə tuturmuş. Halbuki, həqiqət belə deyildir. Çünki, yaxşı bilirdi ki, yalnız qardaşı İmam Baqir (ə) imamət layiqdir və dünyadan gedəndə də özündən sonra Cəfər Sadiqin İmam olacağını vəsiyyət etmişdir».[1]

[1] «İrşad» səh. 268.

## ŞƏHADƏTLƏRİN O DÖVRƏ OLAN SİYASİ TƏSİRİ

İmam Sadiq (ə) buyurmuşdu:

- Həqiqətən Ali-Əbu Süfyan, Hüseyn ibn Əlini qətlə yetirdilər və Allah da onların mülkünü naubud etdi. Hişam Zeydi öldürtdü və Allah da onun mülkünü məhv etdi. Vəlid Yəhya ibn Zeydi öldürtdü və Allah da onun mümkünü viran etdi.[1]

Küleyni «Rövzətil-kafi»-də İmam Sadiq (ə)-dan belə rəvayət edir:

Həqiqətən Allah-Təala Zeydin cəsədinin yandırılmasından yeddi gün sonra Bəni-Üməyyənin məhv olmasına izn verdi.[2]

Məhrum Məclisinin «Biharul-ənvar»-da Əyyaşinin tərəfindən nəql etdiyi hədisdə belə gəlib:

Davud Rəqqi rəvayət edir ki, mənim yanım bir kişi İmam Sadiqdan (ə) Allahın bu kəlamı:

فَعَسَى اللَّهُ أَنْ يَأْتِيَ بِالْفَتْحِ أَوْ أَمْرٍ مِنْ عِنْدِهِ فَيُصْبِحُوا عَلَىٰ مَا أَسَرُّوا فِي أَنْفُسِهِمْ نَادِمِينَ

***«Amma, ola bilsin ki, Allah (möminlərə) bir zəfər gətirsin və Öz tərəfindən elə bir iş qursun ki, onlar (münafiqlər) ürəklərində gizlətdiklərindən peşman olsunlar»***[3] barədə sual etdi.

İmam Sadiq (ə) dedi:

«Allah-Təala Zeydin cəsədinin yandırılmasından yeddi gün sonra Bəni-Üməyyənin məhv olunmasına izin verdi».[4]

---

[1] «Biharul-ənvar» cild 11, səh. 37.
[2] «Rövzətul-kafi» cild 1, səh. 208.
[3] «Maidə» surəsi, ayə 52.
4 «Biharul-ənvar» cild 11, səh. 39.

# MÜNDƏRACAT


**I HİSSƏ** ........................................................................ 5
İmam Hüseynin (ə) vəsiyyəti ........................................ 5
İmam Səccadın (ə) dövranı ........................................... 5
İmam Səccadın (ə) yaşadığı dövr .................................. 9
İmam Səccadın (ə) yaşadığı dövrün hakimləri................ 10
Mədinə camaatının qiyamı............................................ 12
Yezidin göstərdiyi reaksiya ........................................... 13
**II HİSSƏ** ........................................................................ 17
İbn Zübeyrin qiyamı ..................................................... 17
Yezidin ölümü ............................................................... 19
İkinci Müaviyyənin hakimiyyətə gəlib və dərhal istefa verməsi .. 19
Mərvanın hakimiyyətə gəlməsi ..................................... 20
Bəsrə camaatının qiyamı .............................................. 21
Kufəlilərin vəziyyəti ...................................................... 22
Abdullah ibn Zübeyrin arzusu....................................... 22
Muxtar Abdullah ibn Zübeyrin yanında ........................ 27
Abdullah ibn Zübeyrin üsulu ........................................ 28
Əməvilərin ayri-seçkilik əsasında qurulan hökuməti .................. 29
**III HİSSƏ** ...................................................................... 32
Təvvabin qiyamı ........................................................... 32
Təvvabinin müharibə meydanına hərəkəti..................... 35
Təvvabinin məğlubiyyəti .............................................. 36
**IV HİSSƏ** ...................................................................... 38
Muxtarın qiyamı ............................................................ 38
İmam Səccad (ə)-ın İmam Hüseyn (Ə)-ın qatillərindən intiqam alınmasına icazə verməsi ............................................ 42
Muxtarın qiyamı ............................................................ 44
Muxtarın qiyamının başlanması .................................... 45
Muxtarın qələbəsi ......................................................... 46
Muxtarla üzbəüz üç cəbhə ............................................ 48
Mərvanın Şamdakı fəaliyyəti ........................................ 49
Mərvanın ölümü və Əbdül Məlikin hakimiyyət başına gəlməsi ... 49
Daxildəki müxalifətin fəaliyyəti .................................... 51
İmam Huseynin (ə) qatillərindən intiqam...................... 53
Minhalın xatirəsi ........................................................... 55

Muxtar Şam qoşunu ilə üz-üzə ........ 59
İbrahim Əştərin Übeydullaha qələbəsi ........ 60
Übeydullahın başı Muxtarın hüzurunda ........ 61
Übeydullahın başı İmam Səccadın (ə) hüzurunda ........ 62
Muxtarın Abdullah ibn Zübeyrlə çəkişməsi ........ 63
Məhəmməd Hənəfiyyənin Muxtara xəbərdarlığı ........ 63
Muxtarın tənhalığı ........ 64
Muxtarın ordusunun məğlubiyyəti ........ 65
Muxtar mühasirədə ........ 66
Muxtarın ölümü ........ 67
Muxtar kim idi? ........ 68
Muxtar İmam Baqirin (ə) nəzərində ........ 69
Muxtar İmam Sadiq (ə)-ın nəzərində ........ 69
Bir az fikirləşək ........ 71
**V HİSSƏ** ........ 76
Məhəmməd Hənəfiyyənin şəxsiyyəti ətrafinda təhlillər ........ 76
İmam Rzanın (ə) Məhəmməd Hənəfiyyə barəsində nəzəri ........ 76
İmam Səccad (ə) və Məhəmməd Hənəfiyyə Həcərül-əsvədin kənarında ........ 78
**VI HİSSƏ** ........ 81
Əbdul Məlik Mərvanın İraqda İbn Zübeyrin qoşunu ilə döyüşü ... 81
İmam Səccadın (ə) vasitəsi ilə Həcərül-əsvədin qoyulması ........ 83
Abdullah Ömərin Həccaca beyəti ........ 84
Abdullah Ömərin İmam Səccad (ə)-la rəftarı ........ 84
İmam Səccad (ə) Əbdül Məliklə üz-üzə ........ 87
Həccacın zühuru ........ 88
Səid ibn Cübeyrin şəhadəti ........ 94
Qənbərin şəhadəti ........ 96
Hürrənin Həccacla rəftarı ........ 96
İmam Baqir (ə)-ın Həccac haqqındakı nəzəri ........ 102
**VII HİSSƏ** ........ 104
Əbdürrəhman ibn Əşəsin qiyamı ........ 104
Vəlid ibn Əbdül Malik hökumət başında ........ 105
Fəthlər - iş proqramı ........ 106
Süleymanın hakimiyyət başına gəlməsi ........ 108
**VIII HİSSƏ** ........ 110
Zühəri zalımların qulluğunda ........ 110
İmam Səccadın (ə) Zuhəriyə məktubu ........ 111
Saray alimlərinin vəzifələri ........ 114

**IX HİSSƏ**............................................................................. 118
Bəni-Üməyyənin əyyaşlığı və zinət pərəstliyi .......................... 118
Yəzid ibn Əbdül Məlikin hökuməti.......................................... 119
Ömər ibn Əbdüləziz necə bir insan idi? .................................... 120
Vəlid ibn Yəzid və onun cinayətləri.......................................... 121
Bəni-Üməyyə sarayları gözəl kölələrin toplaşdığı yer olmuşdur 123
Saray fəqihlərinin mərkəzi......................................................... 124
**X HİSSƏ** ................................................................................. 126
İmam Səccadın (ə) inhiraflarla mübarizəsi................................ 126
İmam Səccadın (ə) dini dərs hövzəsi......................................... 130
Fərəzdəqin İmam Səccadı (ə) tanıtdırması ............................... 132
İmam Səccadın (ə) ibadəti ......................................................... 135
İmam Səccadın (ə) nəzərində sükutun əhəmiyyəti..................... 135
İmam Səccadın (ə) sifarişləri ..................................................... 136
İmam Səccadın (ə) əxlaqı .......................................................... 139
İmam Səccad (ə) şəhadəti .......................................................... 143
İmam Baqirin (ə) başına nələr gəldi .......................................... 144
**XI HİSSƏ**............................................................................... 144
İmam Baqir (ə) elmi bəyan edir ................................................ 144
İmam Baqirin (ə) məktəbi........................................................... 144
İmam Baqirin (ə) müasiri olan xəlifələr .................................... 147
Vəlid Mədinədə........................................................................... 147
Əməvi hakimlərini həccə olan mənfi münasibəti....................... 149
Sudu olmasa, qan sağın! ............................................................ 150
Ömər ibn Əbdüləzizin hökuməti zamanı.................................... 151
Yezid ibn Əbdül Malik............................................................... 152
**XII HİSSƏ** ............................................................................. 153
Hişamın hakimiyyət dövrü.......................................................... 153
Hişamın İmam Baqirə (ə) olan sualı.......................................... 154
İmam Baqir (ə) Şama çağırılır ................................................... 155
İmam Baqir və məsihi alim......................................................... 160
İmam Baqir (ə) Şamda................................................................ 164
İmam Baqir (ə) Cabir Cöfiyə xəbərdarlığı................................. 165
Əbdül Məliklə bir şəxsin mübahisəsi ........................................ 167
Əbdül Məlikin çıxışına etirazlar................................................. 168
Səd ibn Əbdül Məlikin İmam Baqir (ə) ilə görüşü.................... 169
İmam Baqirin (ə) Məhəməd ibn Əbdullahın gələcəyi haqqında dedikləri ................................................................................. 170
**XIII HİSSƏ**............................................................................ 172

Əbdullah ibn Həsənin iddiası ........ 172
Əbu Bəsirin xahişi ........ 173
Əbu Bəsr nə görür ........ 174
Ömərin oğlu və İmam Baqir (ə) ........ 175
Sirli kəlamlar Cabir Cöfiyə ağırlıq edir ........ 175
Bəsrə alimi Qütadənin İmam Baqir (ə) ilə görüşü ........ 176
Bəsrə fəqihi İmam Baqirin (ə) kənarında ........ 178
Tavus Yəmaninin İmam Baqirə (ə) olan sualları ........ 180
Əbu Hənəfinin İmam Baqirə (ə) qarşı münasibəti ........ 185
İmam Baqirin (ə) əshabı ........ 185
İmam Baqirin (ə) şəhadəti ........ 186
**XIV HİSSƏ** ........ 187
Kaşan camaatının İmam Baqirdən (ə) xahişi ........ 187
Sultan Əlinin Kaşana daxil olması ........ 188
Düşmən döyüş tədarükündə ........ 189
Sultan Əlinin şəhadəti ........ 189
**XV HİSSƏ** ........ 190
Zeydin qiyamı barəsində qısa təhlil ........ 190
Mühitə hakim olan vəziyyət ........ 192
Zeydin anadan olması barədə ........ 195
Zeydin yaşadığı yer ........ 196
Zeydin öz əmisi oğlu ilə müxalifəti ........ 197
Zeyd Şamda ........ 198
Hişamın etdiyi hörmətsizlik ........ 199
Zeydin səfərləri ........ 200
Hişamin Zeydə qarşı planı ........ 200
Zeydin keçirdiyi iztirablar ........ 201
Zeyd Küfəyə daxil olur ........ 202
Zeydin Kufədən çıxışı ........ 202
Kufəlilərin Zeydə beyəti ........ 203
Davud ibn Əlinin Zeydə nəsihəti ........ 203
Sələmənin Zeydə nəsihəti ........ 204
Əbu Hənifə Zeydin dayağı ........ 206
Zeydin Kufədə evlənməsi ........ 207
Zeydin xarici görkəmi ........ 209
Zeyd və Quran ........ 209
Əhvəlin Zeydlə danışıqları ........ 210
Zeydin hədəfi ........ 212
Cabirin Zeydlə söhbəti ........ 213

Zeydin İmam Baqir (ə) ilə görüşü ............................................ 214
Zeydin öz dostları ilə rəftarı..................................................... 215
Zeydin fikirləri ........................................................................ 216
**XVI HİSSƏ** .......................................................................... 219
Zeydin qiyamı ......................................................................... 219
Zeyd tək-tənhalıqda ................................................................. 221
Zeydin oxlanması .................................................................... 222
Zeydin şəhadəti ....................................................................... 223
Zeydin cənazəsinin tapılması .................................................. 224
Yəhya ibn Zeydin qiyamı ........................................................ 225
**XVII HİSSƏ** ........................................................................ 229
Qiyam haqda gələn hədislər..................................................... 229
İmam Rzanin (ə) Zeyd haqqında dedikləri ............................... 232
İmam Sadiqin (ə) Zeyd barəsində nəzəri .................................. 234
Zeydin əqidəsi ......................................................................... 235
Məclisinin Zeyd haqqındakı qeydləri ....................................... 237
Şeyx Mufid və Zeyd ................................................................ 237
Şəhadətlərin o dövrə olan siyasi təsiri ...................................... 238

Kərbala hadisəsi və İmam Hüseyn (ə) şəhadət tarixin misilsiz qanlı faciələrindəndir. Müsəlmanların bu hadisəyə qarşı göstərdikləri reaksiya Hicazda və başqa məntəqələrdə tez bir zamanda öz əksini tapdı.

66-75-ci hicri illəri Hicaz, İraq və Şam şəhərləri son dərəcə ürəkağrıdıcı, gərgin, həm də irticanın hücuma keçdiyi dövrana təsadüf edir. Bütün bu on il müddətində bu əyalətlər sabitlik üzü görməmişdir. Qeyd etmək lazımdır ki, Peyğəmbərin (s) övladının qarğışı bu vilayətlərin əhalisinin yaxasını amansızcasına tutdum. İmam Hüseyn (ə) onların barəsində belə qarğış etmişdi:

«Pərvərdigara! Göyün yağışının və yer üzünün bərəkətini onlardan götür! Onların birliyini dağıt və heç zaman hökumətləri onlardan razı etmə!»